MÜNDƏRİCAT

3 | ƏLİ HƏSƏNOV: HEYDƏR ƏLİYEV VƏ MİLLİ DÖVLƏTÇİLİK TƏLİMİ – AZƏRBAYCANÇILIQ

8 | İBRAHİM ƏLİYEV: YENİDƏNQURMA DÖVRÜNDƏ SSRİ-DƏ ALKOQOLİZMƏ QARŞI MÜBARİZƏ VƏ ONUN NƏTİCƏLƏRİ HAQQINDA

12 | SƏBİNƏ QARAŞOVA: SSRİ-NİN SÜQUTUNU ŞƏRTLƏNDİRƏN AMİLLƏR VƏ ABŞ

17 | VÜQAR RƏHİMZADƏ: AZƏRBAYCAN MƏTBUATINDA VARİSLİK PRİNSİPİ CÜMHURİYYƏT DÖVRÜNÜN MEDİASININ MİLLİ TƏFƏKKÜRÜN İNKİŞAFINDAKI ROLU KONTEKSTİNDƏ

20 | XALİD NİYAZOV: AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İNFORMASİYA SİYASƏTİNİN TARİXİ (1991-2016)

25 | LEYLİ HƏMİDOVA: QARAQOYUNLU DÖVLƏTİNİN TƏŞƏKKÜLÜ

29 | BƏXTİM QARAYEV: DEMOKRATİYA VƏ İNSAN İNKİŞAFININ QARŞILIQLI ƏLAQƏSİ

32 | ŞƏMS ƏSGƏRLİ: İRAN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI DİPLOMATİYASININ MÜQAYİSƏLİ TƏHLİLİ

36 | ƏZİZOVA M. RUSİYA HAKİMİYYƏTİ DÖVRÜNDƏ DƏRBƏNDİN SOSİAL İNKİŞAFI

41 | KAMAL İBRAHİMOV: QLOBAL ŞƏRAİTDƏ SIĞORTA ŞİRKƏTLƏRİNDƏ MALİYYƏ SABİTLİYİNİN İDARƏ OLUNMASI PROBLEMLƏRİ

ictimai - siyasi, elmi - populyar jurnal

46 | ZƏRÖVŞƏN HÜSEYNLİ:
HUNLAR VƏ AZƏRBAYCAN

50 | SEVDA ABDULLAYEVA: XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI QUBERNİYASI XƏZİNƏ KƏNDLİLƏRİNİN PAY TORPAQLARININ ZƏBT EDİLMƏSİ HAQQINDA

54 | VÜQAR ABBASOV, ELDAR MEHDİYEV, AZƏR CƏLİLOV: GƏNCƏ QUBENİYASINA RUSLARIN VƏ ALMANLARIN KÖÇÜRÜLMƏSİNİN BÖLGƏNİN ETNİK TƏRKİBİNƏ TƏSİRİ

58 | NİYAMƏDDİN HACIYEV: AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN BÖYÜK DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİNİN YARANMASINDA NEFT AMİLİ

61 | KÖNÜL MƏMMƏDOVA: AZƏRBAYCAN QLOBAL ENERJİ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNDƏ

69 | LAMİYƏ QASIMOVA: BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ƏSAS PRİNSİPLƏRİNİN FORMALAŞMASI VƏ TƏKAMÜLÜ

73 | DİLBƏR NƏCƏFOVA: DÖVLƏT QULLUĞU ANLAYIŞI VƏ ONUN PRİNSİPLƏRİ

66 | BƏHRUZ NƏZƏROV: AZƏRBAYCANIN GÜCLÜ SOSİAL İQTİSADİ İNKİŞAFI BEYNƏLXALQ SİYASİ PROSESLƏRDƏ İDARƏOLUNAN XAOS KONTEKSTİNDƏ

"GEOSTRATEGİYA" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların

Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər

üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

GEO STRATEGİYA

Təsisçi:
"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Sələhəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
geostrategiya.az@mail.ru
strategiya.az@mail.ru

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 1807

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.

Geosiyasət

ƏLİ HƏSƏNOV
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor

HEYDƏR ƏLİYEV VƏ MİLLİ DÖVLƏTÇİLİK TƏLİMİ – AZƏRBAYCANÇILIQ



Dünyada təxminən irili-xırdalı 5000-dən artıq xalq mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı bu gün 200-dən bir qədər çoxdur. Azərbaycanın da bu sırada öz yerini tutması xalqımızın böyük tarixi nailiyyəti kimi qiymətləndirilməlidir.

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək XX əsrin sonunda öz istiqlal arzusunu gerçəkləşdirmişdir. Azərbaycanın müstəqil dövlətçilik tarixinin təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyaya iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs rəhbərlik edə bilərdi. XX əsrin 90-cı illərinin sonunda Azərbaycanda belə rola iddia edə bilən və bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə lider Heydər Əliyev idi.

Müstəqillik tarixinin araşdırılması ümummilli lider Heydər Əliyevin belə bir əsaslı fikrini təsdiq edir ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanılması, yaşadılması, daimi və əbədi edilməsi bundan da çətindir. O, 1993-cü ildəki müraciətlərindən birində qeyd edirdi ki, "Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Müstəqilliyi qazanmaq, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi qorumaq, əldə saxlamaq, möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq, vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat şəraiti təmin etmək daha çətindir"(1).

Heydər Əliyevin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun bu sahə üzrə toplanmış zəngin irsinin tədqiqi təkcə bugünkü ictimai-siyasi dairələr üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik edəcək bütün liderlər üçün örnək rolunu oynamağa layiqdir. Müasir Azərbaycanın möhkəm özülünü qoymuş bu tarixi şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna həmişə işıq salacaq.

Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət

Azərbaycan şəraitində sosialist ictimai-iqtisadi sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri əsaslarını yaratmışdır. İmperiya və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, qloballaşan dünyada öz yerini axtaran, maraqlarını qorumağa çalışan gənc Azərbaycan üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlarının çox böyük rolu olmuşdur.

Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə gələndə bitkin dövlət konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmışdır. Bu müraciətdə tezislər şəklində həmin dövrün ictimai-siyasi vəziyyəti, müstəqil dövlət quruculuğunun şərtləri, regionumuzda və beynəlxalq aləmdə baş verən hadisələr və cərəyan edən proseslərin xarakteri, Azərbaycanın daxili vəziyyəti, başlanmış iqtisadi, siyasi və milli böhran və ondan çıxış yolları və s. taleyüklü məsələlər özünün əsl elmi-nəzəri cavabını tapmışdır.

Heydər Əliyevin dövlət təlimində güclü dövlət anlayışı və özünün bütün atributları ilə birgə onun iqtisadi, siyasi, sosial və mənəvi əsasları öz əksini tapmışdır. Heydər Əliyevin düşündüyü güclü dövlət təkmil mərkəzi və yerli idarəetmə mexanizmi, ictimai-siyasi həyatı sabit, işlək qanunları, ədalətli cəmiyyəti olan, insanları dəyərləndirilən və qabiliyyətinə görə proseslərə cəlb edilən, milli birliyə malik bir sistem tələb edirdi.

Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı dövlət həyatının ən vacib vəzifəsi hesab edirdi. O, öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi, beynəlxalq təhlükəsizliyi və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı normal vəziyyətdə olsun və qarşıya qoyulmuş məqsədlərə cavab versin.

Heydər Əliyevin Azərbaycanın gələcək müstəqil milli inkişafı ilə bağlı siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ dağılmamışdan qabaq - 1991-ci ilin əvvəllərində Azərbaycan parlamentinin tribunasından səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır. Azərbaycanın yeni şəraitdəki inkişafı ilə bağlı onun həmin dövrdə parlament müzakirələrində səsləndirdiyi fikirlər, təklif və mülahizələr, mütəxəssislərin fikrincə, müstəqilliyə doğru uzanan yolda rastlaşılan yeganə rasional, praqmatik və uzaqgörən fəaliyyət nümunəsi idi (4). Heydər Əliyev hər bir Azərbaycan vətəndaşını milli əxlaqa və güclü iradəyə malik, qlobal və azad düşüncəli, təşəbbüskar, fəal, ölkədaxili və beynəlxalq proseslərdən baş çıxara bilən, təhsilli, ədalətli, vətəni və xalqı üçün gərəkli insan kimi görmək istəyirdi. Heydər Əliyev nəinki müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim -azərbaycançılıq ideologiyasını da yaratdı.

1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı səfərbər edən, onun kimliyini, yaratdığı dövlətin xarakterini, milli-mənəvi dəyərlərini qoruyub saxlayacaq və yönəldəcək milli sistem və ideya da ortaya qoyulmamışdı. Keçmişin bütün varlıqlarından, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total imtina meyili Azərbaycanda, sözün həqiqi mənasında, ciddi ideoloji boşluq yaratmışdı. Əlbəttə, cəmiyyətin ideyasızlaşdırılması meyili bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edənlərin aydın məqsəd və məramının yoxluğundan, idarə etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamasından irəli gəlirdi.

Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasəti səviyyəsinə qaldırıldı. Bir faktı xüsusi vurğulamalıyıq ki, başqa sahələrdə olduğu kimi milli ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini saxladı və vaxtilə onların birləşdirici ideya kimi irəli sürdüyü azərbaycançılıq ideologiyasına müraciət etdi. Heydər Əliyev qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

Məlum olduğu kimi, azərbaycançılıq ideyasının tarixi son iki əsri əhatə edir. XIX əsrin milli maarifçi hərəkat nümayəndələrinə qədər azərbaycançılıq əsasən vətənçilik, vətənsevərlik mənasında işlədilirdi və onun milli səfərbəredici təsiri çox aşağı idi. Lakin XIX əsrin maarifçilik hərəkatı nümayəndələri, xüsusən M.F.Axundov, A.Bakıxanov, H.B.Zərdabi, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, N.Nərimanov və başqaları azərbaycançılığı xalqımıza qarşı həyata keçirilən işğalçılığa, milli məhrumiyyətlərə müqavimət reaksiyası, tarixi yaddaşın qorunması, ana dilinin, milli adət-ənənələrin, mənəviyyatın yaşadılması, inkişafı, milli şüurun oyanışı və s. vasitəsi kimi təbliğ edirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ilk dəfə azərbaycançılıq ideyasını bir az başqa məzmunda dövlət siyasəti səviyyəsinə qaldırmağa cəhd göstərmiş və Cümhuriyyətin fəaliyyətini bu ideya istiqamətində qurmağa çalışmışlar. Lakin Xalq Cümhuriyyətinin süqutu ilə azərbaycançılıq ideyası da sıxışdırılaraq kommunist ideologiyasının kölgəsinə salınmışdır.

Sovet dövründə azərbaycançılıq ideyası yalnız bədii əsərlərdə, adət-ənənələrdə yaşamış və təbii ki, dövlət ideologiyasına çevrilə bilməmişdir.

Lakin bir faktı xüsusi vurğulamalıyıq ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə - 70-80-ci illərdə azərbaycançılığın inkişafı üçün əlverişli ictimai-siyasi, elmi-mənəvi şərait yaradılmışdır. Bu şəraitdən o dövrdə tarixçilər, ədəbiyyatçılar, dilçilər, filosoflar və başqa intellekt sahibləri geniş bəhrələnərək çoxsaylı əsərlər yaratmışlar. Bu illərdə yazılmış əsərlərdə azərbaycançılığın mühüm sahələri olan milli dilin, milli şüurun, adət-ənənələrin inkişafı və dünyada təbliğ edilməsi, gənc nəslin milli ruhda tərbiyə edilməsi sahəsində böyük irəliləyiş müşahidə olunmuşdur.

Azərbaycançılıq ideyasının formalaşmasında 90-cı illərdə, dövlət müstəqilliyinin bərpası ərəfəsində başlanmış əvvəlcə xalq, sonra isə milli azadlıq hərəkatının əhəmiyyətli rolu olmuşdur. Bu dövrdə azərbaycançılıqla bağlı müxtəlif əsərlərin yenidən çap olunması və yayılması, yeni məqalə və s. əsərlərin yazılması, milli şüurun, ruhun yüksəlişinə xidmət edən xalq hərəkatının vüsət alması insanların kütləvi düşüncə tərzinə öz müsbət təsirini göstərdi. Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, o illərdə Azərbaycanı yönəldən qüvvələr, xüsusən AXC-Müsavat dairələri respublikanın milli-etnik xüsusiyyətlərini nəzərə almadan, meydan əhval- ruhiyyəsi altında azərbaycançılığın təbliğində kobud səhvlərə yol verdilər. Onlar azərbaycançılığı ümumtürklük ideyası ilə eyniləşdirərək ölkədaxili etnik və milli etimadsızlıq toxumu səpdilər ki, bu da azərbaycançılıq ideyasının mahiyyətinə uyğun deyildi.

1993-cü ildən Heydər Əliyevin siyasi rəhbərliyə gəlişi ilə bütün Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik

mənsubiyyətindən asılı olmayaraq, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil dövlətin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi və mənəvi dairələrin gündəliyinə çıxarıldı.

Heydər Əliyevin milli inkişaf siyasəti həm də uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində mühüm, səfərbəredici funksiya yerinə yetirmiş, dövlət strukturlarının rəsmi və praktiki fəaliyyətinin, həyata keçirilən iqtisadi-siyasi, hüquqi və sosial-mənəvi proqramların əsasında dayanmışdır. Çünki, Azərbaycana rəhbərlik etdiyi dövrdə, o, təkcə müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun müstəqilliyinin dönməzliyinin təmin olunması və dövlətçilik atributlarının formalaşdırılması ilə deyil, mütəxəssislərin fikrinə görə, həm də, Azərbaycan xalqının dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tarixi dəyərlərlə birləşdirilərək milli şüurun bərpa olunması sahəsində əvəzsiz rol oynamışdır (6).

Heydər Əliyev yeni şəraitdə etnik mənsubiyyəti xüsusi qabartmadan birləşdirici azərbaycançılıq ideyasının – ümumvətəndaşlıq, Azərbaycana mənsubluq, Vətənə bağlılıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, dövlətin sevinci və kədəri, dəyərləri və problemləri qarşısında ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi yeni konfiqurasiyanın - Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını ortaya qoydu. Həm də xüsusi qeyd olunmalıdır ki, Heydər Əliyev daxili siyasətində vətəndaşların vahid amal və məqsəd ətrafında birləşdirilməsi istiqamətində addımlarını etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə ustalıqla və mükəmməl formada keçirərək, respublikanın əsas vətəndaşları olan türk kökənli çoxluqla digər milli azlıqların, etnik qrupların birliyinə nail ola bildi. Heydər Əliyev milli ideologiyamızın əsasını müəyyənləşdirməklə bərabər, bilavasitə onun həyata keçirilməsini də təmin edirdi ki, bu da onun dövlət başçısı olmasından əlavə, həm də milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşmasına dəlalət edirdi (7).

Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni bir məzmun verərək onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Odur ki, Heydər Əliyevi müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisi hesab etmək olar. Azərbaycançılıq ideologiyası məhz Heydər Əliyevin dövründə mükəmməl bir ideoloji təlim kimi ölkənin dövlət siyasətinə çevrildi.

Heydər Əliyev Azərbaycanda əksər vətəndaşları vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiya məsələsini ümumdövlət səviyyəsinə qaldırıldı. Bir faktı xüsusi vurğulamaq lazımdır ki, başqa sahələrdə olduğu kimi, milli-ideoloji baxışlar sisteminin formalaşması prosesində də Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipi saxlanıldı və vaxtilə məhz onun birləşdirici ideya kimi irəli sürdüyü "azərbaycançılıq" ideologiyasına müraciət edildi. Milli ideologiya Azərbaycanın tarixi keçmişi, onun millət və xalqlarının adət-ənənələri, dövlətçiliyinin dünəni, bu günü və gələcəyi ilə sıx şəkildə əlaqələndirildi. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil ölkənin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi, elm, yaradıcı və digər ziyalı dairələrinin gündəminə çıxarıldı. Azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verildi və bu ideya ölkənin milli-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəraitinə uyğunlaşdırıldı. Bütün bunları nəzərə alaraq, Heydər Əliyevi həm də müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan yeni milli təlimin banisi hesab etmək olar (5). Heydər Əliyev azərbaycançılıq ideyasını bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin vahid milli birlik platformasına çevirdi. Əgər Heydər Əliyevə qədər bu ideya əsasən etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi və birləşdirici ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi (8).

Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın - bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına çevirdi. Əgər Heydər Əliyevə qədər bu ideya əsasən etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.

Azərbaycan dilinin rəsmi dövlət statusu alması və latın qrafikasının tətbiqi, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişafı, azərbaycançılıq ideyalarının, milli dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, hər il 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik günü kimi qeyd edilməsi və bu münasibətlə bütün xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil edilən toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin onlarla keçirdiyi görüşlər və s. 1993-cü ildən başlayaraq azərbaycançılıq ideologiyasının dövlət səviyyəsində həyata keçirilməsinin bariz nümunələri idi.

2001-ci ildə Bakıda tarixdə ilk dəfə Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi və minlərlə soydaşımızın iştirakı ilə azərbaycançılığın əsaslarının müzakirə edilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi və gələcək vəzifələrin müəyyən olunması milli ideologiyamızın inkişafında yeni bir mərhələ kimi dəyərləndirilə bilər.

Azərbaycançılıq ideyasını Heydər Əliyev həm də ölkədaxili ictimai-siyasi qüvvələrin, sosial, milli və dini qrupların birləşdirici amili kimi dəyərləndirirdi. O qeyd edirdi ki, hakimiyyətə, iqtidarlara və onların fəaliyyətinə müxalifətdə durmaq olar. Lakin dövlətə, dövlətçiliyə, milli birliyə, Vətənin, xalqın ümumi marağını ehtiva edən azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə, milli məsləkə, milli dilə, milli varlığa heç zaman müxalifətdə durmaq olmaz. "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"(2). Bu ifadələr ümummilli liderimizin milli-mənəvi dünyasını, vətəndaşlıq mövqeyini göstərən, öz milli köklərinə bağlılığını sübut edən və həm də böyük milli səfərbəredici gücü olan tarixi bir bəyanat idi. Müasir Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini üzərinə götürmüş Heydər Əliyevin yaratdığı müstəqil dövlət və onun milli inkişaf strategiyası ölkəmizin bugünkü varlığının və gələcək geosiyasi inkişafının əsasını təşkil edir.

Heydər Əliyevin bəhs etdiyi azərbaycançılıq ideologiyası və onun məzmununa daxil edilmiş əsas prinsiplər həm də 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Bu ideologiya artıq hansısa siyasi liderin, partiyanın, yaxud siyasi təşkilatın deyil, bütün xalqın ümumi marağının ifadəsinə çevrilmişdir. Belə olan halda bu ide-

ologiyaya müxalifətdə durmaq ümumxalq maraqlarına, ümumxalq fikrinə və mövqeyinə müxalifətdə durmaq kimi dəyərləndirilməlidir. Azərbaycançılıq ideologiyası bu anlamda xalqın istək və arzusu ilə, onun iradəsinin nəticəsi kimi qurulmuş dövlətin, bu dövlətin müəyyən olunmuş daxili və xarici siyasət strategiyasının, daimi yaşam və fəaliyyətinin əsasını, başlıca prinsiplərini təşkil edir. Deməli, onun həyata keçirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən, bu dövlətin idarəçiliyinə iddia edən hər bir vətəndaş və təşkilat üçün əsas olmalıdır. Əgər hər hansı şəxs və yaxud təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, konstitusiya ilə müəyyənləşdirilmiş ölkədaxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, deməli, dövlətin bu sistemin qarantı olmasını da mütləq qəbul etməlidir.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyən edərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətinin, qloballaşan və transmilliləşən dünyanın inkişaf tendensiyalarını nəzərə alırdı. Əlbəttə, qloballaşan dünyada ölkələrin milli sədlərini, milli-mənəvi dəyərlərini, vətəndaşların milli maraqlarını qorumaq o qədər də asan olmur. Transmilli şirkətlər və onların arxasında duran fövqəldövlətlər ölkələrin milli inkişafı, milli maraqları, milli-mənəvi dəyərlərin qorunması və s. proseslərini çox qısqanclıqla qarşılayırlar. Heydər Əliyev bütün bu reallığı nəzərə alaraq, bir tərəfdən azərbaycançılıq ideologiyasını ümumbəşəri dəyərlər fonunda formalaşdırır, digər tərəfdən dövlət quruculuğu proseslərində xarici təsirləri milli ideologiya süzgəcindən keçirirdi.

Heydər Əliyevin azərbaycançılıq ideologiyası milli-mənəvi dəyərləri, tarixi keçmişimizdən bizə irs qalmış milli varlığımızı və onu fərqləndirən bütün atributları qorumaqla, Azərbaycanı eyni zamanda müasir, inkişaf etmiş, xalqın maddi- mənəvi tələbatını təmin edə bilən, daxili həyatı sabit, milli-sosial birliyə qovuşmuş bir dövlət kimi görürdü. Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsasına, ilk növbədə, dünyada yaşayan 40 milyondan çox azərbaycanlının maraqlarını təmin edə biləcək, bütün ölkə vətəndaşlarının sabit, firavan və dinamik inkişafına cavab verən milli dövləti - müstəqil Azərbaycan dövlətini qoyurdu.

Heydər Əliyev çıxışlarında bu məsələyə belə şərh verirdi: Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur. Milli ideologiyadan danışarkən biz ilk növbədə bütün xalqımızı, xüsusən gəncləri Azərbaycanın müstəqil dövlətçiliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etməliyik.

Heydər Əliyev Azərbaycan dövlətini azad, ədalətli, demokratik, siyasi plüralizmin hökm sürdüyü, vətəndaş cəmiyyətinə malik bir ölkə kimi görmək istəyirdi və daim buna çalışırdı. 1995-ci ildə çoxpartiyalı sistem əsasında ilk parlament seçkilərinin keçirilməsi, ölkənin ilk Konstitusiyasının qəbul edilməsi, Avropanın demokratik institutları ilə Azərbaycanın əlaqələrinin gücləndirilməsi bu böyük liderin öz ölkəsinin gələcəyi ilə bağlı mövqeyinin göstəricisi idi. Azərbaycanda əsl çoxpartiyalı sistem, azad, plüralist cəmiyyət, qeyri-hökumət strukturlarının, müstəqil mətbuatın yaradılması və inkişafı da Heydər Əliyevin bilavasitə səyi ilə həyata keçirilmişdir (3).

Heydər Əliyevin dövlət təlimi və milli ideyasında ikinci əsas yeri insan faktoru - millətini və xalqını sevən, dövlətinin yolunda hər bir şücaətə hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, ana dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı tuturdu. Ulu öndər öyrədirdi ki, hər hansı dövlətin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin onun özünə, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə öz zəhmətinin nəticəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə bir qayda olaraq güclü, qüdrətli və əzəmətli olurlar.

Heydər Əliyevin dövlət təliminə görə dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşları qanun və ədalət qarşısında bərabərdir. Təsadüfi deyil ki, 1993-cü ildə Heydər Əliyevin idarəçilik fəaliyyətinin mühüm bir sahəsini Azərbaycanda harmonik cəmiyyətin yaradılması, insan potensialının quruculuq işlərinə cəlb olunması, sosial ədalət prinsiplərinin bərqərar olması və insanların öz dövlətinə inamının artırılmasına xidmət təşkil etmişdir. Heydər Əliyevin milli həmrəylik və vətəndaş birliyi ideyası, insan resurslarından düzgün istifadə edilməsi, hər bir vətəndaşın özünü dövlətinə bağlı hesab etməsi, dövlətin hər bir insana, hər bir insanın isə öz dövlətçiliyinə xidmət etməsi amalı 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyada da əksini tapmışdır.

Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Bununla bağlı ulu öndər qeyd edirdi ki, bizim milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsinə xidmət etməlidir. "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Bu ifadələr ümummilli liderimizin milli-mənəvi dünyasını, vətəndaş mövqeyini və varlığını göstərən, öz milli köklərinə bağlılığını sübut edən tarixi bir bəyanat idi.

Heydər Əliyev azərbaycançılıq ideologiyasından danışarkən layiqli vətəndaş məsələsini də xüsusi fərqləndirirdi. O, qeyd edirdi ki, biz elə bir nəsil yetişdirməliyik ki, o öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada tanıtmağı, ölkəsini layiqincə təmsil etməyi bacarsın. Bundan başqa, Heydər Əliyev gənc nəslin öz milli adət-ənənələrinə sadiqliyini, əxlaqlı olmasını, dilini, mədəniyyətini dərindən bilməsini və sevməsini həmişə tövsiyə edir, eyni zamanda onları təhsilli, müasir, Avropa dəyərlərini və dillərini bilən insanlar kimi görmək istəyirdi. Heydər Əliyev Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən, vətənpərvər, dövlətçilik təfəkkürü güclü olan savadlı, bacarıqlı, intellektli insanlar kimi görürdü.

Ölkəmizin mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin dövlətçilik təlimi və onun ayrılmaz tərkib hissəsi olan azərbaycançılıq ideologiyası müstəqil Azərbaycanın bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir. Ulu öndərin siyasi xəttini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev onun müstəqil dövlət quruculuğu yolundakı nəzəri və praktiki irsinə qiymət verərək demişdir: "1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə həm dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları qoyuldu və bu gün də ölkəmizin əsas ideoloji şüarı Azərbaycançılıq məfkurəsidir. Məhz Heydər Əliyev tərəfindən qoyulan bu əsaslar bu gün Azərbaycan xalqına yol göstərir"(9).

Dövlət başçısı Azərbaycan xalqının zamanın sınaqlarına sinə gərərək, müasir dünya xalqları sırasında layiqli yer tutmasını öz dili və mədəniyyətini qoruması, milli-mənəvi dəyərlərinə arxalanması ilə sıx bağlı olduğunu qeyd edir. Buna görə də bu gün elm və mədəniyyətə, vətənpərvərlik tərbiyəsinə, xalqımızın tarixi irsinə yetirilən diqqət dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub Heydər Əliyevin dövlətçilik təliminin yaradıcı şəkildə inkişafının təzahürü kimi özünü göstərir. Prezident İlham Əliyevin rasional, uzaqgörən və praqmatik siyasəti, cəsarətli addımları, güclü liderlik keyfiyyətləri və

yorulmaz gündəlik əməyi sayəsində Azərbaycan dövləti ulu öndərin müəyyənləşdirdiyi strateji vəzifələrin öhdəsindən uğurla gəlir və gələcəyə doğru inamla irəliləyir.

Azərbaycan Prezidentin rəhbərliyi ilə son 15 ildə Azərbaycan Respublikası öz tarixi inkişafının ən yüksək dövrünü yaşayır. Keçən dövr ərzində ölkədə ictimai-siyasi sabitlik qorunub saxlanılmış, demokratik institutlar möhkəmləndirilmiş, iqtisadiyyat 3,2 dəfə, əhalinin maaş, pensiya və müavinətləri 5-8 dəfə artmışdır. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, inkişaf etməkdə olan ölkələr arasında isə 3-cü yerdədir. Prezident İlham Əliyev müasir mürəkkəb geosiyasi vəziyyətdə düşünülmüş və tədbirli siyasət yürüdür, dövləti beynəlxalq səviyyədə ləyaqətlə təmsil edir (9).

Azərbaycan Prezidenti İlham Əliyev qazanılmış nailiyyətlərin səbəblərinə qiymət verərkən həmişə iki amili xüsusi qeyd edir: xalqın etimadı və Heydər Əliyev ideyalarına, onun siyasi kursuna sədaqət. Aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərində cənab İlham Əliyevin parlaq qələbəsi Azərbaycan xalqının yüksək etimadının və öz liderinə olan inamının əyani təzahürü idi. Bu qələbənin zəruri şərti isə ulu öndərin ideyalarına sədaqət, onun müəyyən etdiyi yolun bacarıqla davam etdirilməsidir.

Heydər Əliyev artıq 15 ilə yaxındır ki, aramızda yoxdur. Lakin Azərbaycanın tərəqqisinə və modernləşdirilməsinə yönəlmiş səmərəli dövlətçilik siyasəti başda Prezident İlham Əliyev olmaqla onun ardıcılları tərəfindən uğurla həyata keçirilir. Müasirləşən Azərbaycan Respublikasının özü 95 illiyini böyük ehtiramla qeyd etdiyimiz ulu öndərin işıqlı xatirəsinə həsr olunmuş ən böyük əsərdir. Bu əsər yazılmağa davam etdikcə Heydər Əliyev də Azərbaycan xalqının qəlbində yaşayacaq, onun nurlu ideyaları daim yolumuza işıq salacaqdır.

ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

2. Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi - 2001-ci il 9-10 noyabr // Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, 2002, s.25.

3. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, s.53-54.

4. Mehdiyev R.Ə. Yeni siyasət: İnkişafa doğru. I kitab, Bakı, 2008, s.28-29.

5. Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi //"Azərbaycan" qəzeti, 26 may 2011-ci il.

6. Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008, s.571.

7. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, s.87.

8. Bax: Vəliyeva S.M. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı, 2002.

9. http://www.president.az

Açar sözlər: *Ümummilli lider, dövlət müstəqilliyi, milli dövlətçilik, milli ideologiya, azərbaycançılıq.*

Ключ: *общенациональный лидер, государственная независимость, национальная государственность, национальная идеология, азербайджанство*

Key words: *Nationwide leader, state independence, national statehood, national ideology, azerbaijanism.*

Али ГАСАНОВ
Помощник Президента Азербайджанской Республики по общественно-политическим вопросам, доктор исторических наук, профессор

Гейдар Алиев и учение о национальной государственности — Азербайджанство

РЕЗЮМЕ

В статье широко анализируются идеологические основы политики национального развития общенационального лидера Гейдара Алиева, построенной на независимой государственности. Наряду с этим, в статье исследуется учение о национальной государственности, составляющее важную часть практической и теоретической деятельности Гейдара Алиева, его национально-духовное и идейно-политическое мировоззрение. Одновременно изучаются понятие сильного государства, нашедшее отражение в учении Гейдара Алиева о государстве, его экономические, политические, социальные и духовные основы.

Гейдар Алиев показан в статье как основоположник идеологии азербайджанства – нового национального учения, учитывающего веление времени, основы государственности, национально-этнические условия. В частности, в статье особо отмечается, что идеология азербайджанства, как совершенное идеологическое учение, именно при Гейдаре Алиеве превратилось в государственную политику страны.

Наряду с этим, в статье говорится о том, что идея азербайджанства расценивалась Гейдаром Алиевым еще и как фактор консолидации общественно-политических сил, социальных, национальных и религиозных групп в стране. В статье подчеркивается, что для Гейдара Алиева одной из основ, составляющих суть идеологии азербайджанства, являлись вопросы сохранения и развития национально-духовных ценностей, родного языка и культуры. В статье указывается, что, определяя идеологию азербайджанства, Гейдар Алиев также учитывал происходившие на международной арене события, современную мировую политику, тенденции развития глобализующегося и транснационализирующегося мира.

Ali HASANOV
Assistant to the President of the Republic of Azerbaijan for Public and Political Issues, Doctor of Science in History, Professor

Heydar Aliyev and national statehood teaching – Azerbaijanism

SUMMARY

The article analysis nationwide Haydar Aliyev's ideological basis of national development policy on Azerbaijan's independent statehood. At the same time, national state teaching, national-moral and ideological-political outlook which is an important part of the practical and theoretical activities of Haydar Aliyev are studied in the article. In addition, Haydar Aliyev's strong state concept and its economic, political, social and moral foundations are studied.

In the article Heydar Aliyev is shown as the founder of the ideology of Azerbaijanism - considering modern times requirements, the essence of statehood, national-ethnic conditions to the new national teaching. The ideology of Azerbaijanism has turned on a state policy of the country as a perfect ideological teaching, especially in Heydar Aliyev's era. At the same time, the idea of Azerbaijanism is regarded by Heydar Aliyev as a unifying factor of the domestic socio-political forces, social, national and religious groups.

According to Haydar Aliyev one of the basic principles of the essence of Azerbaijanism ideology is the preservation and development of national and spiritual values; mother tongue and culture. Haydar Aliyev while determining the ideology of Azerbaijanism took into consideration the events happening in the international arena, contemporary world politics, the development trends of globalized and transcendent world.

Tarix

İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

YENİDƏNQURMA DÖVRÜNDƏ SSRİ-də ALKOQOLİZMƏ QARŞI MÜBARİZƏ VƏ ONUN NƏTİCƏLƏRİ HAQQINDA

1980-cı illərdə SSRİ-nin süqutu ərəfəsində bu dövlətdə ictimai həyatın bütün sahələrində baş verən hadisələr və gedən proseslər tədqiqatçılar tərəfindən araşdırılır, onların hər birinin bu qlobal hadisədə və onun nəticələrində rolu dəyərləndirilir. Xüsusən "yenidənqurma" adlanan mərhələdə partiya və dövlət adından müəyyənləşdirilən və atılan addımlar müasir dövrdə birmənalı qəbul olunmur. O vaxtdan xeyli müddət keçməsinə baxmayaraq, onlar haqqında fərqli fikirlər qalmaqdadır.

1985-ci ildə M.Qorbaçov tərəfindən başlanmış bu kampaniya həmin zaman başlanan yeni bir işin ayrılmaz tərkib hissəsi idi. Bütövlükdə onların hamısı bir məqsədə istiqamətlənmişdi. Yenidənqurmanın mahiyyəti, məqsədləri, hədəfləri, qanunauyğunluqları nə idisə, onun tərkib hissəsi olan qərarların, görülən konkret işlərin də mahiyyəti o idi. Onların hər birinin səbəblərini, məqsədlərini və vəzifələrini, əldə olunan nəticələri düzgün dərk etmək və dəyərləndirmək üçün dövrə və aparılan siyasətə düzgün qiymət verilməsi vacibdir. Bu gün onların hər biri haqqında ziddiyyətli fikirlərin olması onların hələ də müasir dövlətlərin yeritdiyi siyasətdə təsir gücünə malik olmasından irəli gəlir.

SSRİ-nin iflasa yetirilməsi məqsədyönlü siyasətin nəticəsi idimi və ya tarixin obyektiv inkişafımı bu iflası şərtləndirmişdi – indi də bu suala tam əminliyi ilə verilən cavab yoxdur. Bu sual indi də davam edən araşdırmaların mövzusudur.

Belə məsələlərdən biri də 1985-ci ildən Sovet dövlətinə rəhbərlik etmiş M.Qorbaçovun "alkoqolizmə və sərxoşluğa qarşı mübarizə" pərdəsi altında həyata keçirdiyi xəttin real məqsədləri, onun ölkənin ictimai-siyasi mühitinə, iqtisadiyyatına təsiri bu günə qədər hamı tərəfindən qəbul edilə bilən qiymətini almamışdır. Bu məsələlərdə ziddiyyətli məsələlər, normal məntiqə sığmayan məqamlar çoxdur. Zaman keçdikcə bu məsələnin yeni-yeni cəhətləri üzə çıxır ki, onlar da bu reallığın qaranlıq məqamlarına aydınlıq gətirməyə imkan verir. Görünür onların həqiqi qiymətinin verilməsi üçün hələ zamana ehtiyac vardır.

Göründüyü kimi, hazırkı məqalənin obyekti yenidənqurma dövründə konkret bir sahəni əhatə edən məsələlərin araşdırılmasıdır. Birmənalı şəkildə onu demək olar ki, həmin dövrdə Sovet dövlətinə, onun ümumittifaq təsərrüfatına, o cümlədən ayrı-ayrı respublikaların iqtisadi potensialına vurulan ağır zərbələrdən biri məhz bu kampaniya ilə edilmişdir.

7 may 1985-ci ildə Sov.İKP MK-nın "Sərxoşluğun və alkoqolizmin qarşısının alınması haqqında" (1) və SSRİ Nazirlər Sovetinin 410 N-li "Sərxoşluğun və alkoqolizmin qarşısının alınması, samoqon istehsalının kökünün kəsilməsi haqqında" qətnamələri (2) qəbul edildi. Bununla da SSRİ tarixində növbəti dəfə alkoqolizmə qarşı mübarizə kampaniyası başlandı. Lakin bu kampaniya bu dövrə qədər keçirilmiş bütün əvvəlki kampaniyalardan özünün bütün xüsusiyyətlərinə görə fərqlənirdi. (3)

Kampaniyanın məqsədlərinə gurultulu sözlərlə humanist rəng verilsə də, onun nəticələri cəmiyyətdə daha böyük bəlalara yol açdı, ictimai-iqtisadi həyatda yaranan xaosun tam gücü ilə kök salmasına zəmin yaratdı. Kampaniyanın nəticələri reallıqda səsləndirilən məqsədlərə deyil, ölkənin dağılmasına, təsərrüfatın ritminin pozulmasına xidmət edirdi. Baxmayaraq ki, bu həqiqət kampaniyanın başlandığı gündən hər kəsə aydın oldu, lakin onun qarşısının alınmasına heç bir cəhd edilmədi. Əksinə, onun əlehdarları gəzalandırıldı. Nəticədə iqtisadiyyatda neqativ proseslərrin təkan alması və genişlənməsi üçün münbit şərait yaradı. Cəmiyyətin ehtiyacında yaranmış boşluğu kölgə iqtisadiyyatı doldurdu.

Sovet hakimiyyətinin iflas ərəfəsində aldığı ən böyük zərbələrdən biri məhz bu kampaniyadan gəldi.

- Spirtli içkilər istehsalının azalması təsərrüfatın bu istiqamətinin zəifləməsinə səbəb oldu, Bu da işsizlik, məşğulluq məsələlərində özünü göstərdi.

- Ölkənin üzümçülük təsərrüfatına, o cümlədən Azərbaycanın kənt təsərrüfatı potensialına öldürücü zərbə vuruldu. Ən ağırı isə

o idi ki, aparılan kampaniya əvvəlcədən bəyan edilən məqsədlərin heç birinə gətirib çıxarmadı. Bu kampaniya daha çox üzümçülük-şərabçılıq təsərrüfatının məhv edilməsindən başqa bir şey vermədi.

Sovet dövləti təkcə ticarətdə 1986-cı ildə 12 milyard manat, 1987-ci ildə isə 7 milyard manat itirdi. (4)

Sovet partiya və dövlət rəhbərliyi ölkədə ictimai həyatın butun sahələrində kök salmış böhrandan çıxmaq üçün müxtəlif vasitələrə əl atır, hər vasitə ilə cəmiyyətin problemlərini həll etməyə çalığırdı. Lakin seçilən metod və vasitələr heç də qarşıda duran maneələrin aradan qaldırılmasına uyğun deyildi. Çünki əksər hallarda yaranmış problemlərin kökündə duran səbəblərin qarşısını almaq əvəzinə onun nəticələrini aradan qaldırmağa çalışırdılar. Bu halda isə əldə olunan ilkin pozitiv nəticə müvəqqəti xarakter daşıyırdı və bir qədər sonra daha qlobal problemlərə yol açırdı. Spirtli içki istehsalını azaltmaq, xüsusən də üzümlükləri məhv etməklə günbəgün maddi vəziyyəti ağırlaşan insanları qadağalar yolu ilə alkoqolizmdən uzaqlaşdırmaq mümkün olmadı. Qoyulan məhdudiyyətlər isə gizli yolla spirtli içki istehsalı, samoqon hazırlanması və onun qeyri-qanuni satışı üçün əlverişli şərait yaradırdı. Xüsusən partiya və dövlət orqanlarının bütün təbəqələrini əhatə etmiş hərc-mərclik, qeyri-ardıcıl idarəcilik şəraitində iqtisadiyyatda neqativ proseslər dönməz olurdu.

Ölkədə gedən neqativ proseslərə münasibət əhalinin müxtəlif kateqoriyaları arasında birmənalı deyildi. Xüsusən üzümçülük və şərabçılığın inkişaf etdiyi respublikalarda bu siyasi xəttin ağır nəticələri daha qabarıq şəkildə hiss olunur, bu sahədə insanların sosial vəziyyətini pisləşdirirdi. (5;6)

Ümumiyyətlə, SSRİ-nin süqutu ziddiyyətli bir hadisə olduğundan onu izləyən proses və hadisələrin səbəbləri də birmənalı qəbul edilmir. Tarixdə belə bir fikir mövcuddur ki, Qorbaçov komandası əvvəlcədən məqsədyönlü şəkildə SSRİ-nin və dünya sosializm düşərgəsinin iflasa uğradılması istiqamətində fəaliyyət göstərmiş, bu prosesi məntiqi nəticəsinə gətirib çıxarmışlar. Uyğun olaraq, ictimai həyatın bütün sahələrində həyata keçirilən siyasi xətt bu başlıca məqsədə xidmət edirdi. Düzdür, həmin neqativ hadisə və proseslər üçün zəmin Sovet dövlətinin özünün malik olduğu problemlər üzündən böhranı yetişdirmişdi. Qorbaçov hakimiyyəti onları məntiqi sona yetirməkdə xüsusi rol oynamışdılar.

Digər yanaşmaya görə, SSRİ-nin iflasının səbəbi bu vaxta qədər üst-üstə toplanmış problemlərin yaratdığı böhran olmuşdur. 1980-ci illərdə həmin böhranın qarşısının alınması məqsədi ilə başlanan islahatlar nəzarətdən çıxması üzündən iflas labüd oldu.

Hər iki nöqteyi-nəzərdə müəyyən həqiqətlər vardır. Lakin Qorbaçov hakimiyyətinin atdığı konkret addımların qərəzsizliyinə inanmaq çox çətindir. SSRİ-nin və dünya sosializm düşərgəsi ölkələrində eyni ssenari ilə münaqişə ocaqlarının yaradılması, ölkə təsərrüfatının dağılmasına rəvac verən addımların təsadüfi olması ağlasığan deyildir. O cümlədən, ölkənin maliyyə durumuna ağıq zərbə vuran, ayrı-ayrı respublikaların kənd təsərrüfatının böyük bir hissəsini əhatə edən sahələrin, xüsusən, üzümçülük təsərrüfatının məhvi elə başlanğıcdan yaxşı bir şey vəd etmirdi. Alkoqolizmin kökünü kəsmək üçün kənd təsərrüfatının müvafiq sahəsini məhv etmək normal məntiqə sığmır. Ən azı həmin istehsalın istiqamətini dəyişdirmək olardı. Şərabçılıq məhsullarının xarici bazarlara yönəldilməsi istiqamətində addımlar atmaq olardı. Bunun əvəzinə isə ölkənin böyük vəsaitlərə, valyutaya böyük ehtiyacı olduğu bir vaxtda, ərzaq qıtlığı yarandığı bir vaxtda kənd təsərrüfatına belə zərbənin vurulmasını heç bir şeylə izah etmək mümkün deyildir. Xüsusən nəzərə alsaq ki, kampaniya başlanandan bir qədər sonra onun səhv

olduğu aydın oldu və onun təşəbbüskarları öz günahlarının örtbasdır etsələr də, həmin siyasətin zərəri göz qabağında idi. Hətta M.Qorbaçov öz memuarlarlnda bu kampaniyanın səhv bir addım olduğunu etiraf edirdi (7; 8)

Antialkoqol siyasətinin düzgün siyasət olmadığını daha əyani şəkildə müşahidə etmək üçün bu məsələnin konkret nəticələrinə və statistikasına müraciət etmək faydalı olardı.

Rusiya imperiyası və Sovet dövləti tarixində müxtəlif vaxtlarda bu məzmunda keçirilmiş islahatlar heç vaxt gözlənilən nəticəni verməmişdir. Haqqında danışılan kampaniya isə özünün qeyri-münasib vaxtda və şəraitdə keçirilməsi ilə fərqlənirdi. Ölkədə ictimai-iqtisadi, siyasi xaosun yarandığı bir mühitdə qadağalarla nəyəsə nail olmaq mümkün deyildi və bu siyasəti aparanlar onun çətinliyini və qeyri-reallığını hamıdan əvvəl başa düşürdülər. Xüsusən bu kampaniyanın SSRİ ali partiya və dövlət xadimləri tərəfindən birmənalı qarşılanmaması buna bir daha əyani sübutdur.

Antialkoqol kampaniyası dövründə Azərbaycana vurulan ziyan daha böyük, hədəfləri isə daha məkrli olmuşdur. Çünki bu addımlar Azərbaycanın yalnız son dövrlərdə əldə etdiyi nailiyyətlərə qarşı çevrilməmişdi. 1980-cı illərdə Azərbaycan ittifaq miqyasında üzümçülük və şərabçılıq məhsullarından qazanılan xarici valyutanın həcminə görə birinci yerdə dayanırdı. Bu göstərici Azərbaycan neftindən qazanılan gəliri üstələyirdi.

Azərbaycanın kənd təsərrüfatında xüsusi yeri olan bu sahənin öz ənənələri və əhəmiyyəti var idi. Hətta daha dərinə gedərək, qeyd etmək istərdik ki, həmin kampaniyanın məkrli məqsədlərindən biri 1970-ci illərdə xüsusilə geniş vüsətlə inkişaf edən Azərbaycanın potensialını zəiflətmək, onun inkişaf imkanlarını məhdudlaşdırmaq olmuşdur. (9, s.395)

Azərbaycan qədimdən üzümçülüyün yüksək inkişaf etdiyi ölkələrdən biri olmuşdur. Ölkə tarixinin ən müxtəlif dövrlərini əhatə edən tarixi mənbələrdə üzümçülük təsərrüfatlarından, müxtəlif üzüm sortlarının olmasından geniş məlumat verirlir. Müharibələr zamanı bu təsərrüfatlara ağır zərbə vurulsa da, hər vaxt bu təsərrüfatlar bərpa olunmuşdur. Mövcud təbiətin üzüm bitkisi üçün əlverişli olması bu sahənin dirçəldilməsinə təkan verrmişdir. Üzumçülük təsərrüfatı Azərbaycanda kənd təsərrüfatında tarixin bütün dövrlərində mühüm yer tutan bir sahəsi olmuşdur.

Tarixin bütün dövrlərində üçümçülüklə sıx bağlı olan şərabçılıq təsərrüfatı da Azərbaycanda güclü tarixə və ənənələrinə malikdir. İslam dini şərabı, şərabçılığı inkar etsə də Azərbaycanda şərabçılıq həmişə olmuş, inkişaf etmişdir. Sovet dövründə də Azərbaycanda üzümçülüyün və şərabçılığın inkişafı mövcud ənənələrə və

imkanlarına söykənirdi. Çünki Azərbaycan böyük SSRİ məkanında yüksək keyfiyyətli üzüm sortlarının yetişdirildiyi məhdud ərazilərdən biri idi.

1970-ci illərdə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycanda üzümçülüyün genişləndirilməsi, şərabçılığın respublika təsərrüfatının mühüm bir sahəsinə çevrilməsi ilə səciyyəvidir. Məhz 1970-ci illərdə üzümçülük təsərrüfatı birdən birə çox genişləndirilmiş, ona müvafiq olaraq çoxsaylı üzüm emalı zavodları inşa edilərək istifadəyə verilmişdir.

1970-1980-ci illərdə respublikada üzümçülük sürətlə inkişaf etməyə başladı. On il ərzində 180 min hektar sahədə yeni üzümlüklər salındı. Üzümlüklərin ümumi sahəsi 270 min hektara çatdırıldı. Üzümçülük təsərrüfatlarında şərab istehsalı üçün başlıca xammal olan sənaye üzüm sortlarına üstünlük verilirdi. Azərbaycan təbiətinə adaptasiya edilmiş bu üzüm sortları özünün yüksək keyfiyyəti ilə seçilirdi. 1980-1985-ci illərdə Azərbaycanda sənaye miqyaslı üzüm bağlarının 85,3%-ni texniki üzüm sortları, 14,7%-ni isə süfrə sortalrı təşkil edirdi. Üzümün yeni məhsuldar sortlarının yetişdirilməsi üçün geniş elmi tədqiqat işləri aparılır, dəyərli nəticələr əldə edilirdi. Qeyd olunan dövrdə respublikada üzümçülük və şərabçılığın intensiv inkişafını təmin etmək üçün perspektivli 10 təbii-iqtisadi bölgə müəyyənləşdirilmiş və bu bölgələrdə iri üzümçülük aqrar-sənaye birlikləri və sovxozlar fəaliyyət göstərmişdir.

H.Əliyevin şəxsi təşəbbüsü və səyi ilə Mərkəzi Komitənin büro-sunda «Üzümçülüyün inkişafında ciddi nöqsanlar və respublikada üzüm istehsalını və şərabçılığı daha da yüksəltmək sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsini təmin etmək tədbirləri haqqında» məsələ müzakirə edildi. 1970-ci illərdə də 672 təsərrüfat üzüm istehsalı ilə məşğul olmuş, o cümlədən 244 ixtisaslaşdırılmış üzümçülük sovxozları təşkil edilmişdir. Bu dövrdə 1973-cü ildə üzüm tədarükünün həcmi 397 min ton və ya 1972-ci ildəkindən 114 min ton və ya 1971-ci ildəkindən 186 min ton çox oldu. 1970-ci ildə üzümlüklərin sahəsi 121,6 min hektara, 5 il ərzində 50 min hek-tardan çox yeni üzümlüklər salınaraq 1975-ci ildə 178,1 min hektara çatdırılmışdır. 1970-ci ilə nisbətən 1975-ci ildə məhsul istehsalı 2 dəfəyə qədər artaraq 351,7 min tondan 706,2 min tona qədər artmış, məhsuldarlıq isə 46,8 s/ha-dan 65,1 s/ha-ya yüksəlmişdir.

Xüsusən, Sov.İKP MK və Nazirlər Sovetinin «Kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırılması və Azərbaycanda üzümçül-üyün və şərabçılığın inkişafına dair tədbirlər» haqqında 22 fevral 1979-cu il tarixli qərarı respublikada üzümçülüyün və şərabçılığın inkişaflna yeni təkan verdi. Həmin qərara əsasən 1990-cı ildə respublikada üzüm istehsalının 2,5-3,0 milyon tona çatdırılması nəzərdə tutulmuşdur.(10)

1980-1984-cü illərdə respublikada üzüm istehsalı 1,7-2,1 mln. tona, hektardan məhsuldarlıq müvafiq olaraq 70-100 sentnerə çatdırıldı. Artıq 1984-cü ildə üzümlüklərin əkin sahəsi 284,1 min hektar, üzüm yığımı 2,126 min ton, hektardan məhsuldarlıq respublikada ən yüksək həddinə çataraq 99,2 sentner təşkil etdi. Azərbaycan üzüm istehsalının həcminə görə keçmiş İttifaqda birinci yerə çıxdı.(11)

Təsərrüfatın bu sahəsinin inkişafı təkcə respublika iqtisadiyyatının göstəricilərində deyil, əhalinin sosial iqtisadi vəziyyətində də ciddi yaxşılaşmaya səbəb oldu. Əvvəlki illərə

nisbətən üzümçülük-şərabçılıq məhsullarının istehsalı sahəsində Azərbaycan öz yerini daha da möhkəmləndirdi. Belə bir şəraitdə birdən birə antialkoqol mübarizə pərdəsi altında təsərrüfatın bu sahəsinin son dərəcə məhdudlaşdırılması respublika iqtisadiyyatına məhvedici təsirə malik idi. Bu səbəbdən də qəbul olunmuş bu qərar və ona uyğun olaraq atılan addımlar Azərbaycanda da narazılıqla qarşılanır. Lakin totalitar iqtisadi idarəçilik sistemi şəraitində onun qarşısını almaq mümkün olmadı.

SSRİ-də «Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri» haqqında 1985-ci ildə qəbul olunmuş qərardan sonra Azərbaycan iqtisadiyyatında aparıcı sahə olan üzümçülük və şərabçılığa böyük zərbə vuruldu, bar verən üzümlüklər sökülməyə başlandı, uzun illər böyük zəhmət hesabına yaradılmış infrastruktur dağıdıldı, qiymətli yerli və alınma üzüm sortları məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı. 1985-ci illə müqayisədə üzümlüklərin sahəsinin 2 dəfə, məhsul istehsalının 1,500 min ton, məhsuldarlığın isə 58 s/ha qədər kəskin azaldığı aydın olmuşdur. Yenidənqurma dövründə ağır zərbə almış üzümçülük-şərabçılıq təsərrüfatı müstəqilliyin ilk illərində sosial-iqtisadi və siyasi böhran şəraitində daha da zəiflədi. Müharibə zonasında bütövlükdə dağıdılmış kənd təsərrüfatında üzümlük və şərabçılığın payı kifayət qədər böyük idi. 1992-1993-cü illərdə bar verən üzüm bağlarının ümumi sahəsi 286 min hektardan 10 min hektara enmişdir. 43 min hektar üzüm bağları erməni işğalı altında qalmışdır. Nəticədə üzümçülük və şərabçılıq kompleksi böhran vəziyyətinə düşmüşdür.

Azərbaycan kənd təsərrüfatının mühüm sahələrindən biri olan üzümçülük və şərabçılığın bərpasına son dövrdə xüsusi diqqət yetirilir. Bir-birinin ardınca qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair" dövlət proqramlarında bu sahənin dirçəldilməsinə xüsusi yer tutur. Respublika Prezidentinin 11 fevral 2004-cü il tarixli, 24 saylı Fərmanı ilə təsdiq olunmuş həmin Dövlət Proqramına əsasən, iqtisadi rayonlar üzrə bitkiçiliyin bütün sahələri ilə yanaşı üzümçülüyün də inkişaf etdirilməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin təsdiq etdiyi Dövlət Proqramı (2004-2008-ci illər üçün) aqrar sahənin, o cümlədən üzümçülüyün inkişafı üçün geniş perspektivlər açmışdır.

Üzümçülüyün inkişafı üzrə tədbirlərin də nəzərdə tutulduğu "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" kimi mühüm sənədlər təsdiq edilmişdir. Bununla yanaşı, Respublika Prezidenti bölgələrə etdiyi mötəbər səfərlərində üzümçülüyün prioritet sahə olduğunu dəfələrlə qeyd etmişdir.

"2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda da sahənin inkişafına güclü təkan verilmişdir. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda 2012-2020-ci illərdə 50 min hektar yeni üzüm bağlarının salınması nəzərdə tutulur. 2020-ci ildə təxminən 455 min ton üzüm istehsal olunacaq. (12)

SSRİ-nin süqutu ərəfəsində bütövlükdə ittifaq dövlətinin, ayrılıqda isə ayrı-ayrı sovet respublikalarının həyatında dərin iz qoymuş bu siyasi xəttin müasir dövrün reallıqları və aşkar edilmiş yeni faktların işığında araşdırılması sayəsində yeni-yeni nüanslar üzə çıxır. Onlar həmin dövrün mahiyyətini, dərindən dərk etməyə imkan verir.

QEYDLƏR:

1. «О мерах по преодолению пьянства и алкоголизма» «Правда», 1985, 17 мая

2. «Постановление Совета Министров СССР 7 мая 1985 г. "О мерах по преодолению пьянства и алкоголизма, искоренению самогоноварения» «Правда», 1985, 17 мая

3. Указ Президиума Верховного Совета СССР 16 мая 1985 г. «Об усилении борьбы с пьянством» «Правда», 1985, 16 мая

4. http://sovietwine.com/history/antialcogol.html

5. .«Правда» 31 мая 1986г.

6. «Известия» 23 декабря 1987г.

7. «Комсомольская правда», 2015, 15 мая

8. https://www.kp.ru/daily/26381/3259739/

9. Heydər Əliyev. İki cilddə, I cild,Bakı, 2013, s.395

10. http://vitis.agro.gov.az/uzumculuk-ve-serabciligin-inkisafin-da-heyder-eliyevin-rolu/

11. http://www.wine-grape.az/az/view-page/2/Azərbaycanda+üzümçülüyün+və+şərabçılığın+inkişaf+tarixi

12. http://www.e-qanun.az/framework/22694

Açar sözlər: *Antialkoqol kampaniya; yenidənqurma dövrü; üzümçülük və şərabçılıq; SSRİ-nin iflası; kənd təsərrüfatı*

Ключевые слова: *Антиалкогольная кампания; период «перестойки»; виноградарство и виноделие; распад СССР; сельское хозяйство*

Keywords: *Anti-alcohol campaign; period "perestoyki"; viticulture and wine production; the collapse of the USSR; Agriculture*

РЕЗЮМЕ

И.З.Алиев

О борьба против алькоголизма в СССР в период перестройки и его последствиях

В статье рассматриваются некоторые моменты проводимой в СССР в период «перестройки» борьбы против алькоголизма и пьянства, его последствиях в судьбе страны. Уделяется особое внимание влиянию этой политики экономическому потенсиалу Азербайджана. Говорится, что проводимая данная политика, вопреки декларированных целей послужила интересам сил против страны в целом и конкретных республик. Поэтому необходимо дальнейшее исследование данного вопроса и освещение подлинных причин и последствий явления.

SUMMARY

I.Z.Aliyev

About the struggle against alcoholism in the USSR during the period of perestroika and its consequences

The article examines some aspects of the struggle in the USSR during the period of "perestroika" against alcoholism and drunkenness, its consequences in the fate of the country. Special attention is paid to the influence of this policy on the economic potential of Azerbaijan. It mentions that in spite of declared goals the current policy has served for the interests of the forces against the country and some republics. Therefore, further investigation of this issue and clarification of the true causes and consequences of the phenomenon is necessary.

Siyasət

SSRİ-NİN SÜQUTUNU ŞƏRTLƏNDİRƏN AMİLLƏR VƏ ABŞ

SƏBİNƏ QARAŞOVA
Siyasi elmlər üzrə fəlsəfə doktoru

ABŞ-ın SSRİ-yə münasibətdə geosiyasətinin mahiyyətini lap başlanğıcdan təcridetmə və qlobal təsirlərini azaltma təşkil etmişdir. Bütövlükdə SSRİ-nin timsalında kommunizm düşərgəsinin sıradan çıxarılması Qərbin əsas strateji məqsədi olmuşdur. İkinci dünya müharibəsində SSRİ-nin qalib çıxması və bundan sonra Şərqi Avropada mövqelərini sürətlə möhkəmləndirməsi kapitalizm dünyasını ciddi narahat etməkdə idi. Böyük Britaniyanın 1946-cı ildə artıq sabiq baş naziri U.Çörçilin məşhur "Fulton nitqini" bir növ SSRİ-yə qarşı mübarizəyə açıq çağırış hesab etmək olardı. Onun nitqinin əsas mahiyyətini diqqəti Avropanı gözləyən kommunizm təhlükəsinə çəkmək təşkil edirdi.[4, s.14] İ. Stalin U. Çörçilin nitqinə "Pravda" qəzetində münasibət bildirərək qeyd etmişdir ki, bu nitq SSRİ-yə qarşı müharibəyə çağırışdır. O, Çörçili və onunla həmfikir olanları Hitlerlə müqayisə etmişdir.[9, s.25] Bu məqam və ümumiyyətlə Çörçilin nitqinin təhlili qeyd etməyə əsas verir ki, ABŞ-ın rəhbərliyi altında Qərb SSRİ-nin mövcudluğunu və Avropada təsir dairəsinin genişlənməsini ciddi təhlükə kimi qəbul edirdilər. Bu baxımdan ABŞ SSRİ-nin mövcudluğu dönəmində demək olar ki, bütün xarici siyasi strategiyasını sosializm sisteminin çökdürülməsinə yönəltmişdir. ABŞ-SSRİ münasibətlərinin xarakterini nəzərdən keçirməklə buna asanlıqla əmin olmaq olar.

ABŞ-SSRİ münasibətlərinin xarakteri

Hər şeydən öncə qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsindən sonrakı dövrdə SSRİ-nin siyasi və hərbi potensialının həddən artıq yüksək kimi qiymətləndirilməsinə baxmayaraq, onun ciddi çatışmayan cəhətləri çoxluq təşkil edirdi. Bunu dəqiq bilən ABŞ ona gec-tez qalib gələcəyinə əmin olduğu üçün miqyaslı antisovet strategiyasını işə salmışdır. Ən əsası, ABŞ-da aydın görürdülər ki, SSRİ-nin mövcudluğu əsasən neft və qaz gəlirləri hesabına təmin olunur və iqtisadiyyatın modernləşdirilməsi istiqamətində demək olar ki, hər hansı bir ciddi və uğurlu strategiya həyata keçirilmir. Ötən əsrin 40-cı illərinin ikinci yarısından başlayaraq, ABŞ geostrategiyasını SSRİ-yə qarşı hərtərəfli mübarizə üzərində qurmağa başlamışdır. Bu strategiyanın ana xəttini SSRİ-ni hərtərəfli təcridemtə siyasəti təşkil edirdi. Silahlanma yarışması, iqtisadi blokada və ideoloji diversiya SSRİ-nin süqutunu şərtləndirəcək əsas fəaliyyət strategiyası kimi müəyyənləşdirilmişdir. Hesab etmək olar ki, məhz bu cür düzgün müəyyənləşdirilmiş strategiya SSRİ-nin süqutunu şərtləndirə bilmişdir. Sürətli

silahlanma SSRİ-ni demək olar ki, bütün resurslarını hərbi sənayenin inkişafına yönəltməyə vadar edirdi ki, bu da çoxsaylı daxili probleminin öz həllini tapmamasını şərtləndirirdi. İqtisadi blokada SSRİ-nin iqtisadiyyatının neft və qaz gəlirləri üzərində birtərəfli və süni mövcudluğunu təmin edirdi. İqtisadi sahədə yüksək texnologiyalar tətbiq edilmirdi və digər sahələr məhdud çərçivədə inkişaf etdirilirdi. Elə şərtlər daxilində mövcud olma SSRİ-nin zəif tərəflərinin sayını sürətlə artırırdı. Sürətli silahlanma yarışı ABŞ-da ciddi problemlər yaradırdı. Lakin ABŞ xarici siyasi strategiyasında yüksək manevretmə qabiliyyəti nümayiş etdirirdi və bir çox hallarda SSRİ rəhbərliyini yalnış addımlara sövq edərək maraqlarının təmin olunması üçün münbit şəraitin yaranmasına nail ola bilirdi.

ABŞ-ın SSRİ-ni dağıtmaq strategiyasını təhlil edən C.Kennan yazırdı: "Mən dünyada beş region mövcudluğu həmişə bəyan edirdim. Bunlar ABŞ, Böyük Britaniya, bitişik ərazilərlə birgə Reyn vadisi, Yaponiya və SSRİ-dən ibarət idilər. Bu regionların hər birində ciddi hərbi gücün formalaşması tam real idi. Mən xüsusi olaraq qeyd edirdim ki, bu regionlardan yalnız biri kommunistlərin nəzarəti altında idi. Bu baxımdan, SSRİ-yə qarşı hücumların motivini də onda görürəm ki, qalan digər regionlar da belə, yəni, kommunistlərin nəzarəti altına keçməsin".[14, s.594]

Qeyd etmək lazımdır ki, İkinci Dünya mübaribəsindən sonra SSRİ-yə münasibətdə ABŞ-ın həyata keçirdiyi strategiya bir neçə mərhələli olmuşdur. Ötən əsrin 40-cı illərinin ortalarından başlayaraq 60-cı illərinin sonunadək ABŞ-ın rəhbərliyi altında Qərb SSRİ-yə münasibətdə əsasən təcridetmə və fəaliyyətin məhdudlaşdırılması taktikasına üstünlük verirdi. NATO ilə Varşava müqaviləsi təşkilatı demək olar ki, eyni hərbi güclə biri-birilərinə qarşı sıxışdırma siyasətini həyata keçirirdilər. Bu baxımdan, Qərb münasibətlərin normalaşdırılması istiqamətində müəyyən addımlar atmağa cəhd edirdi. Lakin "soyuq müharibə" siyasətindən imtina müşahidə olunmamışdır. Tərəflərin tam sürətlə silahlanması prosesi də əvvəlki tempini saxlayırdı.[3, s.147] Bu da, ondan xəbər verirdi ki, münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar taktiki gedişdən başqa bir şey deyildi.

Soyuq müharibənin ən qızğın dövrlərində ABŞ-SSRİ münasibətlərinin nəzərə çarpan cəhəti ondan ibarət idi ki, əsas diqqət təhlükəsizlik məsələlərinə yönəldilmişdir. Təhlükəsizlik sahəsində bütün istiqamətlərin və elementlərin dəqiqliklə müəyyənləşdirildiyi halda, digər sahələr, xüsusilə iqtisadi sahədə əməkdaşlıq minimum həddə idi.[11, s.21]

SSRİ-nin real güc kimi qəbul olunmasından və Karib böhranın baş verməsindən sonra beynəlxalq təhlükəsizliyə ciddi təhdidlərin olması Qərbdə tam aydınlığı ilə dərk edilirdi. Həm də, hərbi güc sahəsində paritetin formalaşması ikitərəfli əsaslarla silahlanmanın məhdudlaşdırılması istiqamətində intensiv müzakirələrə start verilmişdir. Məhz bu səbəbdən də hesab etmək olar ki, ötən əsrin 60-70-ci illərində ABŞ-la SSRİ arasında müəyyən səviyyədə dialoqun yaranmasını təhlükəsizlik problemi zəruri etmişdir. 1972-ci ilin may ayında SSRİ-nin mövcudluğu tarixində ilk dəfə olaraq ABŞ prezidenti R. Nikson Moskvaya səfər etmişdir. Hesab etmək olar ki, bu səfərdən sonra ABŞ-la SSRİ münasibətlərində əsl "yenidən yüklənmə" baş verdi. Səfər çərçivəsində Niksonla Brejnev arasında gələcək münasibətlərin və qarşılıqlı əlaqələrin əsasını təşkil edəcək mühüm sənəd imzalanmışdır. Sənəddə yer alan vacib məqam ondan ibarət idi ki, nüvə əsrində dinc yanaşı mövcud olmanın zəruriliyi xüsusi vurğulanmışdır. Bu sənədin ABŞ prezidenti tərəfindən, özü də Möskvada imzalanması bir daha sübut edirdi ki, ABŞ-da onun qlobal liderliyi ilə bağlı artıq ciddi şübhələr və ya inamsızlıq

mövcud idi. Beləliklə, 1972-ci ilin may ayının 26-da SSRİ ilə ABŞ arasında strateji hücum silahlarının məhdudlaşdırılması ilə bağlı 5 il müddətinə müvəqqəti razılaşma imzalanmışdır. Bunun ardınca da SSRİ KP MK-nın birinci katibi L.Brejnev ABŞ-a səfər etmişdir və 1973-cü ilin yayında tərəflər arasında nüvə müharibəsinə yol verməmək haqqında razılaşma imzalanmışdır.[10, s.243] Lakin bu razılaşmaların imzalanması, nə qədər paradoksal görünsə də, silahlanma "yarışmasını" daha qızışdırmışdır.

1974-cü ildə Brejnevlə artıq prezident C. Ford arasında strateji hücum silahlarının məhdudlaşdırılması haqqında yeni müqavilələr sisteminin yaradılması ilə bağlı razılıq əldə edilmişdir. Müqavilənin imzalanması 1977-ci ildə baş tutmalı olsa da, bu baş verməmişdir. Həmin dövrdə ABŞ-da yeni qanadlı raketlərin hazırlanmasına başlanılmışdır. ABŞ yeni növ silahla da bağlı məhdudiyyətlərin tətbiq olunmasına qəti şəkildə etiraz etdi. Bu məqam tərəflər arasında münasibətlərin yenidən nəzərəçarpacaq dərəcədə gərginləşməsinə gətirib çıxarmışdır. Qeyd edək ki, 1979-cu ildə Brejnevlə Karter arasında strateji hücum silahlarının məhdudlaşdırılması ilə bağlı müqavilə imzalansa da, 1989-cu ilədək ABŞ Konqressi tərəfindən ratifikasiya edilməmişdir. Ümumilikdə, Qərblə SSRİ arasında münasibətlərin normallaşdırılması müəyyən müstəvidə müsbət nəticələrə gətirib çıxarmışdır. Məsələn, tərəflər arasında ticarət dövriyyəsi nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Bundan başqa, qərb şirkətləri ilə əməkdaşlıq sayəsində bir sıra yeni istehsal sahələri meydana gəlmişdir və inkişaf etdirilmişdir. Lakin, bütövlükdə, Qərb SSRİ-yə yüksək texnologiyaların ötürülməsində məsələsində kifayət qədər ehtiyatla davranırdı. Əksər hallarda beynəlxalq proqramlar özlərində nəticəsiz səfərlərdən başqa heç nəyi ehtiva etmirdilər. Hesab edirik ki, ABŞ başda olmaqla, Qərb SSRİ ilə real deyil, sadəcə əməkdaşlıq imitasiyasını həyata keçirməklə məşğul olmuşdur. SSRİ-yə idxal olunan məhsulların içərisində demək olar ki, yeni texnologiyalar yox səviyyəsində idi. Bunu Qərbin SSRİ-yə münasibətdə tətbiq etdiyi xüsusi taktikanın bir strateji qolu kimi qəbul etmək olar. SSRİ-nin özündə də bu məsələyə biganə münasibət sanki, Qərbin planlarının daha rahatlıqla reallaşmasına xidmət edirdi.[6, s.124]

Ötən əsrin 80-ci illərində də ABŞ-SSRİ münasibətlərinin bir neçə mərhələli səciyyəvi xüsusiyyəti müşahidə edilmişdir. 1981-1984-cü illəri əhatə edən ilkin mərhələdə yenidən tərəflər arasında hərbi-siyasi qütbləşmə kəskinləşmişdir. Bunun səbəbi rolunda ABŞ tərəfindən orta məsafəli raketlərin Avropada yerləşdirməsi çıxış etmişdir. Bundan başqa, 1981-1983-cü illərdə nüvə silahlanmasının məhdudlaşdırılması ilə bağlı sovet-amerikan danışıqlarının nəticəsizliyi, tərəflərin qarşılıqlı şəkildə imitasiya xarakterli addımlar atmaları, ikitərəfli münasibətlərdə təmasların səviyyəsinin

minimuma enməsi və s. də münasibətlərdəki gərginliklərin əsas elementləri kimi qəbul oluna bilər.

İkinci mərhələdə, yəni, 1985-1986-cı illərdə ABŞ-SSRİ münasibətlərində nisbi dönüş müşahidə olunmuşdur. 1985-ci ilin martından başlayaraq nüvə və kosmik silahlanmanın məhdudlaşdırılması istiqamətində sovet-amerikan danışıqlarının yeni mərhələsi başlanmışdır. Uyğun olaraq tərəflər arasında siyasi dialoq mexanizmlərinin bərpası prosesi də müşahidə olunmuşdur. Belə ki, 1985-ci ilin noyabr ayında ABŞ və SSRİ rəhbərlərinin görüşü baş tutmuşdur. R. Reyqanla M. Qorbaçov arasında Cenevrədə baş tutmuş görüşdə əsas müzakirə obyekti yenə də nüvə silahlanması məsələsi olmuşdur. Tərəflər ortaq məxrəcə gələrək bəyan etmişlər ki, nüvə müharibəsinin baş verməsi yolverilməzdir və müharibədə qalib tərəf olmayacaqdır.

1987-ci ildə ABŞ-SSRİ münasibətləri üçüncü mərhələyə qədəm qoymuşdur. Bu mərhələ üçün səciyyəvi xüsusiyyət müxtəlif səviyyələrdə siyasi təmasların intensivləşdirilməsindən ibarət idi. Bu mərhələdə uzaq və orta məsafəli raketlərlə bağlı razılaşmanın tam hazırlanıb sona çatdırılması baş vermişdir. SSRİ ilə münasibətlərin daha yumşaldılması və təmasların daha da intensivləşdirilməsi ABŞ qarşısında zamanın tələbi kimi dururdu. ABŞ cəmiyyətində hakimiyyətin həyata keçirdiyi xarici siyasi strategiya tənqidlə qarşılansa da, sonrakı proseslərin gedişi həyata keçirilən taktikanın düzgün olduğunu və qələbəyə hesablandığını təsdiq etdi. R. Reyqan hər zaman vurğulayırdı ki, marksizm-leninizm "tarixin zibilliyində" qalacaq. [12, s.9] Həm də maraqlı məqam bu idi ki, o, sosialist düşərgəsində baş verəcək prosesləri proqnozlaşdıra bilmişdir. Məsələn, 1983-cü ilin mart ayının 8-də etdiyi çıxış zamanı R. Reyqan demişdir: "Mən inanıram ki, kommunizm bəşəriyyət tarixində son acınacaqlı və qəribə dövrüdür."[12, s.10] Həqiqətən R. Reyqanın kommunizmin sonun yaxınlaşması ilə bağlı belə əminliklə danışması müəyyən mülahizələr irəli sürmək üçün əsas yaradır. Birincisi, hesab etmək olar ki, R. Reyqan öz administrasiyasının SSRİ-yə qarşı tətbiq etdiyi strategiyanın arzuolunan nəticəyə gətirib çıxaracağına əmin idi. İkincisi, ABŞ-la SSRİ arasında təmasların sıxlaşması SSRİ-nin daxili problemləri haqqında daha səhih təsəvvürlər əldə etmək imkanı yaratmışdır. Strategiyanın bu problemlər üzərindən qurulması da çox güman ki, ABŞ prezidentində qələbə çalacağı ilə bağlı müəyyən əminlik yaratmışdır.

ABŞ-ın SSRİ strategiyasında M. Qorbaçovun yeri

Artıq qeyd etdiyimiz kimi, məhz onun hakimiyyəti illərində SSRİ və ABŞ rəhbərlikləri arasında sıx təmaslar yaranmağa başlamışdır. Belə sıx təmaslar fonunda SSRİ rəhbərliyinin gələcək fəaliyyətinin yönləndirilməsi imkanları əldə edilirdi. SSRİ-nin rəhbəri M.Qorbaçovu inandırmaq mümkün olmuşdur ki, dövlətlərarası münasibətlərin yeni formatının yaradılması zəruridir. Fikrimizcə, bunu inandırmadan çox, Qorbaçovun qarşısında yeni fəaliyyət sxeminin cızılması kimi nəzərdən keçirmək daha doğru olar. Çünki, SSRİ-də aydın dərk edirdilər ki, ABŞ-ın geosiyasi strategiyasının başlıca hədəfi sosialist sistemini sıradan çıxarmaqdan ibarətdir. Tərəflər arasında əldə olunmuş bütün razılaşmalara baxmayaraq ABŞ-da silahlanma tempi azaldılmamış, əksinə daha yüksəldilmişdir. Həmçinin dərk edilirdi ki, ABŞ heç bir halda geostrategiyasının başlıca imperativindən, yəni, SSRİ-nin qismində sosialist sisteminin dağıdılması planından əl çəkməyəcəkdir. Lakin M. Qorbaçov hakimiyyətə gəldikdən sonra, dünyada və sovet cəmiyyətində ABŞ-ın pozitiv imicinin yaradılması istiqamətində sanki fəallıq nümayiş etdirməyə başladı. Lakin Qorbaçovun hakimiyyəti illərində SSRİ-də sanki "özünüdağıtma" mexanizmi işə salındı. SSRİ-də artıq inanmağa başlamışdılar ki, dövlətlərarası münasibətlərin yeni forması ideologiyasızlaşdırılmış xarici siyasətin həyata keçirilməsini tələb edir. Bu, o demək idi ki, SSRİ cəmiyyətinin mövcudluğunun əsasını təşkil edən ideologiyadan

könüllü imtina edirdi. SSRİ rəhbərliyi inandırılmışdır ki (yaxud inandırılmış kimi görünürdü), ABŞ da, öz növbəsində xarici siyasətini ideoloji elementlərdən "azad" edəcəkdir. Təbii ki, bütün bunlar lap başlanğıcdan inandırıcı görünə bilməzdi. Belə ki, uzun illərdən bəri SSRİ-nin sıradan çıxarılması istiqamətində xüsusi strategiya formalaşdırılmışdır, böyük resurslar sərf edilmişdir. Qısa bir zamanda bu istiqamətdəki bütün prioritetlərdən imtina etmək təbii ki, ABŞ kimi bir dövlətin xarakterinə yad idi. SSRİ-nin rəhbərliyi özünü elə aparırdı və cəmiyyəti də inandırmağa çalışırdı ki, ABŞ-da öz növbəsində xarici siyasətində ümumbəşəri dəyərlərdən və vəzifələrdən çıxış edəcəkdir. Ən əsası isə, ABŞ sosialist sistemini çökdürmək niyyətindən əl çəkəcəkdir.[1, s.4] Xarici siyasət sahəsinin tanınmış simalarından olmuş H. Trofimenko qeyd edirdi ki, ABŞ və SSRİ qarşılıqlı təhlükəsizliklərini təmin etmək üçün alternativ-qeyri-hərbi yol tapmaq zərurəti qarşısında qalmışlar. O, həmçinin yazırdı ki, dinc yanaşı mövcud olma üçün həqiqətən ideologiyasızlaşdırma səmərə verə bilərdi. Lakin bu, o halda səmərəli ola bilərdi ki, hər tərəf eyni zamanda analoji addımlar atmış olsunlar. Sovet rəhbərliyi qarşı tərəfin davranışlarını izləmədən "yeni siyasi təfəkkür" nümayiş etdirməyə başladı. ABŞ prezidenti R. Reyqan isə, əksinə hakimiyyətinin sonunadək ideoloji elementlərlə zəngin xarici siyasət kursunu həyata keçirmişdir. Həmçinin, SSRİ-yə münasibətdə əvvəlki təcridetmə siyasəti tam aydınlığı ilə müşahidə olunurdu.[15, s.176] Lakin proseslərin sonrakı inkişafı göstərmişdir ki, ABŞ bu tərzdə davranışları SSRİ rəhbərliyini cavab reaksiyası nümayiş etdirməyə sövq etməmişdir.

Bir çox tədqiqatçıların fikrincə, SSRİ-nin süquta uğramasında ABŞ-ın ona qarşı həyata keçirdiyi strategiyadan çox resurs böhranın həlledici təsiri olmuşdur. Resurs böhranının meydana gəlməsi səbəbi kimi sisteminin özünün səmərəsizliyi göstərilir. Məsələn, artıq qeyd etdiyimiz kimi, SSRİ-nin silahlanma yarışmasına cəlb olunması sovet iqtisadiyyatının əsaslarının dağılmasında həlledici rol oynamışdır. [12, s.9] Bundan başqa, SSRİ-də rejimə inamsızlıq yaradacaq bir çox digər taktiki addımlar da atılmışdır. Həmçinin də M. Qorboçovun yeni siyasi strategiya tətbiq edilməsinin vacibliyinə inandırılması da, artıq qeyd etdiyimiz kimi, SSRİ-nin süqutunda rol oynayan kompleks mexanizmlərdən biri idi. M. Qorbaçovun "yenidənqurma" siyasətinə də ABŞ-da böyük diqqətlə yanaşılırdı. ABŞ-ın strateji təhlil mərkəzlərində hesab edirdilər ki, ABŞ SSRİ-də həyata keçirilən islahatlara dönməz xarakter verməlidir. Bununla bərabər ABŞ-ın ənənəvi siyasətində hər hansı bir dönüşün yolverilməsi xüsusi vurğulanırdı. ABŞ rəsmiləri qeyd edirdilər ki, yenidənqurma onların maraqlarına cavab verir və Qorbaçovun yeni yanaşması ABŞ-a əvvəllər malik olmadığı təsir rıçaqları əldə etməyə imkan verir. ABŞ-ın siyasəti Qorbaçova "kömək" etmək istiqamətində qurulmalıdır ki, SSRİ-nin "inkişafı" lazımi istiqamətdə yönləndirilsin.[2, s.45]

ABŞ prezidenti C.Buş 1989-cu ilin may ayının 12-də çıxışı zamanı demişdir: "Müşahidələrimiz göstərir ki, qırx illik mübarizəmiz bizə gözəl imkanlar verir və artıq qabaqlama və təcridetmə siyasətləri çərçivəsindən çıxıb yeni strategiya tətbiq etmək zamanı gəlmişdir. Yeni strategiya dünyada və SSRİ-nin özündə yaranmış reallıqlarla uzlaşdırılmalıdır. Biz ümid edirik ki, yenidənqurma SSRİ-ni əvvəlki siyasətindən tamamilə uzaqlaşdıracaqdır. Biz yenidənqurmanın uğur qazanması ilə bağlı səmimi arzularımızı gizlətmirik. Lakin ABŞ-ın və onun müttəfiqlərinin milli təhlükəsizliyi ümidlərə söykənə bilməz. Milli təhlükəsizlik real əmələ söykənməlidir. Bu real əməllər isə bunlardan ibarət ola bilər:

- Sovet hərbi qüvvələrini əhəmiyyətli dərəcədə ixtisar olunması;
- Şərqi və Mərkəzi Avropa xalqlarına öz müqəddaratını təyin etmə imkanlarının verilməsi;
- Regional münaqişələrin tənzimlənməsində Qərblə hərtəfəli əməkdaşlığın edilməsi".

C.Buş çıxışında M.Qorbaçovun hakimiyyətə gəlişindən sonra müəyyən "pozitiv" addımların atıldığını da vurğulamışdır. Məsələn, sovet qoşunlarının Əfqanıstandan çıxarılmasını pozitiv addım nümunəsi kimi xüsusi qeyd etmişdir. O, çıxışında M.Qorbaçova xitabən, "cənab Qoraçov etdiklərinizlə kifayətlənməyin" ifadədini də işlətmişdir.[13, s.508] C.Buşun nitqinin təhlili göstərir ki, ABŞ-da Qorbaçovun hakimiyyətə gəlişindən sonra SSRİ-nin tezliklə dağılacağına əsaslı ümidlər yaranmışdır.

ABŞ-ın dövlət katibi olmuş C.Beyker də öz növbəsində demişdir: "Qorbaçov tərəfindən həyata keçirilən islahatlar hər ötən gün özünün o hüdudlarına yaxınlaşır ki, sonra geri dönüş mümkün olmayacaqdır. Qorbaçovun fəaliyyətinə müsbət reaksiya heç də ona döğru addımların atılmasını tələb etmir. Qorbaçov özü bizə doğru gəlir, qoy gəlsin".[2, s.33]

Beləliklə, M.Qorbaçov Qərbin böyük etimadını "qazana bilmişdir və kapitalizm dünyası bunu etiraf etməkdən çəkinmirdi. Hətta, Avropada təklif olunmuşdur ki, M.Qorbaçova və onun həyata keçirdiyi islahatlara müsbət reaksiyanın təsdiqi olaraq 15-20 milyard dollar həcmində yardım edilməsi təklif edilsin. Təbii ki, M.Qorbaçovun ABŞ-ın maraqlarına uyğun bütün fəaliyyətinə baxmayaraq, SSRİ-yə belə bir yardımın edilməsinə Vaşinqtonda etiraz olunmuşdur. Qorbaçovla C. Buş arasında Maltada baş tutmuş görüş zamanı C. Buş onu inandırmağa çalışmışdır ki, cəmiyyətdə dərin islahatlar aparsın və bütün ölkələrdən sovet qoşunlarını geri çəksin. C. Buş vurğulamışdır ki, əgər M. Qorbaçov belə bir addım atarsa, bu, SSRİ-nin zəiflik nümayiş etdirməsi kimi qəbul edilməyəcəkdir və bundan ABŞ-ın xeyrinə istifadə olunmayacaqdır. [2, s.89] Hadisələrin sonrakı inkişafı göstərmişdir ki, M. Qorbaçovu SSRİ-nin beynəlxalq mövqelərinin zəifləməsi şərtləndirəcək addımlar atmağa inandırmaq mümkün olmuşdur. Lakin bir çox tədqiqatçılar SSRİ-nin süqutunu yalnız M. Qorbaçovun adı ilə bağlamırlar. Əksəriyyət hesab edirdi ki, ümumiyyətlə SSRİ-də hakim olan kommunist ideologiyası mükəmməl deyildir və onun həyatda qalma şansları əvvəldən kifayət qədər az idi. M. Qorbaçov sadəcə prosesləri nisbətən sürətləndirmişdir.

Nəticə

Beləliklə, ABŞ-ın SSRR-yə münasibətdə həyata keçirdiyi geosiyasətin mahiyyəti onu bütün sahələrdə qabaqlamaq və təcrid emtəklə süqutunu şərtləndirməkdən ibarət olmuşdur. Demək olar ki, bütün amerikalı strateqlərin şüurlarını məşğul edən yeganə məsələ SSRİ-yə qarşı daha səmərəli qabaqlama və təcrid etmə taktikalarını hazırlamaq məsələləri məşğul edir. ABŞ xarici siyasi strategiyasının əsas ideoloqlarından biri olmuş C. Kennan etifaq edərək demişdir: "Nə bizim hökumət (ABŞ), nə də Qərbi Avropadakı müttəfiqlərimiz SSRİ ilə hər hansı bir danışıqlara getmək fikrində olmamışlar. Həm ABŞ-ın, həm də Avropanın SSRİ-dən istədiyi və gözlədiyi tək bir şey onun qeyri-şərtsiz kapitulyasiya etməsi idi. Biz bunu gözləməyə hazır idik və 40-illik Soyuq müharibənin başlanmasının yeganə səbəbi də bundan ibarət idi". [5, s.454] İkinci dünya müharibəsinin sona çatdıqdan sonra qısa bir zaman içərisində ABŞ-ın SSRİ-yə qarşı hətta hücum planları da hazır idi. ABŞ-da artıq qət etmişlər ki, əgər dünya sosializmini kənarlaşdırmaq mümkün olmasa, SSRİ-yə qarşı müharibə zəruri olacaqdır. Mühüm strateji xəttlərdən biri

də ondan ibarət idi ki, SSRİ-nin və onun müttəfiqlərinin hərbi və iqtisadi sahədə ABŞ-ın səviyyəsinə çatmasının qarşı bütün vasitələrlə alınsın. ABŞ çalışırdı ki, nüvə silahından birinci istifadə etməyə həmişə hazır olsun. U. Çörçilin məşhur Fulton nitqi sonradan ABŞ-ın rəsmi dövlət siyasətinə -"Trumen doktrinasına" çevrilmişdir. Doktrinada qeyd edilirdi ki, dünya bütövlükdə amerikan sistemini qəbul etməlidir. Həmçinin, doktrinada ABŞ-ın bütün vasitələrlə kommunizm quruluşuna və SSRİ-yə qarşı mübarizə aparmasının zəruriliyi ifadə edilmişdir. [7, s.552] Tədqiqatçı V. Rukavişnikovun fikrincə, bu doktrina ilə ABŞ-ın xarici siyasi strategiyasının və təhlükəsizlik siyasətinin konturları uzun illər üçün müəyyənləşdirilmiş olmuşdur. Həm demokratlar, həm də respublikaçılar sosializm sistemi çökənədək öz fəaliyyətlərində bu doktrinaya istinad etmişlər. [8, s.215]

Göründüyü kimi, ABŞ, iqtisadi, hərbi potensialına görə SSRİ-ni əhəmiyyətli dərəcədə qabaqlamaqla, ona qarşı səmərəli təcridetmə taktikasını həyata keçirə bilmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, ABŞ siyasi texnologiyalar sahəsində də SSRİ ilə müqaisə olunmaz dərəcədə öndə idi. Belə ki, o, bütün Qərbi Avropanı SSRİ-nin timsalında vahid düşmənin mövcudluğuna inandıra bilmişdir. M. Qorbaçovun hakimiyyəti dövründə, ABŞ hətta, onun daxili həyatına müdaxilə imkanları da əldə edə bilmişdir. Güman etmək olar ki, U. Çörçilin Fulton nitqi də elə ABŞ-da hazırlanmışdır və Avropanı SSRİ-yə qarşıya səfərbər etməyə hesablanmışdır. Beləliklə, ABŞ SSRİ-yə münasibətdə unikal strategiya hazırlayaraq, onu uğurla tətbiq edə bilmişdir.

ƏDƏBİYYAT

1.Адамишин А.Л. У человечества единая судьба// Международная жизнь. 1989. №1. С. 4-5.

2.Бешлосс М., Тэлботт С. На самом высоком уровне. М., 2010, 352 с.

3.Валиуллин К.Б., Зарипова Р.К. История России. XX век. Часть 2: Учебное пособие. - Уфа: РИО БашГУ, 2002, 234 с.

4.Злобин В. Н. Неизвестные американские архивные материалы о выступлении У. Черчилля 5.III.1946 // «Новая и новейшая история», № 2, 2000, с. 11-16

5.Кеннан Дж. Дипломатия Второй Мировой войны глазами американского посла в СССР Джорджа Кеннана. М., Центрополиграф, 2002, 480 с.

6.Карпенкова Т.В. Кардинальные изменения в мире, вызванные распадом СССР // Известия Тульского государственного университета. Гуманитарные науки. 2013, № 4, с. 124-135

7.Энциклопедия российско-американских отношений.XVIII–XX века. М., 2001, 692 с.

8.Рукавишников О.В. Холодная война, холодный мир: Общественное мнение в США и Европе о СССР / России, внешней политике и безопасности Запада. М., 2005, 864 с.

9.Сталин И.В. Сочинения. Т. 16, М.: Издательство "ИТРК", 2011, 682 с.

10. Филиппова А.В. История России, 1945-2008 гг. 2-ое изд., дораб. и доп. М.: Просвещение, 2008, 528 с.

11. Шаклеина Т.А. Россия и США в новом мировом порядке. Дискуссии в политико-академических сообществах России и США (1991-2002). М.: Институт США и Канады РАН, 2002, 445 с.

12. Швейцер Петер. Победа. Роль тайной стратегии администрации США в распаде Советского Союза и социалистического лагеря. М., Авест, 1995, 464с.

13. Brown S. The Faces of Power. Constancy and Change in United States Foreign Policy from Truman to Clinton. N.Y., 1994, 654 P.

14. Kennan G. F. Memoirs, 1925-1950. Boston; Toronto: Little, Brown and Co., 1967, 623 P.

15. Trofimenko H. The Emergence of Mutual Security: Its Objective Basis /Windowsof Opportunity. From Cold War to Peaceful Competition in U.S. - Soviet Relations. Ed.By GrahamT. Allison and William L. Ury with Bruce J. Allyn. - Cambridge (Mass.), 1989, P. 176-179

Açar sözlər: *ABŞ, SSRİ, münasibətlər, xarici siyasət, rəqabət, maraqlar, beynəlxalq münasibətlər sistemi.*

Ключевые слова: *США, СССР, отношения, внешняя политика, соперничество, интересы, система международных отношений.*

Keywords: *USA, USSR, relations, foreign policy, rivalry, interests, system of the international relations.*

РЕЗЮМЕ

д.ф.п.н. Сабина Гарашова

Факторы, обуславливающие распад СССР и политика США

В представленной научной статье рассматривается, прежде всего, характер отношений между СССР и США. Обосновывается, что отношения между США и Советским союзом всегда были напряженными. После завершения Второй мировой войны США открыли идеологическую войну против СССР. Единственным препятствием перед мировым лидерством США был Советский Союз. США смогли объединить весь капиталистический мир против СССР. Это было главной характерной чертой борьбы США против СССР. В статье обосновывается, что стратегия США против СССР охватывает несколько уровней. Также анализируются оценки некоторыми авторами характера отношений между США и СССР. Все эти и другие вопросы обстоятельно рассматриваются в данной научной статье.

SUMMARY

Sabina Garashova

The factors causing the collapse of the USSR and the USA

In the presented scientific article, first of all, the nature of the relations between the USSR and the USA is considered. It is proved that the relations between the USA and the Soviet Union always were intense. After the end of World War II The USA opened ideological war against the USSR. The Soviet Union was the only obstacle to the world leadership of the US. The USA could unite the entire capitalist world against the USSR. This was the main characteristic feature of the US struggle against the USSR. Article proves that the US strategy against the USSR covers several levels. Also different approaches of authors about character of the relations between the USA and the USSR are analyzed. All these and other issues are considered in details in this scientific article.

Mətbuat tarixi

VÜQAR RƏHİMZADƏ
Siyasi elmlər üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN MƏTBUATINDA VARİSLİK PRİNSİPİ CÜMHURİYYƏT DÖVRÜNÜN MEDİASININ MİLLİ TƏFƏKKÜRÜN İNKİŞAFINDAKI ROLU KONTEKSTİNDƏ

İsmayıl bəy Qaspralı, Həsən bəy Zərdabi və Əlimərdan bəy Topçubaşov; Bakı, 1907

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş verdi. Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoydu, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırladı.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bununla yanaşı, Prezident İlham Əliyev 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncam da imzalayıb. [5]

Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar çıxışında deyib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi: "Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki,

«Açıq söz» qəzetinin buraxılışı

Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir". [6]

Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli dəyəri olması onunla bağlı araşdırmaların aparılmasında mətbuat da fəal rol oynayır. Əlbəttə ki, elə AXC-nin yaranmasında o dövrün mətbuatı da xüsus rol oynamışdı.

XX yüzilliyin əvvəllərində Azərbaycanda ictimai şüurun formalaşmasında, özünüdərkin güclənməsində 1905-1907 və 1918-1920-ci illər mətbuatının çox böyük rolu olub. Çünki bu zaman mətbuatı məşğul edən problemlər arasında siyasi məsələlər xüsusi yer tuturdu. Hətta o dövrü tədqiq edənlər o zaman jurnalistikanın mühüm bir sahəsinin siyasiləşdiyini də söyləyirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, dövlət xadimləri, ideoloqları milli mətbuatımızın təməlini qoyan mütəfəkkirlər idi. İstiqlalçılıq, dövlətçilik, cümhuriyyətçilik fikrən milli mətbuatımızda təbliğ olunurdu. Məhz mətbuat dinamikasında siyasiləşən, proqramlaşan ideyanın gerçəkləşməsi oldu. Azərbaycan Xalq Cümhuriyyəti «Əkinçi» dən qidalanan, «Ziya», «Kəşkül», «Şərqi-Rus», «Molla Nəsrəddin», «Həyat», «İrşad», «Füyuzat», «Tərəqqi», «Kaspi», «İqbal», «Açıq söz», «Dirilik», «Təkamül» və digər mətbuat orqanları ilə cilalanan milli məfkurənin əməli təntənəsi oldu. Cümhuriyyətin banilərindən Məhəmməd Əmin Rəsulzadə siyasi mübarizəsini «Şərqi-Rus», «Hümmət», «Təkamül», «Dirilik», «Açıq-söz»də xalqına anladırdı və ardınca səsləyirdi. Əlimərdan bəy Topçubaşovun redaktorluğu dövründə «Kaspi»nin məzmunu, siması dəyişdi. İsmayıl bəy Qaspıralı, Həsən bəy Zərdabi düşüncəsinə kökləndi. Həsən bəy Ağayev Gəncədə çıxan «Yujni Kafkaz» qəzetinin redaktoru olub, maarifçilik ideyalarını yaymışdır. Nəsib bəy Yusifbəyli Qaspıralının «Tərcuman» qəzetində əməkdaşlıq edib, M.Ə.Rəsulzadə ilə tanışlığı da «Açıq söz» qəzeti redaksiyasında baş verib. Milli kimliyimizin düsturunu yazanlar Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə mütləqiyyət caynağından qopan ilkin fürsətdə mətbuatımızın «ağır artilleriyası» oldular. [4]

Azərbaycan hakimiyyətinin ən gərgin günlərində, Tiflisdən Gəncəyə köçdükdə yaşanan hökumət böhranı dövlətçiliyi zərbə altına aldığı şəraitdə yenicə çıxmış ikinci kabinet rəsmi mətbuat orqanının nəşrinə qərar verdi. 1918-ci il iyunun 25-də hökumət qəzetinin nərşrinə dair verilmiş qərarda həmin orqanın smetasını tərtib eləyib, hökumətin təsdiqinə vermək və Gəncədəki mətbəəni həmin nəşrin çapı üçün hazırlamaq tapşırılırdı. Tiflisdə mətbəə ləvazimatı almaq da nəzərdə tutulmuşdu. Bir həftədən sonra «Azərbaycan hökumətinin xəbərləri»nin nəşri haqqında qərar verildi. Həmin nəşrin avadanlıqlaşdırılması ərzaq nazirinə həvalə olunurdu. «Hökumət xəbərləri»nin nəşrinə rəhbərlik isə 27 iyul tarixli qərarla xalq maarif nazirinə tapşırılırdı.

Azərbaycan milli mətbuatı ilk dəfə idi ki, dövlət səviyyəsinə qaldırılırdı. Azərbaycan dövlət mətbuatının yaradılmasına imza atılırdı. Azərbaycan hökumətinin orqanı da «Azərbaycan» qəzeti idi. Qəzetin ilk nömrəsi çox əlamətdar günə təsadüf etmişdi - Bakının Azərbaycan Cümhuriyyəti hakimiyyəti altına keçdiyi günə. Bakının qurtuluş gününə həsr olunmuş təbrik teleqramları ilə rövnəqlənən ilk nömrədən başalayaq «Azərbaycan» qəzeti 1920-ci il aprelin 28-nə, yəni AXC-nin süqutuna qədər 443 nömrədə işıq üzü görmüşdür.

Cümhuriyyət dönəmində milli mətbuatın ixtisaslaşmış nümunələri geniş fəaliyyət göstərirdi: «İstiqlal», «Gənclər yurdu», «Əfkari-mütəllimin», «Mədəniyyət», «Övraqi-nəfisə», «Şeypur», «Zəmbur» və s. Bu milli mətbuat orqanları milli dirçəliş ocaqları idi. Ədəbi-mədəni mühiti yaradan, yönəldən, milliləşdirən, milli ruhlu yeni nəsil yetişdirən, istiqlala dayaq olan, cəmiyyəti müasirləşdirən, demokratikləşdirən mətbuat bayraqdarları idilər. [3]

Çox zəngin tarixi ənənələri olan, milli demokratik ideyaları təbliğ edən «Açıq söz», «İstiqlal», «Azərbaycan», «Qurtuluş yolu», «Bəsirət», «Zənbur», «Övraqi-nəfisə», «Əfkari-mütəəllimin» və s. bu tipli mətbuat orqanları daha çox seçilirdi. Onlar 1918-1920-ci illər dövründə yeni mədəniyyətin, incəsənətin və ədəbiyyatın bərqərar olması, demokratik və müstəqil dövlət quruculuğunun təbliğ edilməsi uğrunda mübarizədə əsas rol oynayırdılar. [2]

Bu dövr Azərbaycan mətbuatının uğurları birbaşa Azərbaycanın istiqlalı, dövlət müstəqilliyi ilə bağlıdır və dövr mətbuatı milli dövlət quruculuğu prosesində ön mövqedə dayanaraq ideoloji fəaliyyətin azadlığını öz üzərinə götürmüşdü. Təbii ki, bu ideoloji mübarizədə partiya və cəmiyyətlər bütün vasitələrə əl ataraq təbliğat işi aparırdılar.

Məhz Azərbaycanda KİV-in hüquqi bazasının yaradılması prosesi də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə başlandı. Demokratik prinsiplər üzərində qurulan AXC müstəqil və azad jurnalistikanın zəruriliyini anlayaraq bir sıra qanun və

Zənbur qəzetinin ilk nömrəsi

sərəncamlar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuat sahəsində əldə edilən ən böyük uğur 1919-cu il oktyabrın 30-da qəbul olunan «Mətbuat haqqında Nizamnamə»dir. «Mətbuat haqqında Nizamnamə» qısa müddətdə olsa belə, Azərbaycan jurnalistikasının inkişafına güclü təkan vermiş, milli mətbuat tarixində silinməz bir iz qoymuşdu. Müasir dövrümüzdə KİV sahəsində qəbul olunan qanunvericilik aktlarında da bu iz hiss olunmaqdadır. Sözsüz ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə senzuranın ləğvi də bu inkişafı sürətləndirmişdi. 1918-ci il noyabrın 9-da qəbul edilən bu sərəncam ölkədə azad mətbuata yol açdı.

1919-cu ildə qəbul edilmiş «Mətbuat haqqında Nizamnamə»dən KİV-miz bu gün də bəhrələnir. Belə ki, Azərbaycan Respublikası müstəqillik əldə edən kimi özünün müstəqil Konstitusiyasını yaratdı. Konstitusiyanın xalqa verdiyi azadlıq hüququndan biri mətbuat, söz, fikir azadlığı ilə bağlıdır. Konstitusiyanın 47-ci maddəsinin 1-ci bəndində deyilir: «Hər kəsin fikir və söz azadlığı vardır». Təbii, bu azadlıq kütləvi informasiya vasitələri ilə gerçəkləşir. Ona görə də bu azadlığın hüquqi bazasını təşkil edən KİV haqqında qanun hazırlandı. [1]

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı milli təfəkkürün formalaşması və inkişafı prosesində aktiv rol oynaması tarixi reallıq olub. Əlbəttə ki, müasir Azərbaycan AXC-nin varisi olduğu kimi bugünkü mətbuatımız da Cümhuriyyət dövrünün mediasının davamçısı, varisidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. http://www.e-qanun.az/framework/897

2. "Bugünkü mətbuatımız Cümhuriyyət dövrünün xələfidir". http://www.kaspi.az/az/az/bugunku-metbuatimiz-cumhuriyyet-dvrunun-xelefidir/

3. "Milli mətbuatımız Azərbaycan Xalq Cümhuriyyəti dövründə". http://xalqqazeti.com/az/news/news/73852

4. www.academia.edu/32050446/Azərbaycan Xalq_Cümhuriyyəti Ensiklope-diyası I cild

5. https://azertag.az/xeber/2018_ci ilin Azerbaycan Respublikasinda Azerbaycan Xalq Cumhuriyyeti Ili elan edilmesi haqqinda Azerbaycan Respublikasi Prezidentinin Serencami-1127282

6. https://azertag.az/xeber/Prezident Ilham Aliyevin sedrliyi ile Nazirler Kabinetinin 2017 ci ilin social iqtisadi inkisafinin yekunlarina ve qarsida duran vezifelere hesr olunan iclasi kechirilib -1127351

Açar sözlər: *Mətbuat, Azərbaycan Xalq Cümhuriyyəti, azad fikir, söz azadlığı, milli kimlik, müstəqil Azərbaycan, siyasi varislik*

Ключевые слова: *пресса, Азербайджанская Демократическая Республика, свободная мысль , свобода слова, национальная идентичность, независимый Азербайджан, политическая реликвия*

Вугар Рагимзаде

Принцип наследования в азербайджанской прессе в республиканский период в контексте роли средств массовой информации в развитии национального менталитета.

РЕЗЮМЕ

28 мая 1918 года в жизни азербайджанского народа произошло беспрецедентное событие. На Мусульманском Востоке была создана первая парламентская республика Азербайджанская Демократическая Республика. Прожив всего два года Азербайджанская Демократическая Республика, обладавшая богатым опытом государственного строительства, оставила неизгладимые следы в истории национальной государственности, заложила прочную основу для будущей независимости республики путем укрепления ее свободы и независимости в сердцах людей.

В начале двадцатого века пресса 1905-1907 и 1918-1920 годов сыграла большую роль в формировании общественного сознания и укрепление идентичности в Азербайджане. Потому что проблемы которые в то время прижимали средства массовой информации, политические вопросы заняли особое место. Даже те, кто изучал этот период, также говорили, что оснавная часть журналистики была политизирована.

Siyasət

XALİD NİYAZOV
Siyasi elmlər üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İNFORMASİYA SİYASƏTİNİN TARİXİ (1991-2016)



III məqalə

Üçüncü minilliyin əvvəllərində Azərbaycanda media seqmentinə artan diqqət ölkədə açıq informasiya cəmiyyətinin formalaşmasına müsbət təsir göstərmişdir. Bu durumda dövlətin bütövlüyünə yaranan informasiya təhdidləri uğurla aradan qaldırılır, vahid informasiya məkanının tamlığı daha möhkəm özüllər üzərində qurulurdu. Eyni zamanda, vətəndaş cəmiyyətinin intensiv şəkildə formalaşması üçün zəruri informasiya şərtləri ərsəyə gətirilir, vətəndaş cəmiyyəti ilə dövlət hakimiyyəti arasında açıq qarşılıqlı əlaqələr üçün informasiya mühiti təmin olunurdu. Milli informasiya məhsulları bazarının fəaliyyəti üçün qaydalar və şərtlər uğurla müəyyən edilirdi. Bütün bunlar nəticə etibarı ilə Azərbaycan kütləvi informasiya vasitələrinin palitrasını əsaslı şəkildə dəyişdi.

Dövlət başçısının yüksək diqqət və qayğısı sayəsində medianın mühüm sahəsi sayılan radio və televiziya da dinamik inkişaf yolu keçərək öz fəaliyyətində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri əldə etmişdir. Artıq 2002-ci ildə regional və respublika miqyasında 30-dan artıq radio və televiziyanın fəaliyyət göstərməsi bu sahədə intensiv inkişafın real göstəriciləri qismində çıxış edirdi. Dövlət televiziya kanalları ilə yanaşı, ANS, "Space", "Lider", "Azad Azərbaycan" kimi kanallar təsis edilmiş, bu sahədə mühüm yeniliklər yaranmışdı.

Buna həm də digər iki başlıca faktor təsir göstərirdi: əvvəla, Azərbaycan cəmiyyətinin sosial strukturunda ciddi yeniliklər meydana gəlmişdi, ikincisi də təkcə Azərbaycanda yox, bütün dünyada medianın tipologiyasını dəyişməyi tələb edən yeni texnoloji proseslərə start verilmişdi və qeyd edilən məqamlar Heydər Əliyev tərəfindən layiqincə qiymətləndirilirdi. Beləliklə, KİV-in cəmiyyətdə malik olduğu hakimiyyətin sərhədləri genişlənir, lakin o, eyni zamanda siyasətin və iqtisadiyyatın fasiləsiz təsir hədəfinə çevrilirdi. Amma nəzərə almaq lazımdır ki, sonuncular özləri də ciddi şəkildə KİV-in təsirinə məruz qalırdılar. Təbii ki, bütün bunlara həm də ictimai-siyasi quruluşdan, dövrün reallıqlarından asılı olaraq yanaşmaq lazımdır.

Məsələn, Kommunist Partiyasının hakim olduğu sovet cəmiyyətində KİV partiya siyasətinin kollektiv təbliğatçısı, təşviqatçısı və təşkilatçısı idi. Lakin SSRİ-nin süqutundan sonra

dəyişən sosial və siyasi struktur postsovet məkanında KİV-in inkişafında ciddi təsir göstərmişdir. Q.Q. Poçeptsov postsovet dönəmində KİV tarixinin üç mərhələsini ayırır: birincisi, mərkəzləşdirilmənin tənəzzülü mərhələsi. Bu dövrdə çoxsaylı yeni KİV-lər yaradılır, lakin informasiya axınının təmini üçün yetərincə maddi və intellektual resursun olmasına diqqət yetrilmir. İkincisi, biznes və ya satış mərhələsi. Birinci mərhələdə sayları çoxalan qəzetlər, jurnallar, kanallar burada artıq alqı-satqı predmetinə çevrilirlər. Üçüncü mərhələ isə KİV arasında artıq ciddi rəqabətin başlanması ilə xarakterizə edilir [5, 54]. Göstərilən mərhələlər Azərbaycan KİV-nin postsovet dönəmində inkişaf tarixinə də aid edilə bilər.

Azərbaycan mediasının tərəqqisində yeni dövr Heydər Əliyevin zəngin irsini, onun siyasi ənənələrini müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirən, eyni zamanda bu siyasəti yeni yanaşmalarla daha da zənginləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağıldır. Hüquqi, demokratik dövlət quruculuğu prosesinin daha geniş və intensiv vüsət almasına xüsusi diqqət yetirən İlham Əliyev ölkənin, cəmiyyətin həyatında kütləvi informasiya vasitələrinin rolunu yüksək dəyərləndirərək demokratik, müstəqil medianın inkişafına əlverişli şərait yaradılmasını öz siyasətinin prioritet istiqamətlərindən biri olaraq müəyyən etmişdir. Cəmiyyətda başlanan yeni modernizasiya prosesi mediaya da əsaslı surətdə təsir göstərmişdir.

Yazılı mətbu orqanların fəaliyyətinin elə bu orqanların özləri tərəfindən tənzimlənməsi məqsədilə daha bir vacib addım 2003-cü ilin martında Mətbuat Şurasının yaradılması olmuş, bu, mətbuatın özünütənzimləməsi istiqamətində mühüm təşəbbüsə çevrilmişdir. "Kütləvi informasiya vasitələri üzərində dövlət nəzarətini həyata keçirən Mətbuat və İnformasiya Nazirliyinin ləğvindən sonra ölkənin media təsərrüfatında və bütövlükdə jurnalistikamızda yaranmış sərbəstlik, özünüifadə vasitələri bir qədər də dərinləşdiyindən mühitin şərtlərini formalaşdırmaq, peşənin mənafeyini cəmiyyətin və dövlətin maraqları ilə uzlaşdırmaq missiyasının gerçəkləşməsi qələm sahiblərinin birbaşa özlərindən asılı olan vəzifə kimi qarşıya qoyuldu. Azərbaycan Mətbuat Şurası da məhz bu vəzifənin icrası zərurətindən irəli gələrək yaradıldı" [1, 18].

Mətbuat Şurasının fəaliyyəti media sahəsində qarşıya çıxan bir sıra problemlərin effektiv həllinə imkan vermiş, bəzi məsələlər məhkəmə instansiyalarına qədər həllini tapmışdır. Bu mənada onun fəaliyyəti Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir: "Şura yaranana qədər Azərbaycan mətbuatında gedən proseslər, deyə bilərəm, imkan vermirdi ki, mətbuat tam müstəqil mətbuat kimi fəaliyyət göstərsin. Azərbaycan mətbuatının keçid dövrü o illərdə olmuşdur. Mətbuat Şurası isə böyük funksiyanı öz üzərinə götürmüşdü. İlk növbədə, jurnalistlərin hüquqlarını qorumağa başlamışdır. Hesab edirəm ki, bu istiqamətdə böyük nailiyyətlərə çata bilmişdir" [7].

Bu dövrdə elektron kütləvi informasiya sahəsində qanunvericiliyə nəzarət funksiyasını həyata keçirən müstəqil dövlət orqanı kimi Milli Televiziya və Radio Şurasının yaradılması da medianın tarixində növbəti mühüm hadisəyə çevrilmişdir. Azərbaycan Dövlət Televiziyası və Radiosunun "Azərbaycan Televiziyası və Radio Verilişləri" QSC-yə çevrilməsi, 2004-cü ildə "İctimai Televiziya və radio yayımı haqqında" Qanunun qəbul edilməsi, 2005-ci ildə isə AzTV 2-nin bazasında İctimai Televiziya və Radio Yayımları Şirkətinin fəaliyyətə başlaması Azərbaycanın

media sahəsində də seçdiyi demokratik inkişaf xətti ilə tam uyğunluq təşkil edirdi. Bu, eyni zamanda sistemli liberal islahatların davamlılığını təsdiq edən addım olmuşdur.

Qeyd edilənlər öz növbəsində ölkənin dünya informasiya məkanına daxil olması və informasiyalı cəmiyyətə keçid kontekstində şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsinə, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsinə və müasir dövrün tələblərinə uyğunlaşmasına əlverişli zəmin yaradır. Əlbəttə ki, bu şəraitin formalaşmasında ölkə rəhbərliyinin, o cümlədən Prezident İlham Əliyevin kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, medianın iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğu prosesində onların rolunun gücləndirilməsi məqsədilə gördüyü tədbirlər, verdiyi fərman və sərəncamlar müstəsna əhəmiyyətə malik olmuşdur.

İkinci bir tərəfdən, dövlət siyasətinin mühakiməsi, onun tənqidi, korrektəsi, ictimai tələbin hakimiyyətə çatdırılması, ümumiyyətlə, dövlət siyasətinin hazırlanmasında ictimaiyyətin iştirakı bu gün media olmadan mümkün deyil. Başqa sözlə, media həm dövlət siyasətinin təbliğatçısı, həm də vətəndaşların ümumdövlət işlərində iştirakının təşkilatçısı kimi çıxış edir. Digər bir tərəfdən, media dövlətdə psixoloji mühitin formalaşmasına, özünə və dövlətə inamın yaranmasına bilavasitə cavabdehdir. Bu səbəbdən dövlət mediaya dəstək verilməsində və onun fəaliyyətinin tənzimlənməsində maraqlı tərəfdir və qeyd edilən amil dövlətin mövcud informasiya siyasətində indinin özündə də çox vacib bir yer tutur.

Azərbaycanın malik olduğu multikultural ənənələr də bu gün dövlətin media siyasətində də özünü qabarıq büruzə verir: "Bu gün Azərbaycan Respublikasında qabaqcıl, dünya standartlarına uyğun azad, plüralist mətbuat formalaşmışdır…Təsis edilən qəzet və jurnallar müxtəlif siyasi, ictimai mövqeli təşkilatlara, özəl qurumlara və fiziki şəxslərə məxsusdur. Bölgələrdə 100-ə yaxın mətbuat orqanı nəşr olunur. Respublikada çoxlu sayda elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi və digər jurnallar işıq üzü görür, cəmiyyət həyatının ən müxtəlif çeşid və ağırlıqlı problemləri işıqlandırılır. Azərbaycanda rus, ləzgi, talış, gürcü, avar, kürd milli azlıqlarının dillərində qəzetlər çıxır. Eyni zamanda ingilis, fransız, alman, ərəb və başqa dillərdə mətbuat orqanları nəşr olunur" [2, 12].

Ötən dövrün təhlili göstərir ki, Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinin, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasının tərəfdarı kimi çıxış edərək, bu səpkidə vacib işlərin müəllifinə çevrilmişdir. Milli mətbuatın dünyanın mütərəqqi ənənələrinə əsaslanmaqla da inkişafını vacib hesab edən dövlət

başçısı ümumiyyətlə, hər bir vətəndaşın bütün azadlıqlardan istifadə edə bilməsini prioritet vəzifələrdən biri olaraq müəyyən etmişdir. Dövlət başçısının yanaşmasına əsasən, azad medianın formalaşması və uğurla fəaliyyət göstərməsi demokratiyanın əsas əlamətləri sırasında yer alır. Eyni zamanda Prezident azad medianı ölkənin əsas sərvətlərindən biri qismində dəyərləndirir: "Azərbaycanda bütün başqa azadlıqlar da - söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı təmin olunur. Azərbaycanda yüzlərlə qəzet, jurnal, 50-dən çox televiziya və radio kanalı fəaliyyət göstərir. Heç bir məhdudiyyət yoxdur və bu, bizim böyük sərvətimizdir. Bir daha demək istəyirəm ki, demokratik inkişafı azad mətbuatsız təsəvvür etmək mümkün deyil. Bir daha demək istəyirəm, həm jurnalistlər bunu bilsinlər, həm bizim ictimaiyyət də bir daha Azərbaycanın rəsmi mövqeyini eşitsin ki, Azərbaycanda gələcəkdə də bütün azadlıqların təmin olunması siyasəti davam etdiriləcək. Bu, bizim üçün prioritet məsələdir və ölkəmiz məhz bu yolla uğurla inkişaf edə bilər" [7].

Heydər Əliyevin media sahəsində həyata keçirdiyi siyasəti innovativ yanaşmalarla layiqli şəkildə davam etdirən İlham Əliyev jurnalistlərin əməyini hər zaman yüksək qiymətləndirmiş və bunu konkret sərəncam və fərmanları ilə möhkəmləndirmişdir. Bu xüsusda 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması real göstərici hesab edilə bilər. Mətbuatın yubileylərinin qeyd olunması da diqqət mərkəzində olmuşdur.

Göstərilən yüksək diqqət və qayğı fonunda dövlət informasiya siyasətinin əsas subyekti olaraq qalmaqda davam edir. O öz informasiya arsenalını məhz media vasitəsilə ərsəyə gətirir, onu cəmiyyətə ötürür, beynəlxalq gündəmə çıxarır. Vahid informasiya məkanının formalaşması da bu kontekstdə məxsusi əhəmiyyəy kəsb edir. Daha bir vacib məqam isə ondan ibarətdir ki, dövlət informasiya siyasətinin formalaşması və reallaşması çərçivəsində media təbii şəkildə "yumşaq güc" şəkilində mühüm təsir vasitəsinə çevrilir. Qərbdə kifayət qədər geniş yayılan "yumşaq güc" konsepsiyasının əsasını qoyan C.Nay təsdiq edir ki, beynəlxalq arenada təsir gücünü, nüfuzunu daim artırmaq istəyən dövlət daim çoxsaylı informasiya materiallarının istehsalına çalışmalı, təsir dairəsini nümayiş etdirməli, gündəmi formalaşdırmağı bacarmalıdır. O hesab edirdi ki, müxtəlif informasiya kanallarına çıxışı olan dövlətlə çox ciddi üstünlük əldə etmiş olurlar [6, 87].

Media ilə əlaqədar həyata keçirilən siyasət İlham Əliyevin hakimiyyəti dövründə həm də dövrün çağırışlarına tam uyğunlaşdırılmış, eyni zamanda Azərbaycan bu sahədə müəyyən yeniliklərin əsasını da yaratmışdır. Əldə edilən nəticə isə ondan ibarətdir ki, bu gün Azərbaycan mediası bu və ya digər hadisələrə münasibətdə ictimai fikrin formalaşdırılmasında çox ciddi rol oynayır.

Media sahəsində atılan tarixi addımlardan biri də Azərbaycan Prezidentinin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları olmuşdur. Həmin sərəncamlar söz azadlığının inkişafına yeni töhfə olmaqla yanaşı, həm də mediaya göstərilən dövlət qayğısının davamlı və sistemli səciyyə daşıdığının növbəti təzahürünə çevrilmişdir. Bu konsepsiya milli mətbuatın problemlərinin həllinə mühüm töhfələr vermiş, media vasitələri arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişafında yeni mərhələ açmış, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin qanunçuluq, şəffaflıq, əməkdaşlıq, qarşılıqlı məsuliyyət prinsipləri əsasında həyata keçirilməsini müəyyən etmişdir [8].

Medianın inkişafı istiqamətində atılan bu addımlar Azərbaycanda jurnalistlərin peşə fəaliyyətinə münbit şəraitin yaradılmasına, təmsil etdikləri düşərgə və siyasi baxışlardan asılı olmayaraq hər bir KİV mənsubu üçün informasiya əlçatanlılğınının təmin edilməsinə, onların maddi rifah halının yüksəldməsinə töhfəsini verməkdədir. Eyni zamanda, həyata keçirilən tədbirlər sayəsində bu gün ölkədə müasir tələblərə tam cavab verən informasiya infrastrukturu yaradılmışdır. Bu, vahid informasiya məkanının formalaşmasında və təşəkkülündə böyük rol oynayır. Auditoriyanın ən müxtəlif seqmentlərinin informasiya tələbi bütün bunların nəticəsində uğurla təmin olunur. Media artıq siyasi, iqtisadi, sosial, mədəni və digər sahələr üzrə cəmiyyəti obyektiv informasiyalarla tam təmin edir.

Dövlətin mediaya qayğısı isə davamlı olaraq artır. Azərbaycan mediasının inkişaf tarixində unudulmaz hadisələrdən biri də Prezident İlham Əliyevin 2010-cu il 10 iyun tarixli "Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı olmuş, həmin sərəncam əsasında respublikanın bölgələrində "Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər" mövzusunda konfranslar keçirilmişdir. Yenə də

bir çox qəzet və informasiya agentliyinə birdəfəlik yardımların verilməsi, Mətbuat Şurasının yeni binasının təntənəli açılış mərasiminin keçirilməsi, jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsaitin ayrılması medianın tarixində mühüm yer tutur.

Dövlət tərəfindən yaradılan şərait fonunda hazırda Azərbaycanda özəl (kommersiya), dövlət, hər hansı təşkilatın (məsələn siyasi partiya) nəzarətində olan KİV və ictimai-hüquqi əsasda fəaliyyət göstərən yazılı media orqanları və digər kütləvi informasiya vasitələri mövcuddur. Həmin media vasitələri dövlət siyasətinin təqdimatında cəmiyyət üçün həssas sayılan məqamların, müxtəlif səpkili problemlərin qabardılmasına daha çox diqqət yetirir. Bəzi hallarda kommerisya maraqları naminə medianın hazırladığı materiallar daha çox tənqid üzərində qurulur. Bu, həm də media üçün yaradılan demokratik şəraitin təzahürüdür. Düzdür, burada müxtəlif dövlət qurumlarının təsis etdikləri media orqanları müəyyən qədər fərqlənir. Çünki adından göründüyü kimi, bu cür media orqanları dövlətə və ya onun ayrı-ayrı orqanlarına mənsub olur, dövlət nəzarətində saxlanır və maliyyələşir. Belə medianın üstünlüyü iri kaptialdan asılı olmaması, parlament və hökumət tərəfindən nəzarətdə saxlanmasıdır. Bu amillər dövlət siyasətinin belə media vasitələrindən daha geniş və xırda detallara qədər işıqlandırılmasını təmin edən başlıca faktor kimi çıxış edir.

Söz, fikir və mətbuat azadlığı üçün respublikada yaradılmış liberal və tolerant mühit şəraitində jurnalistikanın milli maraqların qorunması, dövrün çağırışlarına adekvat cavab verməsi, vətəndaşlıq mövqeyindən çıxış etməsi aktuallığını qoruyan vacib tələblər sırasında yer alır. Xüsusən də internet medianın, sosial şəbəkələrdə bloggerliyin sürətli inkişafı şəraitində bu məsələ daha çox aktual xarakter daşımağa başlayır.

İnternet vasitəsilə kommunikasiyanın sosial formaları təkcə Azərbaycan yox, dünya miqyasında getdikcə daha geniş miqyas almağa başlamışdır. Azərbaycanada internet medianın inkişafının əsası 1990-cı illərin ortalarına təsadüf edir. Həmin dövrdə internet medianın inkişaf səviyyəsi Qərb ölkələri ilə müqayisədə geri qalsa da, son 10 ildə vəziyyət köklü surətdə dəyişmişdir. Xüsusən də informasiyanın, kommunikasiya texnologiyalarının cəmiyyət həyatında oynadığı rolun artması internet medianın inkişafına da mühüm təkan vermişdir.

Tədqiqatçılar internet medianı ənənəvi analoqları ilə oxşarlığına görə aşağıdakı növlərə ayırırlar: internet-qəzetlər; internet-jurnallar; internet-radiolar; veb-televiziyalar; internet üzərindən yayımlanan ixtisaslaşmış informasiya agentlikləri; meqamedia resursları, informasiya holdinqləri [4]. Qeyd edilən hər bir nümunəyə bu gün Azərbaycan media məkanında rast gəlmək mümkündür.

Azərbaycan informasiya məkanında təkcə qəzetlərin elektron versiyaları yox, sadəcə internetdə mövcud olan kütləvi informasiya vasitələri əhəmiyyətli rol oynayırlar. Özü də belə media vasitələrinin informasiya məkanında xüsusi çəkisi sürətlə artır, onlar ənənəvi medianı əhəmiyyətli dərəcədə mövqe itkilərinə məruz qoyurlar. Digər tərəfdən, bir neçə dildə yayımlanmaları onların oxucu auditoriyalarının bütün dünya miqyasında formalaşmasına səbəb olur. Bu gün Azərbaycanda əhalinin artıq 75 faizindən çoxu internetə gündəlik çıxış imkanına malikdir.

Hazırda internetin artan templəri vətəndaş jurnalistikasının inkişafına daha böyük töhfələr verməyə başlamışdır. Xüsusilə də "Facebook", "Twitter" və digər sosial şəbəkələr vətəndaş jurnalistikasını daha aktiv vəziyyətə gətirmişdir. Azərbaycanda bunun çoxsalı nümunələrini müşahidə etmək mümkündür. Ölkəmizdə daha çox populyor olan Facebook sosial şəbəkəsinin hazırda 1,3 milyondan çox istifadəçisi vardır. Burada bəzən informasiyanın yayılma və daha çox auditoiyaya ünvanlanması ənənəvi media vasitələrini, o cümlədən, televiziya və radionu belə qabaqlayır. Digər tərəfdən, sosial şəbəkələrdə yayılan informasiyalara, qaldırılan problemlərə vətəndaşlar çox asanlıqla münasibətini bildirir, onun kollektiv müzakirəsi həyata keçirilir. İstənilən halda bir məsələ tam dəqiqdir ki, internet, sosial şəbəkələr vətəndaş jurnalistikasının inkişafını getdikcə daha da sürətləndirir, onun auditoriyasını durmadan genişləndirir.

Bütün bunlar öz növbəsində vətəndaş cəmiyyətinin formalaşmasını, onun icimai-siyasi, sosial-iqtisadi, mədəni və digər proseslərdə daha yaxından iştirakını şərtləndirir. Ancaq belə bir vəziyyətdə insanlar, vətəndaş cəmiyyətinin özü belə KİV-ə təsir göstərir, onun fəaliyyətini nəzarətdə saxlayır. Bu, ilk növbədə KİV-lərin öz fəaliyyətlərini davam etdirə bilməsi üçün vacib olan oxucu sayı, tamaşaçı, dinləyici kontingenti kimi mühüm elementlərin

üzərindən həyata keçirilir. İ.Dzyaloşinski müasir jurnalistlərin fəaliyyətinin dörd istiqamətini fərqləndirir: insanların şüur və davranışının idarə olunması; məlumatın neytral şəkildə çatırılması; auditoriya qarşısında duran problemlərin qabardılması və onların həlli yollarını tapmaq cəhdləri və nəhayət, sadəcə pul qazanmaq [3, 33-34].

Dövlətin informasiya siyasəti nəticəsində media ölkəmizdə siyasi, iqtisadi, həm də vacib sosial rol oynamaqda davam edir. Azərbaycanın yeni siyasi tarixi göstərir ki, bu gün media müxtəlif siyasi məqsədlərə xidmət göstərmək üçün bütün texniki və ideoloji imkanlara malikdir. Buraya insanların maarifləndirilməsindən tutmuş onlarda ləyaqət hissinin inkişaf etdirilməsi, azadlıq və sosial ədalətin bərqərar olunması, siyasətdə rəqabətli iştirak, şəxsiyyəti zənginləşdirmək kimi ən müxtəlif imkanlar aid edilə bilər. Eyni zamanda, vahid informasiya məkanı yaradan media orqanları cəmiyyətdə həmrəyliyik və ümummilli ideyaların formalaşmasına yönəlmiş vahid və ümumişlək bir informasiya kursunun işlənib hazırlanmasında aparıcı rola sahibdirlər.

Beləliklə, qarşıda dayayan başlıca vəzifələrdən biri Azərbaycanın sosial inkişafının əsas məqsədlərindən biri olaraq açıq informasiya cəmiyyətinin qurulması prosesinin daha böyük intensivliklə davam etdirilməsidir. Sözügedən istiqamətdə yenə genişmiqyaslı işlər görülür və nəticə etibarı ilə açıq informasiya cəmiyyəti Azərbaycanda sürətlə təşəkkül tapır. Bu kontekstdə sosial və siyasi proseslərə getdikcə daha çox insan cəlb edilir və KİV hadisələrin qeyd olunan istiqamətdə inkişafına böyük töhfələr verir. Məsələyə beynəlxalq miqyasda yanaşdıqda demək olar ki, bu hal Azərbaycanın Avroatlantik məkana inteqrasiya prosesini daha da sürətləndirir, qloballaşma prosesinə ölkəmizi daha intensiv formada cəlb edir, beynəlxalq informasiya mübadiləsinə uğurlu zəmin yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycan Mətbuat Şurası – 10 il Qanun Nəşriyyatı, 2013, 220 s.

2. 135 illik yol. Bakı. 2010. 224 s.

3. Дзялошинский И.М. Редакционная политика как фактор успешной деятельности СМИ. М.: Союз распространителей печатной продукции, 2000. 426 с.

4. Калмыков А.А. Фирсова Н.С. Журналистика современности в системе массовых коммуникаций // Консультант директора. – 2007. – № 4, 280 с.

5. Почепцов Г.Г. Информационные войны. М.: "Рефлук", К.: "Ваклер", 2000. 576 с.

6. Nye J.S. The Paradox of American power: Why the world's only superpower can't go it alone. Oxford University Press, 2002. 418 p.

7. http://president.az/articles/15874/ 08.07.2017.

8. http://kivdf.gov.az/menu/151/.../ 15.08.2017.

Açar sözlər: *dövlət informasiya siyasəti, informasiya cəmiyyəti, informasiya məkanı, kommunikasiyanın sosial formaları, söz və mətbuat azadlığı, vətəndaş cəmiyyəti.*

Key words: *state information policy, information society, information space, social forms of communication, freedom of speech and press, civil society.*

Ключевые слова: *государственная информационная политика, информационное общество, информационное пространство, социальные формы коммуникации, свобода слова и печати, гражданское общество.*

SUMMARY

History of state information policy of the Republic of Azerbaijan (1991-2016). III article.

Khalid Niyazov

For the purpose of more dynamic development of media in recent years in the field of media, steps have been taken to address a wide range of issues, from improving legislation to strengthening the material and technical base of this segment. The process of adoption of normative acts on the improvement and development of the legislative base of the mass media was implemented, which was accompanied by a focus on the world's best practices and international standards, and continued in close cooperation with various media organizations. Currently, thanks to the measures taken in the direction of media development, they provide the society with timely information about the political, economic, social, cultural and other spheres.

Increasing the role of information and communication technologies in public life has given impetus to the development of Internet media. Media organizations that operate directly in the virtual space successfully perform many functions and tasks of traditional media.

The development and diversification of media, in turn, cause the formation of civil society, its closer participation in social, political, economical, cultural and other processes.

РЕЗЮМЕ

История государственной информационной политики Азербайджанской Республики (1991-2016). III статья.

Халид Ниязов

С целью более динамичного развития медиа за последние годы в сфере СМИ были предприняты шаги по рассмотрению широкого диапазона вопросов, начиная от совершенствования законодательства до усиления материально-технической базы этого сегмента. Был реализован процесс принятия нормативных актов по совершенствованию и развитию законодательной базы средств массовой информации, который сопровождался акцентированием внимания на передовой мировой опыт и международные стандарты, а также продолжался в условиях тесного сотрудничества с различными медийными организациями. В настоящее время, благодаря мерам, предпринятым в направлении развития медиа, они своевременно предоставляют обществу объективную информацию о политической, экономической, социальной, культурной и других сферах.

Повышение роли информации и коммуникационных технологий в общественной жизни дало толчок развитию интернет-медиа. Медийные организации, действующие непосредственно в виртуальном пространстве, успешно выполняют множество функций и задач традиционных СМИ.

Развитие и диверсификация медиа, в свою очередь, обуславливают формирование гражданского общества, его более тесное участие в общественно-политических, социально-экономических, культурных и других процессах.

Tarix

QARAQOYUNLU DÖVLƏTİNİN TƏŞƏKKÜLÜ

LEYLİ HƏMİDOVA
Siyasət elmləri üzrə fəlsəfə doktoru



Qaraqoyunlular 24 oğuz boyundan biridir. Mahmud Qaşqarlının "Divani – Lüğat - it Türk " əsərində aşağıdakı oğuz boylarının adları çəkilir: qınıq, kayıq, bayandur, iva, salğar, əfşar, beq-tili, buqdüz, bayat, yazğır, eymür, qara-bölük, iğdır, ürəgir, totirqa, ula-yuntluğ, dögər, beçeneq, çuvaldar, çepni. Qaşqarlı oğuzların əvvəlcə 22 boydan ibarət olduğunu, lakin sonradan bu boylardan ikisinin ayrılaraq yeni qalac/xalac boyunun(qaraqoyunluların daxil olduğu boy) meydana gətirdiyini bildirir. Türk boyları oğuz modeli üzrə birləşmədən əvvəl Tyan-Şan, Monqolustan və Qərbi Türküstan bölgələrində yaşamışlar. Fəxrəddin Kırzı oğlu türk boylarının e.ə. II əsrin ortalarından etibarən Türküstandan İrana, e.ə. 53-cü ildə isə Şərqi Anadoluya gəldiklərinin qeyd edir. Ümumiyyətlə, oğuzların köçləri zamanı Azərbaycan və Aran ərazisi mərkəzi rol oynamışdı. Böyük Səlcuq sultanları Alp Arslan və Məlik şahdan etibarən Azərbaycan və Aran səlcuqların vəlihəd ölkəsi və ya " şahzadə sancağı" adlanırdı. (2, 349)

Qaraqoyunlu dövlətinin siyasi birliyini təşkil edən əsas bəylərin türkmən adlanması xüsusilə diqqəti cəlb edir. Türkmən məfhumunun meydana çıxması ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bunlardan birincisi Oğuz ölkəsinin bütövlükdə türkmən adlanması fikri daha çox səslənir. Lakin türkmən oğuzların bir hissəsinə verilən addır. XII əsr tarixçisi Şərəf ət - Tahir Marvazi quzlar haqqında yazır: "Quzlar İslam vilayətinə qonşu olduqdan sonra onların bir qismi islamı qəbul etdilər və türkmən kimi tanınmağa başladılar". Fazili Mustafaya görə, farslarla qaynayıb qarışmalarına baxmayaraq türkmənlər "əsl türk mənəm " mənasında özlərini ifadə etməyə çalışmışlar. Müəllifə görə, özbək -əsl bəy(özüm bəyəm) və ya türkmən - əsl türk (türk mənəm) kimi izah olunmalıdır. (2,354)

Türkmənlərlə bağlı önəm daşıyan məlumatlar "Səlcuqlar tarixi " əsərində verilir. Orada qeyd edilir ki: " Oğuzlar öz ölkələrindən Mavəraünnəhrə və İrana gəlincə, buralarda nəsilləri çoxaldı; iqlim, hava və suyun təsiri ilə tədricən taciklərə bənzədilər." Lakin tam tacik formasını almadıqlarına görə iranlılar onlara "türkmənənd"(türkə bənzər) adını verdilər.(10,15)

Qaraqoyunluların etnik kimliyi məsələsini araşdırarkən Dədə Qorqud dastanının xüsusi əhəmiyyətə malik olması nəzərdən qaçırılmamalıdır. Türkoloq M.F. Körpülüyə görə, Dədə Qorqud dastanında hadisələrin baş verdiyi coğrafi mühit Qaraqoyunluların və Ağqoyunluların fəaliyyət və hakimiyyət sahəsinə təsadüf edir. Məhz Dədə Qorqud rəvayətlərində bəhs olunan "Altun küpəli Oğuz bəyləri" nin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ordularında olması haqqındakı tarixi sənədlər bu həqiqəti bir daha təsdiqləmiş olur. Qaraqoyunlularda və Ağqoyunlularda yalnız hökmdarların deyil, ordunu təşkil edən türkmənlərin də qulaqlarına halqalar taxması bu adətin bilavasitə türkmənlərdə çox yayğın olduğunu göstərir. (8,45)

Monqol işğallarından əvvəl Mavəraünnəhr, Xorasan, Şimali İran, Cənubi Qafqaz, Azərbaycan, Kürdüstan və Əl – Cəzirə bölgələrində bir çox Oğuz tayfaları yaşayırdı. Monqol istilası bunları qərbə doğru sürmüş və Elxanilər zamanında Anadoluya Oğuz mühacirəti təkrar başlamışdı. Qaraqoyunluların bu ərazidə məskunlaşması da məs bu dövrdən başlayır. Akademik A.E.Krımski mənbələrə istinad edərək

Qaraqoyunlu dövlətinin bayrağı

yazır: ” Arran türkmən boyları üçün möhtəşəm otlaq yerləri idi” (2,377)Yaqut əl - Həməvi də eyni vəziyyəti Muğan üçün qeyd edir: “Muğan çox sayda otlaqları olan bir bölgədir. Burası türkmənlərlə məskunlaşmış, onlar sürülərini burda otladır və çoxluğu təşkil edirdilər ”.(2,378)

Qaraqoyunlu tayfasının adı və mənşəyi haqqında tarixşünaslıqda müxtəlif fikirlər mövcuddur. Azərbaycan tarixçiləri R.Əfəndiyev və M.Seyidov Azərbaycanda qoyunun (qoçun) əhali arasında totem səciyyəsi daşıdığını qeyd edirlər. “Oğuznamədə ”qoyunun “onqon” olduğu xüsusi olaraq əks olunur. Seyidovun fikrincə, ağ və qara qoyuna tapınmış Bozoq, Uçoq qəbilələrində toyuq zoomorfik onqonu zəifləmiş və tədricən bu tayfalar ağ və qara qoyuna hörmət bəsləmişlər.

Türk tarixçisi Faruq Şumerin fikrincə, Qaraqoyunlu tayfasının adı totemlərin qoyun olması ilə əlaqəli olsa da, qədim türklərdə digər tayfalarda olduğu kimi totem olan heyvanların ətinin yeyilməsi qəbul olunmadığına görə bu adın onlara aid sürülərin rəngi ilə bağlı verilmiş olması mümkündür. Fransız şərqşünası J.Döginin fikrincə, Qaraqoyunlu türkmənləri bayraqlarındakı qara qoyun rəsminə görə Qaraqoyunlu adlanmışlar. Lakin bu fikir həqiqətə yaxın hesab edilmir. Türk tarixçisi F.Kırzıoğlu belə hesab edir ki, qaraqoyunlular bayraqlarına qoyun başı təsvirləri qoyaraq onqonlarının xatirəsini yaşatmışlar. (1,1)

Qaraqoyunlu tayfa birliyini təşkil edən boyların və tayfaların Azərbaycanda məskunlaşması daha erkən dövrdən başlanmışdı. Bu birliyin özəyini təşkil edən Qaraqoyunlu tayfası ilə bağlı etnonimlər Azərbaycanda , Cavanşir, Göyçay, Gəncə, Zəngəzur və Şəki qəzalarında qalmaqdadır.

Qaraqoyunluların ilk Azərbaycana gəlişləri haqqında müxtəlif məlumatlar mövcuddur. Bəzi məlumatlarda qaraqoyunluların Ağqoyunlularla birgə Arqun xanın zamanında Türküstandan Azərbaycana gəldikləri, Ərzurum və Sivas bölgələrində yerləşdikləri bildirilir. Digər məlumatlara görə, 30 min çadırdan ibarət olan qaraqoyunluların Moğol zülmündən qaçaraq başçıları Türe bəyin rəhbərliyi altında Türküstandan Mavırnəhrə gəldikləri və oradan keçərək şərqi Anadoluya köç etmələri bildirilir.

Qaraqoyunlular XIV əsrdə Moğollara tabe olaraq Mosul bölgəsində qışlayıb, yazda Van gölü bölgəsində Ərciş də yaşayırdılar. Moğol hakimiyyətinin bitməsi ilə türkmən tayfalarının hakimiyyəti başlanır. Tayfalararası mübarizədə əvvəlcə Hüseyn bəy Pir Məhəmmədə qalib gələrək öz əmirliyini elan edir. Bu mübarizədə Qaraqoyunlu Bayram Xoca Hüseyn bəyin ən yaxın əmirlərindən biri kimi tanınır.

1351-ci ildə Bayram Xoca Hüseyn bəyi öldürdükdən sonra Mosulu tutaraq bəyliyin başına keçdi. Beləliklə XIV əsrin II yarısında Van-Ərciş bölgəsi mərkəz olmaqla şimalda Ərzurumdan cənubda Mosula qədər uzanan şərqi Anadolu bölgəsində Qaraqoyunlu bəyliyi yarandı. Bu bəylik 11 tayfadan təşkil olunmuşdu. Bu tayfalar aşağıdakılardır: Baranlu, Qaraqoyunlu, Sədlu, Baharlu, Qaramanlu, Alpavut, Cagirli, Hacılu, Ağaçəri, Bayramlu, Dögər. Bəzi məlumatlarda Yıvə tayfasının da adı çəkilir. Bu tayfalardan əlavə, Qaraqoyunlu birliyinə kürd əsilli Süleymani və Mahmudi tayfaları da qoşulmuşdu. (7,342)

1366-cı ildən etibarən Bayram Xoca yürüşlərə başlayaraq əvvəlcə Mardinə hücum edir və Mardin hökmdarı Cəlari sultanı Şeyx Üveysdən qaraqoyunlulara qarşı mübarizədə yardım istəyir. Sultan Üveys Mosula gələrək Muşda Bayram Xoca ilə qarşılaşır və qalib gəlir. Bu məğlubiyyətdən sonra Bayram Xoca Cəlari hakimiyyətini tanımaq məcburiyyətində qalır. Bayram Xoca 1369-cu və 1371-ci illərdə Mosul üzərinə təkrar yürüşlər etməsinə baxmayaraq şəhəri ələ keçirə bilmir.

1374-cü ildə Cəlari hökmdarı sultan Üveysin ölümündən sonra oğlu Hüseyn xanın hakimiyyəti dövründə Bayram Xoca Cəlari dövlətinə ödədiyi vergini dayandıraraq Mosul üzərinə növbəti səfərinə çıxır. Qaraqoyunlu başçısının bu yürüşü uğurla nəticələnir. Hətta Mosul bir il ərzində Qaraqoyunlularda qalır. Bayram Xocanın Anadoluda hakimiyyətini bərpa etməsi Cəlariləri narahat edirdi və bu səbəbdən 1377-ci ildə Cəlarilər Ərciş üzərinə hücuma keçirlər. Nəticədə Qaraqoyunlular Cəlarilər dövlətinə vergi ödəməyə razı olurlar. 1380 - ci ildə Bayram Xocanın ölümü ilə əlaqədar olaraq Qaraqoyunlu bəyliyinin başına (oğlu olmadığına görə) qardaşı oğlu Qara Məhəmməd gəlir.

Qara Məhəmməd Qaraqoyunluların təsir dairəsini genişləndirərək Şərqi Anadolu, İran, Əlcəzair və Suriya ərazilərinə hücumlar edir və Teymurilərin hücumlarına qarşı çox məharətlə bəyliyi müdafiə edirdi. 1382 - ci ildə Cəlarilər dövlətində hakimiyyəti sultan Əhməd ələ keçirir. Qara Məhəmməd və yeni Cəlari sultanı arasında yaxşı münasibətlərin mövcudluğu hətta qohumluq münasibətlərinin yaranmasına səbəb olmuşdu. Beləki, Qara Məhəmməd öz qızını sultan Əhmədə ərə vermişdi.

1384- cü ildə Qara Məhəmmədin Mardin hakiminin qızı ilə evlənmək təklifinin rədd edilməsi Qaraqoyunlu bəyliyinin başçısının Mardinə hücum etməsinə səbəb oldu. Mardin hökmdarı Qara Məhəmmədlə razılığa gəlmək məcburiyyətində qalır.Tərəflər arasında razılıq əldə edildikdən sonra Qara Məhəmməd Ağqoyunlulara qarşı fəal mübarizəyə başlayır. Ağqoyunlu və Qaraqoyunlular arasında əsas məsələ ərazi iddiaları ilə bağlı idi. Ərzincan hakimi ilə birləşən Qara Məhəmməd Ağqoyunlularla qarşılaşmada qalib gəlir.(9,231)

1387-ci ildə Şərqi Anadolu üzərinə hücuma keçən Teymur ona itaət etməyən və hakimiyyətini tanımayan Qara Məhəmmədi ticarət karvanlarına hücum etməkdə günahlandırırdı. Teymurilərin hücumuna məruz qalan Qaraqoyunlu bəyliyinin başçısı Çapaqcura doğru geri çəkilməsinə baxmayaraq, Çapaqcur yaxınlığında baş vermiş döyüşdə hətta teymuriləri məğlub edə bilir. 1388 - ci ildə Təbrizə daxil olan Qara Məhəmməd şəhərdə tam hakimiyyəti ələ keçirməyə nail olur. Lakin, 1389 - cu ildə Bayram Xocanın öldürdüyü Hüseyn bəyin oğlu Pir Həsən Baysanqurun üsyana qalxması nəticəsində onunla qarşılaşmada Qara Məhəmməd öldürülür. Türkmən tayfaları Pir Həsən bəyin hakimiyyətini qəbul etməyərək Qara Məhəmmədin oğlu Misir Xocanın ətrafında toplansalar da, Qaraqoyunlu bəyliyində hakimiyyəti Qara Yusif ələ keçirir.

1391- ci ildə Qara Yusif Təbrizə bir neçə dəfə səfərə çıxır. Həmin tarixdə Hindistan səfərini tamamlayan Teymurun yenidən Anadoluya

yönəlməsi və 1393-cü ildə Cəlarilər dövlətinin paytaxtı Bağdadı ələ keçirməsi Şərqdə qüvvələr nisbətinin yenidən dəyişilməsinə səbəb olmuşdu.(4,216)Teymur həm Qaraqoyunlu, həm də Ağqoyunlu bəylərinə ona itaət göstərilməsi ilə bağlı elçi göndərir. Lakin Qaraqoyunluların Teymur hakimiyyətini tanımaq istəməməsi tərəflər arasında münasibətləri kəskinləşməsinə səbəb olur.

1395- ci ildə Qara Yusif teymurilərdən qorunmaq məqsədilə Mosul hakimi ilə birləşir. Teymurun Sivas istiqamətində irəlilədiyini görən Qara Yusif Cəlari sultanı Əhmədlə birlikdə Məmlük əmirindən sığınmaq tələb edir. Lakin Məmlük sultanı Qaraqoyunlu bəyliyinin başçısının istəyini qəbul etmədiyi üçün Qara Yusif və sultan Əhməd osmanlı sultanı İldırım Bəyazidə sığınmağı məqsədəuyğun hesab edirlər.

Əmir Teymur İldırım Bəyazidə elçi göndərərək Qara Yusifin ona verilməsini tələb edir. Lakin Bəyazid Teymurun istəyini qəbul etməyən İldırım Bəyazid Ərzincan şəhərini Qara Yusifə verir. Yusif burada 16 gün hakimiyyətdə qalır və öz istəyi ilə hakimiyyətdən uzaqlaşır.(7,315)

Qara Yusifin teymurilərlə növbəti qarşılaşması Bağdad yaxınlığında baş verdi və bu döyüşdə teymurilər qalib gəldi. Məğlubiyyətin ardından Qara Yusif 1403-cü ildə Şama getdi. Qeyd etməliyik ki,1402 - ci ildə Teymurilər və Osmanlılar arasında Ankara döyüşü baş vermiş və bu döyüşdə Osmanlılar məğlub olmuşdu. Bu səbəbdən Qara Yusif yardım almaq məqsədilə Şama gəlmiş və Şam naibi Şeyx Mahmudi tərəfindən yaxşı qarşılanmasına baxmayaraq Məmlük əmirinin göndərdiyi tapşırıqla Qara Yusif həbs edilir. Sultan Əhmədlə eyni həbsxanaya düşən Qara Yusif Cəlari hökmdarı ilə yaxınlaşır. Teymurun istəyi ilə Məmlük hökmdarı onların öldürülməsi əmrini versə də, Şam naibi əmri yerinə yetirmir və hər ikisini azad buraxır.(1405)

Qara Yusif Şamdan Bitlisə, buradan Vana gələrək öz hakimiyyətini möhkəmləndirməyə başlayır. 1405 – ci ildə Teymur ölmüş və onun imperiyası parçalanmağa başlamışdı. Bu dövrdə atası tərəfindən hakimiyyətdən məhrum edilmiş Miranşah oğlu Əbubəkir və Mirzə Ömərlə birlikdə Azərbaycanda və İranın qərb torpaqlarında taxt - tac uğrunda mübarizə aparırdılar. Azərbaycanda Teymurun varisləri arasında hakimiyyət uğrunda davam edən mübarizə, yeni hökmdarların nüfuzunun möhkəmlənməsinə və genişlənməsinə imkan yaradırdı. Bu mübarizədə Şirvanşahlar dövləti xüsusilə fərqlənirdi. Şirvanşah I İbrahim yaranmış siyasi vəziyyətdən istifadə edərək Azərbaycan torpaqlarının Şirvanşahlar dövləti ətrafında birləşdirməyə çalışırdı. O, Gəncə hakimi Yar Əhməd Qaraman, Şəki hakimi Seyid Əhməd, Ərdəbil hakimi Bəstam Cakir və Gürcü çarı Konstantinlə əlaqələrini möhkəmləndirdi. Şirvanşah I İbrahim 1406 - ci ilin mayın sonunda Təbriz şəhərini ələ keçirir. Lakin şirvanşah Təbrizdə möhkəmlənə bilmir və Cəlairi hökmdarı Sultan Əhmədin Təbriz üzərinə yürüşünü xəbər aldıqdan sonra şəhəri tərk edir. Elə bu dövrdə Azərbaycanda hakimiyyət uğrunda siyasi mübarizəyə qoşulmuş Qara

Qara Yusif döyüşdə. 1412-ci il Kür sahili döyüşü

XV əsrə aid Qaraqoyunlu miniatürü

Yusif 1406-cı ildə Azərbaycanın, İraqi-Əcəmin və Ərəb iraqının başçısı olan Teymurun nəvəsi Əbu Bəkrlə mübarizəyə başladı. İlk qarşılaşma Araz çayı sahilində baş verdi. Bu döyüşdə bir sıra türkmən bəyləri də Yusifə dəstək verdilər. Nəticədə Əbu Bəkr döyüş meydanından qaçdı. Qara Yusif qələbənin ardından əvvəlcə Mərəndə, sonra Təbrizə gələrək şəhərdə böyük dağıntılar törədir. 1408-ci ildə Təbriz yaxınlığında Sərdurud bölgəsində teymurilərlə ikinci dəfə qarşılaşır və böyük qələbə qazanır. Bu qələbə Qaraqoyunlular qədər Osmanlıları da sevindirdi. Çünki Teymuri hökmdarı Şahrux teymurilərin əvvəlki ərazilərində yenidən bərpa edilməsi siyasəti çərçivəsində əvvəlcə Qaraqoyunluları, sonra isə Osmanlıları məğlub etməyi planlaşdırırdı. Qara Yusif Teymurilərin planını pozaraq Azərbaycana doğru irəliləməyə başlayır.

Qara Yusif Bistan bəyi Əcəm İraqına göndərdi və bu səfər nəticəsində Sultaniyyə və Qəzvin Qaraqoyunlu hakimiyyətinə qatılır. 1409-cu ildə Amid yaxınlığında Ağqoyunlulara qalib gələn Qara Yusif Mardinə sahib olur. Yazı Aladağda keçirən Qara Yusif Təbrizə doğru irəliləməyə başladı. Bu dövrdə Qara Yusif və Cəlari Sultan Əhməd arasında münasibətlər pozulmuşdu. 1409-cu ildə Sultan Əhməd Qara Yusifə elçi göndərərək Həmədan və ətraf ərazilərin ona verilməsini istəsə də, Qaraqoyunlu hökmdarı bu təklifə rədd cavabı vermişdi. Sultan Əhməd Qara Yusifin Ərzincanı mühasirədə saxlamasından istifadə edərək 1410 – cu ildə Bağdaddan Təbrizə doğru hərəkət edir. Cəlari hökmdarının Təbrizə hücumunu xəbər alan Qara Yusif Təbrizə doğru istiqamət alır. II Şənbi Qazan yaxınlığında baş vermiş döyüşdə Qara Yusif mühüm qələbə qazandı.

Beləliklə, 1410 - cu ildə Kürdən cənubda yerləşən Azərbaycan torpaqları, Ərməniyyə, Kürdüstan, Gürcüstanın bir hissəsi, Qərbi İran, İraq ərazilərini əhatə edən Qaraqoyunlu dövləti yaranır.

ƏDƏBİYYAT

1.Nəcəfli Tofiq Hümbət. XIII – XVII əsrlərdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi. B. 2000

2. Mustafa Fazil . Azərbaycanda türk kimliyi və saxta türk problemi B. 2014

3.Minoski V. Qaraqoyunlu hökmdarlarının sülaləsi . B.1995

4.Onullahi S. M XIII- XVII əsrlərdə Təbriz şəhərinin tarixi .B.1982

5.Sümer F. Oğuzlar İ. 1953

6.Sümer F. Qaraqoyunlular İ. 1954

7.Sarıcoğlu F. Akkoyunlu Karaoyunlu Safaviler İ.2010

8.Toğan Z. Oğuz dastanı İ. 1972

9.Uzunçarşılı J. H. Anadolu bəylikləri və Akkoyunlu , Karakoyunlu devletleri İ. 1937

10.Бартолд В.Туркмены М. 1968

Açar sözlər: *Oğuz boyları, türkmənlər, Dədə Qorqud, Qaraqoyunlular*

Ключевые слово: *Огузские племена,туркмены, Дада Коркут, Каракоюнлу*

Key words: *Oghuz tribes, turkmens, Dada Korkut, Garagoyunlu*

XÜLASƏ

Azərbaycan xalqı ziddiyyətli, çoxəsrlik inkişaf yolu keçmiş və bəşər mədəniyyəti sistemində mühüm mövqe qazanmışdır. Azərbaycana türk tayfalarının köçləri qədim dövrdən başlamışdır. Bu tayfaların vahid dövlət yaratma təşşəbüsləri XIV əsrdə daha da güclənmiş və bu dövrdən etibarən türk soylarının Azərbaycanın dövlətçiliyində mühüm mövqeyə malik olması ənənəsi qoyulmuşdur.

Məqalədə xalqımızın təşəkkülündə iştirak etmiş Qaraqoyunlu tayfasının mənşəyi probleminə və bütövlükdə türk boylarının Azərbaycanın, Şərqi Anadolunun həm türkləşməsində, həm də siyasi tarixində oynadığı rola xüsusilə diqqət yetirilmiş və dövlətin yaranma mexanizmi tədqiq edilmişdir.

РЕЗЮМЕ

Азербайджанский народ, прошедший многовековой, противоречивый путь развития, занимает важное место в системе мировой культуры. Процесс переселения тюркских племен в Азербайджан начался еще с древних времен. В XIV веке усилились попытки создания единого государства этими племенами и начиная с этого периода тюркские племена заняли значимую позицию в становлении азербайджанской государственности.

В статье исследуются проблемы происхождения племени Кара Коюнлу, его участие в формировании нашего народа и в целом всех тюркских народов, сыгравших роль как в процессе тюркизации, так и в политической истории Азербайджана и Восточной Анатолии, а также исследован механизм образования государства

SUMMARY

The Azerbaijani people who have gone through centuries-old controversial path of development has an important place in the system of world culture. The process of resettlement of Turkish tribes in Azerbaijan began in ancient times. In the XIV century, efforts to create a single state were intensified by these tribes and since that time Turkic tribes have occupied a significant position in the development of Azerbaijani statehood.

The article examines the issues of the origins of the Kara Koyunlu tribe, its participation in the formation of our nation and Turkic peoples as a whole that played a role in the process of turkification and political history of Azerbaijan and Eastern Anatolia, as well as the mechanism of formation of the state has been investigated.

Sosium

DEMOKRATİYA VƏ İNSAN İNKİŞAFININ QARŞILIQLI ƏLAQƏSİ

BƏXTİM QARAYEV
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Dünya təcrübəsi göstərir ki, dövlət ilk baxışda mütərəqqi bir siyasi qurum olsa da, hər bir iqtisadi sistemin müvəffəqiyyətli fəaliyyətinin təmin edilməsində kifayət qədər güclü rol oynayır. Dövlət çoxfunksiyalı sistem olmaqla vətəndaşlarla, təşkilatlarla cəmiyyətdə mövcud olan müxtəlif təyinatlı qurumlar arasında münasibətlərin bütöv bir kompleksinin inikasıdır.

Dövlət siyasi sistemin ən vacib institutu olmaqla, ərazi və həmin sərhədlər çərçivəsində daimi məskunlaşmış əhali dövlətin yaranması və mövcudluğu üçün zəruri maddi şərt kimi çıxış edir. Siyasi sistemin normal fəaliyyəti, özünü mühafizəsi və mövcud şəraitə uyğunlaşması da əsasən dövlətdən asılıdır.

Dövlətin yaranmasını izah edən aparıcı nəzəriyyələrdən biri olan "ictimai müqavilə"yə əsasən, insanlar öz aralarında qarşılıqlı düşmənçiliyi aradan qaldırmaq və onlar arasındakı münasibəti nizama salmaq üçün dövlət yaradaraq, öz təbii hüquqlarının bir qismini ictimai müqavilə əsasında ona həvalə etmiş və öz azadlıqlarını müdafiə etməyi ona etibar etmişlər.

Hazırda dünyada 200-dən bir qədər çox (Dünya Bankının hesabatına əsasən 210) dövlət mövcuddur. Beynəlxalq münasibətlər baxımından onların hər biri müəyyən daxili və xarici siyasətə sahibdir. Bu yürüdülən siyasət isə kompleks kimi götürüldükdə dövlətin müsbət imicinin formalaşdırılmasına xidmət edir. Sözü gedən əsasın yaradılması isə müəyyən idarəetmə formasından xəbər verir.

Məlum olduğu kimi, əvvəllər hakimiyyət quruluşunu ifadə etməkdən ötrü başqa anlayışlardan: "polis", "respublica", "civitasregnum", "imperium", "reich" və s. istifadə edilmişdir. O vaxtlar həmin terminlər, birinci növbədə, hökmdarların vəziyyətini, onların əzəmətini göstərmək üçün işlədilirdi. Anlayışların özləri isə öz müstəqil mənalarında çox az hallarda işlədilirdi. Buna görə də həmin dövrdə dövlətə mənfi baxışlar da mövcud idi. Məsələn, T.Mor hökuməti varlıların yoxsullara zülmü kimi xarakterizə edir, U.Qodvin isə bəla kimi səciyyələndirirdi. (1, s.138-143) Burjua inqilabları vasitəsilə monarxiyanı respublika əvəzlədiyi dövrlərdə artıq demokratiya hakimiyyətin yerini «boş» elan etdi və bu əsnada fransız siyasi elminin klassiki Corc Byurdo yazırdı ki, bir qrup insanlar dövləti ona görə yaratdılar ki, başqa insanlara tabe olmasınlar. Bu mənada vaxt ötdükcə hökmdarlar insanların nəzərində dövləti idarə edən agentlərə (müvəkkillərə, menecerlərə) çevrilir, hakimiyyət isə keçici xarakter daşıyırdı. (2, s.194-223) Daha sonralar isə bu anlayış daha da deformasiyaya uğrayaraq, hazırki dövlət idarəetməsinə gəlib çatdı.

XX əsrin tanınmış simalarından biri, Böyük Britaniyanın iki dəfə baş naziri olmuş Uinston Çörçill qeyd etmişdir ki, kifayət qədər qüsurlarının olmasına baxmayaraq, bəşər tarixində demokratiyadan gözəl idarəetmə forması yaradılmamışdır.

Bildiyimiz kimi, demokratiya "xalq hakimiyyəti" mənasını verir. Forma və keyfiyyətcə müxtəlif xarakterli olsa da, bütün demokratiyaların əsas məzmunu xalq hakimiyyəti üzərində qurulması və beəliklə də, insan hüquq və azadlıqlarının təmin olunması ilə sıx bağlıdır.

Demokratiya, xalqın hakimiyyətə olan münasibətinin məcmusu,

hakimiyyətin xalqın vahid ruhu ilə formalaşdırılması prosesi, xalqın siyasi baxımdan özünü dərk etməsi, dövlətlə xalqı bir-birinə sıx bağlayan siyasi-mədəni tandemin göstəricisi olmaqla, birbaşa insan inkişafı ilə əlaqəli olduğunu göstərmiş olur. Qərb siyasi elminin alimi Robert Dahl qeyd etmişdir ki, yalnız demokratik hökumət mənəvi məsuliyyətin üzə çıxması üçün maksimum imkanlar açır. Demokratiya insan inkişafını digər istənilən sistemdən daha çox həvəsləndirir.(5)

Dövlət idarəetməsi dövlətin sosial-siyasi funksiyası olub, ictimai həyatın bütün sferalarının tənzimlənməsində, davamlı inkişafın, rifah və məmnunluq səviyyəsinin təmin olunmasında, peşəkar, təkmil və müvəffəq idarəçiliyin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Tarixi təcrübədən də irəli gələrək söyləmək olar ki, ictimai-iqtisadi formasiyanı qeyri-sabitlik, qarşıdurma və iğtişaşlarsız keçirmək üçün ölkənin və xalqın taleyində həlledici addımların atılması, onun gələcək perspektivlərinin seçilməsi də məhz uğurlu dövlət idarəçiliyindən asılıdır. Genezisinə görə spesifik fəaliyyət növü olan idarəetmə tələbatların və fəaliyyət formalarının uzlaşdırılması vasitəsilə inkişaf proseslərinin tənzimlənməsinə yönələn xüsusi sosial funksiya kimi hər dövrün öz obyektiv zərurətindən irəli gələn modellər və metodlar əsasında həyata keçirilir.(6) Buradan belə nəticə çıxır ki, idarəetmə formasının effektivliyinin təminatı demokratiyadan çox asılıdır. Demokratiya və demokratik rejim insan inkişafının davamlı şəkil almasına ciddi təminatdır.(9)

Ölkələr və onların tərkibinə daxil olan ərazilər öz inkişaf səviyyələrinə görə fərqlidirlər və yaxud fərqli ola bilərlər. Bu, bir faktdır və o da bəllidir ki, bəzi hallarda müxtəlif ölkələr, ərazilər və yaxud bu yerlərdə məskunlaşan əhali qruplarının inkişaf səviyyələrində müşahidə edilən fərqlər çox kəskin ola bilir. Beynəlxalq statistik təhlillərə əsasən ölkələr arasında iqtisadi inkişafın səviyyəsinə görə fərqlər bəzi hallarda 40 dəfə və ondan da çox ola bilər.(3, s.7)

Tarixən dövlətlərin inkişafı, çiçəklənməsi və güclənməsifonunda bütün bu proseslərə təsir göstərən ən güclü amil məhz insan potensialı olmuşdur. Dünya inkişaf etsə belə, bu tendensiya öz gücünü itirməmişdir. Çünki ən azından əhali, demoqrafik potensial hər bir dövlətin bir nömrəli gücü sayılır. Bu arqumentimizin heç də yanlış olmadığını sübut etmək üçün dünya səviyyəsində BMT-nin də bu məsələlərə xüsusi önəm verdiyinə diqqət çəkə bilərik. Belə ki, 2000-ci ildə BMT-nin təşəbbüsü ilə dünya sammitinin keçirilməsi və Minilliyin İnkişaf Məqsədləri adlı sənədin qəbul edilməsi buna əyani faktdır. Sənəddə həllini tapmayan məqsədlərin də olmasına baxmayaraq, qarşıya qoyulan hədəflərin hər biri məhz bəşəriyyətin, insanların inkişafını prioritet kimi saxlayırdı.(8) Vurğulandığı kimi adı çəkilən sənəddə əks olunmuş məqsədlərin tam yekunlaşdırılmaması üzündən 2015-ci ildə BMT-nin 70-ci Yubiley Sessiyasında aparılan müzakirələr və qəbul edilmiş qərar və tövsiyələr davamlı insan potensialına əsaslanan inkişafın planlaşdırılması və idarə olunmasına həsr edilmişdir. Bu sessiyada ötən 15 ilin müzakirəsi aparılmaqla bərabər, növbəti 15 il üçün, 2015-2030-cu illəri əhatə edən qlobal çağırışlar, risklər müəyyən edilmiş və bu mövzu ətrafında diskussiyalar aparılmışdır. Yekun nəticədə isə Sammitdə müzakirə edilən hədəflər insan potensialına əsaslanan davamlı inkişafın təmin edilməsinə yönəldilmişdir.(3, s.8)

Göründüyü kimi "insan inkişafı" anlayışı elmdə yenidir və XX əsrin termini olmaqla, BMT-nin təşəbbüsü ilə dövriyyəyə gətirilmişdir. Səbəb ondan ibarət idi ki, həmin dövrə qədər iqtisadi artım hər bir cəmiyyətin, dövlətin əsas göstəricisi kimi qəbul edilirdi, lakin yeni minillik və yeni əsr bunun heç də bu cür olmadığını diktə edirdi. Ona görə də insan inkişafı nəzəriyyəsi təklif edirdi ki, iqtisadi potensial yalnız çağdaş tələblərə cavab verməklə yanaşı, gələcək nəsillərin düşünülməsi hesabına istifadə olunmalıdır. Bununla da, iqtisadiyyatın, iqtisadi və təbii resursların davamlı istifadəsi və inkişafına və bilavasitə davamlı insan inkişafına nail olunacaqdı.(7)

Qeyd edilməlidir ki, inkişafın mahiyyəti ilə bağlı baxışlar da dəyişilib. Artıq iqtisadi imkanların yüksəlməsi və sosial göstəricilərin artmasının əks etdirən orta göstəricilər inkişafın mütləq təzahürü kimi qəbul olunmur. Hazırda inkişaf, onun uğurlu olması daha çox insanların imkanlarının genişləndirilməsi prosesi kimi dəyərləndirilir. Başqa sözlə, inkişafın məqsədi istehsalın genişləndirilməsi və iqtisadi göstəricilərin artması deyil, insanlara seçim üçün geniş imkanlar yaradılmasıdır.(3, s.45) Bu geniş imkanların yaradılması, hər bir insanın qarşısında sonsuz üfüqlərin açılması isə birbaşa dövlət idarəetməsindən, yəni siyasi rejimdən asılıdır. Çünki, insan inkişafı anlayışı azadlıq deməkdir. Yəni, daha məzmunlu, yaradıcı və məhsuldar fəaliyyət göstərmək, uzun, sağlam və dolğun həyat sürmək, bir sözlə, insan üçün mövcud olan və yaradılan və geniş imkanlı həyat tərzi məhz azadlığın ölçülməsi üçün ən ümdə göstəricilərdir. Azadlığın ən yüksək təminatı sözsüz ki, demokratik rejimin, demokratiyanın mövcudluğu şəraitində ola bilər. Demokratik idarəetmə isə uğurlu insan potensialına əsaslanan inkişafın planlaşdırılması, idarə edilməsi və monitorinqi sahəsində müvafiq bilik və bacarıqlara əsaslanmalıdır.

Ümumiyyətlə, insanın inkişafı dedikdə bir neçə məzmun nəzərdə tutula bilər. Belə ki, dünyada ilk insanın yaranmasından bu günə kimi keçilmiş tarixi təkamül yolu inkişafın bioloji tərəfini, bütün tarix boyu bir-birini əvəz etmiş formasiyalarda insanlara verilən qiymətin və insanla insanlığın mövqeyinin, dəyərinin dəyişməsi insanın ideya-mənəvi tərəfini, istehsal vasitələrinin təkmilləşməsi ilə daha yüksək qazancların əldə edilməsi, elmi-texniki tərəqqiyə nail olma isə inkişafın iqtisadi tərəfini əks etdirir. Lakin insan inkişafı və yaxud insan potensialının inkişafı anlayışı özündə tamamilə fərqli məzmun daşımaqla, hər bir fərdiq son nəticədə daha uğurlu olmasına şəraitin yaradılmasını ehtiva edir.(3, s.47)

Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına nəzər salsaq,

görərik ki, gözlənilən və orta ömür müddətinin, eləcə də, əhalinin yaş, cins strukturunun, sosial, iqtisadi, tibbi göstəricilərinin müqayisəsi əsasında insan inkişafının əsas qayəsi olan uzun, dolğun və yaradıcı yaşamaq prinsipi əksər hallarda demokratik rejimin olduğu ölkələrə xasdır. Bu sahədə lider dövlətlər Yaponiya, Skandinaviya, Qərbi Avropa və digərləridir. Siyahıda dünya ölkələrinin əksəriyyəti yer aldığından bütün məlumatlarla tanış olmaq mümkündür. Yekunda isə belə qənaətə gəlmək olar ki, yerli xüsusiyyətləri və iqlim amilini çıxmaq şərti ilə ən az orta və gözlənilən ömür müddəti məhz keçmiş totalitar və müstəmləkə tipli dövlətlərdə müşahidə edilir.(10)

XX əsrin əvvəllərində sosializmin Rusiyada bərqərar olması və SSRİ-nin yaranması sosialist inqilabının rəhbəri V.İ.Leninin düşüncələrinə görə bütün dünyaya yayılmalı idi və bütün dünya proletariatı öz hakimiyyətini qlobal miqyasda qurmalı idi. Lakin bu ideya SSRİ-nin yaradılması və qismən Şərqi Avropaya, eləcə də, bir neçə digər ölkəyə yayılması fonunda davam etdi, son nəticədə isə süquta məruz qaldı. İdeyanın labüd fiaskoya uğramasının başlıca səbəbi isə II Dünya müharibəsindən sonra hazırda aparıcı sayılan dünya dövlətlərinin rəhbərliyinə sosial-demokratların gəlməsi idi. Belə ki, sosial-demokratlar ölkədə demokratik mühitin qurulması fonunda əsas diqqəti sosial problemlərin həllinə yönəltmişdilər. Sosial problemlərin həlli isə istənilən halda narazılıqların olmaması və beləliklə də, ilkin baxışda daha səmərəli görünən ideologiyaya marağın azalmasına səbəb oldu. Göstərilən şərt də təsdiq edir ki, insan inkişafı məhz demokratik mühitdə aparıla bilər. Çünki məhz bu zaman insan hüquq və azadlıqlarına maksimum səviyyədə təminat verilir və insana şərait yaradılır ki, o özünə layiqli həyat şəraiti qursun, dövlət isə bu hüququn təminatçısı qismində çıxış etsin.

İnsan inkişafı ilə demokratiyanın əlaqəsini qloballaşma aspektindən də nəzərdən keçirmək mümkündür. Ümumiyyətlə, demokratiya qlobal prosesdir və bir çox tədqiqatçıların fikrincə bütün dünyanı hazırda demokratikləşmə tendensiyası əhatə edir. Samuel Hantinqtonun 1991-ci ildə çap olunmuş "Üçüncü dalğa: XX əsrin sonunda demokratikləşmə" adlı kitabında da qeyd olunur ki, bəzən antidemokratik meyl müşahidə olunsa da, lakin, ümumən, demokratiya bütün dünyalara yayılır və deməli, bu, qlobal bir fenomendir.

Yuxarıda da qeyd etdiyimiz kimi, demokratiya insan inkişafının təşəkkül tapması üçün başlıca zəmin yaradır və davamlı insan inkişafına hərtərəfli dəstək olur. Lakin antiqlobalistlərin fikrincə, qloballaşma sırf antidemokratik qüvvələrin, transmilli korporasiyaların, bir sözlə, inkişaf etmiş Qərbin məhsuludur. Onlar belə hesab edirlər ki, bu proses özü-özlüyündə antidemokratik, elitar, bir çox hallarda dağıdıcı xarakter daşımaqla ayrı-ayrı ölkələri və insanlığı davamlı inkişafdan məhrum edir. Beynəlxalq təşkilatların və institutların funksiyalarını artırmaqla qloballaşma milli dövlətləri zəiflədir və xalqların suveren hüquqlarını məhdudlaşdırır. (4, s.288-289)

Ümumiyyətlə, qloballaşma kontesktindən yanaşdıqda, əgər demokratikləşməninəsas tendensiyalardan biri kimi çıxış etdiyini vurğulayırıqsa və demokratiyanın, demokratik mühitin insan inkişafına xeyli müsbət təsir göstərdiyini iddia ediriksə, o zaman sərhədlərin aradan qalxması, ümumi beynəlxalq məkanın yaranması, kommunikasiya vasitələrinin əlçatanlığı və imkanlarının genişlənməsi insan qarşısında hüdudsuz üfüqlər açır və hər bir insanın uzun, dolğun və yaradıcı ömür sürməsinə hərtərəfli yardımçı olur, hansı ki, insan inkişafı məhz bu prinsipi özünə prioritet hesab edir.

ƏDƏBİYYAT

1. Əfəndiyev M.Ə. "Politologiya". Dərslik. Bakı, 2011. 492 səh.

2. Əfəndiyev M. "Siyasi və hüquqi təlimlər tarixi". Bakı, "Elm", 2012. 626 səh.

3. Ələkbərov U., "İnsan inkişafının əsasları". Ali məktəblər üçün dərslik. Bakı, "Aspoliqraf", 2016. 280 səh.

4. "İnsan inkişafı". BMT-nin İnkişaf Proqramı, tədris vəsaiti. Bakı, 2014. 395 səh.

5. Ömərov V. "Azərbaycanda demokratiya insanların hüquq və azadlıqlarının etibarlı zəmanətçisidir"//"Səs" qəzeti. 2017, 20 iyun. Səh. 13.

http://anl.az/down/meqale/ses/2017/iyun/547818.htm(19.04.2018)

6. www.asan.gov.az/az/content/view/265/2374 (01.04.2018)

7. Məhərrəmova Ş. "Dünyanın gələcək taleyi və dayanıqlı inkişaf hədəfləri"

http://www.1news.az/az/news/d-nyan-n-g-l-c-k-taleyi-v-dayan-ql-inki-af-h-d-fl-ri (19.04.2018)

8. "Minilliyin Inkişaf Məqsədləri istiqamətində tərəqqi olsa da, kasıb təbəqə kənarda qalır"

https://www.amerikaninsesi.org/a/minilliyin-inkiaf-mqsdlri-istiqamtind-trqqi-olsa-da-kasb-tbq-knarda-qalr-125148339/723024.html

9. "The Relationship between Democracy and Sustainable Development"

http://www.fdsd.org/site/wp-content/uploads/2015/06/The-relationship-between-democracy-and-sustainable-development.pdf

10. Global Health Observatory (GHO) data> Country statistics

http://www.who.int/gho/countries/en/

Açar sözlər: *dövlət idarəetməsi, demokratik idarəetmə, davamlı inkişaf.*

Ключевые слова: *государственное управление, демократическое управление, устойчивое развитие.*

Key words: *public administration, democratic governance, sustainable development.*

РЕЗЮМЕ

Государство является ведущим институтом политической системы. С этой точки зрения государственная администрация играет важную роль в жизни всего общества. Согласно элементам управления, демократическое управление воспринимается как самая высшая форма в мире. Демократическое руководство придает большое значение правам и свободам человека, и считается, что в этом контексте человеческое развитие находится на более высоком уровне. Концепция человеческого развития впервые в отчетности и дебатах ООН, а теперь и глобализированная концепция, лидирует в политике государств.

SUMMARY

The state is the leading institute of political system. From this point of view, public administration plays an important role in the life of the whole society. According to the management features, democratic governance is perceived as the world's most superior form. Democratic governance attaches great importance to human rights and freedoms, and it is believed that human development is at a higher level in this context. The concept of human development for the first time in the UN reporting and debate, and now being a globalized concept, takes the lead in the policy of states.

Diplomatiya

İRAN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI DİPLOMATİYASININ MÜQAYİSƏLİ TƏHLİLİ

ŞƏMS ƏSGƏRLİ
Azərbaycan Dillər Universiteti

Giriş

XXI əsrdə cərəyan edən geosiyasi proseslər əsasən ötən əsrdən miras qalmış problemlərin həlli kimi nəzərdən keçirilə bilər. Müasir mərhələdə cərəyan edən proseslərə dərindən nəzər salmış olsaq, onda onların köklərinin həqiqətən də, XX əsrdən qalmış strategiyalarla və ya məsələlərlə birbaşa bağlı olduğuna əmin ola bilərik. Ötən əsrin 90-cı illərindən start götürmüş proseslərin məntiqində SSRİ-nin süqutunun təsirləri aşkar hiss edilməkdədir. Hər şeydən öncə, SSRİ-nin süqutu ilə həmin dövrə qədər dünyada cərəyan edən olduqca mühüm bir prosesə sona çatdı. Belə ki, SSRİ ilə ABŞ arasındakı qarşıdurma aradan qalxmış oldu. Bu, dünyanın bütün geosiyasi mənzərəsini tam dəyişdir. Dünyanın ən böyük iki supergücündən birinin-SSRİ-nin siyasi xəritədən yox olması demək olar ki, bütün dövlətləri öz xarici siyasi strategiyalarını yeniləməyə məcbur etdir.

Dövlətin xarici siyasəti müxtəlif çoxsaylı amillərin təsiri altında formalaşır. Bu amillər içərisində dünyadakı mövcud real geosiyasi vəziyyət mühüm əhəmiyyət kəsb edir. Bu mənada Sovet İttifaqının süqutu həm İranın, həm də Səudiyyə Ərəbistanının xarici siyasi strategiyasının yeni trendlər qazanmasını şərtləndirmişdir.

Yeni geosiyasi reallıqlar və iki dövlətin diplomatiyası

Nəzərə almaq lazımdır ki, SSRİ-nin mövcudluğu dönəmində dünya iki düşərgəyə bölünmüşdür. Müvafiq olaraq, İran və Səudiyyə Ərəbistanı fərqli düşərgələrdə qərar tutmuşlar. Yəni, İslam İnqilabından sonra, İran SSRİ-nin yaxın müttəfiqlərindən birinə çevrilmişdir. Səudiyyə Ərəbistanı ilə ABŞ arasında əməkdaşlığın daha sıx olduğu aydın müşahidə olunurdu. SSRİ-nin süquta uğradılmasından sonra isə, İran yeni münasibətlər sistemində özünün geosiyasi yönünü müəyyənləşdirməyə çalışmışdır. Ümumiyyətlə, müasir mərhələ üçün qeyd edə bilərik ki, İranın xarici siyasəti özündə tədqiqatlar üçün çoxüzlü istiqamətlər təqdim edir. Bütün hallarda İran diplomatiyasında milli maraqların etibarlı təmin olunması hər şeydən öndədir. Belə ki, İran hazırkı mərhələdə əməkdaşlıq vektorlarını şaxələndirməklə yanaşı, yerləşdiyi regionda ciddi nəzarət imkanlarına malik olmağa çalışır.

İslam dünyanın maliki olduğu zəngin karbohidrogen ehtiyatları regionda nəzarət uğrunda mübarizənin sərtliyini şərtləndirir. Bu baxımdan, neçə ki, Qərb Yaxın Şərqdə geosiyasi və geoiqtisadi prioritetlərini tam reallaşdırmayıb, İranla münasibətlərdə hazırkı kəskin ritorika qalacaqdır. Qərbin İrana qarşı tətbiq etdiyi sanksiyalarla yanaşı, müəyyən diplomatik təzyiq rıçaqlarına əl

atması təbiidir. Bu istiqamətdə Səudiyyə Ərəbistanın da regiondakı kifayət qədər ciddi təsir imkanları effektiv alət kimi nəzərdən keçirilmişdir. Ümumiyyətlə, həm İranın, həm də Səudiyyə Ərəbistanının diplomatiyasının əhatə dairəsi başlıca olaraq, yerləşdikləri regionu əhatə edir. Başlıca fərq ondan ibarətdir ki, İran əsasən öz maraqları çərçivəsində çıxış etdiyi halda, Səudiyyə Ərəbistanı həm də Qərb müttəfiqlərini kifayət qədər ciddi maraqlarını nəzərə almalı olur. Məlumat üçün qeyd edək ki, Səudiyyə Ərəbistanı Yaxın Şərq subregionu çərçivəsində xarici siyasətini 1981-ci ildə yaradılmış Fars körfəzi ərəb ölkələrinin əməkdaşlıq şurası vasitəsilə həyata keçirir.[12, s.4] Bu, Səbuyyəyə daha səmərəli diplomatiya həyata keçirməyə imkan verir. Çünki, təşkilatda aparıcı mövqe məhz ona məxsusdur və digər üzvləri də özünün xarici siyasəti strategiyasını dəstəkləməyə cəlb edə bilir.

Səudiyyə Ərəbistanın hərbi-texniki cəhətdən güclü olması təkcə onun özü deyil, həm də yaxın müttəfiqləri üçün əhəmiyyətli idi. Çünki, regionda maraqların təmin olunması üçün yaxşı, güclü müttəfiqə ehtiyac vardır. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, Səudiyyə Ərəbistanının hərbi arsenalını inkişaf etdirməsi elə ABŞ-ın özü ilə hərbi-texniki sahədə əməkdaşlıq üçün yeni imkanlar açmışdır. ABŞ öz növbəsində ümumilikdə ərəb ölkələri ilə hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsini milli maraqlarının təmin olunmasının effektiv aləti kimi nəzərdən keçirirdi.[13, s.2]

ABŞ-ın da yaxından dəstəyi ilə Səudiyyə Ərəbistanı regionda aparıcı rolunu təmin edib, saxlamağa çalışır. Səudiyyə Ərəbistanı üçün regionun təkcə iqtisadi nəhəngi olmaq yetərli deyildir. İran kimi, Ərəbistan da islam dünyasının lideri olmaq iddialarını heç vaxt gizlətməmişdir. Həmçinin, Səudiyyə Ərəbistanının İrana münasibətdə həyata keçirdiyi siyasət də müəyyən səciyyəvi cəhətləri ilə diqqəti cəlb edir. İran İslam İnqilabından sonra Səudiyyə Ərəbistanı ilə İran arasındakı münasibətləri əsasən ziddiyyətli olması ilə diqqəti cəlb etmişdir. İnqilabdan sonra İran islamı "təmziləməyi" özünün əsas vəzifəsi kimi müəyyənləşdirmişdir.[10, s.83] Bu "təmizləmənin" vacib vektorlarından birini də məhz Səudiyyə Ərəbistanı təşkil etmişdir. Həm də artıq qeyd etdiyimiz kimi, İran özünü təkcə şiə azlığının deyil, dütün islam dünyanın liderliyinə iddialı kimi göstərməkdədir. Ən əsası isə, İran Qərbə qarşı mübarizədə maraqlı olan islam dövlətlərini ətrafında birləşdirməyə çalışmışdır və çalışmaqdadır. İrandan fərqli olaraq, Səudiyyə Ərəbistanı Qərbə qarşı çıxmaq kimi niyyətdən uzaqdır. Əksinə, Qərblə eyni cəbhədə çıxış edərək, İranının nüvə proqramına qarşı olmuşdur. Yəni, Qərb ölkələri kimi, Səudiyyə Ərəbistanı da İranın öz nüvə proqramını dayandırmasını istəyirdi. Hətta, Səudiyyə Ərəbistanı nüvə proqramını həyata keçirən dövlətə və ya dövlətlərə qarşı siyasi, iqtisadi və hərbi sanksiyaları işə salmağın təşəbbüskarı kimi çıxış etmişdir.[5, s.8] Səudiyyə Ərəbistanın diplomatiyasının yaxın onillikdə nəzərə alacağı digər mühüm məqamlardan biri İranın Küveytdə, Livanda və Yəməndə siyasi və ideoloji fəallığının artması ilə bağlıdır.

Son illər ABŞ-la Səudiyyə Ərəbistanı arasında müəyyən gərginliyin yaşandığı müşahidə olunur. Xüsusilə də, ABŞ-ın sabiq prezidenti B.Obama dəfələrlə ölkəsinin Səudiyyə Ərəbistanının neftindən əvvəlki kimi asılı olmadığını səsləndirmişdir. Yəni, Ərəbistanla artıq əvvəlki isti münasibətlərə də ehtiyac qalmaya bilər. Şist nefti hətta, ABŞ-ı Səudiyyənin rəqibinə çevirməkdədir. 2016-cı ildə ABŞ Konqressi ölkədən neft ixracı məhdudiyyətini aradan qalmışdır. Bundan başqa, 2001-ci il 11 sentyabr hadisələrində Səudiyyə Ərəbistanın rolunun müəyyənləşdirilməsi ilə bağlı

Azadı meydanı - Tehran

konqressmenlərin bir qrupunun çağırışlar etməsi də münasibətlərdə müəyyən soyuqlaşmaya gətirib çıxarmışdır.[8] Bu baxımdan, son illərdə Səudiyyə Ərəbistanının diplomatik vektorunun həm də Çinə və Hindistana doğru yönəlməsi təsadüfi deyildir. Lakin bütün hallarda ABŞ Səudiyyə ilə münasibətlərinin səviyyəsinə həssas yanaşmaqda davam edir. Ən azından, ABŞ silah sənayesinin maliyyə təminatında Səudiyyənin imkanlarından maksimum yararlanmaqda maraqlıdır. Məsələn, hələ "ərəb baharı" başlamamışdan öncə, yəni, 2010-cu ildə Səudiyyə Ərəbistanı ABŞ-dan 60 milyard dollar dəyərində silah almışdır.[6, s.65] ABŞ regionda öz maraqları çərçivəsində yeni geosiyasi reallıqların yaranması istiqamətində kompleks addımlar atmaqdadır. Regionda belə yeni geosiyasi reallıqların formalaşmasına qarşı çıxan əsas dövlətlərdən biri isə İrandır. Yəni, İran dövlətinin diplomatiyası digər istiqamətlərlə yanaşı, ABŞ-ın regionda təsir imkanlarının tamam aradan qaldırılmasına yönəlmişdir. ABŞ-da öz növbəsində İrana qarşı bütün diplomatik alətlərini işə salmışdır. Xüsusilə də, SSRİ-nin süqutundan sonra münasibətlərdəki gərginlik özünü daha qabarıq büruzə verdi. Daha geniş imkanlara malik ABŞ-ın mübarizə xətti 1991-ci il körfəz müharibəsindən sonra tam üzə çıxdı. Həmin ildən İraq və İranın blokadaya salınmasını nəzərdə tutan "ikili təçrid strategiyası" elan edildi. Amma BMT ilə qarşı-qarşıya gələn İraqdan əlavə fərqli olaraq İran yalnız onun öz sanksiyaları ilə üzləşdi. Çünki Avropa Birliyi ABŞ-ın etirazlarına baxmayaraq nisbətən mülayim "tənqidi dialoq" strategiyasını seçdi. ABŞ səviyyəsində İrana sərt sanksiyalar verməyə vadar edə bilmədi. Yalnız ingiltərə 90-çı illərin sonuna qədər İranla diplomatik əlaqə saxlamadı. ABŞ-ın İran neftinə kapital qoyulmasını qadağan edən sanksiyaları isə dəfələrlə pozuldu.[7, s.75]

Diplomatik xəttlərdə dönüş nöqtəsi və perspektivlər

İranın Qərbə və ABŞ-a doğru xarici siyasət xəttinin müəyyənləşdirməsində zaman, şərait məsələləri elə səviyyədə güclü idi ki, inqilabdan başlayaraq müasir dövrədək İranı idarə edən iühafizəkar xarakterli adlandırılan adamlar da deyilən amillərə müqavimətin özləri üçün də faydasızlığını başa düşürdülər. Gələcəkdə hakimiyyətin nisbətən liberal xətt tutduqları bildirilən qüvvələrlə verilməsində bunun da köməyi olacaqdı. İran xarici siyasətinin 1997-çi ildən başlayaraq dəyişikliklərlə qarşılaşacağı mərhələ isə çatdırdı. Bu yolda inkişafın enib qalxma xarakterli gdəcəyi əvvəldən görünürdü. Ziddiyətlərə zəmin hazırlayan

Ər-Riyad şəhərindən görüntü

amillər deyildiyi kimi ənənəvi siyasətlə zamana uyğun siyasətin toqquşmasından irəli gəlirdi. Xatəminin prezident seçkisində o qədər də çətinliyə rast gəlməyərək qalib gəlməsi tisə ənənəvi siyasətin başqasıyla dəyişməsinə aparan yolun bütün çətinliklərə baxmayaraq başlanmasıydı. İran rəhbərliyində müxtəlif xəttlərin sakit mübarizəsi İslam Respublikasına beynəlxalq siyasətində xeyli qazanclar gətirəcəkdi.

XXI əsrdə də vəziyyət dəyişmədi. İran diplomatiyası əsasən Qərblə mübarizəyə, Səudiyyə Ərəbistanı diplomatiyası isə, Qərbin regionda maraqlarının lobbiçiliyinə köklənmiş oldu. Nəzər yetirsək, dəqiq müəyyənləşdirmiş olarıq ki, həm İranın, həm də Səudiyyə Ərəbistanın diplomatiyası əsasən özlərinin yerləşdikləri regionda cərəyan edən proiseslərə adekvat cavab reaksiyasını ifadə edir. Regionda baş vermiş "ərəb baharından" öncə, ABŞ-ın İraqa hərbi müdaxiləsi İranın maraqlı reaksiyasına səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, İranla İraq arasında səkkiz illik müharibə baş vermişdir və ondan sonra münasibətlərin istiləşməsi əlamətləri müşahidə olunmamışdır.[11, s.7] Bu baxımdan, ABŞ-ın İraqa hücumu əslində İran tərəfindən təqdir olunmalı idi. Həqiqətən də, Londonda çıxan qəzetlərdən biri Amerika Birləşmiş Ştatlar və Böyük Britaniyanın İraqı bombalamasından İranın razı qaldığını yazdı. Əl-Şərq əl-əvsət adlanan qəzet İran hərbi rəhbərliyinin nümayəndələrindən birinin məlumatını çap etmişdi. Məlumatda deyilirdi ki, İran belə zərbələri gözləyirdi və müttəfiqləri İraqda yerləşən Mücahid Xalq Təşkilatının bazası haqqında məlumatlandırmışdı, yerləşdiyi yerin xəritələriylə təchiz edib. İran bilirdi ki, İraq bütün kimyəvi, bioloji silahları, atom layihəsi sənədlərini həmin təşkilatın bazasına köçürüb. Qəzet həmçinin BillKlintonun İran-İraq müharibəsi vaxtı mülki əhaliyə qarşı kimyəvi silah işlədilməsi barədə bəyanatının İran mətbuatında razılıqla qarşılandığını yazmışdı. Lakin bu mövqenin əksini iddia edən çoxsaylı KİV-lərə də rast gəlmək mümkün idi. Belə ki,Qətərin paytaxtı Doha şəhərində fəaliyyət göstərən məşhur Əl-Cəzirə televiziyasının məlmatında ABŞ-ın İraqa zərbələrinin İran uçun təhlükə olduğu söylənilirdi. Təbii ki, İranın ABŞ zərbələrindən narahatlığı üçün ciddi əsasların olduğu söyləmək mümkündür. Çünki, İran aydın dərk edirdi ki, ABŞ-ın ona yaxın ərazilərdə hərbi-siyasi mövqe tutması gec-tez onun özü üçün də baş ağrısına çevrilə bilər. Bu baxımdan, İran İraqa hərbi müdaxilə zamanı özünü tam təhlükəsizlik şəraitində hiss edə bilməzdi. Hətta, ABŞ-ın həmin dövrdə İrana qarşı da geniş miqyaslı hərbi kampaniyaya başlayacağı haqqında informasiyalar da yayılmaqda idi. Həmin dövrdə Səudiyyə Ərəbistanı ilə İran arasındakı münasibətlərdə gərginliyin dərinləşməsi bu istiqamətdəki ehtimalları ciddiləşdirirdi. Qeyd etmək lazımdır ki, həmin dövrdə İranda hakimiyyətə müxalifətdə duran bir neçə yazıçının şübhəli qətli də müəyyən şübhələrə yol açmışdır. Belə ki, bundan sonra, Amerika Birləşmiş Ştatlarının bundan istifadə edərək raketləri İrana doğru çevirə biləcəyi fərziyyəsi irəli sürülürdü. Həmin dövrdə həm Səudiyyə Ərəbistanı, həm də Amerika Birləşmiş Ştatları İranın Avropa ölkələri ilə münasibətlərindəki gərginliyin qalmasını və dərinləşməsini şərtləndirəcək addımlar atırdılar. Məqsəd isə, aydındır. Yəni, İran təcrid olunmuş vəziyyətdə daha aciz durumda idi və onu sıradan çıxarmaq tam real kimi görünürdü. Həmçinin, nəzərə almaq lazımdır ki, İraqa hücum məsələsində Səudiyyə Ərəbistanın ABŞ-ı yaxından dəstəkləməsi həm də İraq tərəfindən real təhlükənin mövcudluğu ilə bağlı idi. Belə ki, ötən əsrin 90-cı ilinin avqustunda İraqın Küveytə hərbi müdaxiləsi Səudiyyə Ərəbistanı üçün ciddi siyasi, hərbi və iqtisadi fəsadlara səbəb olmuşdur. Küveyt ərazilərində nəzarəti ələ aldıqdan sonra, İraq hökuməti hərbi qüvvələrini Səudiyyə Ərəbistanı ilə sərhəddə toplamağa başlamışdır ki, bu da ikinci tərəfindən hərbi-siyasi təhlükəsizlik üçün ciddi təhdid kimi qiymətləndirilmişdir. Bu mənada, Səudiyyə Ərəbistanı ABŞ-ın simasında ən güclü və etibarlı müttəfiqini görürdü. Həqiqətən, İraq təhlükəsini aradan qaldırmaq üçün Səudiyyə Ərəbistanı hərbi səfərbərlik elan etmişdir və bunun ardınca kömək üçün ABŞ-a müraciət etmişdir. Elə bunun özü ABŞ strategiyasının həyata keçirilməsi mərhələsi kimi qiymətləndirilə bilərdi. Çünki, Səudiyyənin rəsmi müraciətindən sonra ABŞ-ın və müttəfiqlərinin çoxsaylı hərbi qüvvələri onun ərazisində yerləşdirilmişdir ki, bu ABŞ-ın bütövlükdə hərbi-siyasi mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir. Bu, müvafiq olaraq, Səudiyyə Ərəbistanı ilə İran arasında gərginliyin dərinləşməsinişərtləndirmişdir.[3, s.21] Ümumiyyətlə ötən əsrin 90-cı illərində regionda cərəyan edən proseslər Səudiyyə Ərəbistanı üçün müəyyən təhdidlər yaratsa da, onun və ABŞ-ın xeyrinə idi. Birincisi, Səudiyyə Ərəbistanı İraqdan və Küveytdən alınan nefti kompensasiya etmək üçün öz hasilatını bir neçə dəfə artırmışdır ki, bu da ona ciddi iqtisadi dividentlər gətirmişdir. İkincisi, ABŞ cərəyan edən prioseslərdən regionda öz hərbi-siyasi mövcudluğunu təmin etmək və möhkəmləndirmək üçün istifadə etmiş oldu.Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Fars körfəsində baş vermiş müharibə Səudiyyə Ərəbistanın xarici və daxili siyasətinin konturlarının daha dəqiq müəyyənləşməsində əhəmiyyətli rol oynamışdır. Belə ki, bundan sonra Səudiyyə Ərəbistanın xarici siyasi kursunun yönü tam bəlli olmuşdur. İrak böhranın həlli prosesində Səudiyyə Ərəbistanı ilə ABŞ arasındakı qarşılıqlı münasibətlər köklü şəkildə dəyişmişdir. Səudiyyə Ərəbistanın öz təhlükəsizliyini təmin etmək üçün ABŞ-dan hərbi yardım alması həm onun özü üçün, həm də ABŞ üçün həlledici məqam olmuşdur. Yəni, bundan sonra, Səudiyyə Ərəbistanı əsasən regionda ABŞ-ın geosiyasi və geoiqtisadi maraqlarının qoruyucusu rolunda çıxış etməyə başlamışdır. ABŞ-ın yaxından dəstəyi isə, Səudiyyə Ərəbistanın regionda əhəmiyyətli dərəcədə nüfuz qazanmasını şərtləndirmişdir. Belə ki, Səudiyyə Ərəbistanı digər ərəb ölkələrini öz təsir çətiri altına ala bilmişdir. Təbii ki, bu da ABŞ-ın strateji maraqlarına cavab verirdi. Çünki, Səudiyyənin təsiri dairəsində olan digər ərəb ölkələri də bu və ya digər dərəcədə ABŞ-ın maraqlarına həssaslıqla yanaşmalı olurdurlar. Həmin dövrdən başlayaraq, Səudiyyə Ərəbistanın diplomatiyasının xarakterini açmağa imkan verən əsas məqam rolunda məhz bu reallıqlar çıxış

etmişdir. Müvafiq olaraq, ABŞ-ın İrana olan münasibətini Səudiyyə Ərəbistanı öz davranışlarında açıq ifadə etməyə başlamışdır.

İran diplomatiyası hazırkı mərhələdə dünya dövlətləri ilə təmasların normalaşdırılmasınaistiqamətlənmişdir. Bunu sübut edən ciddi məqamlar vardır. Məsələn, 2015-ci ilin iyulunda nüvə anlaşmasının imzalanması İranla Qərb ölkələri arasındakı münasibətlərdə müəyyən mənada dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Bəzi analitiklərin fikrincə, bu anlaşma Yaxın və Orta Şərqdə yeni geosiyasi vəziyyətin yaranmasını şərtləndirmişdir. İranla Avropa ölkələri arasındakı münasibətlərin normalaşmasından ən ciddi narahatçılıq keçirən ABŞ və onun Yaxın regionunda ən etibarlı müttəfiqi olan Səudiyyə Ərəbistanı oldu. Belə ki, amerikalı tədqiqatçılar açıq şəkildə bildirirdilər ki, İrana qarşı sanksiyaların birtərəfli qaydada qaldırılması onun regionda rolunun əhəmiyyətli dərəcədə artmasını şərtləndirəcəkdir.[4] ABŞ-ın İran hakimiyyəti ilə hər hansı bir səviyyədə kompromissə getməsi mümkünsüz kimi görünür. Çünki, ABŞ Yaxın Şərq siyasətində əsasən iki müttəfiqinə istinad edirdi. Birincisi, Səudiyyə Ərəbistanı idisə, ikincisi İran idi. Bu baxımdan, ABŞ İran İslam İnqilabını heç cür həzm edə bilmir. İnqilabdan sonra ABŞ Yaxın Şərq siyasətinin reallaşdırılması alətlərini və mexanizmlərini tamamilə yenidən nəzərdən keçirilməli oldu.[1, s.28]

Son zamanların müşahidələri göstərir ki, Səudiyyə Ərəbistanın diplomatiyasında kardinal dönüşlər haqqında düşünməyə əsas vermişdir. Yəni, Səudiyyə Ərəbistanı diplomatiyası üçün yeganə prioritet artıq ABŞ deyildir. Artıq maraqlar, müvafiq olaraq, prioritetlər dəyişməkdədir. Əlavə olaraq, enerji sektorunda Səudiyyə Ərəbistanı ilə ABŞ arasında rəqabətin meydana gəlməsi də münasibətlərin xarakterinin əvvəlki kimi olmadığına dəlalət edir.[2, s.6] Bundan başqa, artıq Səudiyyə Ərəbistanı hakimiyyəti də ABŞ-ın regionda jandarm rolundan məmnun olmadığını aşkar büruzə verməkdədir. Çünki, belə rol Səudiyyə Ərəbistanın özünün də siyasi manevr imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Həmçinin, Səudiyyə Ərəbistanın avtoritar rejimi ABŞ-ın liberal dairələri tərəfindən müsbət qarşılanmır.[9, s.144] Səudiyyə Ərəbistanın öz maraqları çərçivəsində müstəqil siyasət yeritmək cəhdləri ABŞ tərəfindən birmənalı qarşılanmır. Belə ki, Yəmən hadisələri zamanı davranışları ABŞ-ın dəstəyini qazanmadı. Səudiyyə Ərəbistanı da öz növbəsində ABŞ-ın belə mövqeyini İrana siyasi jest kimi qiymətləndirmişdir. Nəzərə almaq lazımdır ki, Yəmənin əsas əhalisi şiələrdən ibarətdir və İranın hərtərəfli dəstəyinə güvənir. Ümumiyyətlə, Səudiyyə Ərəbistanı Qərbin son illərdəki İran siyasətini ciddi tənqidlə qarşılayır və iddia edir ki, Qərb "Nüvə anlaşması" ilə İranın iqtisadi, siyasi və hərbi potensialının artmasını şərtləndirir. Əksər analitiklər hesab edirlər ki, Səudiyyə Ərəbistanı Rusiya ilə təmasların sıxlaşdırılması taktikasını seçməklə Qərbə mesaj göndərir. Ümumiyyətlə, Səudiyyə Ərəbistanın diplomatiyasının Rusiya yönünün güclənməsi davam edəcəkdir. Hətta, gələcəkdə İranla münasibətlərin də normallaşması ehtimalları kifayət qədər güclüdür. Çünki, Yaxın Şərqdə cərəyan edən proseslərə Rusiyanın və onun yaxında İranın təsir imkanları artıq göz önündədir. Bu baxımdan, Səudiyyə Ərəbistanın Rusiya ilə İranla əməkdaşlıq strategiyasına üstünlük verməkdən başqa yolu yoxdur.

Nəticə

Apardığımız təhlillərə əsasən qeyd edə bilərik ki, İran və Səudiyyə Ərəbistanı diplomatiyası kifayət qədər fərqli elementlərə malikdir. Hər iki tərəfin fərqli siyasi yönü mövcuddur. Bununla yanaşı, xarici siyasət strategiyasının konturlarının dəyişməsini yeni yaranan geosiyasi reallıqlar şərtləndirməkdədir. Ümumilikdə, Səudiyyə Ərəbistanı ilə İran arasındakı münasibətlər gərginliyi ilə seçilir. Bununla yanaşı, yaxın gələcəkdə münasibətlərdə yeni mərhələnin başlanması ehtimalları vardır. Bu mənada Rusiya amili həlledici rol oynaya bilər.

ƏDƏBİYYAT

1. Alvandi R. Nixon, Kissinger, and the Shah: The United States and Iran in the Cold War. New York, NY: Oxford University Press., 2014, pp.28-64

2. Blanchard C.M. Saudi Arabia: Background and US Relations. Congressional Research Service, 2016, September 20, pp. 1-34

3. Hart T. Parker Saudi Arabian and the United States: Birth of a Security Partnership. 1999, 312 P.

4. James Phillips. The Dangerous Regional Implications of the Iran Nuclear Agreement. the Heritage Foundation. URL: http://www.heritage.org/research/reports/2016/05/the-dangerous-regionalimplications-of-the-iran-nuclear-agreement (müraciət tarixi: 25.01.2018)

5. Middle East: Focus on the Future // Finance and Development. 2013, vol. 50, № 1, pp. 8–9.

6. Russel J. A. Saudi Arabia in the 21st Century: A New Security Dilemma / J. A. Russel // Middle East Policy. – 2012, Vol. 12, № 3, P. 64–78

7. Бжезинский З. «Великая шахматная доска». М., "Международные отношения" 1998, 112 с.

8. Гюмюш, Н.Т. Почему саудовский король не встретил Обаму. // Hurriyet. – 2016. – 22 апр. – Электрон. текстовые дан. – Режим доступа: http://inosmi.ru/politic/20160422/236266207.html (дата обращения: 24.01.2018)

9. КрючковИ. В. Внешняя политика Саудовской Аравии на Ближнем Востоке в начале XXI века//Вестник ВолГУ. Серия 4, История. Регионоведение. Международные отношения. 2017. Т. 22. № 3, с. 142-149

10. Кузьмин А.Ю. Некоторые особенности выстраивания региональных внешнеполитических ориентиров Королевства Саудовская Аравия в начале XXI в.// Вестник Вятского государственного гуманитарного университета. 2014, с. 83-87

11. Кухестани Иеджад М. Отношения между Ираном и Ираком в первой половине двадцатого века // История международных отношений. 2004. № 19. с. 5-40.

12. Нейматов А.Я. Внешняя политика и дипломатия Саудовской Аравии в контексте цветных революций. М., Научное издание, 2015, 146 с.

13. Суворова В.В. Военно-техническое сотрудничество США и Саудовской Аравии (90-ые годы XX – начало XXI вв.)// Вестник Адыгейского государственного университета. Серия 1: Регионоведение: философия, история, социология, юриспруденция, политология, культурология. 2012, с.1-10

Açar sözlər: *İran, Səudiyyə Ərəbistanı, diplomatiya, maraqlar, Yaxın Şərq, ABŞ, Rusiya.*

Tarix

RUSİYA HAKİMİYYƏTİ DÖVRÜNDƏ DƏRBƏNDİN SOSİAL İNKİŞAFI

ƏZİZOVA M.
Azərbaycan MEA A.A.Bakıxanov adına
Tarix İnstitutu

Hərbi-strateji cəhətdən əlverişli zonada yerləşən Qafqaz bölgəsi XVIII əsrin əvvəllərindən etibarən Rusiyanın eksponsionist siyasətinin əsas hədəfinə çevrildi. Çar Rusiyasının Qafqaza ilk yürüşü 1722-1723-cü illərdə I Pyotrun dövründə başlasa da, bütövlükdə Qafqaza rusların ən böyük və irimiqyaslı hücumları I Aleksandrın dövründə (1801-1825) həyata keçirildi. XIX əsrin əvvəllərində Rusiyanın Qafqaz siyasətinin yeni mərhələsində beş minillik tarixi olan Dərbənd və ətraf əraziləri xüsusi önəm daşıyırdı və böyük geostrateji əhəmiyyətə malik idi. 1806-ci il iyun ayında Dərbəndi işğal etdikdən sonra Qafqazın dərinliklərinə nüfuz etməyə başlayan çar Rusiyası tabe etdirdiyi ərazilərdə sosial, siyasi, iqtisadi və mədəni islahatlar aparmaqla bölgədə rus imperiya idarəçiliyini formalaşdırmağa başladı. İmperiyanın Dərbənd şəhərinə və əhalisinə yönəlik sosial islahatları da buradakı idarəçiliyi rus imperiya siyasətinə uyğunlaşdırılmağa xidmət edirdi.

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının verdiyi məlumatlardan bəlli olur ki, Dərbənd xanlığının Rusiya tərəfindən işğalından sonra çarizmin burada fəaliyyət istiqamətlərindən biri də köçkünlərin yerləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi olur. İmperiyanın daxili işlər naziri qraf V.P.Koçubey Qafqaz komandanlığına məktubunda Bazeldən onun yanına gəlmiş Ditrix və Zaremba adlı iki keşişin Qafqazda almanlar üçün məskənlər salmaq niyyətində olmaları bildirilirdi. Daxili İşlər Nazirliyi onlara Qafqazda məskunlaşmağa münasib yeri axtarıb seçmək icazəsini də vermişdi. Həmin şəxslər Cənubi Qafqazın digər rayonları ilə yanaşı, gələcək alman məskənləri üçün Dərbənd-Quba bölgəsini də seçmişdilər. Lakin Dərbənd və Quba rus hakimiyyətinə yenicə tabe edilmiş ərazilər olduğu üçün hökumət bu təklifə isti yanaşmırdı. Qraf Koçubeyin fikrincə, həmin nəzərdə tutulan ərazilərə yerində baxış keçirməlidirlər. Bu məqsədlə missionerlərə gərəkli yardımın edilməsi barədə Qafqaz komandanlığına lazımi göstərişlər verilirdi [11, 468].

Qafqazdakı rus qoşunlarının baş komandanı A.P. Yermolov imperiyanın daxili işlər nazirliyinə yazdığı cavab məktubunda qeyd edirdi ki "Sizin 1822-ci il 16 fevral tarixli məktubunuzda göstərildiyi kimi, Bazel İncil Cəmiyyətinə Qafqazda, Qara və Xəzər dənizləri arasında məskənlər salmaq, almanları orada yerləşdirmək, yerli müsəlmanlar arasında xristianlığı yaymaq məqsədilə orada mətbəə və məktəblər açmaq üçün icazə verilməsi barədəki məktubunuza uyğun olaraq keşişlər Dmitrix və Zaremba mənim yanıma gəlmişlər. Onların sözlərindən bəlli oldu ki, onlar almanlar üçün Dərbənddə, Qubada, Bakıda, Şamaxıda, Nuxada, Yelisavetpolda məskənlər salmaq istəyirlər. Mən onlara bu iş üçün şəraitin yaradılması məqsədilə yerli hakimiyyət orqanlarına lazımi göstərişlər verməklə, həmin yerlərdə koloniyaların salınmasının qəti yolverilməz olması barədəki fikirlərimi də sizin nəzərinizə çatdırmaq istəyirəm".

Daha sonra məktubda yazılırdı ki, Gürcüstanda kolonoyaların salınması təcrübəsi onları bu işə ehtiyatlı yanaşmağa məcbur edir. Çünki əgər orada yerli əhali kolonistləri yaxşı qarşılamamışdılarsa, fanatik müsəlmanlar arasında bu tədbir, ələlxüsus əhali arasında xristianlığın təbliği müqavimətlə qarşılana bilər. Buna görə də A.P. Yermolov Bazel İncil Cəmiyyətinə məskənlər salmaq üçün yerin ayrılmasından öncə onlara yerlərdə məktəblər və mətbəələrin açılmasına icazə verməyi təklif edirdi. Onun fikrincə bu yolla yerli əhali ilə ünsiyyət quraraq yaxınlaşdıqdan sonra tədricən digər planları da həyata keçirmək olar [14, 472].

İşğalın ardınca Dərbənddə 1806-cı ilin avqustunda komendant vəzifəsi təsis edildi. Onun üzərinə qayda-qanuna nəzarət, şəhərin müdafiəsini təşkil etmək,qala qarnizonuna komandanlıq, inzibati-idarəçilik funksiyalarını həyata keçirmək kimi vəzifələr qoyulmuşdu. Lakin komendantın öz vəzifəsindən sui-istifadə etməsi yerli əhalinin ciddi narazılığına səbəb olmuşdu. Şəhər əhalisinin siyahıya alınması

aparılmaması, şəhərdə dözülməz vəziyyət hökm sürməsi, yalnız sənətkarların və tacirlərin şəhərdə yaşamaq hüququnun olmasına baxmayaraq heç bir yoxlama aparılmadan hər kəsin, hətta əkinçilər də yaşamaq üçün şəhərə buraxılması Dərbənd şəhərinin abadlaşdırılması məsələsi gündəmə gətirmişdi [20, 108-109].

A.P. Yermolov Dərbənd komendantına bütün bu çatışmazlıqların aradan qaldırılmasını, şəhər əhalisinin siyahıya alınmasına başlamağı, aidiyyatı olmayan adamların şəhərdən çıxarılmasını əmr etməklə şəhərin yeni plan əsasında abadlaşdırılmasına yönəlmiş təkliflərini verirdi. A.P. Yermolov tərəfindən təsdiq olunaraq, mühəndis podpolkovnik Danilova verilmiş yeni plana əsasən, şəhərin Narınqaladan dənizə tərəf olan hissəsində varlı adamların məskunlaşdırılması təklif olunurdu. Baş meydanda şəhər məhkəməsi, xəzinə və mühafizə yerləşməli idi. Burada piştaxtalar üçün yer ayrılmalı, yəhudi və erməni məhəllələri müəyyən olunmalı idi. Ordunun şəhərdə yerləşdirilməsi zamanı özbaşına evlərin zəbt olunması nəticəsində əhali arasında narazılıq hallarının baş verməməsi üçün xüsusi komissiya təşkil olunması nəzərdə tutulurdu [20, 108-109].

Tezliklə bu istiqamətdə işlərə başlanılır. Bu işlərin həyata keçirilməsi zamanı əhalinin bir hissəsinin şəhərdən kənara köçürülməsi, bəzi yerlərdə evlərin sökülməsi planlaşdırılırdı. Bu zaman əhalinin baş verə biləcək narazılığının qarşısının alınmasına yönəlmiş bəzi tədbirlər nəzərdə tutulmuşdu. Qala komendantının səlahiyyətlərini icra edən mayor fon Aşeberq tərəfindən hazırlanmış tədbirlər planında göstərilirdi ki, Kurinsk piyada alayının qərargahının inşa edilməsi üçün lazım olacaq daşın əksər hissəsi evləri sökülmək üçün nəzərdə tutulan sakinlərdən pulla alınmalıdır. Bu məqsədlə şəhər starşinalarına daşın sındırılması sifarişini qəbul etmək qadağan olunmuşdu. Bu tədbir nəticəsində evləri köhnə olan əhalinin əksər hissəsi onların sökülməsinə razı olur. Bununla onlar hesab edirdilər ki, onsuz da qəzalı vəziyyətdə olan evlərin sökülməsindən sonra daşın və digər yararlı materialın satışından müəyyən qədər pul əldə edəcəklər, ona görə də bu zaman o qədər də zərər görməyəcəklər. İkinci tərəfdən bu zaman evlərin söküntüsü icma tərəfindən həyata keçirildiyindən onlar həm də söküntü xərclərindən də azad olurdular. Lakin qeyd etmək lazımdır ki, əksər hissəsinin hətta öz evinin söküntüsünü aparmaq imkanında olmayan yerli əhalininin hakimiyyətin bu təklifinə razılıq verməsi daha çox ziyana düşmək qorxusundan qaynaqlanırdı; sakinlər evlərinin sökülməsinə razı olmayacaqları təqdirdə, sonradan bu güzəştlərdən də məhrum ola biləcəklərindən ehtiyatlanırdılar.

Fon Aşeberq hesab edirdi ki, şəhərin yenidən qurulması zaman keçdikcə ictimai rifah kəsb edəcək, ona görə də əhali öz əmlaklarını qurban verməklə bu işdə iştirak etməli idilər. Bu məntiqlə də o, şəhərin abadlaşdırılması işinə əhalinin bu şəkildə cəlb edilməsini qanuni sayırdı [23, 110].

Fon Aşeberqin planını bəyənən A.P. Yermolov fon Krabbeyə məktubunda bu barədə yazırdı: "Şəhərdə baş meydanın təşkil olunmasını, meydanın kənarında bir neçə sajen məsafədə yerləşən evlərin sökülməsi fikrini bəyənirəm. Meydanların, enli küçələrin salınması zamanı əhalinin sıx şəkildə yaşaması maneçilik törədəcək və buna görə də onların aşağıdakı qaydada köçürülməsini təklif edirəm: bir saylı siyahı üzrə evləri yararsız halda olanlar, şəhər kənarında torpaq sahəsi və bağları olanlar, arabaçılıq edənlər və sənaye ilə məşğul olanlar yeni yerə köçürülsün. Onlardan yaxşı ev tikmək imkanı olanlara Dubar adlanan yerdə sökülmüş evlərinin müqabilində şəxsi torpaq sahəsi verilməli; heç bir sənət sahəsi ilə məşğul olmayıb, şəhərdə yararsız halda olan evindən savayı əmlakı olmayanlar iki saylı siyahı üzrə xəzinə kəndlərinə köçürülməli; müxtəlif yerlərdən şəhərə gələn, şəhərdə hər hansı bir məşğuliyyəti, şəxsi əmlakı olmayanlar üç saylı siyahı üzrə əvvəlki yaşayış yerlərinə köçürülməlidir. Lakin son iki kateqoriyadan olanlardan öz hesabına ev tikmək istəyənlərə forştad, yaxud da şəhərdə məqsədəuyğun yer ayrılmalıdır" [27, 111-112].



Dərbənd mayakı (1853-cü ildə tikilmişdir)

A.P. Yermolov şəhərin abadlaşdırılması ilə bağlı da öz təkliflərini verir. Baş komandan dükanların şəhərin aşağı hissəsində təşkil olunmuş meydanda qurulmasını, ət və un cərgələrini də orada yerləşdirməklə, şəhərə gətirilən müxtəlif məmulatları – yeyinti məhsullarını, meşə materiallarını və s. oraya yönəltməyi təklif edirdi. Onun təkliflərinə görə şəhərin aşağı hissəsində misgərlər və dəmirçilər yerləşdirilməklə, at və dəvə karvanları ilə şəhərəvarid olanlar üçün yerlər qurulmalı idi [27, 111].

Lakin şəhərin abadlaşdırılması işlərinə bir qədər sonra başlanılır. Şəhəri ayıran divarın götürülməsindən sonra əmələ gələn boş yerlərdə erməni və yəhudilər yerləşdirilir. 1848-1849-cu illərdə burada 5 verst və 100 sajen uzunluğunda su xətti çəkilir, 6 sajen dərinliyində hovuz tikilir. 1851-ci ildə Dərbənd şəhərində 2092 daş ev, 345 çiy kərpicdən tikilən ev var idi [6, 59-60]. Müqayisə üçün qeyd edərdik ki, 1824-cü ilə dair məlumatda şəhərdə 1818 evin, 3 hamamın, hərbi hissəyə məxsus 2 yunan-roma (katolik), 1 erməni kilsəsinin və 15 məscidin olduğu göstərilir [23, 109-110]. XIX əsrin 40-cı illərin sonlarında burada 370 daş, 24 taxta dükan fəaliyyət göstərirdi [6, 59-60]. 1848-ci ildə şəhərdə 500 nəfərlik pravoslav kilsəsinin tikintisinə başlanılmışdı 1853-cü ilin noyabrında istifadəyə verilən bu kilsənin tikintisi xəzinəyə 29446 gümüş rubl 88 qəpiyə başa gəlmişdi [18, 830].

Yerli əhali şəhərin ictimai həyatında kifayət qədər yaxından iştirak edirdi. Dərbənd şəhərin müsəlman, erməni və yəhudi icmasının nümayəndələri tərəfindən yetim və kimsəsizlərə yardım etmək kimi xeyriyyə məqsədi ilə könüllü ianə toplanılırdı. Sənədlərdə göstərilir ki, 1856-cı ilin iyulunda şəhər komendantının səlahiyyətlərini icra edən Klugenaunun yanına gələn bu nümayəndələr həmin məbləğin xüsusi qeydiyyat kitabına salınmasını xahiş etmişdilər. Xeyriyyə məqsədilə müsəlmanların 1000 rubl, ermənilər 850 rubl topladığı, yəhudilərin isə ildə 60 rubl gəlir verən su mənbəyini verdiyi qeyd olunurdu [22, 698].

Görülən işlər şəhər əhalisinin artımına təsir edirdi. Əgər 1810-cu il üçün Dərbənd şəhərində 3719 nəfər qeydə alınmışdısa (onlardan 3497 nəfər müsəlman şiə, 56-ı erməni, 166 nəfər isə yəhudi idi) [15, 38]. Dərbənd qala komendantının səlahiyyətlərini icra edən mayor fon Aşeberqin 1824-cü ilin iyulun 16-da verdiyi məlumata görə şəhərdə artıq 11060 nəfər (5773 kişi, 5287 qadın), o cümlədən 10377 müsəlman (5407

Азербайджанские ханства
XVIII - начало XIX вв.

kişi, 4970 qadın), 239 erməni (136 kişi, 103 qadın), 544 yəhudi (230 kişi, 214 qadın) yaşayırdı [23, 109-110].

Qeyd edək ki, ermənilər I Pyotrun Xəzərsahili bölgələrə yürüşündən sonra bura köçürülmüşdü. Zubovun Dərbənd yürüşü zamanı etdikləri xəyanətkar fəaliyyətləri nəticəsində rusların şəhərdən çəkilməsindən sonra Dərbəndi tərk etmək məcburiyyətində qalmış ermənilər 1806-cı ildə şəhərin ruslar tərəfindən işğalından sonra yenidən bura qayıtmışdılar [15, 38; 3, 267].

1832-ci il məlumatına görə Sabnova kəndi və forştadla birlikdə Dərbənddə 1795 ev, kişi cinsindən olmaqla 4741 tatar (azərbaycan türkü-M.Ə.), 256 yəhudi, 142 erməni, cəmi 5439 nəfər yaşayırdı [7, 96] 1843-cü il məlumatına görə isə Dərbənd qəzasında 33880 nəfər (18241 kişi, 15639 qadın) qeydə alınmışdı [2, 834]. Həmin ilə dair məlumata görə bilavasitə şəhərdə (Dərbənd şəhəri, forştadt və Sabnova ilə birlikdə) 2762 ailə, 11278 nəfər qeydə alınmış və onlardan 9572 nəfəri azərbaycanlı, 284-ü erməni, 871-i yəhudi, 3-ü alman, 2-i yunan idi. Göründüyü kimi rus işğalından 30 ildən artıq bir müddət keçməsinə, rusların şəhərin etnik tərkibinin dəyişdirilməsi istiqamətindəki ciddi-cəhdlərinə baxmayaraq, azərbaycanlılar ümumi əhalinin 84,8%-i təşkil edirdi [4, 269].

1850-ci ilə dair məlumata görə Dərbənd şəhərində 12332 nəfər, Dərbənd qəzasında isə 50551 nəfər qeydə alınmışdı ki, Dərbənd şəhər əhalisinin 1118 nəfəri müsəlmanlar, 861-i yəhudilər, 302-ni ermənilər, qəza əhalisinin isə 49443 nəfərini müsəlmnlar, 1108 nəfərini yəhudilər təşkil edirdi [1, 578-580]. 1858-ci ilə dair məlumata görə Dərbənd şəhərinin əhalisinin 13000, Ulus mahalının əhalisinin isə 3000-ə qədər olduğu göstərilir [9, 647]. 1859-cu il siyahıya almasına görə isə Dərbənd şəhərində 6686-ı kişi, 6784-ü qadın olmaqla 13470 nəfər hər iki cinsdən olan əhali yaşayırdı [7, 96].

1824-cü illə müqayisədə (11060 nəfər) 1850-ci ildə (12332 nəfər) şəhər əhalisinin çox cüzi artımının (cəmi 1272 nəfər) səbəblərindən biri və başlıcası fikrimizcə 30-cu illərdə burada baş vermiş köçlə bağlı idi. Belə ki, Dağıstan hərbi-dairə rəisinin 1837-ci il məlumatına görə, 1833-cü ildə baş vermiş aclıq nəticəsində əksər əhalinin digər yerlərə getməsi səbəbindən Dərbənd vilayətində əhalinin xeyli azalması baş vermişdi [10, 604].

A.P. Yermolov qeyd edir ki, Dərbənd çox nadir şəhərlərdəndir ki, əhalisinin demək olar ki, hamısı şiədir. Ona görə də burada seyidlərə böyük hörmət var. Bu səbəbdən də İran hökuməti həmişə öz məqsədi üçün bu seyidlərdən istifadə etmişdir [13, 114].

Qafqaz komandanlığı Dərbənd qəzasının əhalisini rus hakimiyyətinə münasibətinə görə dörd qrupa bölürdü: 1) rus hakimiyətinə yetərincə itaətkar olan, rus qaydalarına vərdiş etmiş, adətlərinə görə ruslara kifayət qədər yaxın olanlar; 2) ruslara kifayət qədər itaətkar olan, ancaq hələ də Rusiya qanunlarının ruhunu tam başa düşməyənlər; 3) ruslara yarımçıq itaət edən, öz qaydaları ilə yaşayaraq yalnız hərbi qüvvənin nəzarəti olduqda tabeçilik göstərənlər; 4) xarakterinə görə yarımvəhşi olan və çoxsaylı rus hərbi qüvvəsinin onların arasında peyda olmasından sonra tabe olanlar [8, 424]. Birinci qrupa Dərbənd qəzasının 16 mindən artıq evdən ibarət əhalisinin 540 evdən ibarət Ulus mahalının daha sülhsevər xarakterli əhalisi daxil edilmişdi; onlar rus mülki idarəçiliyinə çoxdan alışmış hesab olunurdular. 3981 ailədən ibarət Tabasaran və Qaytaq əhalisi ikinci qrupa daxil edilirdi, yəni onların rus qaydalarına tam alışmadıqları güman olunurdu. Cənubi Tabasaran azad icmaları, Qaytağın dağlıq icmaları üçüncü qrupa aid edilirdi; onların bəzisinin ruslara az miqdarda vergi ödədiyi bildirilirdi [8, 424-425].

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında Dərbənddə təhsilin vəziyyətinə dair də çox qiymətli məlumatlar vardır. Məlum olduğu kimi Cənubi Qafqaz məktəbləri haqqındar 2 avqust 1829-cu il tarixli əsasnaməyə əsasən, 1830-cu ilin martında Tiflis nəcib məktəbi gimnaziyaya çevrilir. Elə həmin il onun nəzdində pansion açılır. Bununla da diyarda qəza məktəblərinin təşkilinə başlanılır. 1834-cü ilə kimi artıq Telavi, Qori, Kutaisi, Şuşa, Sığnaq, Ahalsıx, İrəvan, Bakı, Nuxa, Yelizavetpol və Minqreliyada 11 qəza məktəbi açılır. Hər biri iki sinifli olan bu məktəblərdə şəriət, rus dilinin əsasları, ana dili və hesab dərsləri keçilirdi. Bu məktəblər keçilən fənlərə görə Rusiyadakı kilsə məktəblərinə bərabər tutulurdu [12, 97]. O vaxtlar baş komandan İ.F.Paskeviç Dərbənddə də qəza məktəbinin açılması təklifi ilə çıxış edir [5, 66].

Paskeviçi əvəz edən baron Q.V.Rozen də Dərbənddə üç sinifli məktəbin açılmasını təklif edir. Onun 8 fevral 1834-cü il tarixli məktubunda göstərilirdi ki, Zaqafqaziyadakı təhsil müəssisələri ilə bağlı mövcud vəziyyət onu qətiyyən qane etmir və buna görə də o, təhsilin vəziyyətinin yaxşılaşdırılması, yeni məktəblərin açılması ilə bağlı öz fikirlərinin əks olunduğu "Zaqafqaziyada təhsil hissəsinin təkmilləşdirilməsinə dair layihəni" irəli sürür. Həmin layihədə aşağıdakı tədbirlərin görülməsi zəruri hesab olunurdu: Rusiyadakı üç sinifli məktəblərin timsalında əvvəlcə Tiflis və Duşetidə, ardınca isə tədricən Dərbənd, Şamaxı və Lənkəranda bu sayaq məktəblərin açılması; bu məktəblərdə şəriət, rus dili, qrammatika, yerli dillər, coğrafiya, tarix icmalı, rəsmxət, rəsm, hesab, yazı dərsləri tədris olunması [12, 97].

Qaydalara görə Dərbənddə azərbaycanlı və erməni əhali üçün olmaqla iki məktəb açmaq nəzərdə tutulmuşdu. Ana dilindən dərs deyən müəllimlər həm də müsəlman və erməni şəriət dərslərini də keçməli idilər. Əgər ana dilindən dərs demək üçün dini dərəcəsi olan müəllim tapmaq mümkün olmazdısa, onda həmin dərsi keçmək üçün yerli ali rəhbərliyin razılığı ilə və Tiflis gimnaziyasında yoxlanıldıqdan sonra dünyəvi müəllim buraxılmalı idi. Hər bir məktəbin saxlanması üçün xəzinədən ildə 1750 gümüş rubl, bütövlükdə isə Cənubi Qafqazdakı 15 məktəb üçün 31700 gümüş rubl ayrılması nəzərdə tutulurdu [12, 98].

Artıq 1834-cü ilin sentyabrında baron Q.V.Rozen Zaqafqaziya məktəblərinin direktoruna məktubunda burada açılması nəzərdə

tutulmuş 8 məktəbdən Dərbənd, Naxçıvan, Şamaxı və Quba qəza məktəblərinin açılmasına razılıq verirdi [19, 99]. Buna uyğun olaraq 1837-ci ildə verilmiş əlahəzrət fərmanı ilə Bakıda və Dərbənddə məktəb binalarının tikilməsi və bu məqsədlə vəsaitin ayrılması qərara alınır. Lakin sonrakı illərdə müəyyən səbəblərə görə Dərbənddəki məktəb binasının tikintisi ləngiyir. Bu iş yalnız 1848-ci ildə başa çatdırılır [17, 855].

1848-ci il 18 dekabr əsasnaməsinə görə Qafqaz təhsil hissəsində aparılmış dəyişikliklərdən biri də Dərbənddə məktəb müdirliyinin yaradılması oldu. Həmin əsasnaməyə görə, 1849-cu ildə açılmış 7 müsəlman məktəbindən 2-si Dərbəndin payına düşürdü. Ümumilikdə 586 şagirdin oxuduğu həmin məktəblərin xərcinin bir hissəsi Qafqaz canişininin sərəncamında olan vəsait, digər hissəsi isə fərdi ianələr hesabına ödənilirdi [18, 897].

1848-ci il üçün Qafqazda 700 məscidin və orada tədrislə məşğul olan 3000 müəllimin olduğu göstərilir. Azyaşlı müsəlmanların bir hissəsi kilsə məktəblərində də təhsil alırdı. Lakin valideynlər uşaqlarını xristianlarla yaxınlaşdıracaq bu məktəblərə şox həvəssiz verir və bunu günah hesab edirdilər. Buna əyani misal kimi müsəlmanların yaşadıqları yerlərdəki 12 belə məktəbdə cəmi 165 müsəlman uşağının təhsil aldığını göstərmək mümkündür. Bunu nəzərə alan hökumət bu çatışmazlıqları aradan qaldırmaq məqsədi ilə Qafqaz canişini M.S.Voronsovun təklifinə əsasən 1848-ci ilin dekabrında Qafqaz təhsil dairəsi barədə əsasnamə qəbul edir. Lakin bu istiqamətdə ciddi nəticənin əldə edilməsi üçün çoxillik təcrübə və vaxt tələb olunurdu [16, 127].

Əgər 1849-cu ildə Dərbənd qəza məktəbində 54 şagird oxuyurdusa, 1850-ci ildə onların sayı 80 nəfərə çatmışdı. Həmçinin müsəlman məktəbində 50 nəfər təhsil alırdı. Həmin vaxt qəza məktəbində təhsil alan 80 şagirdin 32-i müsəlman, 37-i erməni, 11-i rus idi [1, 566].

1853-cü ilə dair məlumata görə Dərbənd quberniyasında 76 nəfərin oxuduğu 1 qəza məktəbi, 22 nəfərin oxuduğu 1 kilsə məktəbi, 38 nəfərin oxuduğu 1 müsəlman məktəbi var idi. O dövrdə Dərbənddə 15 məscid, 2 sinaqoq fəaliyyət göstərirdi [1, 530, 540].

Dərbənd hərbi qubernatorunun 1855-ci ilə dair hesabatında həmin ildə quberniyada 81 şagirdi olan 1 qəza məktəbinin, 48 şagirdi olan 1 ibtidai məktəbin olduğu göstərilir. Dərbənddəki müsəlman məktəbi isə Qafqaz canişininin əmrinə əsasən 1855-ci ildə Temirxan-Şuraya köçürülmüşdü. Bundan əlavə demək olar ki, hər bir kənd məscidinin nəzdində məktəblər fəaliyyət göstərirdi [1, 652]. 1855-ci ilə dair digər bir sənəddə isə Dərbənddə olan bir qəza məktəbində 6 müəllim və 68 şagird olduğu qeyd edilir [25, 721].

Hələ 1853-cü ilin mayında Xəzərsahili vilayətdə mülki idarənin rəisi və orduların komandanı Xəzərsahili əyalət üzrə müsəlman dini idarələrinin şəhər mükəlləfiyyətindən azad edilməsi təklifi ilə Qafqaz canişininə müraciət edir. Lakin Voronsov İmperiyanın heç bir yerində məscidlərin şəhər mükəlləfiyyətindən azad edilmədiyini əsas gətirərək, məscidlərin ixtiyarında olan daşınmaz əmlakın icarəyə verilməsi müqablində ödənilən mükəlləfiyyətdən azad edilməsini qeyri-mümkün hesab etmiş və bu barədə 1853-cü ilin dekabrında xüsusi məktubla general-adyutant knyaz Arqutinski-Dolqorukova bildirmişdi.

Xəzərsahili vilayətdə müvəqqəti orduların komandanı və mülki idarənin rəisi general-leytenant knyaz Orbeliani Voronsova yazırdı ki, Dərbənd hərbi qubernatoru general Minkviz 1854-cü il fevralın 6-da ona yazdığı məktubda əksəriyyəti şiə olan Dəbənd müsəlmanlarının 1831-ci ildə Qazı Məhəmmədin yürüşü və 1851-ci ildə müridlərin Tabasarana yürüşü zamanı hökumətə sadiq qaldıqlarını əsas gətirərək, növbəti dəfə məscidlərin mülkiyyətində olan əmlakın şəhər xəzinəsinə vergi ödəməkdən azad edilməsini xahiş edirdi.

Bunu nəzərə alan Voronsov general-leytenant Reuta məktubunda Dərbənd şəhər baş məscidinə məxsus daşınmaz əmlakın əvvəlki illər üçün şəhər vergisini toplamaqdan və gələcək dövr üçün şəhər mükəlləfiyyətindən azad edilməsinə icazə verdiyini bildirirdi [21, 612-613].

I Aleksandr (1801-1825) — Rusiya imperatoru.

Dərbənd cəmiyyətinin yuxarı təbəqəsini təşkil edən müsəlman ruhaniləri hələ xanlıq zamanında vergi və mükəlləfiyyətlərdən azad edilmişdi. Lakin Rusiya hakimiyyəti zamanında onların bir hissəsi vergilərin ödənilməsinə cəlb edilmişdi. Müstəqil şəkildə yazıb oxumağı öyrənənlərin bəylər tərəfindən molla adına layiq görülməsi rus hakimiyyəti zamanında onların social mənşəyinə yenidən baxılmasını zəruri etmişdi. Sənədlərdə ruhanilərin çoxsaylı olduğu bildirilirdi [24, 427-428].

Rusiya hakimiyyəti dövründə bəylərin social statusunun müəyyən edilməsi mıəqsədilə də müəyyən tədbirlər görülmüşdü. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında göstərilir ki, müsəlman əyalətlərinin quruluşu üzrə Komitə öz iclasında Tiflis hərbi qubernatoru S.S. Strekalovun aşağıdakı məsələlərə dair təklifini müzakirə etmişdir; 1) özlərini bəy elan edənlərin hüquqlarını necə əsaslandırmalı; 2) onların kəndlilərinə hansı hüquqlar verilməli; 3) Bir hissəsinin vergi ödədiyi, digərlərinin isə vergidən azad edildiyi, müxtəlif adlar altında mövcud olan müsəlman ruhanilərinə hansı hüquqlar şamil etməlidir. Bəy kəndlilərini müəyyən edən heç bir qayda mövcud deyil. Əgər onların bəy kəndliləri olduğunu göstərən sənəd tələb olunsa, onda bu hüquqdan az bir qisim yararlanacaq.

Bəylərin də bəylik hüququnu təsdiq edən sənəd yox idi. "Bəylər vergi və bütün mükəlləfiyyətlərdən azaddırlar, buna görə də özünü bəy

elan edənlər çoxdur. Əgər onlardan bəylik hüququnu təsdiq edən sənəd tələb olunsa, onların çoxunda belə sənəd olmadığından əksəriyyəti veri ödəyənlər kateqoriyasına aid edilər, bununla da xəzinəyə daxil olan vergilərin miqdarı da artar" [24, 427-428].

Quberniyada 1855-ci il üçün 2009 irsi zadəgan və bəy, 199 şəxsi zadəgan, 4973 ruhani xidmətçi (onlardan 10-u pravoslav, 1-i katolik, 34-ü qriqoryan, 31-i yəhudi, 4897-i müsəlman idi) qeydə alınmışdı. Quberniya əhalisinin ümumi sayı isə 469153 nəfər idi [1, 673].

Dərbənd şəhərində ali zümrəyə aşağıdakılar aid edilirdilər (kişi cinsinə mənsub olanlar): qulluqçular (rəislər – 9 ailə; onların oğlanları və qohumları-27); istefada olanlar (rəislər-2 ailə; onların oğlanları və qohumları -4); qulluqçu olmayanlar, lakin hərbi və mülki rütbəsi olanlar (rəislər-19 ailə; onların oğlanları və qohumları -49); sultanlar, bəylər, məliklər və digər zadəganlar (rəislər-48 ailə; onların oğlanları və qohumları -73) – cəmi 231. Yerli olmayan zadəganlar: xidmətçilər-(rəislər-82 ailə; onların oğlanları və qohumları -36); istefada olanlar-(rəislər-5 ailə; onların oğlanları və qohumları -3); cəmi-126 ailə [26, 682].

Beləliklə, rus işğalından sonra Dərbənd bölgəsinin əhalisinin siyasi, sosial, iqtisadi və mədəni siması tədricən olsa da dəyişirdi.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), iş 1716

2. AMEA TİEA, iş 2082

3. Hacıyev A. A. Dərbənd XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat). Bakı, Turxan NPB, 2017, 244 s

4. Hacıyev A. XIX-XX əsrin əvvəllərində Azərbaycanın Dərbənd şəhərinin əhalisinin etnik tərkibi. Səh. 265-274, // AMEA A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərlərinin Xüsusi buraxılışı, 2012, № 40,

5. Акты, собранные Кавказской археографической комиссией. Том 7. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1878, 1011 с.

6. Ахмадов Ш.Б. Дербент как центр торгово-экономического и культурного сближения народов Северного Кавказа в XVIII – первой половине XIX вв. / Материалы международной научной конференции «Дербент в историческом процессе Кавказа и России», посвященной 2000-летию г. Дербента, Махачкала, 2015, с. 53-61

7. Гасанов Г.Н. Об этническом составе населения города Дербент в XIX в. / Материалы международной научной конференции «Дербент в историческом процессе Кавказа и России», посвященной 2000-летию г. Дербента, Махачкала, 2015, с. 94-98

8. Докладная записка командующего войсками и управляющего гражданскою частью в Прикаспийском крае, ген.-л. кн. Орбелиани, кн. Барятинскому, от 14-го октября 1856 г. // АКАК, т. 12, с. 423-427

9. Записка Главного Штаба Кавказской Армии о преобразовании прикаспийских управлений на Кавказе, июль 1858 г. // АКАК, т. 12, с. 644-649

10. Записка о камеральных описаниях, производившихся в Закавказском крае со времени присоединение оного к Империи // АКАК, т. 9, с. 603-604

11. Объявление гр. Кочубея, от 7-го января 1822 года // АКАК, т. 6, ч. I, с. 468-469

12. Отношение барона Розена к т.с. Уварову, от 8-го февраля 1834 г. // АКАК, т. 8, с. 97-99

13. Отношение ген. Ермолова к гр. Несселроде, от 31 марта 1826 г. // АКАК, т. 6, ч. 2, с. 113-114

14. Отношение ген Ермолова к управляющему Министерством внутренних дел, от 8-го июня 1823 г. // АКАК, т. 6, ч. 1, с. 472

15. Отношение ген Тормасова к д. т. с. Гуреву, от 2-го августа 1810 г. // АКАК, т. 4, с. 37-43

16. Отношение кн. Воронцова к кн. Чернышеву от 18-го января 1850 г. // АКАК, т. 10, с. 127-128

17. Отчет князя М.С. Воронцова за 1846-1848 годы // АКАК, т. 10, с. 849-873

18. Отчет князя М.С. Воронцова за 1849-1851 годы // АКАК, т. 10, с. 875-904

19. Предписание барона Розена директору Закавказских училищ, от 13-го сентября 1834 г. // АКАК, т. 8, с. 99

20. Предписание ген. Ермолова ген.-м. фон-Краббе, от 5-го марта 1824 г. // АКАК, т. 6, ч. 2, с. 108-109

21. Предписание кн. Воронцова ген.-л. Реутту, от 25-го февраля 1854 г. // АКАК, т. 11, с. 612-613

22. Рапорт ген.-л. кн. Орбелиани ген.-л. кн. Бебутову от 31-го июля 1856 г. // АКАК, т. 11, с. 698

23. Рапорт ген.-м. фон Краббе ген. Ермолову, от 4-го августа 1824 г. // АКАК, т. 6, ч. 2, с. 109-111

24. Рапорт Комитета об устройстве мусульманских провинций ген.-адъют. Стрекалову, от 15-го января 1831 г. // АКАК, т. 7, с. 427-435

25. Рапорт попечителя Кавказского учебного округа д.с.с. барона Николаи ген. Муравьеву, от 7-го марта 1855 г. // АКАК, т. 11, с. 720-722

26. Свод ведомостей о числе лиц, принадлежащих к высшему сословию и о числе дворян не из туземцев за 1855 год, представленных наместнику Кавказскому военными губернаторами в мае 1856 г. // АКАК, т. 11, с. 682

27. Собственноручное предписание ген Ермолова ген.-м. фон Краббе, от 23-го декабря 1824 г. // АКАК, т. 6, ч. 2, с. 111-112

Açar sözlər: *Rusiya imperiyası, Qafqaz komandanlığı, Dərbənd quberniyası, köçkünlər, komendant, şəhər mükəlləfiyyəti*

Ключевые слова: *Российская империя, Кавказское командование, Дербентская губерния, перемещенных, комендант, ответственность города*

Key words: *Russian Empire, The Caucasus Command, Derbent province, immigrants, commandant, responsibility of the city*

Азизова М.А.

Социальное развитие Дербента в период российского правления

РЕЗЮМЕ

В июне 1806 года после оккупации Дербента царь, влияя на глубины Кавказа, начал формировать Российскую империю в регионе путем проведения социальных, политических, экономических и культурных реформ на территориях царской России. Одна из социальных реформ империи, направленных на Дербент и население города - это размещение здесь иммигрантов, реконструкция города, а также мероприятия в области образования. Реализация всех этих мер была предпринята для повышения уровня благосостояния и лишения Дербента и Дербентского региона от колониального господства.

Azizova M.A.

Social development of Derbent during the Russian rule

SUMMARY

After occupying Darbani in June 1806 the social, political, economic and cultural areas of the Tsarist Russia, which began to penetrate the depths of the Caucasus, reformed the Russian empire in the region. One of the directions of Social Reforms towards Derbent and the people of the Empire placement of immigrants here, renovation of the city, training activities and reconstruction work in the region. Implementing all these measures, along with raising the wellbeing level Derbent and Derbent were the steps taken to relieve the colonial rule.

İqtisadiyyat

QLOBAL ŞƏRAİTDƏ SIĞORTA ŞİRKƏTLƏRİNDƏ MALİYYƏ SABİTLİYİNİN İDARƏ OLUNMASI PROBLEMLƏRİ

KAMAL İBRAHİMOV
İqtisad üzrə fəlsəfə doktoru

Qlobal şəraitdə sığorta şirkətlərinin fəaliyyətinin tənzimlənməsi və sabitləşdirilməsi böyük həcmli işlərin görülməsini tələb edir. Sığorta şirkətlərinin fəaliyyətinin uğurlu olub-olmaması, ilk növbədə onun maliyyə sabitliyindən bilavasitə asılıdır. Sığorta şirkətinin maliyyə sabitliyinin idarə olunması problemləri müasir dövrdə də kifayət qədər aktualdır. Belə ki, qlobal iqtisadi çağırışlar, dünya iqtisadiyyatında baş verən təlatümlər, çətinliklər, xüsusilə 2008-ci ilin sonlarından başlayan maliyyə böhranlarının mənfi fəsadları şirkət və komponiyaların, istənilən müəssisə və firmaların fəaliyyətinə mənfi baxımdan təsir göstərməyə bilməzdir və sığorta şirkətləri də bu sırada istisna təşkil etmirlər. Amma, bütün hallarda şirkətin maliyyə resursları üzrə optimal strategiyanın olması, balanslaşdırılmış və tarazlaşdırılmış maliyyə siyasətinin formalaşdırılması, onun uzunmüddətli dövr üçün nəzərdə tutulması, maliyyə resurslarının hərəkəti və istifadəsi üzrə ciddi intizamı təmin edilməsi, resurslardan təyinatı üzrə istifadəyə nail olunması, maliyyə ehtiyatlarının qorunmasının bütün prinsiplərinə mütləq şəkildə əməl edilməsi, maliyyə sabitliyinin gücləndirilməsi üçün zəruri tədbirlərin görülməsi və bütövlükdə maliyyə sabitliyinin idarə olunmasının daha səmərəli modelinin müəyyənləşdirilərək tətbiq edilməsi vacib şərtlərdəndir.

Dünya təcrübəsinə istinadən qeyd etmək mümkündür ki, qlobal şəraitdə sığorta şirkətlərində maliyyə sabitliyinin təmin edilməsi əsas amillərindən biri kimi dünyada baş verən iqtisadi proseslərə, qlobal çağırışlara və sığorta bazarlarının konyunkturasına, bazar seqmentlərinə uyğun adekvat tədbirlərin görülməsi, sığorta xidmətlərinin səviyyəsinin yüksəldilməsi, sığorta portfelinin mütləq şəkildə diversifikasiyalaşdırılması və onu gözləyən mümkün risklər üzrə preventiv tədbirlərin görülməsi, risklərin minimuma endirilməsi məqsədilə zəruri addımların atılması vacib şərtlərdəndir. Hər bir sığorta şirkəti mövcud situasiyadan çıxış etməklə öz fəaliyyət mexanizmlərini və strategiyalarını tələb olunan səviyyədə təkmilləşdirməli və praktiki alətlərin, yanaşmaların yenilənməsini təmin etməlidirlər. Bir qrup tədqiqatçılar bu problemlərlə bağlı araşdırmalar aparmış və elmi tədqiqat əsərləri ərsəyə gətirmişlər (Y.S.Yevlaxova, K.Deykin, V.K.Sençaqov, B.V.Qubin, J.V.Pisarenko, N.P.Kuznetsova, Q.A.Nasırova, A.Larkin, E.A.Çelişeva, E.İ.Skripkina, L.L.İqonina, Y.F.Bazık, K.N.Korişenko, V.O.Şokin, E,A.İrmatova, N.N.Mixaylova, S.V.Solonina, E.S.Ovsyanitskiy, A.N.Anufriyeva, O.Y.Aqapova, N.Xudiyev və V.A.Xankişiyev). Məlum olmuşdur ki, qlobal şəraitdə sığorta fəaliyyətinin və sığorta institutlarının əhəmiyyəti obyektiv şəkildə baxılmadığı və qiymətləndirilmədiyi halda, sığorta bazarının qlobal tendensiyalara uyğun şəkildə tənzimlənməsi və sığorta şirkətlərinin fəaliyyətinin maksimum optimal modelləşdirilməsi qeyri-mümkündür. Bu amilləri nəzərə alan beynəlxalq sığorta təşkilatları, o cümlədən Sığorta nəzarəti orqanlarının beynəlxalq assosiasiyası 2013-cü ildə sığorta

kompaniyalarının qlobal sistem əhəmiyyətinin müəyyənləşdirilməsi metodologiyasını işləyib hazırlamışlar və konsepsiyasının əsasında sığorta şirkətləri ilə qlobal maliyyə sabitliyi arasındakı qarşılıqlı əlaqə, onun təsir dairəsi yer almışdır [1]. Belə bir şəraitdə sığorta şirkətləri və maliyyə qrupları ənənəvi sığorta fəaliyyəti ilə yanaşı, qarışıq və qeyri-ənənəvi sığorta fəaliyyətinə, həmçinin qeyri-sığorta maliyyə və qeyri-sığorta istehsal fəaliyyətinə üstünlük verilməsi məsələlərin optimal modelləşdirilməsi problemləri və prinsipləri birgə baxılmalı, maksimum adekvat tədbirlər görülməlidir. Tədqiqatçı Y.S.Yevlaxova belə hesab edir ki, qlobal sistem əhəmiyyətli maliyyə institutlarının formalaşdırılmasında və müəyyənləşdirilməsində əsas metodoloji yanaşmalar kimi yanaşmaların işlənmə dərəcəsi, məsələn, sığorta kompaniyaları üçün indikator metodlarına əlavələrin daxil edilməsi, o cümlədən sığorta şirkətinin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə risklərin müəyyənləşdirilməsi və ölçülməsi, investisiya kompaniyaları üçün isə milli tənzimləyicilərin ekspert qiymətləndirilmələri əsas götürülməli, qlobal maliyyə sabitliyinə təsir göstərən mexanizmlərin tətbiqi təmin edilməlidir [2]. Bununla bərabər, sığorta şirkətlərinin maliyyə sabitliyinin idarəolunması məslələrinə kəmiyyət və keyfiyyət amilləri baxımından da xüsusi diqqət yetirilməlidir. Bir çox amillər var ki, onlar sığorta şirkətlərinin fəaliyyətinə ciddi təsir göstərə bilirlər və bu kimi təsiredici halların sistemli şəkildə öyrənilməsi, qiymətləndirilməsi, qlobal təsirlərə adekvat şəkildə tədbirlərin görülməsi vacib məsələlərdəndir. Sığorta şirkətlərinin fəaliyyətinə güclü təsir göstərən amillər sırasında bank faizlərinin dinamikası, infilyasiyanın səviyyəsi, qiymətli kağızlar bazarının və vergiqoyma sisteminin ümumi vəziyyəti mühüm yer tuturlar. Məsələn, vergiqoyma sisteminin qeyri-işləkliyi və boğucu olması iqtisadi fəallığın zəifləməsinə, investisiya mühitinin cəlbediciliyinin pisləşməsinə və ölkənin sığorta bazarından kapitalın çıxarılmasına səbəb ola bilər [3]. Digər tərəfdən, dövlətin sığorta təşkilatlarının işinə həddindən ziyadə müdaxilə etməsi də mənfi nəticələrə gətirib çıxara bilər və sığorta bazarındakı fəallığı minimuma endirə bilər. Sığorta portfelinin optimal formalaşdırılması və onunla bağlı risklərin uzunmüddətli dövr üçün proqnozlaşaıdırması da vacib hesab olunur. Ehtiyat fondlarının yaradılması, antiböhran xarakterli tədbirlərin görülməsi, fəaliyyət istiqamətləri üzrə optimal metodların seçilməsi, sığorta şirkətlərinin maliyyə resurslarından istifadənin çevikliyinin təmin olunması və bütövlükdə sığorta şirkətlərində maliyyə sabitiliyinin idarə olunmasının maksimum yüksək səviyyədə təşkil edilməsi təmin edilməlidir [4]. Bunlarla yanaşı, qlobal şəraitdən ortaya çıxan problemlərə məqsədli və sistemli yanaşma təmin olunmalıdır. Qlobal şəraitdə maliyyə sabitiliyinə təsir edən əsas amillər üzrə tədbirlərin görülməsi və bütövlükdə sığorta sisteminin qlobal maliyyə sisteminin tərkib hissəsi kimi gücləndirilməsi baxımından tələb olunan səviyyədə praktiki fəaliyyət mexanizmlərinin hazırlanması və dövriyyəyə cəlb edilməsi vacib məsələlərdəndir. Sığorta sisteminin ölkənin maliyyə sisteminin tərkib hissəsi kimi qlobal iqtisadi çağırşlara uyğun şəkildə inkişaf etdirilməsi prioritetləri və vəzifələri müəyyənləşdirilməlidir [5].

Qeyd edək ki, qlobal iqtisadi tendensiyalar dünya iqtisdadiyyatının inkişaf prioritetlərinə və fəaliyyət mexanizmlərinə əhəmiyyətli səviyyədə təsir göstərmişdir və bu proseslərdə maliyyə mexanizmlərinin rolu durmadan artmaqdadır. Dünya maliyyə sisiteminin və maliyyə bazarlarının inkişafında və tənzimlənməsində sığorta şirkətlərinin rolu da əhəmiyyəti də durmadan artmaqdadır. Dünya dövlətləri sığorta bazarlarının inkişafına və tənzimlənməsinə daha çox diqqət yetirməkdədirlər. Belə ki, sığorta xidmətləri ilk öncə sosial xarakter daşıyır və maliyyə bazarlarının sabitliyinə ciddi təsir göstərə bilər. Müasir dövrdə diqqət çəkən tendensiyalardan biri də əksər dünya ölkələrinin sığorta bazarlarının fəal şəkildə inkişaf etməsi və iqtisadiyyatın liberallaşdırılması ilə bağlı görülən tədbirlərdir. Bu ondan irəli gəlir ki, əksər dünya ölkələri özlərinin milli sığorta bazarlarının qlobal təsirlərə və xüsusilə transmilli sığorta şirkətlərinin edə biləcəkləri təsir dairəsinə hazırlanması vacib hesab edilib. Qlobal iqtisadi təhdidlərin artdığı bir şəraitdə əksər dünya dövlətləri milli və qlobal sığorta bazarlarının qarşılıqlı təsir dairəsi konteksində baxılması və tənzimlənməsini, bunlarla bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsini daha məqbul hesab edirlər [6, s.28]. Sığorta şirkətlərinin qlobal iqtisadi təhdidlərə qarşı immunitetinin ölçülməsi və onun rəqabət mühitinə davamlılığının qiymətləndirilməsi təmin edilməlidir. Məsələn, keçmiş postsovet respublikalarında sığorta bazarlarının inkişafı hələ ki, daha intensiv fazaya keçməmişdir və burada güclü rəqabət mühiti formalaşdırılmamışdır. Buna görə də, yaxın perspektivdə əsas məqsəd bu respublikaların sığorta bazarlarında rəqabət mühitinin gücləndirilməsi, sığorta bazarınaa dövlət müdaxiləsinin minimuma endirilməsi, sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, özəlləşdirmə proseslərinin sürətləndirilməsi və iqtisadiyyatın inkişaf istiqamətlərinin sərbəstliyinin tam mənada təmin edilməsi problemləri həll olunmalıdır. Sığorta bazarlarının inkişafı ilə bağlı proseslər açıq və şəffaf olmalı, milli iqtisadiyyatın inkişaf prioritetləri çərçivəsində tənzimlənməli, sağlam rəqabət mühiti formalaşdırmalı, sığorta fəaliyyətinin məhdudlaşdırılmasına yol verən tənzimləmə mexanizmləri tətbiq edilməməli və sığorta şirkətlərinin maliyyə sabitliyi problemlərinə xüsusi diqqət yetirilməlidir [7, s.128]. Bu problemlərin həlli heç də sıravi məsələlər deyildir və sığorta şirkətlərinin maliyyə sabitliyinin gücləndirilməsi təkcə onların özləri üçün mühüm əhəmiyyət kəsb edən məsələ kimi baxılmamalıdır. Sığorta bazarlarının intensiv inkişaf etməsi və xidmətlərin çeşidinin genişləndirilməsi, sığorta xidmətlərinin əlçatanlığının təmin edilməsi üçün sığorta şirkətlərinin güclü maliyyə resurslarına malik olmalı və maliyyə sabitliyi şəraitində fəaliyyət göstərməlidirlər. Qeyd olunan problemlər və amillər baxımından dövlət və sığorta təşkilatlarının qarşılıqlı fəaliyyəti və əməkdaşlığı bütün istiqamətlər üzrə fəal şəkildə təşkil olunmalı, mövcud problemlərin həllində birgə tədbirlər görülməli və sığorta

bazarının inkişafı istiqamətində maksimum optimal yanaşmalar təmin edilməlidir [8]. Ümumiyyətlə, milli sığorta təşkilatları qlobal iqtisadi təhdidlər şəraitində təkcə dövlətlə sıx əməkdaşlıq etməklə gözlənilən risklərdən və təhlükələrdən, xüsusilə qlobal risklərdən, onların mənfi fəsadlarından tam şəkildə qorunmaq imkanına malik deyildilər. Bu baxımdan, beynəlxalq səviyyədə nüfuzlu sığorta şirkətləri və beynəlxalq sığorta qurumları ilə fəal əməkdaşlıq münasibətlərinin yaradılması və qlobal dəyişikliklər şəraitndə sığorta fəaliyyətinin daha səmərəli modelləşdirilməsi üzrə birgə mexanizmlərin hazırlanması və reallaşdırılması daha müsbət nəticələrə gətirib çıxara bilər. Məsələn, dünyada ildən-ilə daha çox narahatçılıq doğuran problemlərdən biri kimi qlobal iqlim dəyişiklikliyi sığorta fəaliyyəti üzrə qlobal riskləri xeyli artırmışdır. Belə ki, tez-tez baş verən təbii və texnogen qəzalar, fəlakətlər, daşqınlar, zəlzələlər və digər təbiət hadisələri nəticəsində sığorta əməliyyatlarına daha çox vəsait tələb olunur. Proqnozlara və hesabatlara görə, 2030-cu ilədək olan dövrdə iqlim dəyişikliyi səbəbindən dünya ölkələrinin iqtisadi baxımından üzləşəcəkləri zərərin ümumi həcmi dünya ÜDM-in 3 %-dən çox olacaqdır və inkişaf etmiş ölkələr üzrə bu göstərici 3,2 %-dən 11 %-dək artacaqdır [9]. Qeyd etmək lazımdır ki, bu gözləntilər və proqnozlar nəzərə alınmaqla qlobal şəraitdə sığorta şirkətlərində maliyyə sabitliyinin idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi və yenilənməsi vacib əhəmiyyət kəsb edir. Bu bütövlükdə sığorta fəaliyyəti institutunun əsas mexanizmlərinə, prinsip və normalarına, standartlarına aid edilməlidir. Sığorta fəaliyyəti mexanizmlərinin dünya ölkələri səviyyəsində eyni yanaşmalarla və modelləşdirmə ilə tənzimlənməsi şübhəsiz qeyri-mümkündür və bu baxımdan daha optimal yanaşma ölkələrin inkişaf səviyyəsi, həmin ölkələrdə sığorta bazarlarının dərinliyi və həcmi, rəqabət mühiti mütləq şəkildə nəzərə alınmalıdır. Məsələn, 2015-ci ilin yekununda ABŞ-da sığorta bazarı ölkə ÜDM-in 7,3 %-nə yaxın olduğu halda, bu göstərici Rusiyada 1,4 %, Qazaxıstanda isə 0,7 % təşkil edir [10, s.15]. Bu göstərici Azərbaycanda da xeyli aşağıdır. Belə ki, 2017-ci ilin yekununda sığorta sinifləri üzrə hesablanmış haqlarının və sığorta ödənişlərinin təhlili göstərir ki, bütün növ sığorta sinifləri üzrə ölkədə sığorta haqlarının ümumi məbləği 556,9 mln. manata yaxın olmuşdur [11]. Bu baxımdan, postsovet respublikalarında sığorta şirkətlərinin maliyyə sabitliyi ilə bağlı problemlərin və onların idarə olunması məsələlərinin həmin ölkələrin özlərinin iqtisadi inkişaf prioritetlərinə və xüsusiyyətlərinə uyğun şəkildə tənzimləmək daha məqsədəuyğundur. Amma, bununla belə, qlobal təsirlərin və çağırışların nəzərə alınması, əvvəldə qeyd etdiyimiz kimi mütləq şərtlərdən biri kimi nəzərə alınmalıdır. Əsas milli və beynəlxalq prinsiplər kimi sığorta fəaliyyətinin institusional təminatının təkmilləşdirilməsi və qlobal iqtisadi təhdidlərə immunitetinin gücləndirilməsi səviyyəsində yeni mexanizmlərlə gücləndirilməsidir. Bundan əlavə praktiki fəaliyyət mexanizmləri ilə yanaşı, sığorta fəaliyyətinin qanunvericilik bazasını gücləndirilməsi və xüsusilə sığorta bazarının iştirakçılarının maraqlarına uyğun şəkildə qanunvericilik aktlarının işlənib hazırılanması və qəbul edilməsi təmin olunmalıdır. Dövlət tənzimləyici mexanzimləri boğucu və məhdudlaşdırıcı olmamalıdır və sığorta şirkətlərinin fəaliyyətinin gücləndirilməsinə istiqamətlənməlidir. Ölkənin maliyyə sisteminin və maliyyə bazarlarının inkişafında sığorta sisteminin və sığorta bazarının rolunun artırılması xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Sığorta fəaliyyətinə və sığorta bazarına təsir edən mühüm indikatorlar üzrə optimal nəzarətedici mexanizmlər müəyyənləşdirilməli və mütəmadi xarakter daşıyan monitorinqlər aparılmalıdır. Sığorta bazarının və sığorta şirkətlərinin riskləri ilə bağlıə məsələlərin və problemlərin əsasında sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsinə prioritet vəzifə kimi yanaşılmalıdır. Sığorta şirkətlərinin beynəlxalq səviyyədə və qlobal sığorta bazarlarında rəqabətqabiliyyətliliyinin gücləndirilməsi üçün beynəlxalq səviyyədə sığorta cəmiyyətləri və sığorta təşkilatları, nüfuzlu sığorta kompaniyaları ilə inteqrativ əməkdaşlığın genişləndirilməsi, maliyyə bazarlarının digər mühüm iştirakçıları, o cümlədən beynəlxalq investorlar, investisiya kompaniyaları, maliyyə institutları, iri banklarla əlaqələrin şaxələndirilməsi və qlobal səviyyədə sığorta fəaliyyətinə gözlənilən mənfi təsirlərin, risklərin minimuma endirilməsi üzrə birgə əməkdaşlığı təmin edilməlidir. Qlobal dəyişikliklər şəraitində sığorta xidmətlərinin genişləndirilməsi və korporativ sığorta bazarlarının fəaliyyətinin tənzimlənməsinə xüsusilə ciddi diqqət yetirilməlidir [12]. Belə bir şəraitdə sığorta şirkətlərinin əsas problemləri kimi sığorta şirkətlərinin öz üzərlərinə götürdükləri iri həcmli öhdəliklərin yeinə yetirilməsi ilə bağlı risklər, investisiyaların cəlbi baxımından alternativ variantların çox olmaması və investorların passivliyi, yaxud qlobal təhlükələr şəraitində sığorta bazarına daha ehtiyatlı yanaşmaları, sığorta haqlarından əldə edilən maliyyə resurslarından səmərəli istifadənin təmin olunması, onların gəlirliliyinin yüksəldilməsi və sığorta şirkətinin maliyyə sabitliyinin uzunmüddətli dövr üçün gücləndirilməsi və nəhayət qlobal təhdidlərin intensivləşdiyi şəraitdə rəqabət mühitinə uyğun şəkildə immunitetin formalaşdırılması daha çox diqqət çəkirlər. Sığorta şirkətlərinin maliyyə sabitliyinin idarə olunması məsələlərinə konseptual yanaşma müasir dövrdə birmənalı şəkildə təmin edilməlidir [13, s.69]. Digər tərəfdən, qlobal şəraitdə sığorta fəaliyyətinin vacib prinsiplərinin tənzimlənməsi və standartların qorunması istiqamətində əvvəldə qeyd etdiyimiz kimi, beynəlxalq səviyyədə əməkdaşlıq məsələləri kifayət qədər genişləndirilməlidir. Sığorta fəaliyyətinin milli iqtisadiyyatda yeri iqtisadi inkişaf prosesləri ilə qarşılıqlı təsir dairəsi, maliyyə sistemində və maliyyə bazarlarında digər iştirakçılarla əlaqələrinin səmərəliliyi problemlərinə daha çox diqqət yönəldilməlidir. Maliyyə sabitliyi amilinin sığorta təşkilatları üçün əsas götürülməklə, daha optimal mexanizmlərinin fəal şəkildə tətbiqi prosesləri təmin olunmalıdır. Bu məqsədlə maliyyə sabitliyini və maliyyə göstəricilərini əks etdirən indikatorlar üzrə təhlillərin aparılması və zəruri idarəetmə qərarlarının verilməsi problemlərinə xüsusi diqqət yetirilməlidir. Sığorta təşkilatlarında və kompaniyalarında maliyyə resurslarından istifadənin modelləşdirilməsi üzrə strateji yanaşmalar ortaya qoyulmalı və bu sahədə strateji menecmentin formalaşdırılması təmin edilməlidir. Risklərlə bağlı məsələlər sistemli şəkildə nəzərdən keçirilməli və sığorta portfelinin sığorta bazarının konyunkturasına uyğun təkmilləşdirilməsi problemlərinə kompleks formada yanaşılmalıdır. Sığorta şirkətlərinin maliyyə sabitliyinin idarə olunmasının optimal modelləşdirilməsi üçün bu prosesləri fasiləsiz şəkildə davam etdirmək iqtidarında olan sistemli idarəetmə sistemi və strukturu formalaşdırılmalıdır [14]. Sığorta şirkətlərində maliyyə sabitliyinin təminatı ilə bağlı strateji yanaşmada əsas fəaliyyət prinsipləri "gəlirlilik-risk-likvidlik" prinsipi əsasında və münasibətində formalaşdırılmalı və bunlarla bağlı tətbiq olunan praktiki fəaliyyət mexanzimlərinin məhsuldarlığına, etibarlılığına xüsusi diqqət yetirilməlidir. Bu sırada əsas problem sığorta portfeli

ilə bilavasitə bağlıdır və sığorta şirkətinin maliyyə sabitiliyinin gücləndirilməsi üçün bir sıra mühüm amillər nəzərə alınmalıdır. Bunlara sığorta portfelinin balanslaşdırılması, yenidən sığorta edilməsi əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi və investisiya portfelinin optimallığının təmin olunması aiddirlər. Sığorta portfelində şaxələndirmə proseslərinə xüsusi fikir verilməli, sığorta xidmətlərinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi ön plana çəkilməli, maliyyə sabitliyinə imkan verən maliyyə resursları ehtiyatı yaradılmalı və ehtiyatların özünün səmərəli idarəedilməsi mexanizmləri olmalıdır. Bundan əlavə, qlobal iqtisadi mühitdə sığorta bazarlarının inkişaf prioritetləri və bu proseslərə dövlətin tənzimləyici mexanzimlərinin təsiri məsələləri də, sığorta şirkətlərinin maliyyə sabitliyinin idarə olunması strategiyasının hazırlanması zamanı nəzərə alınmalıdır. Hətta, dünyanın inkişaf etmiş ölkələrində belə sığorta fəaliyyətinə nəzarətedici orqanların sayı heç də az deyildir. Məsələn, ABŞ-da hər bir ştatda sığorta fəaliyyətini tənzimləyən orqanların olmasına baxmayaraq, federal səviyyədə də bir çox orqanlar analoji funksiyaları yerinə yetirirlər. Daxili gəlirlər üzrə federal xidmət, Əmanətlərin sığortalanması üzrə federal korporasiya, Ssuda-əmanətçilərin assosiasiyaların federal sığorta korporasiyası, Qiymətli kağızlar və fond birjaları üzrə komissiya, Federal ehtiyat sistemi və Federal valyuta nəzarətçisi kimi qurumlar bu və ya digər formada sığorta bazarlarına, sığorta şirkətlərinin fəaliyyətinə dövlət müdaxiləsi və tənzimləməsi funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malikdirlər [15, s.20]. Bundan əlavə, ABŞ-da Sığorta Komissarlarının milli assosiasiyası fəaliyyət göstərir və onun əsas missiyası qlobal tendensiyalar nəzərə alınmaqla ölkənin bütün ştatlarında sığorta bazarının vahid norma və prinsiplərinin işlənib hazırlanması, tətbiq edilməsi ilə bilavasitə bağlıdır. Bu isə ABŞ-da sığorta bazarının federal səviyyədə tənzimlənməsinə imkan verir və zəruri hallarda sığorta şirkətlərinin maliyyə aktivləri qiymətləndirilir, müxtəlif yoxlamalar aparılır, bir sözlə sığorta şirkətlərinin qanunauyğun şəkildə fəaliyyət göstərməsinə və qlobal şəraitdə maliyyə sabitliyinin əsas indikatorlarının gözlənilməsinə nəzarət təmin olunur. Qlobal çağırışlar baxımından maliyyə sabitliyinə nail olmağın əsas yollarından biri də sığorta təşkilatının ödəmə qabiliyyətinin yüksək olmasıdır [16]. Bu ilk növbədə həmin sığorta təşkilatının sığorta haqları mənbələrinin və sığorta müqavilələrinin kifayət qədər diversifikasiyalaşdırılması ilə bilavasitə bağlıdır. Bu isə, iqtisadiyyatın dinamik inkişafı proseslərinin və cəmiyyətin yüksək səviyyədə sığorta xidmətləri ilə əhatə olnması baxımından xeyli əhəmiyyətlidir və həm də ölkənin iqtisadi təhlükəsizliyi nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir. Sığorta təşkilatının və şirkətlərinin maliyyə sabitliyinin idarə olunmasının daha optimal variantlarının müəyyənləşdirilməsində strateji marketinq fəaliyyətinin təşkili və marketinq kommunikasiyalarının yaradılması da vacib rol oynayır [17]. Bu təqdirdə sığorta şirkətinin fəaliyyətinin tənzimlənməsi, daxili və xarici amillərin təsirlərinin balanslaşdırılması, xüsusilə sığorta şirkətinin maliyyə sabitliyinin təmin edfilməsi üzrə zəruri tədbirlərin görülməsi və sığorta portfelinin dayanıqlılığının gücləndirilməsi tədbirlərinin sistemli şəkildə həyata keçirilməsi mümkünləşir.

Qlobal iqtisadi şəraitdə və ölkəmizin strateji iqtisadi hədəflərinin reallaşdırıldığı bir dövrdə sığorta sisteminin maksimum səmərəli fəaliyyət göstərilməsi aktuallığı ilə diqqət çəkir. Hazırda, milli iqtisadiyyatımızın iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, yeni bir dövrə qədəm qoyması və ayrı-ayrı mühüm iqtisadiyyat sektorları üzrə strateji hədəflərin həyata keçirilkdiyi bir şəraitdə sığorta xidmətlərinin yüksək səviyyədə təşkil edilməsi vacib şərtlərdəndir [18]. Belə ki, ölkəmizdə maliyyə bazarlarının sabitləşdirilməsi, maliyyə sisteminin dayanıqlılığının təmin edilməsi tədbirləri sırasında sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi mühüm tədbirlər kimi diqqət çəkir [19]. Amma, əvvəlcədən ölkəmizdə sığorta fəaliyyətinin daha səmərəli təşkili modellərinin hazırlanması və tətbiqi prosesləri intensivləşdirilməlidir. Sığorta təşkilatlarının fəaliyyətinin tənzimlənməsi, sığorta şirkətlərinin maliyyə sabitliyinin idarəolunması mexanizmlərinin təkmilləşdirilməsinə xüsusi önəm verilməlidir [20; 21]. Bu məqsədlə, qlobal iqtisadi çağırışların təsir dairəsi də nəzərə alınmaqla sığorta şirkətlərində maliyyə sabitliyinin idarə olunmasının daha optimal modelləşdirilməsi üçün bunlara diqqət yetirmək məqsədəuyğundur:

- Ölkənin sığorta sisteminin mövcud vəziyyəti kompleks şəkildə öyrənilməli, adekvat qiymətləndirmələr aparılmalı və ortaya çıxan problemlər üzrə sistemli tədbirlər görülməlidir;
- Sığorta sisteminin qanunvericilik bazasının gücləndirilməsi məsələləri gecikdirlmədədn həll edilməli, qanunların işləkliyi təmin olunmalı və sığorta fəaliyyətinin çevikliyinə imkan verən hüquqi-normativ mexanzimlər hazırlanmalıdır;
- Sığorta şirkətlərinin maliyyə sabitliyinin idarə olunması məsələləri üzrə strateji yanaşmalar təmin edilməli və maliyyə sabitliyinin gücləndirilməsinə imkan verən tədbirlərin ardıcıl şəkildə reallaşdırılmasına nail olunmalıdır;
- Sığorta şirkətlərinin maliyyə sabitliyinin gücləndirilməsində həlledici rol oynayan sığorta portfelinin diversifikasiyalaşdırılması və onun fəaliyyətinin gəlirlilik prinsipi əsasında təmin olunması, kredit portfelinin fəaliyyətinə təhlükə yaradan risklərin öyrənilməsi və qabaqlayıcı tədbirlərin görülməsi üzrə konseptual yanaşmalar və strateji fəaliyyət planı olmalıdır və s.

ƏDƏBİYYAT

1. Основные принципы страхования, стандарты, инструкции и методология оценок. Международная ассоциация органов страхового надзора. 2015.- 269 с.

2. Евлахова Ю.С. Определение глобальных системно значимых финансовых институтов в страховом и фондовом секторах финансового рынка.// Журнал «Финансовый журнал», №5, 2015.- С. 113-119

3. О понятиях и факторах финансовой устойчивости страховых компаний. http://www.jourclub.ru

4. Крис Дейкин. Влияние глобального финансового кризиса на системы социального страхования и пенсионные системы. http://www.actuaries.ru

5. Сенчагов В.К., Губин Б.В. Современные системы развития финансовой системы в условиях глобализации.// Современные технологии управления. №3(57), 2015. http://sovman.ru

6. Писаренко Ж.В., Кузнецова Н.П. Регулирование страховой деятельности: учебник и практикум для бакалавриата и магистратуры/.- М.: Издательство Юрайт, 2014.- 437 с.

7. Проблемы современной экономики: глобальный, национальный и региональный контекст: сб. науч. ст. В 2 ч. Ч. 1/ ГрГУ им. Я. Купалы; редкол.: В.С.Фатеев (гл. ред.), Д.В.Примщиц (зам. гл. ред.) и др.- Гродно: ГрГУ, 2013.- 389 с.

8. Взаимодействие государства и страховых организаций: проблемы и перспективы развития: материалы Международного страхового форума (8-9 июня 2011 г., г. Пермь)/ гл. ред. И.Ю.Макарихин; отв. Ред. М.Ю.Молчанова; Перм. гос. ун-т.- Пермь, 2011.- 548 с.

9. Страхование в условиях глобального изменения климата все рискованнее. https://www.eg-online.ru.

10. Насырова Г.А. Институциональное обеспечение системы регулирования страховой деятельности. Санкт-Петербург, 2017.- 35 с.

11. 2017-ci il yanvar-dekabr ayları üzrə hesablanmış haqları və sığorta ödənişləri haqqında məlumat (təcili məlumatlar əsasında; sığorta sinifləri üzrə). Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. https://www.fimsa.az.

12. Ларкин А. В мире глобальных перемен. http://nbj.ru.

13. Челышева Э.А., Скрипкина Э.И. Финансовая устойчивость страховых компаний: экономическое содержание и особенности концептуализации в современных условиях.// Научная статья, №8(14), 2016.- С. 68-72.

14. Игонина Л.Л., Базык Е.Ф. Особенности управления финансовой устойчивостью страховых организаций.// Журнал «Финансы страхования», №5(389), 2010. https://cyberleninka.ru.

15. Корищенко К.Н., Шокин В.О., Ирматова Э.А., Михайлова Н.Н. Глобальная экономика и страховой рынок Российской Федерации как объект государственного регулирования. Москва, 2017.- 76 с.

16. Солонина С.В., Овсяницкий Э.С., Ануфриева А.Н. Факторы обеспечения финансовой устойчивости и платёжеспособности страховой организации.// Научный журнал КубГАУ, №99(05), 2014.

17. Агапова О.Е. Продвижение продукта страховой компании средствами маркетинговых коммуникаций. http://www.pr-club.com.

18. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 06 dekabr 2016-cı il.

19. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.-59 s.

20. Xankişiyev B.A. Sığorta fəaliyyətinin əsasları. Bakı: "İqtisad Universitetləri" nəşriyyatı, 2006. – 274 s.

21. Xudiyev N.N. Sıgortanın əsasları. Bakı, 2013.

Açar sözlər: *sığorta şirkətləri, sığorta sistemi, sığorta bazarı, transmilli sığorta kompaniyaları, sığorta şirkətlərinin maliyyə sabitliyi, qlobal çağırışlara uyğun sığorta şirkətlərinin maliyyə sabitliyinin idarə olunması problemləri.*

Ключевые слова: *страховые компании, система страхования, рынок страхования, транснациональные страховые компании, финансовая стабильность страховых компаний, проблемы управления финансовой стабильностью в страховых компаниях в соотвествии глобальным вызовам.*

Key words: *insurance companies, insurance system, insurance market, transnational insurance companies, financial stability of insurance companies, problems of managing financial stability in insurance companies in accordance with a global challenge.*

РЕЗЮМЕ

ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ ФИНАНСОВОЙ СТАБИЛЬНОСТИ В СТРАХОВЫХ КОМПАНИЯХ В ГЛОБАЛЬНЫХ УСЛОВИЯХ

В статье исследованы проблемы управления финансовой стабильности в страховых компаниях в глобальных условиях. С этой целью анализировано место и значение система страхования в национальной экономике и финансовом секторе, деятельность страхового рынка. Определены внутренние и внешние факторы, влияющие на финансовые стабильности страховых компаний, и отмечены важности осуществления системных и последовательных мероприятий связанные с ними. Обращено внимание на вопросы расширения сотрудничество «государство -страховые компании» и возрастание роли государство в обеспечении финансовой стабильности в страховых компаниях в глобальных условиях. Подготовлено рекомендации и даны предложении по проблемам управления финансовой стабильности в страховых компаниях в глобальных условиях.

SUMMARY

PROBLEMS OF FINANCIAL STABILITY MANAGEMENT IN INSURANCE COMPANIES IN GLOBAL CONDITIONS

The article studies the problems of financial stability management in insurance companies in global conditions. For this purpose, the place and value of the insurance system in the national economy and financial sector, the activity of the insurance market, has been analyzed. The internal and external factors influencing the financial stability of insurance companies are determined, and the importance of implementing systemic and sequential activities related to them is noted. Attention is drawn to the expansion of cooperation between «state-insurance companies» and the growing role of the state in ensuring financial stability in insurance companies in global conditions. Recommendations and proposals on financial stability management in insurance companies under global conditions have been prepared.

Tarix

HUNLAR VƏ AZƏRBAYCAN

ZƏRÖVŞƏN HÜSEYNLİ
AMEA Tarix İnstitutu

Qafqaz regionunda mütləq üstünlüyə malik olan Azərbaycan türkləri, indiki Dağıstan, Gürcüstan, Cənubi Azərbaycan və indiki Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarında əhəmiyyətli dərəcədə məskunlaşmışdır. Azərbaycan türklərinin belə bir geniş ərazidə yayılması təsadüfi deyil və tarixi köklərə bağlıdır.

Əhalisinin böyük əksəriyyətini türklər təşkil edən Azərbaycan qədim dövrlərdən başlayaraq türklərlə yanaşı, bir çox Qafqaz və irandilli xalqların da ümumi Vətəni olmuşdur. Onlar burada əsrlər boyu birlikdə yaşamış, oxşar tarixə və ortaq dəyərlərə malik olmuşlar. Bu gün Azərbaycan türklərinin həyatını uzun müddət birlikdə yaşadıqları həmin xalqlarsız təsəvvür etmək belə mümkün deyildir. Lakin təəssüflər olsun ki, XIX-XX əsrlərdə tarixi ədəbiyyatda Azərbaycanın özünəməxsus bu etnik mənzərəsini təhrif edərək onu öz bildikləri kimi təqdim etmək cəhdləri olmuşdur.

Erkən orta əsrlər dövründə Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmiş türkdilli tayfalardan biri də hunlardır. Hunların, eləcə də sabirlərin və xəzərlərin Azərbaycanın şimal torpaqlarında – Arranda (Albaniyada) məskunlaşmasını araşdırmadan Azərbaycan türklərinin təşəkkülü ilə bağlı problemləri əsaslı şəkildə öyrənmək mümkün deyildir.

Hunlar erkən orta əsrlərdə Azərbaycan ərazisinə gələn və burada əvvəlki dövrlərdən yaşayan yerli, türk adlanan xalqla təmasda olan ilk köçəri türkmənşəli tayfalardan biri sayılır. Azərbaycan xalqının erkən orta əsrlər tarixi müəyyən dərəcədə hunların tarixi ilə sıx şəkildə bağlı olduğuna görə, hunların tarixi ilə bağlı məsələlər tarixşünaslığımızda həmişə xüsusi maraq obyekti olmuşdur. Bir sıra Vətən və xarici ölkə tarixçilərinin əsərlərində erkən orta əsrlər Azərbaycan tarixinin müxtəlif problemləri araşdırılarkən hunlarla bağlı məsələlərə də toxunulmuşdur. Bu sahədə Y.R.Cəfərovun tədqiqatları, xüsusilə qeyd edilməlidir.

Türklərin Azərbaycana ikinci böyük axını məhz hunlarla bağlıdır. Hunların III-IV əsrlərdə böyük dəstələrlə şərqdən qərbə, Asiyadan Avropaya doğru hərəkət etməsi və Cənubi Qafqazda önəmli faktora çevrilməsi ilkin yazılı qaynaqlarda öz əksini tapmışdır. Hunların Şərqi Avropada və Qafqaz bölgəsində məskunlaşması etnik proseslərdə, tarixin hadisələrin inkişafında

kəskin dəyişikliklər yaratdı. Bəhs edilən bölgələrdə hunların təsirlərini yer adlarında, məişət həyatında görmək mümkündür (4, 35).

Hunların Azərbaycan xalqının etnogenezinə təsirinə toxunarkən qısa şəkildə onların tarix səhnəsində oynadığı rola baxmaq lazımdır. Hun istilahı və onun mənası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Mənbələrdə rast gəlinən "hun" etnoniminin özü də iki mənada təqdim edilir: 1) Yalnız türkdilli hunlara və hun boyları sayılan tayfalara aid edilir; 2) Hunların başçılığı ilə yaradılan konfederasiyaya daxil olan bütün tayfalara (türk və qeyri-türk) münasibətdə işlədilir (1, 76-77).

"Hun" istilahı və onun mənası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Məsələyə münasibət bildirən R.Fray yazır ki, "hun" etnonimi, onun "syun" etnonimi ilə eyni olub-olmaması ilə bağlı bəzi məsələlər tədqiqatçılar üçün xeyli çətinlik törədir. Lakin Çin mənbələrinin onları "barbar şimal syunları" adlandırması inkaredilməz faktdır. Bəzi ehtimallara görə, "hun" adının mənası türk və monqol dillərində "insan", "şəxs" deməkdir. Lakin R. Frayın yazdığına görə, bəzi lüğətlərdə bu ad "düşmən" kimi izah olunur. Macar türkoloqu Q. Nemetə görə, "hun" adı türk dilində "xalq", alman alimi F. Altheimə görə isə "güc və qüvvət" mənasındadır (1, 74-75).

Bəzi tədqiqatçılara görə, hun siyasi birliyinin dəqiq tarixini yalnız e.ə. IV əsrdən etibarən izləmək mümkündür. Hunlarla bağlı hələlik ilk tarixi mənbə, e.ə.318-ci ilə aid Çin-Hun sazişini əks etdirən bir tarixi sənəddir (6, 147).

Tariximizdə bu mövzuya ilk dəfə fundamental olaraq Y.Cəfərov özünün "Hunlar və Azərbaycan" əsərində toxunmuşdur. Müəllif burada "Albaniya torpaqlarında ilk türkdilli tayfaların hunlar olması" fikrini irəli sürür, hunlara qədərki türkdilli tayfaların (skif-sak) türkdilli olmasının təsdiqini tapa bilmədiyini yazır. Yusif Cəfərov fikrini sübut etmək üçün Azərbaycan ərazisində hunlara qədər türklərə məxsus hər hansı qəbir abidələri və yaşayış məskənlərinin olmamasını vurğulayır.

Yazılı mənbələr II-IV əsrlər Qafqazın hərbi siyasi tarixində hunların önəmli rola sahib olduğunu göstərir. Hunlar haqqında ilkin məlumatlara antik mənbələrdə rast gəlinir. Dionisi Periget və Klavdi Ptolomey II əsrdə, Ammian Marselin IV əsrdə yazdığı əsərlər bu baxımdan əhəmiyyətlidir. Bu mövzu ilə bağlı Bizans tarixçiləri, erməni dilində yazılmış əsərlər, Musa Kalankatlının "Albaniya tarixi" əsəri, hətta erkən ərəbdilli mənbələr böyük əhəmiyyət kəsb edir.

Hunlar haqında dolğun məlumat ilk dəfə Dionisi Periyeqet və Klavdi Ptolomeyin əsərlərində öz əksini tapmışdır. Hər iki müəllif hunların yerləşmə arealını Aral gölü və Xəzər dənizi arası, Volqa ilə Xəzər arası kimi göstərir. Dionisi Periyeqeyt hun tayfalarının Xəzər dənizi ətrafında, əsasən də şimal-qərb tərəfdə üstünlük təşkil etdiyini yazır. Müəllif qeyd edir ki, cənubdan qərbə doğru Kaspi boyunca "unnlar", kaspilər, kadusilər, albanlar, mardlar və tapirlər yaşayır. O, qeyd edir ki, eranın II əsrindətəxminən 160-cı illərdə hun adlanan etnik toplumlar Volqadan keçib Xəzər şimal-qərbinə doğru hərəkət etdi.

Aqafangel öz əsərində hunların Qafqazda varlığı haqqında məlumat verir (1, 13). Aqafangel və Moisey Xorenli III Tridatla bağlı məlumat verərkən hunlara da toxunur. Moisey Xorenli Aqafangelə nisbətən hunlar haqqında daha ətraflı məlumat verir. Bu məlumatların əhəmiyyəti ondadır ki, Albaniyada məhz bu dövrdə (təxminən III əsrin birinci rübündə) hunların yaşadağını təsdiqləyir (3, 14-15).

Barsillər haqda tarixi qaynaqlarda çox az məlumata rast gəlinir. Moisey Xorenlinin barsillər Cənubi Qafqazda olmasını təsdiq edən məlumatlar bu baxımdan çox dəyərlidir. Barsillərin hun-bulqar etnik birliyinə məxsus olması hazırda da elmi ədəbiyyatda müzakirə mövzusudur. Xorenli yazır: "Xəzər və barsil tayfaları birləşib Dərbənd keçidini keçərək Vnesep Surxepin başçılığı altında Kürə çatıb, burada məskunlaşdılar". Rus tədiqaqatçısı M.İ.Artamanov isə bu zaman xəzərlərin adının çəkilməsini anaxronizm adlandırır.

Bizans tarixçiləri Barsilya adlı toponimi Şimali Dağıstan ərazisi, Xəzər dənizinin şimal hissəsi ilə eyniləşdirir. Feofan və Nikiforun tədqiqatlarında Barsil ərazisi xəzərlərin vətəni kimi qeyd olunmuşdur: "Xəzərlər sarmatlarla qonşuluqda yaşayır, onların ölkəsi Barsilya adlanır". Barsillərin dili xəzərlərin və bulqarların danışıq dili ilə çox oxşar olmuşdur, bu dil təxmini olaraq türk dilləri qrupunun qərb qoluna daxildir (3, 15).

Mənbələrdən məlum olur ki, təxminən 215-216–cı illərdə xəzərlər və barsillər Dərbənd səddini aşaraq Albaniyaya çatırlar. On il sonra 225-ci ildə yenə də hunlar (xəzər-barsil tayfaları) Cənubi Qafqazda yenidən göründü. Sonrakı 80 il ərzində Şimali Qafqaza onların gəlişi haqda məlumat tarixi mənbələrdə yoxdur. Bunu alimlər öncə gələn qrupların Şimali Dağıstanda məskunlaşması ilə əlaqələndirirlər. Bu areal mənbələrdə Barsiliya adlandırılır və hun torpaqları kimi qeyd olunur (3, 19). Qeyd etmək lazımdır ki, Barsiliyanın dəqiq yeri haqqında müxtəlif fikirlər mövcuddur. Son dövrlərdə elmi ədəbiyyatda bu istiqamətdə yeni fikirlər səsləndirilmişdir (1, 67-68).

V əsrdə yaşamış naməlum erməni tarixçisi II əsrin əvvəllərində Xəzərin qərbində məskunlaşan hunların Sasani dövləti ərazisində baş verən siyasi proseslərdə aktiv rol oynadıqlarını vurğulayır (4, 173). IV əsrin ilk rübündə Xəzərin qərb sahillərində məskunlaşdığı şübhə doğurmayan hunların Azərbaycan ərazisində Mil düzünə qədər gəlib çıxması məlumdur.

Gürcü salnaməsinin verdiyi məlumata əsasən hunlar IV əsrin 30-cu illərində İberiya ilə ittifaq quraraq həm də Qafqazda Sasanilərin hücumlarının qarşısını alınmasında müəyyən rol oynamışlar. IV əsrin ilk yarısında Kartli çarı III Marian Dərbənd yaxınlığında Qafqazdakı tayfalara yardım edən xəzərlərlə savaşmışdır. Burada xəzərlər kimi göstərilən etnik toplum yəqin ki, hunlardır. Çünki xəzərlərin Dərbənd sərhəddində görünmələri sonrakı əsrlərə aiddir (4, 921; 7, 131)

IV əsrin ikinci yarısındakı hadisələri qələmə alan Favstos Buzandın əsərində "Maskut padşahı Sanesanın bərk qəzəblənərək qoşunlarının hamısını – hunları, paxları, tavasparları, xeçmatakları, ijmaxları, qotları, qluarları, quqarları, şiçbləri, gilbləri, balasaciləri, yegersvanları və saysız-hesabsız köçəri tayfaları toplayaraq Kür çayını keçməsindən" bəhs olunur (2, 172). Məskətlər (massagetlər) eranın ilk əsrlərində Müşkür düzündə öz dövlətlərini qurmuşlar (4, 921-922).

Musa Kalankatlının "Albaniya tarixi" əsərində hunların adı Azərbaycan ərazisinə yürüşlər edən şimal tayfaları sırasında dəfələrlə çəkilir, lakin onların ilk hücumlarının dəqiq vaxtı göstərilmir (1, 77).

Mənbələrdə hunların yaşadıqları ərazi haqqında məlumatlar da var. Bunlara əsasən, hunların Dərbənddən cənuba, Beşbarmaq dağı sərhəddinə doğru uzanan ərazilərdə yaşadıqlarını anlamaq mümkündür. İstər yazılı mənbələr, istərsə də arxeoloji tapıntılar

hunların IV əsrdən etibarən Azərbaycanın şimal-şərqində yaşadıqlarını sübut etməkdədir.

Hunlar da Məsqət şahlığının hərbi, siyasi və mədəni həyatında önəmli rol oynamışlar. Məsqət şahlığının əsas mərkəzlərindən birinin qalıqlarının Müşkür düzündə tapılması və çevrəsindəki ondan artıq təpədən birini yerli xalqın "Huna Tepe" olaraq adlandırması hunların bu bölgədə yaşadıqlarına dair daha bir sübutdur. Bu ərazi Müşkür düzünün ən böyük ticarət və mədəniyyət mərkəzinə çevrilmişdir.

Hunların Cənubi Qafqaza ən böyük yürüşlərindən biri 395-ci ildə baş vermişdirr. Həmin dövrün hadisələrini təsvir edən Prisk yazır ki, hunlar on beş günlük yoldan sonra hansısa gölü (Azov) keçərək, hansısa dağı (Qafqaz) aşaraq Midiyaya gəlib çatdı. Bu zamandan etibarən həmin gələn hun tayfaları Qafqazda bilavasitə önəmli rol oynamağa başladı (3, 36).

Y.Cəfərovun tədqiqatlarına əsasən belə qənaətə gəlmək olar ki, 395-466-cı illərdə hunların Qafqazdakı fəaliyyəti onoqurların daha ön plana çıxması ilə səciyyələnir.

V əsrdə yaşamış erməni tarixçisi Yegişe əsərində hunların Qafqazdakı fəaliyyətlərinə aid məlumatlar verir. O, əsərində hun-bulqar tayfalarını "haylandur" adlandırır (4, 921-922). Erməni müəllif hun boylarının məskunlaşdıqları Xəzər boyu əraziləri "hunların vilayəti", "haylandurların torpaqları" adlandırır, Dərbənd istehkamlarından isə "hun qapıları" kimi təqdim edir (4, 923).

Bəzi məlumatlara görə, Şərqi Avropadakı hunların bir qismi 445-ci ildə, yəni Atilla hələ sağ ikən Şimali Qafqazı keçərək Azərbaycanın Muğan tərəflərinə gəlib yerləşirlər (8, 187). Z.V.Toğan belə ehtimal edir ki, Muğan ərazisindəki Ağhun şəhərini ərəblər Balasakan adlandırırdılar ki, bu da Mərkəzi Asiyadakı Balasaqun şəhərinin adı ilə bağlı ola bilərdi (8, 170).

Hunların və digər türk tayfalarının Sasanilərin nüfuz dairəsində olan əraziləri ələ keçirəcəyindən ehtiyat edən Sasanilər imperiyanın şimal sərhədlərinin qorunmasına xüsusi diqqət yetirirdilər. Onlar bu məqsədlə həm əvvəlki müdafiə istehkamlarını bərpa etdirir, həm də bir sıra yeni sədlər və müdafiə tipli qalalar tikdirirdilər. Sasani şahları həmin sədlərin və qalaların mühafizəsini həyata keçirmək üçün bir sıra tədbirlər görürdülər. Bu tədbirlərdən biri də digər ərazilərdən Sasanilərə sadiq olan tayfaların Azərbaycanın sərhəd bölgələrinə, o cümlədən Dərbənd və ona yaxın olan Xəzərsahili ərazilərə köçürülməsi idi. Məsələn, şimaldan gələn yeni-yeni türkdilli tayfaların Cənibi Qafqazda sürətlə yayılmasından və onların Sasanilərə tabe olan torpaqları tuta biləcəklərindən narahat olan I Xosrov Ənuşirvan həmin tayfaların təsirini azaltmaq üçün burada etibarlı Sasani qarnizonları yerləşdirdi (1, 163).

V əsrin 60-cı illərində Şimali Qafqazın hərbi-siyasi və etnik vəziyyətində əsaslı dəyişikliklər meydana gəlmişdir. Avarların sıxışdırdıqları sabirlər Qafqaza köç etdilər. Onlar burada digər türk boyları, sarıqur və onoqurlarla qarşılaşdılar (3, 22).

VI əsrin ortalarında, I Xosrov Ənuşirvanın (531-579) hakimiyyəti dövründə Sasanilərlə Bizans arasında bağlanmış bir sıra müqavilələr (555-ci, 556-cı, 561-ci illərdə) hər iki dövlətin hunlara qarşı birbirinə yardım etməsini nəzərdə tuturdu (1, 78). Məhz I Xosrov Ənuşirvanın dövründə hunların Azərbaycan torpaqlarına yürüşlərinə əsasən son qoyulmuşdur. Lakin bəzi ehtimallar görə, hunların IV Hörmüzün (579-590) dövründə də Azərbaycan torpaqlarına yürüşü olmuşdur. Ancaq bu fakt özünün tam təsdiqini tapmamışdır. Hunlar haqqında son məlumatlardan biri VI əsrin 50-ci illərinə təsadüf edir. Bu zaman Şimali Qafqazda avarlarla müharibədə iştirak edən xalqlar sırasında hunların adına da rast gəlinir (1, 78-79).

VI əsrin ortalarından etibarən hunların rəhbərlik etdiyi konfederasiya dağılmağa başlamış, onların Azərbaycan torpaqlarına hücumları kəsilmiş, digər şimal tayfalarının, yəni sabirlərin və xəzərlərin hücumları isə güclənmişdir. Bununla



belə, VII əsrin əvvəlinə aid anonim mənbədə Cənubi Dağıstanda, Şirvanda və Xəzər dənizinin qərb sahillərində məskunlaşmış tayfalar sırasında xəzərlərlə birlikdə hunların da adı çəkilir (3, 23).

Sasani şahları Azərbaycanın Xəzər boyu bölgəsində türk xalqlarının etnik məskunlaşmasına hər nə qədər maneə törətməyə çalışsalar da, bunu bacara bilməmişlər və Azərbaycanın şimal-şərq bölgəsinin müəyyən bir müddət hun hökmdarının rəhbərliyi altında olduğunu göstərir.

Azərbaycanın Xəzər boyu ərazilərinin mürəkkəb etnik proseslərə səhnə olduğunu göz önünə alaraq çox millətli bir bölgə olduğunu və burada türk ünsürünün, xüsusilə hun boylarının (onogurlar və sabirlər) əhəmiyyətli rol oynadıqlarını deyə bilərik (4, 923-924).

Hunların dilinə gəldikdə isə demək olar ki, bütün tədqiqatçılar bu dilin qədim türk dili olduğu qənaətindədirlər. Onun xəzər dili kimi çuvaşların dilinə yaxın olması haqqında fikirlər də mövcuddur (1, 82).

Şimali Qafqazda və Azərbaycan torpaqlarında məskən salan hunların dini görüşləri haqqında məlumatlar olduqca ziddiyyətlidir. Belə ehtimal etmək olar ki, Şimali Qafqazda məskən salan və oradan Albaniyaya daxil olan hunlar qədim dini etiqadlarını əsasən saxlayırdılar. Onların arasında əvvəllər olduğu kimi çoxallahlılıq, bütpərəstliklə bağlı dini inanclar mövcud idi. Musa Kalankatlı isə hunların xristianlığı qəbul etdiyini bildirir. O yazır ki, Çola yepiskopu həm də hunların yepiskopu idi (5, 172-174).

V-VI əsrlərdə Azərbaycan torpaqlarında məskunlaşmış hunların sayının artması nəticəsində Kür və Araz çayları arasındakı yerlərdə "hunlar ölkəsi" yaranmışdı (2,172). Hunların uzun müddət Azərbaycanda qalmasını bugünədək ölkəmiz ərazisində qalmaqda olan toponimik materiallar da sübut edir.

Beləliklə, aparılan araşdırma nəticəsində belə bir qənaətə gəlmək olar ki, hunlar eramızın ilk əsrlərindən başlayaraq tarixi Azərbaycan torpaqlarında məskunlaşmağa başlamış və Azərbaycan türk xalqının formalaşmasında mühüm rol oynamışlar. Bu xalqımızın səlcuqların gəlişi ilə türkləşməsi konsepsiyasını əsassız olduğunu söyləməyə imkan verir.

ƏDƏBİYYAT

1. *Ağayev R.Ə. Ərəb xilafəti dövründə Azərbaycan əhalisi. Bakı, 2017.*
2. *Bünyadov Z.M. Azərbaycan VII –IX əsrlərdə. Bakı, Elm, 1989.*
3. *Cəfərov Y. Гуны и Азербайджан. Baku,1993.*
4. *Dostıyev T. Kafkasya'da Hunlar. Türkler, Yeni Türkiye Yayınları, İstanbul,1993.*
5. *Kalankatlı M. Alban tarixi. Bakı, Avrasiya, 2006 .*
6. *Qasımlı A. Türklər (Tarixi oçerklər). Bakı, 2012.*
7. *Qumilyov L.N. Hazar Çevresinde Bin Yıl. Birleşik Yayınları, İstanbul, 2000.*
8. *Togan Z.V. Ümumi türk tarihine giriş. I cild. İstanbul, 1981*
9. *Z.V Togan. "Azərbaycan tarixi coğrafiyası", Azerbaycan Yurt Bilgisi, 1932, №5.*

Açar sözlər: *Azərbaycan, hunlar, xəzərlər, əhali, etnoqenez.*
Ключевые слова: *Азербайджан, гунны, хазары, население , этногенез.*
Key words: *Azerbaijan, The Huns, The Khazars, population, ethnic origin.*

The Huns and Azerbaijan
SUMMARY

The article has been devoted to the problems connected with the ethnic origin, language and religious faiths of the Huns and there role in the formation of Azerbaijani people.

The etymology of the name of Huns has not been completely determined yet. The Huns always had connections with the Sabirs, the Khazars and other Turkic people. The closest of Turkic peoples to the Huns were the Sabirs.

A group of authors suppose that Hunnic language may have been a member of, or related to the Turkic language family

Гунны и Азербайджан
РЕЗЮМЕ

Статья посвящена этническому происхождению гуннов и их роли в формировании азербайджанского народа.

Этимология слова «гунны» до сих пор остается объектом жарких научных споров. Савиры, хазары и другие племена были в тесной взаимосвязи с племенным союзом гуннов. Наиболее близкими к гуннам были савиры (сабиры).

Религиозные верования гуннов проявлялись в общетюркских языческих ритуалах. Благодаря географическому положению в гуннскую среду проникало и христианское виляние.

По оценкам многих исследователей, гуннский язык относился к тюркской семье языков.

Tarix

XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI QUBERNİYASI XƏZİNƏ KƏNDLİLƏRİNİN PAY TORPAQLARININ ZƏBT EDİLMƏSİ HAQQINDA

SEVDA ABDULLAYEVA
Lənkəran Dövlət Universiteti



Məlumdur ki, XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycan, xüsusən də onun Bakı quberniyasına aid torpaqlarında əhalinin əsas hissəsinin xəzinə torpaqlarında məskunlaşmış kəndlilər təşkil edirdilər. XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində bu kəndlilərin başlıca yaşayış qaynağı olan pay torpaqlarının tədricən azalması prosesi gedirdi. Tədqiq edilən dövrdə xəzinə kəndlilərinin torpaq sahələrinin azalması və onların torpaqsızlaşmasının əsas səbəblərindən başlıcası xüsusi torpaq sahibləri və digər qeyri-kəndli təbəqələrinin nümayəndələri tərəfindən kəndlilərin istifadəsində olan pay torpaqlarının zəbt olunması idi. Həm xəzinə torpaqlarının, həm də bilavasitə xəzinə kəndlilərinin istifadəsindəki pay torpaqlarının imtiyazlı şəxslər tərəfindən zəbt olunması hökumətin də maraqlarına cavab vermirdi. Qafqaz Baş mülki rəisinin Əkinçilik və Dövlət Əmlak nazirinə ünvanladığı 1899-cu il 20 oktyabr tarixli məktubda yazılırdı: "Sizin əmrinizə əsasən 1897-ci ildə aparılmış xüsusi təhqiqat zamanı Yelizavetpol, Bakı və İrəvan quberniyalarında çoxdan bəri xəzinə torpaqlarının xüsusi şəxslər tərəfindən sistematik zəbt olunması halları müəyyən olunmuşdur ki, bu, əvvəllər də bizə məlum idi" [2, v. 185].

Qanunlardakı boşluqlar və yaxud qanunların icra olunmaması xəzinə kəndlilərinin torpaqlarının zəbt olunmasına gətirib çıxarırdı. Mübahisələrlə nəticələnən sərhədlərin müəyyənləşdirilməsi işi çox çətin getdiyindən uzun illər ərzində çox az torpaq sahələri mərzləşdirilmişdi. Hətta çarizmin ən yüksək mənsəbli məmurları və dövlət idarələri etiraf edirdilər ki, "Cənubi Qafqazda torpaq mülkiyyətçiliyi qeyri-müəyyən qalırdı, bu isə torpaq münasibətlərində qarışıqlıq yaradırdı" [19, s. 51].

Torpaq mübahisələri dövlət (dövlət kəndliləri - müəllif) ilə xüsusi şəxslər, kəndli

və kənd cəmiyyətləri, habelə ayrı-ayrı kəndlər arasında baş verirdi. XIX əsrin 80-ci illərinin əvvəllərində belə mübahisəli torpaqlarının sahəsi ümumi Göyçay qəzasında 718,5 desyatin, Şamaxı qəzasında 5 096,6 desyatinə [17, s. 40-41], Cavad qəzasında 772 desyatinə bərabər idi. Belə torpaq sahələrinin Göyçay qəzasında 667 desyatini, Şamaxı qəzasında 4321,46 desyatini, Cavad qəzasında isə 280 desyatini imtiyazlı şəxslərin istifadəsində idi. 80-ci illərin sonlarında mübahisəli torpaq sahələrinin miqyasında artım müşahidə olunmağa başladı. Əgər 1887-ci ildə Bakı qəzasında 8 250 desyatin, Cavad qəzasında 1 750 desyatin mübahisəli torpaq sahələri var idisə, 1888-ci ildə isə bu rəqəmlər belə idi: Bakı qəzasında 18 500, Cavad qəzasında 14 550, Göyçay qəzasında 5 500, Şamaxı qəzasında 35 100, Quba qəzasında isə 2 000 desyatin [2, v. 267].

Statistik məlumatın kasadlığı üzündən dövlət kəndlilərinin nə qədər torpaq sahələrinin zəbt edilməsi haqqında dəqiq rəqəmlər söyləmək çox çətindir. Lakin arxiv sənədlərində torpaqların zəbt olunması haqqında xeyli sənədlərə rast gəlmək mümkündür. 1893-cü ildə Göyçay qəzasının Alpout-Mehdıbəy cəmiyyətinin 175 kəndlisinin imzası ilə göndərilən şikayət ərizəsində onların istifadəsindəki 500 desyatin "Uzunaralıq" adlı qışlaq sahəsinin nüfuzlu sahibkar Ağabəy Əbdürrəhman Sultanov tərəfindən zəbt olunduğu göstərilirdi [1, v. 23-24]. 1895-ci ildə Şamaxı qəzasının Camcamlı kəndinin torpaqlarının böyük hissəsinin (1630,5 desyatin) Mərəzə (rus kəndi - müəllif) və Mərəzəli kəndlərinin sakinləri tərəfindən tutulmasına baxmayaraq, camcamlılar bütün torpaqlar üçün vergi verirdilər. Bu zaman Mərəzə kəndliləri 2056,62 desyatin (202 həyət), Mərəzəli kəndliləri 7048,66 desyatin (334 həyət), Camcamlı kəndliləri 742,79 desyatin (57 həyət) torpaq sahəsinə malik idilər və hər həyət başına bu kəndlilərdən birincisində 24,53, ikincisində 26,7, üçüncüsündə 13,1 desyatin torpaq sahəsi düşürdü [5, v. 12-15]. Bundan əlavə Mərəzə kəndinin 1483 desyatin yaylağı, Mərəzəli kəndinin 1050 desyatin yaylaq və 15000 desyatin qışlağı var idi. Camcamlılar isə yaylaq və qışlaqları ikinci əldən icarəyə götürirdülər. Qaynaqlarda saxlanılan materiallar sübut edir ki, torpaq sahələrinin zəbt olunması halları Bakı quberniyasının, demək olar ki, bütün qəzalarında geniş yayılmışdı.

Torpaq sahələrinin azalmasının "ədalətli" həllini tapmaq üçün kənd cəmiyyətləri yerölçənlərin gəlməsini tələb edirdi. Bir arxiv sənədində oxuyuruq: "Son zamanlar cəmiyyətimizin pay torpaq sahələri azalmışdır. Pay torpaq sahələrinin bir hissəsi Cənubi Qafqaz dəmir yoluna, bir hissəsi Ucar stansiyasında ticarətlə məşğul olanların əlinə keçmiş, bir hissəsi də Qarabörk kənd cəmiyyəti tərəfindən zəbt edilmişdir. İndi kənd cəmiyyəti (Ucar-Gəraybəyli cəmiyyəti - müəllif) pay torpaqlarının yarısından az sahəsindən istifadə edir ki, bunun da xeyli hissəsi şoran torpaqlardır. Bununla belə vergi idarəsi bizdən bütün torpaq sahələrinə görə vergi tələb edir" [10, v. 1a. -23].

Torpaq mübahisələri əsasən mərzləmə zamanı və zəbt olunan torpaqlar barəsində gedən məhkəmələrdə nüfuzlu və varlı torpaq sahiblərinin xeyrinə başa çatırdı. 1895-ci ildə Şamaxı qəzası Kürd kəndinin torpaq sahəsi mərzlənən zamanı mübahisəli 5100 desyatin 480 kv. sajenlik 5 torpaq sahəsi xüsusi şəxslərin mülkü hesab edilmişdi [8, v. 64]. 1902-ci ildə Kürdəmir kəndinin torpaqları mərzlənən zaman xəzinə və A.A. Lələyev arasında sahəsi 853 desyatin və 1435 desyatin olan 2 torpaq sahəsi, xəzinə ilə Xasay bəy və Surxay bəy Hüseyn bəy oğlu Nəzirovlar, Tərlan bəy Şirvəli bəy oğlu və Baloğlan bəy Nurli bəy Nəzirov, Mehdi bəy və Şirin bəy və b. arasında 16 desyatin 190 kv. sajen və 3 desyatin 960 kv. sajen

torpaq sahəsi, ümumi torpaq sahəsi 1307 desyatin 280 kv. sajen olan torpaq sahəsi üstündə isə Q.Q. Yevanqulov arasında (100 desyatin), Əbdülhüseyn bəy Nurməmməd bəy oğlu arasında qalan torpaqların (1207 desyatin 280 kv. sajen) 1/2 hissəsi, Sultan bəy Ağasəf bəy oğlu arasında 1/6 hissəsi, Əlibəy Abdulla bəy oğlu arasında 1/6 hissəsi, Ağa bəy Mahmud bəy oğlu arasında 1/6 hissəsi üstündə mübahisə düşmüşdü [9, v. 75-75 a.]. Bakı dairə məhkəməsinin 10-13 iyun 1903-cü il tarixli iclasında həmin torpaqlardan 853 desyatin və 1435 desyatinlik iki torpaq sahəsi Lələyevın, 16 desyatin 190 kv. sajen və 3 desyatin 960 kv. sajen müvafiq bəylərin, 100 desyatini Yevanqulovun mülkiyyəti hesab olundu. Qalan 1207 desyatin 250 kv. sajenlik sahə iki hissəyə bölünərək, bir hissəsi dövlətə, digər hissəsi isə 1/2 və 1/6 hissələr olmaqla sahibkarlara verilmişdi [9, v. 87 a. - 88]. Tiflis Məhkəmə palatası 1910-cü ildə həmin qərarı təsdiq etdi [9, v. 159 və 161 a.]. Göyçay qəzası Yeniarx kəndinin mərzlənməsi zamanı xəzinə ilə Səlimbəy Sultanov arasında 1125 desyatin torpaq üstündə baş verən mübahisə 1905-ci ildə Bakı dairə məhkəməsi tərəfindən sahibkarın xeyrinə həll olundu. Dövlət əmlakı və əkinçilik idarəsinin əlində sahibkarın bu torpaqlardan yalnız 200 desyatinə sahib olması haqqında sənədlər olmasına baxmayaraq, Tiflis məhkəmə palatası 1910-cu ildə Bakı məhkəməsinin qərarını təsdiq etdi. Yerli torpaq sahəsinin mərzlənməsi zamanı 1903-cu ildə Umud bəy İsrafilbəy oğlu qonşu xəzinəyə məxsus olan Bayram-Kürd kəndinin sakinləşdiyi 748 desyatin 1440 kv sajen torpağını ələ keçirdi və Bakı dairə məhkəməsi 1905-ci, Tiflis Məhkəmə palatası isə 1910-cu ildə bunu təsdiq etdi. Mərzləmələr zamanı torpaq üstündə ortya çıxan torpaq mübahisələrin demək olar ki, hamısının varlıların xeyrinə qanuniləşdirilməsi kəndlilərə böyük zərbə idi. Bu torpaq sahələri onların istifadəsində olan pay torpaq sahələri idi.

Əkinçilik və Dövlət əmlakı nazirliyi hüquq məsləhəti idarəsi 1900-ci ilin 17 iyul tarixli məktubunda Dövlət Torpaq əmlakı departamentinə yazırdı: "Pay torpaq sahələrinin zəbt olunması halları hüquq məsləhəti hissəsinə çoxdan məlumdur. Belə zəbtlərlə vəsatət qaldırılması yolu ilə mübarizə aparmaq olar, lakin xəzinəyə məxsus torpaq sahələri ilə bağlı udulmuş işlərlə xəzinə "töycü qaynağı " təşkil edilməlidir. Bu torpaqlar kəndlilərə və kənd cəmiyyətlərinə verilməməlidir ki, zəbtlər olsun" [20, v 2-2 a.]. 1902-cı ilin yanvarın 22-də Qafqaz Baş mülki rəisi qubernatorlara yazırdı: "Zəbtə ən çox dövlət torpaqları məruz qalır ki, bu torpaqların belə oğurlanması, dövlətə böyük və bağışlanmaz zərər vurur" [3, v. 119].

Mübahisəsiz mərzlənmiş torpaq sahələri isə kəndlilərə baha başa gəlirdi. Mərzləmə işi başa çatdırıldığı Quba qəzasının Qrız kəndi əhalisi 1901-ci ildə əvvəlki ilə nisbətən 4 000 rubl artıq vergi verməyə məcbur edilmişdilər. Kəndlilər həm də öz pay torpaq

sahələrinin planlarını almaq üçün əlavə pul verməli idilər. Qrız kəndliləri planın sürətini almaq üçün birdəfəlik 707 rubl 70 qəpik pul vermiş və "pay torpaqlarının mərzlənməsi üçün 20 il müddətinə hər il həmin məbləğdə pul ödəməli idilər" [15, s. 198].

Bakı quberniyasında 1862-ci ildən başlnan mərzləmə işi çox ləng gedirdi. 1862-1889-cü illərdə Bakı quberniyası torpaq sahəsinin 0,1 faizi mərzlənmişdisə, 1893-cü ildə bu, 2,7 faiz təşkil etmişdi. Lakin sonrakı dörd ildə mərzləmə işi böyük sürətlə aparılmağa başlamışdı. Beləki, 1897-ci ilin yanvarın 1-nə olan məlumata görə artıq Bakı quberniyasında olan torpaq sahəsinin 47,6 faizi mərzlənmişdi [14, s. 9]. Mərzlənmənin sürətlə aparılması, gözlənilən islahatla bağlı olmuşdu. Onu da qeyd etmək yerinə düşərdi ki, islahat elan ediləndən sonra da Bakı quberniyasının xeyli torpaq sahələri hələ də mərzlənməmiş qalırdı. 1918-ci ilin yanvarın 1-nə olan məlumata görə təkcə Göyçay qəzasında 37 kəndin torpaq sahələrinin mərzlənməsi hələ də başa çatdırılmamışdı [13, v. 2; 16, s 141].

Torpaq sahələrinin mərzlənməsinin sürətlənməsi torpaq mübahisələri ilə bağlı ciddi çətinliklər yaradırdı. Ortaya çıxan torpaq mübahisələri isə məhkəmələrdə həddindən artıq gec həll olunurdu. Kənd məhkəmələrinin fəaliyyətində nəzarətsizlik saxtakarlığa, aldatmalara, özbaşına və qeyri-ciddi qərarların çıxarılmasına şərait yaradırdı. Belə hallar dairə məhkəmələrində də hökm sürürdü. Məhkəmələrdə işlərin çoxsaylı instansiyalardan keçməsi onların həllini gecikdirirdi. Barışıq və dairə məhkəmələrinin çıxardığı qeyri-qənaətbəxş qərarların yuxarı məhkəməyə - Tiflis məhkəmə palatasına təqdim edilməsi üçün 5 rubl 20 qəpik pul ödənilməli idi [18, s. 193]. Bakı dairə məhkəməsində 1900-1904-cü illərdə torpaq mübahisələri ilə bağlı 1843 məhkəmə işinin 104-nə qərar çıxarılmışdı ki, bunlar appelyasiya məhkəməsinə verilə bilərdi.

1897-ci il 6 noyabr tarixli çar fərmanına əsasən Cənubi Qafqazda torpaq sahələrinin torpaq sahiblərinin mülkləri kimi möhkəmləndirilməsi məqsədilə onlara şəhadətnamələrin verilməsi təsdiqləndi və belə şəhadətnamələrin verilməsi məhkəmələrə həvalə edildi [12, v. 2]. Gözlənilmədən verilmiş belə bir fərman torpaq sahələrinin mərzlənməsində yeni çətinliklər ortaya qoydu. Bakı quberniyası dövlət əmlakı idarəsi 5 noyabr 1900-cu ildə Əkinçilik və Dövlət Əmlakı nazirliyinin Qafqazdakı səlahiyyətlisinə yazırdı: "Mərzləmə üçün lazım olan sənədlər müxtəlif məhkəmələrdə və ayrı-ayrı vəzifəli şəxslərdədir və hazırda onlar haqqında məlumat əldə etmək mümkün deyildir" [7, v. 243-245 a.].

Məhkəmələrdə bir tərəfdən torpaq şəhadətnamələrinin alınması üçün təqdim olunmuş sənədlər, digər tərəfdən mərzlənmənin düzgün aparılmamasın-dan şikayət ərizələri toplanmışdı. Bu məhkəmələr bir ildə yalnız 13-20 şikayət ərizələri ilə bağlı qərarlar çıxarırdılar. Bakı dairə məhkəməsi 1900-cu ildə 21 926 desyatın 797 kv. sajen sahəsi olan 1 287 mübahisəli torpaq sahələrini əhatə edən 29, 1901-ci ildə 7 715 desyatin 740 kv. sajen sahəsi olan 238 mübahisəli torpaq sahələrini əhatə edən 26, 1902-ci ildə 7 119 desyatin 1 290 kv. sajen sahəsi olan 29 mübahisəli torpaq sahələrini əhatə edən 14, 1903-cü ildə 22588 desyatin 1500 kv. sajen sahəsi olan 125 mübahisəli torpaq sahələrini əhatə edən 13, 1904-cü ildə 9160 desyatin 1 823 kv. sajen sahəsi olan 164 mübahisəli torpaq sahələrini əhatə edən 22 işin həllinə dair qərar çıxarmışdı. 1905-ci ilin yanvar 1-ə olan məlumata görə məhkəmədə həll olunmamış 75 mərzləmə işi qalırdı. Həllini gözləyən həmin mübahisəli torpaqların sahəsi 50 min desyatinə bərabər idi [4, v. 29].

Bir sıra qəzalarda kənd cəmiyyəti üzvlərinin başqa (meşşan və s.) təbəqələrə keçməsindən sonra da bu "keçmiş" kəndlilər cəmiyyətin istifadəsindəki pay torpaqlarını qeyri-leqal yollarla öz əllərində saxlayır və bağlar salmaqla onları daçaya çevirirdilər.

Bundan əlavə xüsusilə sənaye məqsədləri ilə zəbt edilmiş xəzinə torpaqları əvvəllər açıq satınalma yolu ilə əldə edilirdisə, indi bunun üçün məhkəmələrdən məharətlə istifadə olunurdu. Vergi müfəttişləri və Bakı quberniyası qəza rəislərinin 1903-cü il 16 iyun tarixli iclasında xəzinə cəmiyyətləri pay torpaqlarının xüsusi mülkiyyətə çevrilməsini qanunla tənzimlənmədiyi bildirilir və belə torpaq sahələrinin vergiyə cəlb edilməsi" [11, v 12 a. - 13] tələb olunurdu. Bəzi qaynaqların məlumatına görə Bakı quberniyasında bu yolla torpaq ələ keçirənlərin sayı 2 000 nəfərdən çox idi və onlar kənd cəmiyyətlərinin bölgüsü üzrə vergi verməkdən boyun qaçırır, özlərini xüsusi sahibkar hesab edirdilər [11, v. 13 arx.].

Beləliklə, müxtəlif dövlət idarələrində xəzinənin pay torpaqları üzərində hüququn olmasını təsdiqləyən sənədlərin çatışmaması, mərzləmənin faktiki olaraq ləng aparılması, torpaq mübahisələrində yerli polis və məhkəmələrin qətiyyətsizliyi və korrupsiyalılığı [21, s. 5], rüşvətxorluğun və özbaşnalığın baş alıb getməsi xəzinə kəndlilərinin pay torpaq sahələrinin zəbt olunmasını asanlaşdırırdı və xəzinə kəndlilərinin minlərlə desyatin pay torpaq sahələrinin itirilməsinə şərait yaradırdı. Bu hal Bakı quberniyasında kənd əhalisinin çox böyük əksəriyyətini təşkil etdiyi xəzinə kəndlilərinin sosial-iqtisadi durumunu daha da ağırlaşdırırdı.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, inventar 3 030.

2. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, inventar 4 028.

3. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, inventar 4189.

4. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 11, siy. 1, iş 325.

5. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 13, siy. 1, iş 98.

6. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 1, iş 1.

7. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 1, iş 43.

8. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 1, iş 1 066.

9. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 22, siy. 1, iş 1307.

10. Azərbaycan Respublikası Dövlət Tarix Arxiv, fond 22, siy. 3, iş 349.

11. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 43, siy. 3, iş 1 574.

12. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 54, siy. 1, iş 73.

13. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 56, siy. 1, iş 1 576.

14. Həsənova L.L. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq münasibətləri. Bakı: ADU, 1985.

15. İsmayılov M.Ə. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda torpaq mülkiyyəti və torpaqdan istifadə formaları haqqında // Azərb. SSR EA Tarix İnstitutunun xəbərləri, 13-cü cild, 1958, s. 177-200.

16. Гасанов Г. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007.

17. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. 7, Тифлис, 1887.

18. Мильман А. Политический строй Азербайджана в XIX — начале XX веков. Баку: Азернешр, 1966.

19. Николаи А.П. Отчет по Главному управлению наместника Кавказского за первое 10-летие управления Кавказским и Закавказским краем князем Михаилом Николаевичем 6 декабря 1862 г.— 6 декабря 1872г.

20. Rusiya Dövlət Tarix Arxivi, fond 381, siy. 37, iş 647.

21. Туманов Г. Земельные вопросы и преступность на Кавказе. СПб.: 1900.

Açar sözlər: *pay torpağı, zəbt, Bakı quberniyası, xəzinə kəndləri, Şimali Azərbaycan, Şamaxı qəzası*

Key words: *allotment land, seizure, Baku Governorate, state peasants, Northern Azerbaijan, Shamakhi district*

Ключевые слова: *надельная земля, захват, Бакинская губерния, казенные крестьяне, Северный Азербайджан, Шемахинский уезд*

Севда Абдуллаева

О захвате надельных земель казенных крестьян Бакинской губернии в конце XIX – начале XX вв.

РЕЗЮМЕ

В настоящей статье автором на основе многочисленных достоверных источников и материалов, собранных из литературы, предприняты попытки рассмотреть, проанализировать и сделать соответствующие выводы по одному из значительных социально-экономических процессов, а именно по захватам надельных земель казенных крестьян. Эти захваты, приводившие и еще большему расширению безземелья и малоземелья среди казенных крестьян получили в рассматриваемый период особенно широкий размах в казенных селениях вышеназванной губернии.

Sevda Abdullayeva

On the seizure of allotment lands of state peasants of the Baku Governorate in the late XIX - early XX centuries

SUMMARY

In this article, the author, on the basis of numerous reliable sources and materials collected from the literature, attempts to review, analyze and draw the appropriate conclusions on one of the significant socio-economic processes, namely, on the seizure of allotment lands of state peasants. These seizures, which led to an even greater expansion of landlessness and land shortage among state peasants, were particularly widespread in the government settlements of the above-mentioned province during the period under review.

Demoqrafiya

GƏNCƏ QUBENİYASINA RUSLARIN VƏ ALMANLARIN KÖÇÜRÜLMƏSİNİN BÖLGƏNİN ETNİK TƏRKİBİNƏ TƏSİRİ

VÜQAR ABBASOV,
ELDAR MEHDİYEV,
AZƏR CƏLİLOV

Gəncə Dövlət Universiteti

Etnik tarixin öyrənilməsi, habelə etnik sərhədlərin müəyyən edilməsi özünəməxsus çətinliklərlə bağlıdır. Hər şeydən əvvəl bu dövrün mənbələrinin azlığı və siyahıyaalma materiallarında əhalinin çox zaman dinə görə qeyd edilməsi ilə bağlıdır. Belə ki, XIX əsrə aid olan bir çox mənbələrdə Azərbaycanın və eləcə də Zaqafqaziyanın İslam dininə məxsus olan əhalisi "musilmani" kimi qeyd edildiyindən, bu, həmin zümrəyə daxil olan əhalinin etnik mənsubiyyətini dəqiqiklə müəyyən etməkdə çətinlik törədir. Deməliyik ki, inqilabaqədərki ədəbiyyatda bu baxımdan tez-tez rast gəldiyimiz digər dəqiqsizlik əhalinin, xüsusilə azərbaycanlıların düzgün olmayaraq "tatarı", "Kavkazckie tatarı", "Zaqafkazskie tatarı" və bəzən də "turki" kimi adlarla qeyd edilməsidir.
Bütün bunlarla xalqımıza verilən qeyri-elmi adlar olub, müasir tədqiqatçını çaş-baş salan faktlardır. Odur ki, tədqiqatçıların XIX əsr ədəbiyyatına, tarixi sənədlərinə tənqidi yanaşması tələb olunmaqla yanaşı, bu ədəbiyyatların həm də saf çürük etməsi unudulmamalıdır (5,5).

Bunu da etiraf etməliyik ki, ümumiyyətlə ta qədim dövrlərdən başlayaraq, son dövrlərədək Azərbaycanın etnik tarixşünaslığımızda demək olar ki, öyrənilib tədqiq edilməmişdir. Etnik tarixin XIX əsrə aid olan cəhətlərinə gəldikdə isə tarixçilərimizin bu sahədə az da olsa xidməti vardır. Hər şeydən əvvəl bu dövrdə Azərbaycan əhalisinin etnik tərkibində baş verən dəyişikliklər, bu əraziyə gələn qeyri-azərbaycanlı etnosların məskunlaşması məsələlərinə aid müəyyən tədqiqat işləri aparılmış, elmi məqalələr nəşr edilmiş, dissertasiya işləri yazılmışdır. Bu Azərbaycana rus əhalisinin köçürülməsi və burada rus kəndlilərinin əmələ gəlməsi probleminı aid Azərbaycan tarixçiləri xeyli tədqiqiat işi aparmışlar. Tədqiqatçılarımızdan H.Ə.Orucovun, D.İ.İsmayılzadənin əsərlərində bu məsələr öz əksini tapmışdır (3;8).

XIX əsrin tarixi ədəbiyyatında da biz bu problemlə bağlı müəyyən materiallara rast gəlirik. Bu materiallar Azərbaycanda olmuş digər xalqların nümayəndələri tərəfindən öz nöqteyi-nəzərlərindən yazılsa da, hər halda bir mənbə olmaq baxımından bu gün də əhəmiyyət kəsb edir. Bu baxımdan Yelizavetpol quberniyası statistika komitəsinin katibi işləmiş İ.Z.Seqalin bu quberniyada məskunlaşan rus kəndləri, habelə rus kəndlərindəki məktəblərdə müəllim işləyən İ.Caşinin Slavyanka, İ.Jabinin Privolnoe, İ.Petrovun Novo- Saratovka və Novo- İvanovka kəndləri haqqında yazdıqları məqalələri xüsusilə qeyd etməliyik. Adları çəkilən məqalələrdə Yelizavetpol quberniyasında məskunlaşan ilk rus kəndləri, əhalisinin sayı və başqa məsələlər haqqında maraqlı məlumatlar verilmişdir (5).

Ümumiyyətlə 1830- cu ili ərzində çar hökuməti rusların Zaqafqaziya ərazisinə köçürülməsinin qanunvericiliklə rəsmiləşdirilməsinə başlandı. Həmin ilin oktyabr ayının 20-də Zaqafqaziya diyarına kəndlilərin və sektantların köçürülməsi başlandı. Bu qərar ilə onların Novorosiya əyalətinə köçü dayandırılmışdır (8, 35). Bu zaman Rusiyanın cənubunda çoxlu sektantlar fəaliyyət göstərirdilər. Bunlar duxobarlar, malakanların və digərlərinin təriqərçilik təşkilatları idi ki, bunlar bir qayda olaraq, Rusiyanın müxtəlif kəndli təbəqələrinin təhkimçilik sistemi, mülkədar istismarı və onları müqəddəs sayan pravoslav kilsəsi əleyhinə çevrilmiş kortəbii sosial-siyasi protestin əsasında meydana gəlmişdir.

Öz sosial ideyalarını həyata keçirən istər duxoborlar və istərsə də malakanlar kommunalarda birləşirdilər Duxobor kommunası – Moloçnıx Vodax XIX əsrin əvvəllərində meydana gəldi. XIX əsrin 30-cu illərində varlı kəndli olan Mixayıl Popov Saratov quberniyasında Malakan kommunasının əsasını qoydu. Bütün kommunalar tamamilə qapalı yaradılmışdılar (7,67).

Malakanlar iki sektora ayrılırlar: Priqon və Bastiyan. Çox hallarda bir Bastiyan bir Priqonun dəfnində iştirak etməz. Bir Priqon məcbur olmasa bir Bastiyandan qız almazdır (10).

XIX əsrin əvvəllərində duxoborlar, malakanlardan fərqli olaraq, yerli Rusiya quberniyasında aktiv dini fəaliyyətlərini zəiflətdilər. Bu vaxt duxoborların kütləvi şəkildə Tavriçesk quberniyasına, sonra isə Zaqafqaziyaya kütləvi köçü başlandı (7,100).

Duxoborların təliminə hörmət bəsləyən Lev Tolstoy yazırd: "... duxoborlar Qafqaza köşürüldükdə: zəgin əxlaqi qanunlarına icra edilməsi zəiflədi, onlar öz pəhriz karlıqlarından əl çəkdilər, araq içdilər, siqaret çəkdilər, məhkəmədə mühakimə olundular, əsası isə onlara əks olan hökümətin dini həyatına tabe oldular, hərbi xidmətə getməyə başladılar" (7,129).

V.Z.Veliçko öz əsərində yazırdı": əvvəllər doxoborlar ətrafdakı vəhşiliyə və zülmə qarşı ən gözəl silahdan istifadə edərək tatarlara (azərbaycanlılara- müəl) hörmət tələqin edir, onlarla mehriban, ürəyiaçıq qonşuluq əlaqələrində olurdular (8,203). V.Z.Veliçko daha sonra qeyd edirdi ki, duxobor cəmiyyəti labüd olan erməni özbaşınalığının qarşısını alırdı (8,206).

A.İ.Kulibanov qeyd edirdi ki, çarizmin represiya tətbiq etməklə duxoborlardan yaxasını qurtarmaq istəyir, XIX əsrin əvvəllərində isə onları bir yerdə cəmləmək istəyirdi. Duxoborların əsas kontingenti Vorenej, Tambov, Yukaterinoslav, Xarkov quberniyalarından Novorosiysk quberniyasının Maripolsk qəzasına köçürmüşlər (1804-1816). Hökümət və Mərkəzi kilsə tez-tez antifeodal əhval ruhiyyə ilə çıxış edən, islahatdan əvvəlki rus kəndlilərinə qarşı kəskin mübarizə aparırdı.

Bu vaxt təhkimlilərin və sektantların ilk köçü başlandı. 23000 duxobavor (köşürülmə tarixi məlum deyil) Tiflis quberniyasının Axalsixi qəzasına gəldi (9,35).

Malakanlar XIX əsrdə Rusiyada, əsasəndə Zaqafqaziyada, əsl dükançı və fermer idilər, əlavə olaraq kənd təsərrüfatında və sənayedə fəhlə, proletariatlaşmış kəndli və kiçik tacir idilər (7,106).

Artıq XX əsrin əvvəllərində malakanlar Rusiyada əsasən üç mərkəzdə - Zaqafqaziyada, Uzaq Şərqdə və Orta Rusiyada mərkəzləşmişdi. Malakanların ümumi sayı 200 min nəfər idi (7,135).

Zaqafqaziyada əyalətinə köçürülən rus kəndlilərinin əksəriyyətini duxoborlar, malakan, subbotnik, priqunov, skopçsov təşkil edirdi. Onlar Tambov, Voronej, Ekaterinoslav, Xarkov, Tavriçes, Həştərxan, Samara, Penzens, Ryazan quberniyasından köçürülürdülər.

Təhkimli və sektantların köçürülməsinə dair səmərəli əsasnamə hazırlanmışdır ki, buna əsasən məhkəmənin qərarı ilə suçlu olan kəndli hərbi xidmət üçün Qafqaz korpusuna göndərilirdi (9,36).

Rusların Zaqafqaziyaya birinci köçünün tarixi bir qayda olaraq 1838-ci il müəyyən edilmişdi. Belə ki, həmin vaxt Azərbaycan ərazisində, Lənkəran qəzasında Vəl kəndi təşkil edilərək buraya rus əhalisi köçürülmüşdür. Əslində isə rusların Azərbaycana köşürülməsi (təhkimli və sektantlar nəzərdə tutulur) 1834 və hətta 1832- ci ildə başlanmışdı. Rusların ilk köçürdükləri yerlərdə Şamaxı quberniyasının Şamaxı və Şuşa qəzaları idi (9,37). XIX əsrin 30-50-ci illərində bu quberniyada bir-birinin ardınca Altıağac (1830-cu il), Vəl (1838-ci il), Privolnoye (1839), Prişib (1840), Nikolayevka (Lənkəran qəzası), Mərəzə (1843), Xilmili kimi rus kəndləri meydana çıxdı. Bu proses əsrin 80-90-cı illərinədək davam etdirildi. Quberniyanın ayrı-ayrı qəzalarında əsrin sonunda artıq 22-dən çox rus kəndi mövcud idi ki, burada da 19000 nəfər əhali yaşayırdı. Qəzalar üzrə rus kəndləri aşağıdakı kimi yerləşirdi. Şamaxı qəzasında 8, Lənkəranda 7, Göyçayda 3, Cavadda 3,Quba qəzasında 1 (5).

Yelizavetpol quberniyasında xristian təriqətçi köçkünlərinin salqıdları ilk yaşayış məntəqələri "Rus Borisi" (1842-ci il) və Slavyanka (1844-cü il) kəndləri olmuşdur (1,24). Sonralar isə Qoreloe, Nova Troitskoe, Nova Spasskol, Nova Mixaylovka, Novo Saratovka (1847-ci il), Novo İvanovka (1850-ci il), Nadel (keçmiş Molla Osman) (1861-ci il), Mixaylovka (Gəncə basarda) (1870-ci il) kəndlərinin əsasını qoymuşdular. Gəncə şəhərində isə köhnə təriqətçilər sonralar yerli əhali tərəfindən Malakanlar və Kələmlik adlandırılan Xan bağında yerləşdirilmişdi. Şəhər daxilində əkinçilik üçün müəyyən məhdudiyyət qoyulduqdan sonra malakanlar Kələmliyin bir hissəsini ermənilərə satmışdılar. Onlardan bir qismi öz sənətini dəyişərək şəhərdə qalmış, digər hissəsi isə şəhərətrafı ərazilərdə torpaq yeri götürərək Gəncəbasar kəndlərinə səpələnmişdilər (3,99).

XIX əsrin 30-40-cı illərində Yelizavetpol qəzasında 7 kənd salınmışdı. Bütün Zaqafqaziya ərazisinə 1 yanvar 1849-cu ilədək köçürülən ruslar 3259 ailə, sayı isə 19341 nəfər idi (9, 38).

1873-cü il məlumatına görə Yelizavetpol quberniyasındakı 593784 nəfərdən 8891 nəfəri rus idi, yəni ümumi əhalinin 1,5 faizi (9,57). 1884-1885-ci illərdə Yelizavetpol qəzasındakı 51594 dövlət kəndlisindən 4987 nəfəri rus kəndlisi, yəni ümumi dövlət kəndlilərinin 9,7 faizini təşkil edirdi (9,63).

XIX əsrin 60-cı illərindən başlayaraq artıq yalnız sektantlar deyil, ümumiyyətlə, provaslav əhalisi köçürülməyə başlanır. 1897-ci ildə Yelizavetpol qəzasında 4782 pravoslav, 5996 köhnə təriqətçi yaşayırdı ki, onlardan müvafiq olaraq 2800 nəfər pravoslav və 340 nəfər malakan Gəncədə məskunlaşmışdı (3,100).

Ümumiyyətlə, XIX əsrin sonu-XX əsrin ilk illərində Bakı quberniyasında 18, Yelizavetpol quberniyasında isə 10 yeni rus

kəndi salındı (4,16). Təkcə 1905-ci ildə Azərbaycanın hər iki quberniyasına icazə ilə köçən kəndlilərin sayı 2790 nəfərə çatırdı (4,16). Cavad qəzasındakı Pokrovka, Alekseyevka, Şamaxı qəzasındakı Novo-Postovka kəndləri məhz 1905-ci ildə meydana çıxmışdı. Faktlardan məlum olur ki, 1905-ci ilin əvvəllərində Yelizavetpol quberniyasında məskunlaşan rus ailələrinin sayı 588-ə çatırdı, bunlardan da 215-i Yelizavetpol, 240-ı Şuşa, 85-i Cavanşir, 11-i isə Qazax qəzasının payına düşürdü (4,17-18).

Pravoslav əhalisinin Yelizavetpol qəzasındakı Frezevka (Atabəy kəndinin yerində), Kovalevka, Rozalinovka (Düz yurd), Semyonovka, Qolitsıno və s. kəndləri əsasən 1905-1916-cı illərdə salınmışdı (3,100).

1 yanvar 1914-cü il məlumatına görə Yelizavetpol qəzasında 248015 (56305 nəfər Gəncə şəhərində, 191710 nəfəri isə qəza ərazsində idi) nəfər əhalidən 18740 nəfəri (Gəncə şəhərində 5694, qəzada isə 13046 nəfəri) rus idi. Qəzadakı ümumi əhalinin 7,5 faizini (Gəncə şəhəri üzrə 10,1 faizini, qəza üzrə isə 6,8 faizini) rus əhalisi təşkil edirdi (9,237).

Ümumiyyətlə, 1917 –ci ilədək Zaqafqaziya diyarındakı 342 rus məskənindən 185-i Azərbaycan ərazisində idi (6,86).

XIX əsrdə Azərbaycanda, onun etnik xəritəsində baş verən dəyişikliklərdən biri də burada alman koloniyalarının meydana gəlməsidir ki, bu da əsasən Yelizavetpol quberniyasına aiddir. Almanların Zaqafqaziyaya gəlməsi haqqında inqilabaqədərki ədəbiyyatda müəyyən məlumatlar varıdr. Bu baxımdan İ.Petrovun Yelizavetpol qəzasındakı alman koloniyaları və F.Tsimmeren Yelizavetpol quberniyasındakı Yelenendorf koloniyası haqqında yazdıqları məqalələri qeyd etməliyik.

Məlum olur ki, Zaqafqaziyaya və istərsə də Azərbaycana almanlar Almaniyanın Vurtsenburq krallığından gəlmişlər ki, bu da 1813-1816-cı illərə təsadüf edir. Belə ki, Almaniyanın daxilində baş verən aclıq, habelə dini münaqişələr təqiblər almanların Rusiyaya köçməsini sürətləndirirdi. 1816-cı ildə çar I Aleksandr Ştutqartda olarkən almanlar ondan Zaqafqaziyaya köçməyə icazə verməyi xahiş etmişlər. İmperatorun razılığını alan 1440 ailə 1817-ci ildə Zaqafqaziyaya yola düşdülər. Dörd minə yaxın bu əhalinin min yüz nəfərə qədəri yolda həlak oldu, qalanı isə Odessaya çatdı. 1818-ci iln yazında 500 ailə Odessa – Xerson – Taqaroq – Rostov – Georgiyevsk – Stavropol – Mozdok – Tiflis maşrutu ilə hərəkət edib, 40 nəfər sənətkardan ibarət bir dəstə Tiflisdə qalaraq Yeni Tiflis adlı koloniyanın əsasını qoydular. Bundan sonra gələn kolonistlər üçün Tiflisin yaxınlığında münasib yer olmadığından hökümət onları Yelizavetpol quberniyasında yerləşdirmək qərarına gəldi. Kolonistlərin etirazına baxmayaraq onlar məcburi olaraq Yelizavetpola köçürüldülər. Bu vaxt artıq payızın son ayı idi. Qışı burada qaldılar. Lakin şəhərin 7 verstliyində Gəncə çayı boyuncada onlara torpaqlar ayrıldı və 1819-cu ilin Pasxa bayramından sonra almanlar bu ərazidə məskunlaşaraq Yelenendorf koloniyasının əsasını qoydular. Beləliklə Azərbaycan xəritəsinə ilk alman koloniyası daxil oldu. 31 dekabr 1898-ci ildə bu koloniyada artıq 1806 alman yaşayırdı (5). Bunun ardınca Anenfeld koloniyası yaradıldı.

1883-cü ildə Yelenendorf kolonistləri həmin sahəni 150 təsərrüfat arasında bölüşdürdülər. Həmin sahələrdə iki il ərzində üzüm tənəkləri əkib – becərən əhali nəhayət 1885-ci ilin iyununda daimi olaraq bu əraziyə köçməyə başladılar. 1889-cu ilin 1 mayında isə dövlət tərəfindən kolonistlərin yeni yaşayış məntəqəsi salması qanuniləşdirildi. 13 noyabr 1895-ci il tarixli məktubunda kolonistlər qubernatora məlum edirdilər ki, həmin koloniya Böyük knyaz Georgi Aleksandroviçin şərəfinə Georgiyevski adlandırılır. 1895-ci ilin sonunda Georgiyevski müstəqil koloniya kimi qəbul edilməsi, 1896-cı ilin fevralın 10-da isə quberniya idarəsinin göstərişi ilə onun kəndə çevrilməsi qanuniləşdirildi. Yelizavetpol qubernatorunun 2 yanvar 1897-ci il tarixli fərmanı ilə Georgiyevski kənd elan olundu. Kəndin ixtiyarında 1910 desyatin 800 kv. sajin torpaq sahəsi var idi. 1904-cü il məlumatına görə kənddə 344 kişi, 324 qadın yaşayırdı. Həmin kənd daha sonralar, yəni 1941-ci ildə Lelinkənd adlandırıldı.

Sayca dördüncü alman koloniyası Qazax qəzasında yaradıldı.

Bu 1911-ci ilin ortalarında 15 ailədən təşkil edilmiş Qrunfeld idi. Beşinci koloniya Eyqenfelq adlanırdı ki, bu da ilk alman koloniyalarının yaxınlığında, indiki Göygöl rayonu ərazisində yerləşirdi. Sonralar bu koloniyalar Engelsfeld, 1941-ci ildə isə indiki Şəmkir rayonunda qəsəbə kimi mövcud olan Enkelskənd adlandırıldı (2,22).

Deyilənlərdən əlavə Qazaxda Alekseyevka və Qrubenfeld adlı alman koloniyaları da fəaliyyət göstərirdi.

Beləliklə XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın o cümlədən Gəncəbasar bölgəsinin etnik xəritəsində Rusiyanın Tambov, Saratov, Orenburq, Voronej quberniyalarından, habelə Almaniyada almanların köçürülməsi ilə xeyli miqdarda rus kəndliləri və alman koloniyaları, rus və alman toponimləri meydana çıxdı ki, bu da istər-istəməz əhalinin istər sayının və istərsə də milli tərkibinin dəyişməsinə səbəb oldu.

ƏDƏBİYYAT

1. Abdulla Əhədov "Azərbaycanda din və dini təsisatlar" Bakı. 1991

2. Almanlar Azərbaycanda. Tətib edənlər: Ç.Abdullayev,B. Quliyeva. Bakı 1992.

3. F.Əhmədov "Gəncənin tarixi yaddaşı" // "El" jurnalı, 1992.

4. H.Ə.Orucov "Azərbaycanda rus kəndlərinin əmələ gəlməsi tarixinə dair" // Azərb.Xəbərlər, 1969, №2

5. Qəmərşah Cavadov "XIX əsrdə Azərbaycanın etnik xəritəsinə dair" // "Elturan" jurnalı, 1994, №1-2

6. N.İbrahimov "Azərbaycan tarixinin alman səhifələri" Bakı, 1997

7. А.И.Кулибанов «Делигсозное сектантство в праилом и настоящем» М.1973

8. В.А.Величко «Кавказ: русское дело и междуплеменные вопросы» Б.1990

9. Деляра Исмаилзаде "Русское крестьянство в Закавказье (30 – е годы XIX- начало XX в)" М.1982

10. Prof. Dr. Orhan Türkdoğan "Karsta bir etnik qrup: Malakanlar"// "Türk dünyası araştırmaları", İstanbul, nisan, 1996, №101.

Açar sözlər: *köçürülmə, demokrafik dəiyişiklik, Anenfeld,Yelenendorf, Qrubenfeld, malakanlar, duxobarlar*

Ключевые слова: *переселение, демографические изменения, Анненфельд, Еленендорф, Грюнфельд, молоканы, духоборы*

Key words: *resettlement, demographic changes, Annenfeld, Elenendorf, Gryunfeld, Molokans, dukhobors.*

В.Д. Аббасов, Э.Мехдиев, А.М.Джалилов
Влияние русских и немцев переселенных в Гянджинское губернаторство на этнический состав региона.
РЕЗЮМЕ

В этой статье анализируется результат влияния переселенных в Гянджинское губернаторство (Елизаветполь) Азербайджана немцев и русских, являющееся частью колониальной переселенческой политики царской России в XIX и начале XX века, на демографическую ситуацию. В исследовании также на основе исторических материалов выявлено влияние процесса переселения на социально-экономическую жизнь местного населения.

V.D. Abbasov, E. Mekhdiyev, A.M. Dzhalilov
Influence of the Russians and Germans moved in the Ganja governorship on ethnic structure of the region.
SUMMARY

In this article the result of influence moved in the Ganja governorship (Elizavetpol) of Azerbaijan of Germans and Russians which is a part of colonial resettlement policy of imperial Russia in XIX and the beginning of the 20th century on a demographic situation is analyzed. In a research also on the basis of historical materials influence of process of resettlement on social and economic life of local population is revealed.

Tarix

AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN BÖYÜK DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİNİN YARANMASINDA NEFT AMİLİ

NİYAMƏDDİN HACIYEV
Gəncə Dövlət Universiteti

M.Ə.Rəsulzadə

M.Hacınski

İyunun 4-ə Batumda Güney Qafqaz dəmiryolunun hərəkət heyətinin bölüşdürülməsi haqqında Azərbaycan, Gürcüstan, Ermənistan və Osmanlı nümayəndələri müqavilə imzaladılar. Müqavilədə Güney Qafqaz dəmiryolunun bütün hərəkət heyətinin müqavilə imzalayan dörd dövlət arasında onların ərazisindən keçən xətlərə uyğun bərabər bölüşdürüldüyü deyilirdi.

Gürcüstan tərəfdən N.Ramişvili, Q.Qvazova, J.Odişelidze, Q.Retkiladze, Azərbaycan tərəfindən M.Hacınski və M.Ə.Rəsulzadə, Osmanlı tərəfindən Xəlil bəy Menteşe və Vehib Paşa 1918-ci il iyunun 4-də Bakı-Batum arasında neft ixracı ilə əlaqədar olaraq saziş imzaladılar. Sənəddə Bakı ilə Batum arasında neftin davamlı olaraq axıdılması; Bakı ilə Batum arasındakı neft mənbələrinin mühafizə edilməsi; bu ölkələrin sərhədləri daxilində qalan neft mənbələrinin qorunması; neftin nəqli üçün vergi müəyyənləşdirilməsi və ərazisindən keçən boru xəttinin uzunluğuna uyğun olaraq müvafiq ölkəyə gəlir verilməsi; bütün bunlar üçün müvafiq komissiya yaradılması nəzərdə tutulurdu. Saziş Azərbaycan neft sənayesinin bərpasına, neft istehsalına və sənayenin işinə müsbət təsir edərək xarici bazarda satışa əlverişli şərait yaradırdı (1, s.166).

Antanta ölkələrinə qarşı müharibədə müttəfiq olmalarına baxmayaraq Qafqaz məsələsində Osmanlı dövləti ilə Almaniya arasında ixtilaflar var idi. Bu ixtilafların təməlində başlıca olaraq Qafqazın bu dövlətlərdən hansının nüfuz dairəsində olacağı, əlverişli strateji mövqedə yerləşən Azərbaycana, onun zəngin təbii sərvətlərinə və Xəzər dənizinə kimin sahib olacağı dururdu. Əlbəttə, bu ixtilaflar düşmənçilik səviyyəsində də deyildi.

Almaniya ilə Osmanlı arasında ixtilafların başlıca səbəblərindən biri Bakı neftinə sahib olmaq üstündə idi. Əhməd İzzət Paşa öz xatirələrində Bakı üstündə almanlarla ixtilaflar olduğunu etiraf edirdi (2, s.280). Nuru Paşa isə 1918-ci il iyunun 18-də orduya verdiyi əmrdə göstərirdi ki, Almaniya Bakının yalnız Osmanlı imperiyası tərəfindən tutulmasına mane olmaq niyyətindədir. Vehib Paşa əməliyyatı mümkün qədər həyata keçirtməyi xahiş edir. Sizin məqsədimiz Bakı olacaqdır.

Almaniya türklərə mane olmaqdan ötrü bütün mümkün vasitələrdən istifadə etdi. Türkiyə tarixçisi Kamuram Gürün Almaniya ilə Osmanlı arasında Bakı nefti üzərində münaqişədən danışarkən yazır ki, Almaniya öz müttəfiqi olan türklərin Bakı neftini

əllərinə keçirməmələri üçün hər çarəyə baş vurdu, hətta ermənilərə yardım da göstərdi (3, s.5).

"Neftyanoe delo" jurnalının 1918-ci il 27 avqust tarixli 13 – 16-cı sayında dərc olunmuş "Cari vəziyyət" adlı məqaləsində deyilirdi: "Bakı rayonu döyüşən dövlətlərin koalisiyasının toqquşması və mübarizəsi meydanıdır. Sovet Rusiyası, həmçinin Bakı üzərində öz təsirini saxlamağa can atır, əlbəttə, bunu etməkdə gücsüzdür, belə ki, bunun üçün lazım olan şərait, yəni dövlətin az və yox dərəcədə mütəşəkkil olmasının olkin əsasları sovet hakimiyyəti ideoloqlarının özləri tərəfindən dağıdılmışdır. Sovet hakimiyyətinin nüfuz dairəsindən Rusiyanın nəhəng vilayətləri çoxdan ayrılmışlar, bu mənada Bakı istisna təşkil etmir. Beləliklə, Bakı rayonunda fəaliyyət göstərən qüvvələrdn başlıca olaraq döyüşən dövlətlərin koalisiyalarının marağı qalmışdır. Əlbəttə, indi Bakı rayonunda baş verənlər müttəfiq ingilislər dəvət olunarlarsa, şəhərdən və neft mədənlərindən uzaqda da baş verə bilərdi. Lakin bu ola bilməzdi və olmadı da, çünki bolşevik-sovet hakimiyyəti hökmran idi. Cəbhə indi lap Bakının yaxınlığındadır.

Yaxın perspektivləri aydınlaşdırmaqdan ötrü xatırlamaq lazımdır ki, Bakı ətrafında mühüm əhəmiyyətli məsələlər həll edilməlidir. Almaniyaya və onun müttəfiqlərinə Bakı nefti və onun məhsulları xeyli dərəcədə lazımdır. Almaniyanın benzini olmadığından təyyarələri, avtomobilləri, sualtı qayıqları hərəkət edə bilmir, sürtkü yağları yoxdur, belə ki, onun sərəncamında olan Rumıniya və Qalisiya neft sənayesi rayonlarının ehtiyatları İngiltərə və Birləşmiş Ştatların sərəncamında olan ehtiyatlar qarşısında kifayət deyildir. Bakı neft rayonunu ələ keçirtdikdən sonra Almaniya müharibəni nisbətən uzun müddət davam etdirə bilər. Digər tərəfdən, alman koalisiyasının əksinə olan maraqlar Bakı benzininin və ya kerosininin alman sualtı qayıqlarına daxil olmasına və sualtı müharibənin Almaniya tərəfindən davam etdirilməsinə imkan verməməlidir. Əlbəttə, Almaniyanın nefti və neft məhsulları vardır, lakin o, sərəncamında olan dünya neft hasiltının 3-4 %-ni düşmənlərinin sərəncamında olan 78-79 %-ə qarşı necə qoya bilər. Və bir sıra başqa cəhətdən də çoxlu malların tranzit məntəqəsi, Xəzər dənizindən Türküstana, Əfqanıstana və Hindistana aşılan yol kimi Bakı əhəmiyyətlidir. Bununla belə indi Bakının əhəmiyyəti onun əvvəllər, yanacaq rolunu, xüsusən neft tsərrüfatında necə oynaması ilə bağlıdır, bu da indi bütün müharibənin gedişinə güclü təsir edə bilər.

Neft sənayesinin spesfik özünəməxsusluğu bundan ibarətdir ki, onu asanlıqla dağıtmaq olar və hər halda Bakının alınmasını çox uzatmaq olar. Almanlara dağılmış mədənlər deyil, Bakı nefti lazımdır. Almaniya indiyədək hamıya aydn olan bu maraqlarını Türkiyənin və yeni doğulmuş Azərbaycan Respublikasının və b. maraqları ilə ört-basdır etmişdir. Bakının uzaqda yerləşməsinə və başqa cəbhələrdəki vəziyyətə görə almanların yeni uzaq sahələrə böyük qüvvə göndərmək imkanları olmasada, hər halda Bakı üçün onların qüvvələri tapılardı. Onlar müharibəni davam etdirmək niyyətində olduqlarından Bakıdan imtina edə bilməzlər, belə ki, bu, onların İngiltərənin və müttəfiqlərinin malik olduqları neft ehtiyatları üstünlüyü qarşısında tslim olmaları, onun tərəfindən müharibənin uduzulmasının etiraf edilməsi demək olardı. Beləliklə, müharibə davam etdikcə, Bakıya indi hücum edən qüvvələrə (türklərə) Mərkəz dövlətlərindən maksimum yardım gələcəyini gözləmək olar və buna görə də ona müqavimət göstərməkdən ötrü Bakı şəhərinin müdafiəsi üçün müvafiq tədbirlər görmək labüddür. Beləliklə, indi Bakıda yaranmış vəziyyət bir qədər üzücü forma ala bilər" (3, s.3).

Deməli, Bakıya və Bakı neftinə sahib olmaq müharibədə qələbənin və müharibədən sonrakı niyyətlərin həyata keçirilməsinin başlıca şərtləndirən biri idi.

Alman diplomatiyası türklərin hücumunu dayandırmaq üçün Almaniyaya Bakı neftinin bir hissəsini verməyi işarə etdi. Sovet hökuməti Bakı neftinin bir hissəsini Almaniyaya vəd verdi. Əvvəllərdə qeyd etdiyimiz kimi, bunu bilən Nuru Paşa komandanlığa bildirdi ki, almanlar türklərin Bakını azad etməsinə mane olmaq üçün Azərbaycan cəbhəsinə qarışmaq istəyirlər. Vehib Paşa ondan Bakıya sahib olmaq məqsədilə baş hücuma hazırlaşmağı xahiş etdi (3, s.34).

1918-ci ildən başlayaraq ABŞ Azərbaycana xüsusi maraq göstərməyə başladı. Amerikanın marağında neft başlıca yer tuturdu. "Nyu York Times" qəzeti 1918-ci il iyulun 17-də yazırdı ki, Şimali İranda (Güney Azərbaycan) və Qafqazda istifadə etmək üçün böyük qüvvələr hazırlamaq lazımdır. Görünür, bu istiqamət müttəfiqlər üçün çox vacibdir. Müttəfiqlərin birinci vəzifəsi Qafqazın ən mühüm neft rayonlarına sahib olmaqdır.

Lakin İngiltərə Azərbaycan neft rayonunun ABŞ-ın təsiri altına düşməsinə yol vermək istəmirdi. İngiltərə özü Bakı neftini ələ keçirməklə ABŞ-ın dünya neft bazarında nüfuzunu zəiflətməyə çalışırdı (4, s.110-111).

Müharibənin yekununda dünya siyasətində ABŞ-ın rolunun artmasına çalışan prezident V.Vilson bütün Güney Qafqaza mandat almaq iddiasında idi. Onun müşaviri, polkovnik Hauz 1918-ci il iyulun 5-də gələcəkdə çağrılacaq sülh konfransı haqqında yazırdı: "Sülh konfransında böyük dövlətlər elə ədalətli plan təklif etməlidirlər ki, bütün kiçik dövlətlər onu həvəslə qəbul etsinlər" (5, s.20).

1918-ci ilin yayında Azərbaycanda baş verən proseslər qətiyyən bolşevik Rusiyasının xeyrinə getmirdi. Bu tərəfdən, Qafqaz İslam Ordusu bolşevik ordusunu bir-birinin ardınca məğlub edərək Bakıya yaxınlaşırdı. Bir tərəfdən də, ingilislər Bakıya can atırdılar. Bolşeviklərin qüvvədən istifadə etməsi heç bir nəticə verməsə də, necə olursa-olsun Bakını türklərə təslim etmək istəmirdilər. Onlar başa düşürdülkər ki, Qafqaz İslam Ordusu Bakını azad etsə, əbədi olaraq şəhər Rusiyanın nəzarətindən çıxacaqdır və Osmanlı qələbə çalacaqdır. Çünki Bakı Azərbaycanın təbii paytaxtı idi, əhalinin böyük əksəriyyəti türklər və müsəlmanlar idi. Bakı Azərbaycanın elm və mədəniyyət mərkəzi idi.

Bolşeviklər Bakını ingilislərə də vermək istəmirdilər. Hesab edirdilər ki, böyük müsəlman imperatorluğu olan İngiltərənin şəhəri ələ keçirməsi Rusiya üçün çoxlu çətinliklər yaradardı. Çünki ingilislər Azərbaycanı "Asiya btulkası"nın tıxacı adlandırırdılar. "Tıxac" kimdə olacaqdısa, o da Asiyaya nəzarət edəcəkdi. Lakin Bakıya sahib olmadan Azərbaycanda möhkəmlənmək mümkün deyildi.

Bolşeviklər ən pis halda şəhərin almanlara verilməsini mümkün sayırdılar. Şəhər almanlara verilərdisə, sonradan almaq mümkün olardı.

Lakin türk hücumu ilə bolşeviklərin istəkləri baş tutmadı. Şəhərdə sosial dayağı olmayan və azərbaycanlıların müdafiə etmədiyi bolşevik hökuməti iflasa uğradı. İngilis ordu hissələri Ənzəlidən Bakıya gəldi. Qurulan koalisyon hökumət olan Sentrokaspidiktaturası hətta ingilislərin köməyi ilə də türk hücumunun qarşısını ala bilmədi. Belə şəraitdə bolşevik Rusiyası Bakının azad edilməsinə heç cür razı olmadığından Almaniya ilə separat danışıqlara getdi. Brest müqaviləsinə əlavə olaraq 1918-

ci il avqustun 27-də rus-alman müqaviləsi və siyasi, maliyyə və xüsusi hüquqi sazişlər imzalandı. Müqavilə 17 maddədən ibarət idi. Sənədləri Berlindəki rus səfiri İoffe, Almaniya tərəfindən fon Hinçe və Krihe imzaladılar. Bu müqavilənin 13-cü maddəsi ilə Rusiya Gürcüstanın müstəqil dövlət olduğunu tanıdı (6, s.437).

Müqavilənin Azərbaycana aid hissələrinə diqqət yetirək. 14-cü maddə Azərbaycana aid idi. Rusiya Almaniya-Osmanlı münasibətlərini korlamaq üçün Almaniya nüfuz dairəsində olan Gürcüstanın müstəqilliyini tanısa da, Azərbaycanın türk nüfuz dairəsinə verilməsinə və dövlət müstəqilliyinin tanınmasına razı deyildi. Bu maddədə deyilirdi ki, Almaniya Qafqazda Gürcüstan hüdudlarından knarda və diyarda müqavilənin 4-cü maddəsinin III abzasına uyğun olaraq üçüncü dövlətin heç bir hərbi əməliyyatlar aparmasına imkan daxilində yardım göstərməyəcəkdir (6, s.443). Üçüncü dövlət dedikdə yalnız Osmanlı nəzərdə tutulurdu. Müqavilənin 4-cü maddəsində isə deyilirdi ki, Moskva müqaviləsində və ya əlavə müqavilədə başqa bir şey qərara alınmadığı üçün Almaniya Rusiya dövləti ilə onun ayrı-ayrı vilayətləri arasında münasibətlərə heç cür qarışmayacaqdır və xüsusən bu vilayətlərdə müstəqil dövlət orqanizmlərinin yaradılmasına çağırmayacaqdır və kömək etməyəcəkdir. Slində bu maddə birbaşa olaraq Azərbaycanın dövlət müstəqilliyinin əleyhinə yönəldilmişdi (6, s.439).

Bu maddədə göstərilirdi ki, Almaniya Qafqazda üçüncü dövlətin döyüş qüvvələrinin aşağıdakı xəttləri keçməyəcəyinə öz təsirini etməlidir: Kür mənsəbindən Petropavlovsk kəndinədək, sonra düz xətlə Bakı, Şamaxı və Quba qəzalarının kəsişdiyi nöqtəyə qədər, sonra Bakı qəzasının şimal sərhədi ilə dənizə qədər.

Rusiya bunun müqabilində üzərinə müəyyən öhdəliklər götürdü. O, Bakı vilayətində neft və neft məhsullarının çıxarılmasına imkan daxilində kömək etməli və çıxarılan neftin dörddə birini, müəyyənləşdirilmiş miqdar ton nefti hər ay (hələ müəyyənləşdirirlmişdi) almanların tutduğu Donetsk hövzəsindən Almaniyaya aparılan daş kömürün əvəzində verməli idi. Lakin Bakı vilayətində çıxarılan neft bu miqdar üçün kifayət olmadığından o, başqa məqsədlər üçün istifadə edilə bilərdi və ona, həmçinin, başqa yerdə çıxarılan neft də əlavə olunmalıydı.

ƏDƏBİYYAT

1. Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə, II hissə. Bakı, 2001.

2. Ahmet İzzet Paşa. Feryadım. I c. İstanbul, 1992.

3. Kaymakam Rüştü E. Büyük harpte Bakü yollarında 5 Kafkaz piyadı firkası // Askeri mecmua. Tarih kismi. İstanbul, 1954, № 34.

4. Swietochowski T. Rus Azerbaycan 1905-1920. İstanbul, 1989.

5. Архив полковника Хауза. т. IV. Москва, 1944.

6. Документ внешной политики СССр. т. 1. Москва, 1959, док. № 319.

Açar sözlər: *Azərbaycan Cümhuriyyəti, Batum müqaviləsi, Azərbaycan Osmanlı münasibətləri, Neft sənayesi*

Key words: *Azerbaijan democratic republic, the contract of Batumi, Azerbaijan-ottoman relations, oil industry*

Ключевые слова: *Азербайджанской Республики, договора в Батуми, нефтяной промышленности*

Hajiyev Niamaddin Mazahir oglu

The factor of oil in the formation of relation of the Azerbaijan republic with great states

SUMMARY

In the article`s deals with the role of the factor in the policy of Azerbaijan Democratic Republic in establishing relations with the world`s leonding states, measures taken by the ottoman and German States on the Baku oil after the Batumi treaty, and the work that the ADR has taken to rehabilitate the oil industry after the release of Baku.

Гаджиев Ниямеддин Мазахир оглы

Установление связей между Азербайджанской Республикой и крупными странами на основе нефтяных факторов

РЕЗЮМЕ

В статье говорится о влиянии нефтяных факторов на налаживание связей Азербайджанской Республики с передовыми странами мира о мероприятиях в Османской империи и Германии связанных с бакинской нефтью и проводимых после заключения договора в Батуми а такие исследуются работы проводимые в нефтяной промышленности АДР после освобождения Баку.

Təhlükəsizlik

AZƏRBAYCAN QLOBAL ENERJİ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNDƏ

KÖNÜL MƏMMƏDOVA
Neftçala rayon Heydər Əliyev Mərkəzinin kiçik elmi işçisi

Müasir dövrdə dünyada geosiyasi oyunların çox sürətlə cərəyan etməsi və hadisələrin hər gün yeni bir istiqamətə düşməsi dünya düzənini tamamilə mürəkkəbləşdirir. Dünyanın müasir siyasi mənzərəsi və beynəlxalq münasibətlər sistemi geosiyasət anlayışının əhatə dairəsini daha da genişləndirmişdir.

XX əsrin sonlarından etibarən beynəlxalq arenada yeni güc mərkəzlərinin formalaşması, dövlətlərarası əlaqələrin fərqli aspektdə inkişafı yeni dünya nizamının yaranmasına, dünyəvi əhəmiyyətli problemlərin meydana çıxmasına səbəb oldu. Qloballaşan dünyanın ən mühüm, həssas nöqtələrindən birində yerləşən Azərbaycan da istər-istəməz bu reallığa qoşuldu.

Dünya siyasəti əsasən Avrasiyada müəyyənləşdirildiyindən bu bölgə geosiyasi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Dünyanın siyasi və iqtisadi gücünün əhəmiyyətli hissəsi toplanmış Avropa yeni dünya düzənində nə qədər əhəmiyyətə malikdirsə, Asiya hissəsi də eyni əhəmiyyət kəsb edir. Şərqlə Qərb arasında keçid rolunu oynayan Azərbaycan istəsə də, istər-istəməz yeni dünya düzəninə qarışır. Çünki Avrasiya dünya siyasətinin mərkəzi arenası olduğundan bu bölgədə yerləşib bitərəf qalmaq mümkün deyil. Həmçinin Azərbaycan coğrafi cəhətdən nə tam Avropa, nə də tam Asiya dövləti deyildir. Avropa ilə Asiyanın qızıl körpüsü hesab olunan Azərbaycan dünya siyasətini müəyyənləşdirən dövlətlər üçün həyati əhəmiyyətli geosiyasi məkandır.

Müstəqil Azərbaycan üçün artıq yeni dünya düzəni siyasətində kompleks, əhatəli, uzunmüddətli geostrategiyanın hazırlanması və ortaya qoymasının vaxtıdır. Bu qlobal siyasətdə fəallıq ölkənin inkişafını və təhlükəsizliyini təmin edir. Azərbaycanın coğrafi mövqeyi onun dünya düzənində aparıcı idarəedənlərdən olmasına imkan yaradır. Ölkəmiz Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu məkanda yerləşir. Ona görə də dinlərarası dialoqda iştirak imkanına, vahid dünya mədəniyyətinin formalaşdırılmasındakı fəaliyyətinə və s. görə müstəsna rolu ola bilər. Bu mövqe Azərbaycanın yeni dünya düzəni siyasətinin həyata keçirilməsində əhəmiyyətini daha da artırır. Azərbaycan qabaqcıl dünya dövlətləri ilə müqayisədə nisbətən aşağı

dərəcəli sayılsa da, potensialına görə orta dərəcəli dövlətdir.

Azərbaycan Respublikasının geosiyasi əhəmiyyətini artıran, milli maraqlarının təminatında əsas vasitələrdən biri də beynəlxalq aləmdə neft amili ilə bağlıdır. Amerika politoloqlarından Konatın fikrinə görə, geosiyasətdə neft amili mühüm rol oynayır. Xəzərin 200-dən artıq neft strukturunun 145-i Azərbaycan sektorunda yerləşir. Azərbaycanın zəngin neft resurslarına malik olan coğrafi məkanda yerləşməsi XX əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev tərəfindən düzgün qiymətləndirildi. Dövlətin neft strategiyası zamanın nəbzinə uyğun olaraq vaxtında milli mənafeyə yönəldildi.

Azərbaycan bu gün Avropada, bütövlükdə dünya enerji bazarında aparıcı qüvvədir. Azərbaycanın enerji bazarına daxil olması ilə yeni bir canlanma müşahidə olunmuş, neft-qaz infrastrukturunun şaxələndirilməsi istiqamətində əməli siyasət reallaşdırmışdır. Göründüyü kimi, enerji siyasətimizlə bağlı bütün addımlar düşünülmüş qaydada atılır. Hazırda, Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərinin həllində Avropa ilə bu istiqamətdə tərəfdaş kimi işləyir, fəaliyyət göstərir.

Azərbaycan Qərbə özünün Avrasiya məkanındakı əhəmiyyətli geosiyasi vəziyyətini və zəngin enerji resurslarını lazımi səviyyədə təqdim etməklə, Cənubi Qafqazın lider dövləti statusunu qoruyub saxlayır. Hazırda, regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızda həyata keçirilən demokratik islahatlar və iqtisadi dəyişikliklər, fəal xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığının qurulmasına və inkişafına əlverişli zəmin yaradır. Azərbaycan Respublikasının geosiyasi maraqları onun bütün sahələrdə öz milli dövlətinin qurulması və bu istiqamətdə məqsədlərə nail olmaq kimi iqtisadi-siyasi, mədəni yüksəlişinin əsas amilidir.

Təhlillər göstərir ki, Azərbaycan regionun geostrateji rolunda aparıcı ölkədir, regional layihələrin əsas təşəbbüskarı və iştirakçısıdır. Bu isə nəticə olaraq yeni geosiyasi dəyişikliklər astanasında Azərbaycanın regionda liderliyinin qorunub saxlanılmasına imkan yaradan strateji addımların atılmasını vacib edir. Azərbaycan hərərəfli şəkildə digər dövlətlərlə əməkdaşlıq etməyə hazır olan ölkə kimi öz loyallığını qoruyub-saxlayır. Bu istər regional, istərsə də qlobal miqyasda cərəyan edən hadisə və proseslərə ölkəmizin aktiv şəkildə cəlb olunması imkanını yaradır.Azərbaycan özünün geoiqtisadi, hərbi-geostrateji və təhlükəsizlik maraqlarını, milli maraq və mənafenin qorunmasına xidmət edən strateji konsepsiyasını dövrün reallıqları və gələcək gözləntilərlə uzlaşmış şəkildə hazırlamalıdır.

Gələcək dünyanın siyasi coğrafiyasını proqnozlaşdırmaq fövqəladə çətin məsələdir. Lakin qlobal sistemdə baş verən tektonik toqquşmalar, mini- lokal müharibələr və s. çoxsaylı amillər XXI əsrin geostrateji sxemini qismən izah edir. Dövlətin və cəmiyyətin, onun vətəndaşlarının mənafelərinin qorunub saxlanılması üçün vahid xarici siyasət, diplomatik çeviklik həyata keçirilməlidir. İstər Azərbaycan, istərsə də digər ölkələr xarici siyasətdə dünyada baş verən siyasi reallıqların məntiqinə riayət etməli və öz siyasətini həm də yeni dünya nizamına uyğun qurmalı, düzgün uzlaşdırmalıdır. Əgər Azərbaycanın dövlət mənafelərinin,onun milli maraqlarının beynəlxalq aləm tərəfindən dəstəklənməsi Azərbaycanın həyatında əhəmiyyətlidirsə, digər tərəfdən Azərbaycanla əməkdaşlıq edən Qərb ölkələrinin və enerji daşıyıcılarının təhlükəsizliyi üçün də vacibdir.

Beləliklə, qloballaşmanın dərinləşdiyi bir vaxtda dünya düzənində baş verən proseslərin hansı məcraya aparacağını gözləmək riskli yanaşmadır. Bu səbəbdən, gələcəkdə də respublikamızın gücü və taleyi, milli birliyi, ideoloji təhlükəsizliyi, həmçinin, iqtisadi müstəqilliyi, siyasi suverenliyi qoruyub saxlamaq, bütün bunlara paralel olaraq dünyaya inteqrasiyanı davam etdirmək bacarığından asılı olacaq. Respublikamız isə Qərblə Şərq arasında həm enerji, həm nəqliyyat, həm də informasiya texnologiyaları dəhlizlərinin mərkəzi olma mövqeyini qoruyub saxlamaqla, regional təhlükəsizliyin təminatçısı mövqeyini davam etdirəcək. (1)

Əgər əvvəllər enerji təhlükəsizliyi məsələləri texniki, texnoloji amillərdən asılı idisə, bu gün biz görürük ki, dünyada vəziyyət dəyişir və enerji təhlükəsizliyinə təsir edən əsas faktorlardan biri siyasətdir. Məsələn, İran məsələsi, Rusiya-Ukrayna münaqişəsi, Səudiyyə Ərəbistanı ilə Yəmən arasında baş verən toqquşmalar və digər amillər bu gün enerji təhlükəsizliyinə daha çox təsir edir. Buna görə də, bu münaqişələr həm siyasətçiləri, həm də neft-qaz sahəsində çalışan şirkət rəhbərlərini narahat edir.(2)

III Qlobal Bakı Forumu çərçivəsindəki iclasda "Enerji təhlükəsizliyi sülh üçün əməkdaşlıq vasitəsi kimi" mövzusunda seminar keçirilib. Avropa, Rusiya və Avrasiya Tədqiqatları Mərkəzinin direktoru Ariel Kohenin moderatorluğu ilə keçən iclasda Azərbaycanın keçmiş energetika naziri Natiq Əliyev ölkəmizin enerji ehtiyatları, Avropanın enerji təhlükəsizliyinə töhfələri barədə məlumat verib. O, enerji resurslarının iqtisadiyyatın əsas aparıcı qüvvəsi olduğunu vurğulayıb. İstənilən dövlətin əsas məqsədlərindən birinin enerji mənbələrinin şaxələndirilməsi olduğunu söyləyən keçmiş nazir dünyada 18 faiz ölkənin enerji ehtiyatlarından lazımi səviyyədə istifadə edə bilmədiyini diqqətə çatdırıb. O deyib ki, bu, böyük problemdir və zamanında həll olunmalıdır. Natiq Əliyev qeyd edib ki, 2013-cü illə müqayisədə neft hasilatı əhəmiyyətli dərəcədə artıb. Bu tendensiya davam etsə, 2040-cı ildə bu rəqəm daha da yüksələcək. Azərbaycan neft hasilatına görə 10-cü yerdədir.

Azərbaycan rəhbərliyi neft və qazın nəqli marşrutlarının şaxələndirilməsi ilə bağlı səslənən təklifləri hər zaman dəstəkləyib, xüsusən bu sahədə müxtəlif layihələr üzərində baş sındıran ölkələrin enerji təhlükəsizliyinə töhfələr verməyə hazır olduğunu hər zaman bəyan edib. Ona görə bir çox ölkələrin enerji təhlükəsizliyinin təminatına böyük töhfələr verən respublikamız dünya birliyində etibarlı və strateji tərəfdaş kimi öz yerini möhkəmləndirib. Son illər bu istiqamətdə baş verən və gələcəkdə Avropanın enerji xəritəsinə ciddi korrektələr edəcək hadisələr həm də Azərbaycanın enerji siyasətinin böyük uğurlarıdır.

Bu mənada 23-cü Dünya Enerji Konqresinə Azərbaycan Prezidenti İlham Əliyevin də dəvət olunması ölkəmizin dünyanın enerji xəritəsində oynadığı rola beynəlxalq ictimaiyyətin verdiyi böyük önəmin növbəti təsdiqi idi. Xatırladaq ki, 1923-cü ildə yaradılan Dünya Enerji Şurası bərpa olunan enerjinin gələcəyi ilə bağlı mühüm layihələr həyata keçirən qlobal miqyaslı mötəbər forumdur. 100-dən çox ölkəni və 3 mindən çox təşkilatı əhatə edən Dünya Enerji Şurası enerji qaynaqları ilə zəngin olan ölkələri bir araya gətirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu təşkilatın digər əsas vəzifəsi hamının rifahına xidmət edən davamlı enerji tədarükü sisteminə əsaslanan enerji istifadəsini təşviq etməkdir.

23-cü Dünya Enerji Konqresində dünya enerji sənayesinin liderləri, beynəlxalq təşkilatları, "beyin mərkəzləri"ni, universitetləri, enerji və sənaye qurumlarını təmsil edən 10 mindən çox nümayəndə iştirak edir. Konqres çərçivəsində keçirilən sessiyalarda milli, regional və qlobal miqyasda bərpa olunan enerjini təmin etmək üçün

alternativ yollar axtarışında olan ölkələrin enerji nazirləri, biznes, maliyyə və elm sahələri üzrə tanınmış şəxslər ətraflı müzakirələr aparır. Hökumətlər, sənaye sektoru və cəmiyyətlər üçün tarixi bir fürsət olan bu konqres hazırda dünyada yeni başlayan sənaye erasına mühüm töhfədir. Çünki burada verilən mesajlar gələcək üçün "yol xəritəsi" olacaq.

Artıq bəşəriyyət elə dövrə qədəm qoyub ki, ilk növbədə, enerji təhlükəsizliyinə nail olmadan digər sahələrdə irəliyə getmək mümkün deyil. Təsadüfi deyil ki, hər bir ölkə enerji təhlükəsizliyinə özünün milli təhlükəsizliyi prizmasından yanaşır. Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın isə bu sahədə həyata keçirdiyi nümunəvi siyasət, nəql marşrutlarının diversifikasiyası milli maraqlarımızı ehtiva etməklə yanaşı, bütün tərəfdaş ölkələrin enerji təhlükəsizliyinə, sabitliyinə və inkişafına yol açır. Prezident İlham Əliyev 23-cü Dünya Enerji Konqresində bu barədə deyib: "Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Bu gün ölkələr çalışırlar ki, öz təbii resurslarını müxtəlif yollarla dünya bazarlarına çıxarsınlar. Ancaq təbii qaynaqlarla zəngin olmayan ölkələr isə çalışırlar ki, onlara resurslar müxtəlif yerlərdən gətirilsin. Azərbaycan bu istiqamətdə də önəmli addımlar atmışdır və həm nefti, həm qazı şaxələndirilmiş yollarla dünya bazarlarına çıxarır".

Bəli, Azərbaycanın dünyanın enerji təhlükəsizliyində oynadığı mühüm rol həm də neft-qaz ehtiyatlarını şaxələndirilmiş formada ixrac edə bilməsi imkanlarına sahib olmasından irəli gəlir. Prezident İlham Əliyevin ulu öndərin müəllifi olduğu neft strategiyasını uzaqgörənliklə, qətiyyətlə davam etdirməsinin nəticəsi olaraq Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi Ərzurum qaz kəmərlərinin çəkilişinin başa çatdırılmasından sonra karbohidrogen ehtiyatların nəqli ilə bağlı bütövlükdə Xəzər hövzəsində tamamilə yeni vəziyyət yarandı. Yəni, Xəzərin karbohidrogen ehtiyatları ilk dəfə olaraq alternativ yollarla dünya bazarlarına çıxarılmağa başladı. Bu, Azərbaycanın müasir Avropanın və dünyanın enerji təhlükəsizliyindəki rolunu da əhəmiyyətli dərəcədə artıraraq ölkəmizin həm də etibarlı strateji tərəfdaş kimi statusunu möhkəmləndirdi. Təsadüfi deyil ki, 23-cü Dünya Enerji Konqresi də daxil olmaqla indiyədək keçirilən bütün enerji sammitlərində Azərbaycanın qlobal enerji təhlükəsizliyindəki müstəsna rolu və imkanları dəfələrlə vurğulanıb.

Azərbaycan enerji təhlükəsizliyi məsələsində mövcud vəziyyətlə kifayətlənməyərək neft-qaz təchizatı marşrutlarının şaxələndirilməsi ilə bağlı yeni təşəbbüslərlə çıxış edir, səslənən mütərəqqi təklifləri dəstəkləyir, regional və qlobal enerji təhlükəsizliyinə yeni töhfələr verməyə hazır olduğunu hər zaman bəyan edir. Azərbaycan diplomatiyasının uğurlarının və müxtəlif məsələlərdə konstruktiv əməkdaşlıq nümayiş etdirməsinin nəticəsidir ki, ölkəmizin enerji məsələləri ilə bağlı təşəbbüsləri hər bir tərəfdaş ölkə tərəfindən dəstəklənir. Ən əsası, ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı aparıcı mövqeyi dəstəklənir və etiraf olunur.

Hazırda Avropa ölkələri yeni enerji mənbələrinə, xüsusən Azərbaycan qazına ehtiyaclarının olduğunu dərindən hiss edir. Azərbaycanın isə malik olduğu qaz ehtiyatları ixrac kəmərlərinin genişləndirilmisinə imkan verir. Odur ki, "Cənub qaz dəhlizi"nin işə düşməsi Azərbaycanın beynəlxalq imicinə müsbət təsiri ilə yanaşı, ölkəmizin gələcək inkişafına böyük töhfələr verəcək, regionun enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişəcək.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp Bakıda 24-cü illik Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin və Konfransının keçirilməsi münasibətilə Prezident İlham Əliyevə ünvanladığı məktubunda Amerika Birləşmiş Ştatlarının "Cənub qaz dəhlizi"ni qətiyyətlə dəstəklədiyini, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının bu dəhlizin tamamlanmasına yönəlmiş səylərini alqışladığını bəyan etmişdi. Donald Tramp qlobal enerji təhlükəsizliyinin möhkəmlənməsində, o cümlədən Xəzər regionunda enerji resurslarının işlənilməsində və ixracında Azərbaycanın oynadığı mühüm rolu dəyərləndirmişdi.

ABŞ-ın Azərbaycanın enerji siyasətinə verdiyi dəstək Prezident İlham Əliyevlə eks dövlət katibi Reks Tillersonun görüşündə bir daha ifadə olundu. İkitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi və enerji sahələrində uğurla inkişaf etdiyi qeyd olunan görüşdə Reks Tillerson ABŞ-ın "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsinə bundan sonra da dəstək verəcəyini bəyan etdi.(4)

Layihə dörd hissədən ibarətdir: "Şahdəniz" yatağı, Cənubi

Qafqaz Qaz Kəməri, Transanadolu Qaz Boru Kəməri (TANAP) və Transadriatik Boru Kəməri (TAP). Layihənin hər bir mərhələsi üzrə işlər sürətlə həyata keçirilir. Göründüyü kimi, "Cənub qaz dəhlizi" layihəsinin hər bir komponenti üzrə işlər qrafikə uyğun davam edir. Bu enerji dəhlizinin işə düşməsi nəticəsində Azərbaycan Avropanın enerji təchizatının şaxələndirilməsində və yüksəldilməsində daha yaxından iştirak edəcək. Çünki bu dəhliz Azərbaycan qazını ilk dəfə Türkiyə, Yunanıstan və Albaniya ərazilərindən keçməklə, minlərlə kilometrlik məsafəni qət etməklə Avropanın mərkəzinə çatdıracaq, dünyanın enerji xəritəsinə ciddi dəyişiklik gətirəcək. Ən əsası isə bu layihənin tam gücü ilə işə düşməsi Azərbaycanın beynəlxalq imicinə müsbət təsiri ilə yanaşı, ölkəmizin gələcək inkişafına, siyasi və iqtisadi maraqlarının daha dolğun şəkildə təmin edilməsinə mühüm töhfələr verəcək.

Bu layihənin reallaşması Avropanın enerji təhlükəsizliyinə həqiqətən yeni elementlər gətirəcək. Çünki "Cənub qaz dəhlizi" Avropa ölkələrinin enerji təminatında yeni imkanlar açaraq qaz tədarükü mənbələrini şaxələndirməyə, yeni alternativ marşrutlardan istifadəyə, yüz minlərlə adamı sərfəli enerji ilə təmin etməyə şərait yaradacaq, dəhliz boyunca yerləşən ölkələrdə yeni texnologiyaların, iş yerlərinin yaranmasına və investisiyaların artmasına gətirib çıxaracaq. Məhz buna görə həm Avropa İttifaqı, həm beynəlxalq maliyyə təşkilatları, o cümlədən Amerika Birləşmiş Ştatları bu layihəyə maraq göstərir, dəstəklərini ifadə edirlər.

Bu gün Nabukko layihəsindən danışarkən onun reallaşmasında əsas iştirakçı dövlətlərdən biri kimi məhz Azərbaycan yada düşür. Ümumiyyətlə, Azərbaycanın indi təkcə mövcud olduğu yox, kifayət qədər geniş bir regionun, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təminatında olduqca mühüm rol oynaması ölkəmizin beynəlxalq birliyin daim xüsusi diqqət mərkəzində qalmasının səbəblərindən biridir. Həmçinin, enerji təhlükəsizliyi təminatında Azərbaycanın rolunun günü-gündən artması ölkəmizlə dünya dövlətlərini, xüsusən də Qərbi bu sferada daha sıx əməkdaşlığa sövq etməkdədir. Buna əsas səbəb həm Azərbaycanın özünün enerji ehtiyatları ilə kifayət qədər zəngin olmasına görə uzun müddət Qərbin enerji tələbatlarının ödənilməsində vacib rola malik tərəflərdən biri kimi çıxış etməsi, həm də Azərbaycanın iştirakı olmadan Mərkəzi Asiyadan başlayaraq Qafqazı keçməklə Türkiyə və Avropa istiqamətində uzanan enerji layihələrinin reallaşdırılmasının mümkünsüzlüyüdür. (3)

Hazırda dünyanın geosiyasi və iqtisadi gündəminin əsas mövzularından birini təşkil edən və Qərbin böyük ümidlə baxdığı Nabukko layihəsinin reallaşmasında da Azərbaycan əsas açar rolunu oynayan dövlət kimi qəbul olunmaqdadır. Bununla bağlı Prezident İlham Əliyev bildirir: "Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz, şübhə etmirəm ki, bu mövqe üstünlük təşkil edəcəkdir. Bilirəm ki, tərəfdaşlarımızın böyük əksəriyyəti bu mövqeyi bölüşür".

Azərbaycanın Avropa İttifaqı üçün strateji tərəfdaş olması və sözügedən qurumun Cənubi Qafqaz siyasətində mühüm əhəmiyyət daşıması bu təşkilatın özündə də ən yüksək səviyyədə etiraf edilməkdədir. Bunu Avropa İttifaqını təmsil edən ayrı-ayrı yüksək vəzifəli rəsmilərin, həmçinin qurum tərəfindən reallaşdırılan müxtəlif



proqramların icrasında, hazırlanan hesabatlarda da aydın görmək mümkündür. Məsələn, Avropa Qonşuluq Siyasəti Fəaliyyət Planının İcrası üzrə illik hesabatda qeyd olunur ki, Xəzər dənizinin neft və qaz ehtiyatları baxımından Azərbaycan həm hasilatçı, həm də tranzit ölkə olaraq Avropa İttifaqının strateji tərəfdaşıdır.

Azərbaycanın Avropa İttifaqının mühüm tərəfdaşına çevrilməsi və bunun enerji əməkdaşlığında da özünü qabarıq büruzə verməsi Avropa Komissiyasının sədri Joze Manuel Barrozu tərəfindən də xüsusi olaraq vurğulanır. Bu məqamla bağlı J.M.Barrozu aşağıdakıları bildirir: "Biz hesab edirik ki, enerji Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx münasibətlər üçün çox mühüm amildir. Əməkdaşlığımızın gücləndirilməsi ilə bağlı fikirlərdə yekdillik var. Bildiyiniz kimi, təhlükəsizlik Avropa İttifaqı üçün ən vacib prioritetdir.

Polşa Beynəlxalq Əlaqələr İnstitutunun açıqladığı "Cənubi Qafqaz: Türkiyə və Avropa İttifaqı üçün birgə əməkdaşlıq imkanları" adlı hesabatında bildirilir ki, Avropa İttifaqının Cənubi Qafqazda getdikcə artan maraqları fonunda önə çıxan əsas problemlər isə iqtisadi, xüsusilə enerji layihələrinin təhlükəsizliyidir: "Bu bölgədə sabitliyin təmin olunması kommunikasiya və Xəzər hövzəsinin enerji ehtiyatlarının nəqli baxımında Aİ və Türkiyə üçün də mühümdür. Cənubi Qafqazın, xüsusilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu getdikcə artır". Xatırladaq ki, Varşavada yerləşən Polşa Beynəlxalq Əlaqələr İnstitutu (PİSM) bu il dünyanın ən güclü 50 beynəlxalq düşüncə mərkəzlərinin siyahısına daxil edilib. (5)

Beləliklə, aydın görünür ki, Azərbaycan həm özünün nəhəng enerji ehtiyatları, həm də Mərkəzi Asiyadan Avropa istiqamətində göndərilə biləcək karbohidrogen məhsullarının nəqlində mühüm tranzit rolu oynamasına görə dünya dövlətlərinin özünə olan diqqətini daha da artırır. Həmçinin, Azərbaycandan Mərkəzi Asiya qazının Avropa bazarlarına çatdırılması üçün öz imkanlarından yararlanmaq da xahiş olunur. Bununla bağlı Riçard Morninqstar qeyd edir: "Biz Azərbaycanı Türkmənistana öz iri qaz ehtiyatlarını inkişaf etdirmək və qazı Avropa istehlakçılarına çatdırmaqda yardımı davam etdirməyə səsləyirik". Aydındır ki, burada Mərkəzi Asiya qazının Avropa bazarlarına çatdırılmasından danışılarkən ilk növbədə sözügedən region ölkələrinin Nabukko layihəsində iştirakından söhbət gedir.

Məqalənin elmi yeniliyi: Bu gün ölkədə həyata keçirilən siyasətin ən başlıca məqsədi modernləşmə mərhələsini də sürətlə başa vuraraq Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik idealların cəmiyyətdə tam möhkəmlənməsinə nail olmaqdır. Yeni dövrün milli ideallarına çevrilən bu məqsədlərin reallığa adekvatlığı isə qətiyyən şübhə doğurmur. Ümumiyyətlə, müasir dövrdə sosial ədalət meyarını rəhbər tutan hər bir dövlətin qarşıya qoyduğu ali məqsəd vətəndaş amilinin tərəqqisi insanlar üçün maksimum firavan yaşayış şəraitinin təmin edilməsidir. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana xəttini təşkil edir.

Məqalənin aktuallığı: Bu gün dünya siyasətinin ən aktual məsələlərindən biri enerji təhlükəsizliyinin təminatıdır. Təsadüfi deyil ki, çağdaş dünyamızda baş verən müharibələr, ekoloji və humanitar fəlakətlər, enerji daşıyıcılarının nəqli sahəsində problemlərin və mübahisələrin yaşanması ayrı-ayrı dövlətlərdən enerji təhlükəsizliyi üçün daha ciddi düşünməyi, xüsusən alternativ nəql sistemlərinin yaradılması istiqamətində əməli hərəkətə keçməyi tələb edir. Bu baxımdan zəngin karbohidrogen ehtiyatlarına malik Azərbaycanın marşrutların genişləndirilməsi ilə bağlı təşəbbüsləri həmişə alternativ nəql imkanlarının axtarışında olan Avropanın diqqətini cəlb edib. Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymayaraq tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsinin vacibliyini önə çəkib. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədə inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur.

ƏDƏBİYYAT

1. *http://www.palitranews.az*
2. *http://www.apa.az*
3. *http://www.Ilham-Aliev.com*
4. *Hacızadə E.M, Abdullayev Z.S. neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası. Bakı. Elm.*
5. *Hacızadə E.M Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006.509 s.*

Key words: *qlobal energy, energy security, world policy, energy market, energy industry, Nabukko project*

Ключевые слова: *глобальная энергия,энергетическая безопасность,мировая политика, энергетический рынок,енергетическая промышленность, проект Набукко*

Açar sözlər: *Qlobal enerji, enerji təhlükəsizliyi, dünya siyasəti, enerji bazarı, enerji sənayesi, Nabukko layihəsi*

РЕЗЮМЕ

Азербайджан в глобальной системе энергетической безопасности

Одной из самых актуальных проблем мировой политики сегодня является обеспечение энергетической безопасности. Не случайно, что войны, экологические и гуманитарные катастрофы, проблемы и споры с энергоносителями в современном мире требует от отдельных государств более серьезно подумать об энергетической безопасности, в частности в направлении создания альтернативных транспортных систем. Таким образом, богатые запасы углеводоров Азербайджана инициативы по расширениюмаршрутов всегда привлекала внимание Европы к поиску альтернативных транспортных возможностей.

SUMMARY

Azerbaijan in the global energy security system

One of the most pressing issues of world politics today is to ensure energy security. It is not accidental that wars, ecological and humanitarian disasters in our contemporary world, problems and disputes in the transportation of energy carriers, especially the introduction of alternative transportation systems in action require separate states to think more about energy security. In this regard, Azerbaijan"s initiatives on expanding routes with rich hydrocarbon reserves have always attracted European attention to the search for alternative transportation capacities.

İqtisadiyyat

AZƏRBAYCANIN GÜCLÜ SOSİAL İQTİSADİ İNKİŞAFI BEYNƏLXALQ SİYASİ PROSESLƏRDƏ İDARƏOLUNAN XAOS KONTEKSTİNDƏ

BƏHRUZ NƏZƏROV
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

2003-cü il oktyabr ayının 15-də keçirilən prezident seçkilərində qalib gələn İlham Əliyev, Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursu uğurla davam etdirməyə başladı. Müasir dünyada müşahidə edilən yeni meyllər və geopolitik dəyişikliklər, bu kursda müəyyən dəyişikliklər etməyi, ölkəni qarşıda görünən təhlükələrdən vaxtında xilas etməyi tələb edirdi. İlham Əliyevin rəhbərlik etdiyi dövr bu baxımdan böyük uğurlar, siyasi, iqtisadi və sosial sabitlik, davamlı inkişaf, diplomatik, mədəni və idman arenasında qazanılan uğurlarla diqqəti cəlb edir. 90-cı illərin siyasi kataklizmlərindən sonra əldə edilmiş siyasi və sosial stabillik, inkişaf əhalinin bütün təbəqələri tərəfindən dəstəklənməkdədir.

Siyasi stabilliyin əldə edilməsi bir sıra amillər üzərində qərarlaşır. Ölkənin düzgün xarici və daxili siyasəti, beynəlxalq arenada qazandığı imic, regional qərarların verilməsində oynadığı rol, iqtisadi inkişaf və əhalinin rifahı kimi faktorlar ölkədaxili sabitliyin, əmin-amanlığın qarantı kimi çıxış edir. Bu baxımdan ölkədə baş verən dinamik inkişaf, bütün sahələri əhatə edən yüksəliş, hətta dünya maliyyə böhranına baxmayaraq, geniş xalq kütlələrinin sosial müdafiəsinin təmin ediməsi xalqla hakimiyyət arasındakı qarşılıqlı anlaşmanı və dəstəyi daha yüksək səviyyəyə gətirib çıxarır. Müasir dövrdə Azərbaycanda həyata keçirilən regionların sosial-iqtisadi inkişaf proqramları əhalinin məşğulluğunun təmin edilməsində müstəsna əhəmiyyətə malikdir. Sosioloji araşdırmalar da göstərir ki, pozucu qüvvələr öz təxribatlarını həyata keçirmək, müxtəlif radikal siyasi və dini qruplara adamlar toplamaq üçün ilk növbədə işsizlər ordusuna müraciət edirlər. Ölkədə həyata keçirilən iqtisadi layihələrin böyüklüyü və müxtəlifliyi hər təbəqədən olan insanlar üçün iş yerlərinin yaradılmasına imkan verməkdədir. Daimi gəlir yeri və sabit həyat tərzi olan vətəndaşların radikal müxalifətin və onların xarici havadarlarının çağırışlarına qulaq asmaması, əksinə, ölkə rəhbərliyinin apardığı siyasətə daha inamla yanaşması olduqca təbiidir [1. s.45].

Dövlətin güclü olması, beynəlxalq miqyasda qazandığı uğurlar da vətəndaşlarda sabaha inam yaradır, onların ölkə rəhbərliyinə olan etimadlarını daha da möhkəmləndirir. Ölkə əhalisi prezidentin öz qarşısına qoyduğu məqsədlərdə xalqın rifahını və dövlətin güclənməsini gördükdə, real işlərlə tanış olduqda, artıq heç bir əlavə təbliğat vasitəsinə ehtiyac qalmadığını söyləyə bilərik. Prezident

İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində apardığı mütərəqqi sosial siyasət, dövlətin qüdrətinin və nüfuzunun artırılmasına yönəldilmiş tədbirlər göz qabağındadır. Bu münasibətlə cənab prezident bildirmişdir: "Mənim bir məqsədim, bir amalım vardır. Bu, güclü Azərbaycan dövlətidir. Ulu öndərin bizə miras qoyduğu dövlətçiliyi möhkəmləndirmək, iqtisadiyyatı inkişaf etdirmək, Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək mənim əsas vəzifələrimdir və son 10 il ərzində çalışmışam ki, bütün istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafını təmin edim" [2].

Prezidentin bu sözlərinin arxasında böyük iqtisadi və sosial dəyişikliklər durur. Prezident İlham Əliyevin hakimiyyətdə olduğu 13 ildən artıq müddət ərzində ölkə iqtisadiyyatı 3 dəfədən çox böyümüşdür. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən indiyə qədər dövlət büdcəsi 20 dəfədən çox artmış, milyon nəfərdən çox insan üçün yeni iş yerləri açılmış, yoxsulluq səviyyəsi cəmi 6 faizə enmişdir. Ölkə boyunca yüzlərlə iri zavod və fabriklər açılmış, Azərbaycan iqtisadiyyatının inkişafı dünya səviyyəli fenomenə çevrilmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası davam etdirilərək yeni enerji strategiyasına statusuna yüksəlmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin ardınca dünyanın ən böyük investisiya layihələrindən biri olan "Şahdəniz-2" proyektinə start verilmişdir. Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol ynayacaq TANAP və TAP kimi böyük kəmərlərin tikintisinə başlanmış, ölkəmizə çoxmilyardlıq investisiyalar qoyulmuş, yeni nəhəng konsorsiumlar yaradılmışdır. Bütün bu tədbirlərin nəticəsini öz həyatında hiss edən sadə vətəndaş hazırki sosial- iqtisadi siyasətin davam etdirilməsində maraqlı olduğu kimi, siyasi stabilliyin və sabitliyin qorunub –saxlanılmasını özünün təminatlı həyatının qarantı olaraq görməkdədir [3, s.49].

Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadi inkişaf tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrilən Azərbaycan, sosial ədalət prinsipi əsasında əhalinin bütün təbəqələrinin bu inkişafdan öz payını almasına çalışır. Görülən tədbirlərin nəticəsində məcburi köçkün və qaçqınlar üçün salınan şəhərciklər, əhalinin aztəminatlı təbəqəsinin dövlət tərəfindən dəstəklənməsi siyasətinin yeridilməsi, kənd yerlərindəə yaşayan insanların məşğulluq və mədəni səviyyəsinin yüksəldilməsi ən yüksək səviyyədə icra edilməkdədir. Ölkədə nəhəng infrastruktur layihələri həyata keçirilir, yeni-yeni təhsil və sağlamlıq obyektləri tikilərək xalqın istifadəsinə verilir [4].

Əldə edilən iqtisadi nailiyyətlər digər sahələrdə də özünü göstərməkdədir. Artıq Azərbaycan ordusu nəinki regionda, ümumiyyətlə dünyada özünün döyüş qabiliyyəti ilə seçilir. Azərbaycan ordusuna ayrılan maliyyə vəsaitinin Ermənistanın dövlət büdcəsindən daha artıq olması faktı, düşmən qarşısında hərbi üstünlüyün əyani göstəricisidir. Müasir dövrdə ordunun texniki təminatının yüksək səviyyədə olması, müasir silah və ləvazimatlarla təchiz edilməsi qələbə üçün zəruri şərtlərdən birincisi sayılır. Güclü orduya malik Azərbaycan tərəfi danışıqlar prosesində də öz şərtlərini diktə edir, hərbi qüdrəti ilə düşməni və onun havadarlarını daima qorxu içərisində saxlayır. Eyni sözləri beynəlxalq münasibətlərdə qazanılan uğurlara da şamil etmək olar. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi prezident İlham Əliyevin rəhbərlik etdiyi xarici siyasət kursunun böyük zəfəri kimi xalq tərəfindən qarşılanmışdır. Bu gün dünya dövlətlərinin əksəriyyəti Azərbaycanın haqq işini dəstəkləyir, təcavüzkarın işğal etdiyi torpaqlardan çıxmasını tələb edir.

Azərbaycanın beynəlxalq miqyasda uğurlarının digər göstəricisi mədəniyyət və idman sferasındakı nailiyyətlərdir. Dünya mədəniyyəti irsinin qorunmasında, ekoloji tədbirlərin həyata keçirilməsi və maliyyələşdirilməsində, Avropanın maddi-mədəniyyət abidələrinin bərpasında Azərbaycan Respublikası tərəfindən göstərilən yardımlar mühüm əhəmiyyətə malikdir. Müasir dünyada hər hansı bir ölkənin müsbət imicinin yaradılması onun mədəni fəaliyyəti ilə birbaşa bağlıdır. Avroviziya müsabiqəsinin Bakıda yüksək səviyyədə təşkil edilməsi Azərbaycanın qonaqərvər, müasir və zəngin ölkə imicinin formalaşmasında böyük rol oynadı [5]. Bakı-2015 Birinci Avropa Oyunlarından sonra qonaqlar ölkəmizdən xoş təəssüratlarla ayrıldılar. Təbii ki, belə böyük tədbirlərin keçirilməsi üçün yalnız müvafiq infrastruktur kifayət deyil, eləcə də təhlükəsizlik şərtləri təmin edilməli, ölkə daxilində siyasi stabillik yaradılmalıdır. Yalnız bu şərtlərə əməl olunduğu təqdirdə, nüfuzlu beynəlxalq qurumlar böyük idman və mədəni tədbirlərin keçirilməsinə razılıq verirlər. Hazırda Azərbaycan Respublikası beynəlxalq aləmdə ən stabil və tolerant mühitə malik dövlətlərdən biri kimi tanınır. Kifayət qədər qeyri-sabit və ziddiyyətli regionda yerləşməsinə, qonşu Ermənistanın hərbi təcavüzünə baxmayaraq, ölkəmizdə siyasi və sosial sabitliyi qoruyub saxlamaq mümkün olmuşdur və ölkə rəhbərliyi gələcədə də bu sabitliyin təmin edilməsinin qarantı kimi çıxış edir.

Məlum olduğu kimi, respublikada hökm sürən sabitliyi pozmaq cəhdləri müəyyən dairələrin təhriki ilə dəfələrlə göstərilmişdir. "Beşinci kolon" adlanan qüvvələr, beynəlxalq təşkilatların maliyyə yardımları ilə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, bir sıra radikal siyasi partiyalar və hərəkatlar ölkədə hökm sürən sabitliyin aradan qaldırılması, xaos və anarxiya yaradılması məqsədilə dövlətə və xalqa qarşı cinayətlərə təhrik ediliblər. Buna misal olaraq 2003-cü ilin prezident və 2005-ci ilin parlament seçkilərini göstərmək olar [6, s.76].

2003-cü ilin prezient seçkilərində İlham Əliyevin inamlı qələbəsiylə barışmaq istəməyən müxalifətin radikal qanadının fəalları ölkədə pozuculuq fəaliyyətinə başladılar. Paytaxt Bakıda ictimai asayişi pozmaq üçün müxtəlif təxribatlara əl atıldı, əhalinin geniş kütlələri tərəfindən dəstəklənmək effekti yaradılması üçün hadisələrin episentrinin Azadlıq meydanına keçirilməsi planı həyata keçirilməyə başladı. Lakin hüquq-mühaizə orqanlarının qətiyyətli və dəqiq tədbirləri bu planları pozdu, müxalifətin radikal qanadının hazırladığı çevriliş taktikası uğursuzluqla başa çatdı. Bu hadisədən sonra Azərbaycan xalqının müxalifətə simpatiyası olan hissəsi də hakim Yeni Azərbaycan Partiyası ətrafında sıx birləşdi, ölkədə prezidentlə xalq arasında qarşılıqlı inam ab-havası hökm sürməyə başladı.

2005-ci il parlament seçkiləri ərəfəsində avantürist qüvvələr xarici havadarlarının dəstəyinə arxalanaraq yenidən populist şüarlar irəli sürməyə başladılar. Regionda cərəyan edən "rəngli inqlablar", Ukraynada və Gürcüstanda baş vermiş hakimiyyət dəyişiklikləri onlarda da hakimiyyətə gələcəkləri ilə bağlı illüziyalar yaratmışdı. Qərb ölkələrində yerləşən müxtəlif media strukturları və beynəlxalq təşkilatlardan dəstək alaraq, Azərbaycanda da "narıncı inqilab" etmək niyyətinə düşmüş radikal müxalifətçilər, bu dəfə də uğursuzluğa düçar oldular. Seçkilərdə xalqın mövcud hakimiyyətə göstərdiyi dəstək, eləcə də ölkə rəhbərliyinin "rəngli inqilab" texnologiyalarına qarşı tətbiq etdiyi uzaqgörən gedişlər onların labüd məğlubiyyətinə gətirib çıxardı. 2005-ci il parlament seçkilərini radikal müxalifətin tabutuna vurulan sonuncu mismar da hesab edə bilərik. Xalqın dəstəyini itirən müxalifət qüvvələri tədricən parçalanaraq siyasi səhnəni tərk etdilər, marginallaşdılar və hakimiyyət iddialarından birdəfəlik əl çəkmək məcburiyyətində qaldılar. Azərbaycan xalqı bütün bu çirkin niyyətlərə yox dedi, Azərbaycan iqtidarını dəstəklədi və bu gün bu dəstək bizim əsas güc mənbəyimizdir. Xalq ilə iqtidar arasındakı birlik Azərbaycanda sabitliyin qarantıdır. Bizim

bütün uğurlarımıza xor baxanlar da bunu bilsinlər. Biz heç kimin qabağında gözükölgəli deyilik və öz sözümüzü deyirik, deyəcəyik. Azərbaycanın müstəqil həyatını təmin edəcəyik." [8]

Yeri gəlmişkən qeyd etməliyik ki, bəzi hallarda regionlarda baş verən sosial münaqişələrdən hakimiyyətə qarşı istifadə etmək cəhdlərinə də rast gəlinir. Xaricdən maliyyələşən bəzi KİV əməkdaşları belə hadisələrə təxribatçı mövqedən yanaşaraq, yerli əhali arasında olan məişət qarşıdurmalarını siyasi etiraz aktı kimi qələmə verməyə çalışır, bununla da xarici havadarlarından növbəti qrantları əldə etməyi hədəfləyirlər [9]. Buna misal olaraq, Quba və İsmayıllı rayonlarında baş verən və əslində məişət məzmunu daşıyan lokal qarşıdurmaları göstərə bilərik. Avropa ölkələrində baş verən polis-vətəndaş qarşıdurmaları ilə müqayisədə, olduqca kiçik miqyas daşıyan bu hadisələri şişirtmək cəhdləri də fayda verməmişdir.

Radikal dini meyllər, terrorçuluq, dövlət maraqlarına zidd olan dini ideyaların yayılması hallarının qarşısı hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə alınmaqdadır. Belə ünsürlərin Azərbaycan xalqı tərəfindən dəstəklənməsi hallarına rast gəlinmədiyi üçün, uzunmüddətli perspektivdə dini radikalizm meyllərinin artacağı istisna olunur [10].

Azərbaycan Respiblikası öz müstəqilliyini çox çətin şərtlər altında əldə etmişdir. 90-cı illərin əvvəllərində ölkəmizdə hökm sürən xaotik situasiya, hakimiyyət dəyişiklikləri, Ermənistanın hərbi təcavüzü, 1 milyondan artıq qaçqın və məcburi köçkün ölkədə ictimai-siyasi vəziyyəəti dözülməz həddə çatdırmışdı. 1993-cü ildə o zaman hakimiyyətdə olan AXC-Musavat cütlüynün yarıtmaz siyasəti nəticəsində ölkə parçalanma və vətəndaş müharibəsi təhlükəsi illə üzə-üzə qaldı [11] .

Belə bir ağır şəraitdə Azərbaycan xalqı taleyüklü qərar qəbul edərək, təkidli tələblərlə ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atəşkəs müqaviləsi imzalandı, ordu quruculuğuna başlanıldı, "Əsrin Müqaviləsi" imzalandı. İqtisadiyyat bərpa edilməyə başladı.

Azərbaycandakı siyasi stabilliyi, iqtisadi inkişaı və çiçəklənməni gözü götürməyən daxili və xarici qüvvələrin pozuculuq və təxribatçılıq tədbirləri həmişə uğursuzluqla sona çatmışdır. Siyasi stabilliyi pozmağa yönəldilmiş siyasi, dini, etnik ekstremizm meyllərini xalq kütləri rədd etmiş, dövlət başçısının apardığı siyasi kursu dəstəkləmişlər. Bu səbəbdən də Azərbaycanda "rəngli inqilab" texnologiyalarının tətbiqi, göstərilən bütün səylərə baxmayaraq, mümkün olmamışdır.

ƏDƏBİYYAT

1. Затулин Константин: Цветные революции вызваны глубоким кризисом новых независимых государств // Кремль. org: ежедн. интернет-изд. 2005, 5 июля. URL <http://www.kreml.org/other/91068294>

2. http://yap.org.az/az/view/pages/51

3. Həsənov Ə., Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti, Bakı, 2005

4. http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item/1831-khalgimizin-mustaegillik-yolunda-apardighi-mubarizaenin-bunoevraesi

5. http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item/1831-khalgimizin-mustaegillik-yolunda-apardighi-mubarizaenin-bunoevraesi

6. Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı: Polygraphic Production 2006, 583 s.

7. http://www.president.az/articles/16220

8. Stephen Kellert, "Chaos Theory and Social Sciences", http://web.hamline.edu/skellert/sample.htm

9. Bardos A. Public Diplomacy: An Old Art, a New Profession // Virginia Quarterly Review. Summer 2001 // http://www.vgranline.org

10. Müstəqil Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir.http://metbuat.az/news/260678/musteqil-azerbaycan-respublikasi-ulu-onder-heyder-eliyevin-s.html.

11. http://www.president.az/articles/16220

Açar sözlər: *xaos, müasir beynəlxalq vəziyyət, ölkədaxili sabitlik, Azərbaycanın xarici siyasəti.*

Ключевые слова: *хаос, современная международная обстановка, внутренняя стабильность, внешняя политика Азербайджана.*

Key words: *chaos, modern international situation, internal stability, foreign policy of Azerbaijan.*

РЕЗЮМЕ

Азербайджанская Республика обрела независимость в очень сложных условиях. Хаотическая ситуация в начале 1990-х годов, частые смены власти, военная агрессия Армении, наличие более 1 миллиона беженцев и вынужденных переселенцев были причиной тяжелой социально-политической ситуации. Но четкий внешний и внутренний политический курс страны, завоеванный позитивный имидж на международной арене, роль, которую республика стала играть в принятии региональных решений, экономическое развитие и рост благосостояние населения, послужили гарантом стабильности в стране.

SUMMARY

The Republic of Azerbaijan gained independence in very difficult conditions. The chaotic situation in the early 1990s, changes in the government, the military aggression of Armenia, more than 1 million refugees and internally displaced persons in the country made the socio-political situation unbearable. But the country's foreign and domestic policy, it's image in the international arena, the role it plays in the adoption of regional decisions, economic development and welfare of the population, served as a guarantor of stability in the country.

Beynəlxalq münasibətlər

BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN ƏSAS PRİNSİPLƏRİNİN FORMALAŞMASI VƏ TƏKAMÜLÜ

LAMİYƏ QASIMOVA
ADU

Beynəlxalq münasibətlərdə ədalətin bərqərar edilməsi, dünya dövlətlərinin rifah içində yaşaması üçün müvafiq şəraitin yaradılması, beynəlxalq aləmdə hakimiyyətin, idarəçiliyin özbaşınalığa deyil, ədalətli qanunlara, dövlətlərin qarşılıqlı razılaşmasına əsaslanması, eləcədə güc tətbiqinin qadağan edilməsi problemi, mübahisələrin dinc vasitələrlə həlli yollarının axtarılması, daxili işlərə qarışmamaq, əməkdaşlıq etmək, hüquq bərabərliyi və müqəddəratını təyinetmə məsələsi, öhdəliklərin yerinə yetirməsi, insan hüquqlarına hörmət edilməsi, ərazi bütövlüyü problemi hələ qədim dövrlərdən ən mühüm məsələlərdən olmuşdur.

Beynəlxalq hüququn əsas prinsipləri onun universal və hamı tərəfindən qəbul olunmuş normalarıdır. Bu prinsiplərin nəinki hüquqi, həmçinin xüsusi siyasi və mənəvi qüvvəsi vardır. Diplomatik təcrübədə onları beynəlxalq münasibətlərin prinsipləri adlandırırlar. Hazırda dünya miqyasında qəbul edilən hər hansı siyasi qərar məhz beynəlxalq hüququn prinsiplərinə söykəndikdə etibarlı sayılır [4, s.246].

Beynəlxalq hüququn özünün və onun əsas prinsiplərinin təşəkkül tapması tarixləri üst-üstə düşmür. Əvvəlcə beynəlxalq hüququn özü təşəkkül tapmış, sonralar isə beynəlxalq hüququn əsas prinsipləri tədricən yaranmağa başlamışdır [2, s.29-30].

Beynəlxalq hüququn əsas prinsiplərinin yaranmağa başlaması əsasən feodalizm dövrünə təsadüf edir: Həmin dövrdə dövlətlərarası beynəlxalq münasibətlərdə dövlətlərin suverenliyinə hörmət etmək, dövlətlərin hüquq bərabərliyi, daxili islərə qarışmamaq beynəlxalq öhdəliyi yerinə yetirmək, habelə müharibə qanunlarını və adətlərini gözləmək kimi prinsiplər tətbiq edilirdi. Bu prinsiplər tez bir zamanda universal, hamılıqla qəbul olunmuş və icrası məcburi olan normativ ideyalar kimi tanınmağa başladı.

Yeni beynəlxalq hüquq normalarının təsdiqlənməsində təkanverici səbəb olaraq 1789-cu il İnsan və Vətəndaş hüquqları Bəyannaməsində, Fransanın 1791-ci il və 1793-cü il Konstitusiyalarında hüquqi fikirlərin möhkəmlənməsi göstərilə bilər. Burada digər dövlətlərin daxili işlərinə qarışmamaq, beynəlxalq müqavilələrə riayət etmək kimi prinsiplər öz əksini tapmışdı.

XIX əsrin axırlarında birinci (1899-cu il), XX əsrin əvvəllərində isə ikinci sülh konfransı (1907 –ci il) keçirildi. Bu konfranslar klassik beynəlxalq hüququn yeni əsas prinsiplərinin formalaşmasına əhəmiyyətli təsir göstərdi. 1917-ci ildə dünyada ilk sosialist dövlətinin (sovet Rusiyasının) yaranması, onun qəbul etdiyi birinci dekretlər və öz qonşuları (Baltikyanı ölkələr, Türkiyə və s.) ilə bağladığı beynəlxalq müqavilələr, SSRİ-nin təşkili və 1919-cu ildə Millətlər Cəmiyyətinin təsis edilməsi beynəlxalq hüququn bir sıra əsas prinsipinin formulə edilməsinə səbəb oldu [2, s.31].

1945-ci il iyun ayının 26-da San-Fransiskoda dünyanın 50 ölkəsi Birləşmiş Millətlər Təşkilatı adlanan beynəlxalq qurumun yaranmasını bəyan etdilər və onun Nizamnaməsini imzaladılar. BMT Nizamnaməsinin imzalanması beynəlxalq münasibətlər sisteminin yaranması və inkişafı tarixində yeni mərhələnin başlanğıcı oldu.

Beynəlxalq hüququn bir sıra əsas prinsipləri BMT Nizamnaməsinin 2-ci maddəsində BMT-nin bütün üzvləri üçün məcburi normalar kimi göstərilmişdir. Lakin bunlardan bəziləri

1) Баронъ Стааль (Россія). 2) Графъ Мюнстеръ (Германія). 3) Фіятурига (Сіамъ). 4) Бельдиманъ (Румынія). 5) Баронъ Ифаяши (Японія). 6) Баронъ Вельзерсгеймбъ (Австро-Венгрія). 7) ванъ-Карнебеекъ (Нидерланды). 8) Билле (Данія). 9) Буржуа (Франція). 10) Понсефортъ (Англія). 11) Ардокъ (Англія). 12) Рафаловичъ (Россія). 13) Матоно (Японія). 14) де-Гроллъ-Рожье (Бельгія). 15) Папеику (Румынія). 16) Ситъ Лоу (Соед. Штаты Сѣв. Амер.). 17) Бернаэртъ (Бельгія). 18) денъ-Бееръ Португаль (Нидерланды). 19) Рохуссенъ (Нидерланды). 20) Баронъ Шиммельпеннинкъ (Нидерланды). 21) Цаннине (Италія). 22) Гоо Вей-Те (Китай).

Гаагская мирная конференція 1899 года.

məqsəd və ya ümumi öhdəlik kimi ifadə olunmuşdur. Sonralar dövlətlər bu prinsiplərin məzmununu dəqiqləşdirməyə və onları məcəllələşdirməyə çalışmışlar. 1960-cı ildə BMT-də başlanan qurumun Nizamnaməsinin əsas prinsiplərinin kodifikasiyası işi 1970-ci ildə Baş Assambleya tərəfindən dövlətlər arasında əməkdaşlıq və dostluq münasibətlərinin tətbiqini nəzərdə tutan beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamə qəbul edilməsi ilə başa çatdırılıb. Bəyannamədə beynəlxalq hüququn yeddi prinsipi əks olunmuşdur:

1) güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi;

2) beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi;

3) dövlətin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi;

4) dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq bir-biri ilə əməkdaşlıq etmək prinsipi;

5) xalqların hüquq bərabərliyi və müqəddəratını təyinetmə prinsipi;

6) dövlətlərin suveren bərabərliyi prinsipi;

7) dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq öz üzərlərinə götürdükləri

öhdəlikləri vicdanla yerinə yetirməsi prinsipi.

BMT-nin Nizamnaməsində sadalanan prinsiplər təkcə BMT Nizamnaməsinin prinsipləri deyildir; onlar yalnız BMT üzvü olan dövlətlər üçün deyil, ümumiyyətlə, bütün dövlətlər üçün formulə edilmişdir [7, s.9-10].

1975-ci il iyun ayının 30-da Helsinki şəhərində ATƏM-in 35 dövlətinin xarici işlər nazirlərinin iştirakı ilə keçirilən iclasın son mərhələsində, geniş müzakirələrdən sonra "Helsinki Yekun Aktı" adlanan və beynəlxalq münasibətlər sisteminin inkişafına mühüm töhfə hesab olunan fundamental bir sənəd imzalandı. "Helsinki Yekun Aktı" BMT Nizamnaməsindən sonra beynəlxalq münasibətlər sistemini inkişaf etdirən ən mühüm beynəlxalq hüquqi sənəd idi. Yekun Aktında dövlətlərarası münasibətlərin hamı tərəfindən əməl edilməsi vacib olan 10 əsas prinsipi bəyan olunurdu.

BMT Nizamnaməsində sadalanmış prinsiplərə burada daha üçü əlavə olunmuşdur:

1) sərhədlərin toxunulmazlığı prinsipi;

2) dövlətlərin ərazi bütövlüyü prinsipi;

3) əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi.

Qeyd etmək lazımdır ki, Helsinki Yekun aktı öz-özlüyündə beynəlxalq müqavilə deyildir və regional xarakterli bir sənəddir. Lakin bu sənədin təsbit etdiyi prinsiplər, o cümlədən bu üç prinsip onun qəbul olunmasına qədər artıq ümumi beynəlxalq adət hüququnun bir hissəsi idi və bütün dövlətlər tərəfindən tanınmışdı. Yəni Helsinki Yekun aktı, sadəcə olaraq, müasir beynəlxalq hüququn hamılıqla qəbul edilmiş on əsas prinsipini bəyan etmişdir [7, s.10].

1. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin tanınmağa başlamasında XX əsrin əvvəllərində qəbul olunan iki beynəlxalq-hüquqi aktın rolu xüsusi olaraq qeyd edilməlidir. Həmin aktlar 1907-ci il tarixli Haaqa konvensiyalarıdır: 1) Beynəlxalq toqquşmaların dinc həlli haqqında Haaqa Konvensiyası, 2) Müqavilələrdən irəli gələn borcların alınması zamanı güc tətbiq etməyin məhdudlaşdırılması haqqında Haaqa Konvensiyası. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi formalaşmağa məhz sözügedən bu iki konvensiyanın qəbul edilməsindən başlamışdır. Amma həmin konvensiyalar dövlətlərin müharibə etmək hüququnu (jus at bellum) ləğv etmirdi [2, s.46].

1917-ci il noyabrın 8-də II Ümumrusiya Sovetlər Qurultayında "Sülh haqqında" dekret qəbul edildi. Burada, ilk dəfə olaraq, təcavüzkar müharibə bəşəriyyətə qarşı edilən ən böyük cinayət elan edilirdi. Burada təcavüzkar müharibənin qadağan olunması prinsipi müəyyən edilmişdi ki, həmin prinsip güc tətbiq etməmək prinsipinin formalaşmasına böyük təsir göstərdi [6, s.49].

1919-cu ildə yaradılan Millətlər Cəmiyyətinin fəaliyyəti məhz müharibələrin qadağan edilməsinə yönəldi. Belə ki, Millətlər Cəmiyyəti təcavüzkar müharibələri qadağan edən və pisləyən bir sıra sənəd qəbul etdi. Bundan əlavə müharibələrdən "milli siyasi alət kimi" istifadə edilməməsini dövlətlər üçün çoxtərəfli öhdəlik kimi müəyyən edən 1928-ci il Paris Müqaviləsinin (Brian-Kelloq paktı) təcavüzün və müharibənin qeyri qanuni elan edilməsində mühüm əhəmiyyəti olmuşdur [4, s.257].

2. Hələ o dövrdə qədim Roma hüquqşünası Mark Tüli Siseron dövlətlər arasında mübahisələrin həllinin müzakirələr və zor tətbiq edilməsi yolunu fərqləndirmiş, ikinci yolun vəhşilər üçün xarakterik olduğunu qeyd etmişdir [4, s.279].

İlk dəfə 1883-cü ildə təşkil edilmiş Parlamentlərarası İttifaq beynəlxalq təşkilat kimi mübahisələrin sülh yolu ilə həlli vasitələrinə xüsusi diqqət yetirmişdir [4, s. 280].

1889 və 1907-ci illərdə Haaqada keçirilmiş sülh konfranslarında beynəlxalq münaqişələrin sülh yolu ilə həlli haqqında Konvensiya qəbul olunmuşdur. Konvensiya mübahisələrin sülh yolu ilə həlli vasitələri ilə yanaşı, beynəlxalq münasibətlərdə hərbi qüvvələrdən istifadə edilməsini də nəzərdə tuturdu [4, s.280].

Millətlər Cəmiyyətinin 1919-cu ildə qəbul olunmuş Statutunda da beynəlxalq mübahisələrin sülh yolu ilə həllinin dinc vasitələri ilə yanaşı müharibələr də qanuni vasitə hesab olunurdu [2, s.63].

İlk dəfə 1928-ci il avqustun 27-də 63 dövlət tərəfindən imzalanmış Paris müqaviləsi (Brian-Kelloq Paktı) beyəlxalq mübahisələrin müharibə vasitəsi ilə həllini qadağan etdi. Paris müqaviləsinə əsasən dövlətlər "aralarında baş vermiş mübahisə və münaqişələrin xarakter və mənşəyindən asılı olmayaraq onların nizama salınmasında ancaq sülh vasitələrindən istifadə etmək" barədə razılığa gəldilər [4, s.280].

3. Bir dövlətin digərinin daxili işlərinə qarışmaması məsələsi hələ feodalizm dövründə meydana çıxmışdır. O vaxt suverenlər arasında qarşılıqlı olaraq ərazilərində biri-birinin işinə qarışmamaq barədə ikitərəfli müqavilələr bağlanırdı. Lakin bu müqavilələr feodalizm dövrünün dövlətlərarası münasibətləri üçün xarakterik deyildi. Daxili işlərə qarışmamaq burjua inqlabları dövründə dövlətlərarası prinsip kimi formalaşmışdır. XVIII əsrin axırlarında Fransa inqilabı bu prinsipin hüququ qüvvə almasında böyük rol oynamışdır. 24 iyun 1793-cü ildə qəbul edilmiş Fransa Konstitusiyasının 119-cu maddəsində göstərilirdi ki, fransız xalqı başqa xalqların hökumətlərinin işlərinə qarışmır [4, s.336-337].

Həmin ideya XIX əsrin əvvəllərində ABŞ – ın milli doktrinasına çevrildi. Belə ki, Amerikanın beşinci Prezidenti C.Manronun 1823-cü il dekabrın 23-də Konqresə müraciətində Avropa dövlətlərinin Amerikanın işlərinə qarışmaması prinsipi irəli sürülmüş və gələcəkdə Amerikanın da Avropanın daxili işlərinə qarışmayacağı vəd edilmişdi [4, s.337].

XX əsrin 20-30-cu illərində qəbul olunan bir sıra beynəlxalq sənəd də müdaxilə etməmək ideyasından çıxış edirdi. Millətlər Cəmiyyətinin Statutu (1919) müdaxilə etməmək ideyasını tanıyaraq, ona vacib əhəmiyyət verirdi [2, s.113].

4. Dövlətlər arasında beynəlxalq əməkdaşlığın həyata keçirilməsi tarixi qədim dövrlərə təsadüf edir. Belə ki, dövlətlər yarandığı və meydana gəldiyi vaxtdan etibarən onlar həmişə bir-biri ilə əməkdaşlıq etmişlər; bunsuz beynəlxalq münasibətlərin inkişafı, məlum məsələdir ki, mümkün ola bilməzdi.

5. Xalqların hüquq bərabərliyi və müqəddəratını təyinetmə prinsipinin formalaşmasına kimi beynəlxalq hüquqda (XII-XIX əsrlərdə) "millət prinsipi" tətbiq olunurdu; bu prinsipə görə, hər bir millətin öz milli dövlətini yaratmaq hüququ var idi ("bir millət-bir dövlət"). Lakin buna baxmayaraq "millət prinsipi" xalqların hüquq bərabərliyi və müqəddəratını təyinetmə prinsipinin formalaşmasına hər halda, müəyyən təsir göstərmişdir. Göstərilən prinsipin təsbit olunmasına həm də xalqların hüquq bərabərliyinə və öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşmaq ideyası təsir etmişdir; həmin ideya isə, ilk dəfə olaraq ABŞ-ın müstəqilliyi haqqında Bəyannamədə (1776-cı il) ifadə olunmuşdur. Rusiya xalqlarının hüquqlarına dair Bəyannamə də (15 noyabr 1917-ci il) məhz xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipindən çıxış edirdi [2, s.127-128].

Son vaxtlar müxtəlif dövlətlərin tərkibində olan milli azlıqların öz müqəddəratını təyin etmək hüququnu özlərinin dövlət qurumlarını yaratmaq hüququ kimi təfsir etməsi istiqamətində nəzərə çarpan əsaslandırılmamış meyllər məhz bu prinsipin mahiyyətinin düzgün dərk edilməməsi və ya onların bilərəkdən yanlış təfsir edilməsi ilə bağlıdır. Məsələn, müstəqilliyin bərpası nəticəsində öz müqəddəratını təyin etmək hüququnu həyata keçirən Ermənistan Respublikası ilk növbədə 215 min azərbaycanlı vətəndaşı öz ərazisindən qovub çıxardı, sonra isə "öz müqəddəratını təyin etmək" ideyasını möhkəmləndirmək məqsədilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirən dəhliz açıldı. Daha sonra Dağlıq Qarabağ ətrafında yerləşən azərbaycanlıların yaşadığı 7 rayon işğal edildi. Dağlıq Qarabağın 120 min nəfərlik erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verməyə çalışdığı bu proses 1 milyondan çox azərbaycanlının zorla qaçqın və köçkün vəziyyətinə düşməsi və on mindən çox adamın həlak olması ilə nəticələnmişdir. Əlbəttə, bu cür seperatçı, millətçi təcavüzkar əməllər müqəddəratı təyin etmə hüququ ilə pərdələnə bilməz [4, s.327].

6. Müasir dünya öz ərazisinin ölçüsünə, coğrafi yerləşməsinə, əhalisinin tərkibinə, sayına görə fərqlənən dövlətlərdən ibarətdir. Bu şəraitdə tarazlığı qorumaq və əməkdaşlığı təmin etmək əhəmiyyətli dərəcədə dövlətlərin suveren bərabərliyi hüquqi prinsipinə əsasən mümkündür. Bu prinsipə riayət edilməsinə dövlətlər xüsusi nəzarət edir.

Prinsip öz başlanğıcını orta əsrlərdən götürür. Beləki bu dövrdən monarxlar öz beynəlxalq statuslarını hüquqi bərabərləşdirməyə can atırdılar. Bunun üçün qədim yunan hüquqşünaslarının hüquqi formulundan par in parem non habet imperium istifadə edilirdi. (bərabər bərabər olduğunun üzərində hökmranlığa sahib deyil). 1648-ci il Vestfal müqaviləsindən başlayaraq Avropa dövlətləri bir-birlərinin suverenliklərini tanıyaraq buna hörmət etməyə başlasalarda, suveren bərabərlik prinsipi XX əsrdə öz tətbiqini tapdı. O vaxta qədər beynəlxalq hüquq dövlətlərin faktiki olaraq böyük, kiçik, xristian və qeyri xristiana bölünməsini qəbul edirdi [1, s.296].

Müasir beynəlxalq birlik suverenliyi hər bir dövlətin ayrılmaz xüsusiyyəti və beynəlxalq hüquqi nizamın mövcudluğunun əsası kimi qəbul edir.

7. Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi beynəlxalq hüququn qədim prinsiplərindəndir. Bu prinsip "pacta sunt servanda"(müqavilələrə riayət olunmalıdır) adəti formasında yaranmışdır. Roma hüququnun hələ neçə əsr bundan əvvəl formalaşdırdığı bu prinsip mülki-hüquqi müqavilələrə aid olunurdu; həmin prinsipə görə, müqavilə üzrə öhdəliklər yerinə yetirilməlidir və əgər yerinə yetirilməzsə, məsələ məhkəmədə həll olunurdu. Dövlətlərarası münasibətlərin, eləcədə beynəlxalq hüququn yaranması və inkişafı "pacta sunt servanda" prinsipinin beynəlxalq hüquqi adət kimi tanınmasına gətirib çıxardı.

8. Sərhədlərin toxunulmamazlığı prinsipi beynəlxalq hüququn yeni prinsipidir. Lakin o, beynəlxalq hüququn ümumqəbulolunmuş prinsiplərinə əsaslandığına görə beynəlxalq hüququn mütərəqqi inkişafının məntiqi nəticəsi kimi meydana çıxmışdır.

9. Dövlətlərin ərazi bütövlüyü prinsipi hələ suveren dövlətlərin meydana gəldiyi, feodal knyazlıqlarının və şəhər dövlətlərinin geniş yayıldığı dövrlərdə formalaşmağa başlamışdır. Ərazi bütövlüyü prinsipi konseptual olaraq uti possidetis juris doktrinasından qaynaqlanır. Geniş formada bu uti possidetis ita possidcatis (nəyin varsa ona sahib ol) kimi səslənir. İlk dəfə prinsip XIX əsrin əvvəllərində İspaniya müstəmləkəçiliyindən azad edilmiş və müstəqillik qazanmış Latın Amerikası ölkələrinin təcrübəsində, yaranmış ərazi mübahisələrinin həlli məqsədilə tətbiq edilmişdir. Bunu 1986-cı ildə Burkina Faso və Mali arasında sərhəd anlaşılmazlığını həll etmək üçün verdiyi qərarda BMT Beynəlxalq Məhkəməsi də təsdiqlədi [3, s.39].

Uti possidetis prinsipinin mahiyyəti ondan ibarətdir ki,


УСТАВ
ОРГАНИЗАЦИИ
ОБЪЕДИНЁННЫХ
НАЦИЙ
и
СТАТУТ
МЕЖДУНАРОДНОГО СУДА
ОГИЗ • ГОСПОЛИТИЗДАТ
1945

müstəmləkələrin və ya federasiya subyeklərinin əvvəlki sərhədləri yeni müstəqil dövlətlərin beynəlxalq sərhədləri olur və müvafiq razılıq olmadan dəyişdirilə bilməz Azərbaycanla bağlı demək olar ki, onun SSRİ dövründə malik olduğu ərazisinin bütövlüyünə istənilən iddia və ya qəsd bu prinsipə tamamilə ziddir. Beləliklə, ilk əvvəllər regional xarakter daşıyan ərazi bütövlüyü prinsipi sonralar müasir beynəlxalq hüququn hamılıqla tanınmış prinsipi oldu [3, s.39].

1789-1794-cü illərdə Fransa inqilabı ilk dəfə ərazilərin ələ keçirilməsindən imtinanı rəsmi olaraq elan etmişdir [4, s.309].

Dövlətlərin ərazisinin toxunulmazlığı və bütövlüyü prinsipinin müəyyənləşməsində təcavüzkar müharibələri qadağan edən 1928-ci il Paris Müqaviləsi mühüm əhəmiyyət kəsb edir [4, s.309].

Millətlər Cəmiyyəti Statutunun 10-cu maddəsində elan edilirdi ki, "birliyin üzvləri birliyə daxil olan dövlətlərin ərazi bütövlüyünü və mövcud siyasi müstəqilliyini hər cür xarici hücumlardan qorumağı öz öhdələrinə götürürlər" [4, s.309-310].

1933-cü ildə Amerika dövlətlərinin 7-ci konfransında dövlətlərin hüquq və vəzifələri haqqında konvensiyanın 11-ci maddəsində deyilirdi ki, "iştirakçı dövlətlər silah tətbiqi, diplomatik zorakılıq və hər hansı məcburiyyət vasitəsi nəticəsində əldə edilən ərazilərin hüquqi statusu barədə sazişləri tamamlayacaqlar" [4, s.310].

Müasir beynəlxalq münasibətlərdə ancaq dövlətlərin ərazi bütövlüyünə hörmət, dövlət sərhədlərinin toxunulmazlığını tanımaq, ərazi iddialarından imtina etmək dünyada sülh və təhlükəsizlik üçün möhkəm zəmin hesab oluna bilər.

10. Insan hüquqlarına hörmət etmək ideyasının tarixi XVIII əsrin axırlarına təsadüf edir. Belə ki, bu dövrdə qəbul olunmuş iki sənəd məhz həmin ideyadan çıxış edirdi. Söhbət ABŞ-ın müstəqilliyi haqqında Bəyannamədən (1776-cı il), habelə İnsan və vətəndaş hüquqlarına dair Fransa Bəyannaməsindən (1789-cu il) gedir. ABŞ-ın müstəqilliyi haqqında Bəyannamədə göstərilirdi ki, bütün insanlar bərabər doğulur və müəyyən ayrılmaz hüquqlarla təmin olunurlar. Böyük Fransa İnqilabı zamanı qəbul olunan İnsan və vətəndaş hüquqlarına dair Bəyannamə də həmçinin şəxsiyyətin hüquq və azadlıqları probleminə toxunurdu. Sonrakı dövrlərdə, XIX əsrdə və XX əsrin əvvəllərində qəbul olunan bir sıra beynəlxalq sənədlər də insan hüquqlarının qorunması ideyasından çıxış edirdi [2, s.142-143].

Beynəlxalq hüququn prinsiplərinə əməl olunması - bütün suveren dövlətlərin ən vacib öhdəliklərindəndir. Lakin, beynəlxalq hüququn bu prinsiplərinin siyasi mübarizə, milli maraqların üst-üstə düşməməsi və dövlətlərin müxtəlif məqsədləri şəraitində reallaşdırılması müəyyən çətinliklərlə səbəb olur. Bunu təkcə tarix deyil, beynəlxalq münasibətlərin son dövrlərdəki təcrübəsi də sübut edir.

ƏDƏBİYYAT

1. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: Çinar-çap, 2010.

2. Əliyev E., Hüseynova F.Beynəlxalq hüququn prinsipləri. Bakı: Günəş-B, 2017.

3. Hüseynov L. Beynəlxalq hüquq. Bakı: Qanun, 2012.

4. İbayev V. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı: Elm, 2006.

5. Лукашук И.И Международное право. Общая часть. Учебник. М., 2005.

6. Международное право. Учебник /Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М.,2000.

7. http://unec.edu.az/application/uploads/2015/07/BEYN_L-umumi-huquq.pdf

Açar sözlər: *Beynəlxalq münasibətlər, beynəlxalq hüquq, prinsiplərin tarixi, Haaqa konvensiyaları, Millətlər Cəmiyyəti Statutu, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı.*

Ключевые слова: *Международные отношения, международное право, история принципов, Гаагские конвенции, статут Лиги Наций, Устав ООН, Хельсинкский Заключительный акт.*

Key words: *International realtions, international law, the history of principles, the Conventions of Hague, the Statue of League of Nations, the Charter of UNO, Helsinki Final Act.*

РЕЗЮМЕ

ГасымоваЛамия

Формирование и эволюция основных принципов международных отношений.

В статье определяются значение и характерные особенности развития некоторых аспектов 10-и принципов международного права, их возникновение, формирование и эволюция. Детально исследуются пути становления этих принципов общепринятыми. Особо подчёркивается значение и роль каждого принципа в современном международном праве и международных отношениях.

RESUME

QasimovaLamiya

The formation and evolution of the main principles of International Relations

The article clarifies the essence of some aspects on the creation, evolution, formation, and development of ten principles of international law. Until these principles were as universally accepted principles the way they passed away had been researched in detail. Each principle has been detected individually and the main and essential role they play in modern age, in international law and international relations has been specially mentioned.

İdarəetmə

DÖVLƏT QULLUĞU ANLAYIŞI VƏ ONUN PRİNSİPLƏRİ

DİLBƏR NƏCƏFOVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

Tarixi təkamül nəticəsində dövlət, insan münasibətləri sistemində ən sonda yaranmış və olduqca güclü təsir alətlərinə malik bir qurumdur. Dünya təcrübəsi göstərir ki, dövlət ilk baxışda mütərəqqi bir siyasi qurum olsa da, hər bir iqtisadi sistemin müvəffəqiyyətli fəaliyyətinin təmin edilməsində kifayət qədər güclü rol oynayır. Dövlət çoxfunksiyalı sistem olmaqla vətəndaşlarla, təşkilatlarla cəmiyyətdə mövcud olan müxtəlif təyinatlı qurumlar arasında münasibətlərin bütöv bir kompleksinin inikasıdır. Dövlət idarəçiliyinin əsas komponentlərindən biri, vətəndaş-dövlət münasibətlərinin əsas aktoru sayılan dövlət qulluqçularıdır və ya ümumi şəkildə, dövlət qulluğu anlayışıdır.

"Qulluq" və ya "xidmət" dedikdə, ümumilikdə, bir çox məsələlər başa düşülür. Lakin "dövlət qulluğu" anlayışı onlardan kifayət qədər fərqlənir.(4, s.140-142) Dövlət qulluğu həyat fəaliyyətinin bütün sahələrini əhatə etməklə ictimai faydalı xarakter daşıyan ödənişli fəaliyyət növü kimi səciyyələnir. (7)

Dövlət idarəçiliyinin əsas komponentlərindən biri dövlət qulluğudur. Dövlət qulluğu dövlət idarəçiliyinin əsas istiqamətlərindən biridir. (5) Dövlət qulluğu hələ dövlət idarəçilik elmi yaranmamışdan əvvəl mövcud olmuşdur və elə həmin andan da dövlət qulluğunun prinsipləri yaranmağa başlamışdır.

Dövlət qulluğu dövlətin konstitusiya ilə müəyyən edilmiş məqsədlərini funksiyalarını reallaşdırmaq üçün vətəndaşların xüsusi təşkil olunmuş fəaliyyəti, onların bu prosesdə praktiki və peşəkar iştirakıdır. Dövlətin ayrılmaz hissəsi olmaqla dövlət qulluğu müəyyən muxtariyyətə malikdir və müasir dövlət institutları sistemində xüsusi yer tutur. (6)

Dövlətçiliyin qurulması sistemində ilkin hüquqi vasitə olan dövlət qulluğu dövlətin fəaliyyətini təmin edir, onun vəzifə və funksiyalarının həyata keçməsinə xidmət edir. (1) Dövlət qulluğu bütövlükdə cəmiyyətin dövlət barədə təəssüratı ilə sıx bağlı olub, dövlət hakimiyyətinin mövcud sistemi ilə müəyyən olunur və dövlətin inzibati fəaliyyətinin mahiyyətindən və rolundan asılı olur.

Dövlət qulluğunun müəyyən olunmuş məqsədlərinə qarşısına qoyulan vəzifələrin yerinə yetirilməsilə nail olunur. Bu vəzifələr, demək olar ki, ictimai və dövlət həyatının bütün sahələrini əhatə

edir. Belə ki, ictimai təhlükəsizliyin və əsayişin təmin edilməsi, cəmiyyət üçün əlverişli həyat şəraitini təmin edən xüsusi müəssisə və təşkilatların təsis edilməsi, sosial-iqtisadi və mədəni sahələrdə idarəetmənin həyata keçirilməsi, iqtisadiyyatın sahələrinin və struktur bölmələrinin maliyyə və təşkilati cəhətdən dəstəklənməsi, mədəniyyət təsisatlarının yaradılması və maliyyələşdirilməsi də dövlət qulluğunun qarşısında duran vəzifələrdəndir.

"Dövlət qulluğu" anlayışına ictimai elmdə müxtəlif yanaşmalar mövcuddur. Bunlardan aşağıdakı iki yanaşmaya daha çox üstünlük verilir:

- əmək fəaliyyətinin xüsusi bir növü kimi;
- dövlətin hüquqi institutu kimi.

Bu baxımdan dövlət qulluğu nədir sualına cavab olaraq iki tərif verilə bilər:

1) Dövlət qulluğu – dövlət funksiyalarının dövlət aparatı və dövlət müəssisələri işçiləri tərəfindən həyata keçirilən və iş müqabilində dövlət müavinəti alınan əmək fəaliyyətinin bir növüdür.

2) Dövlət qulluğu – dövlət qulluqçularının hüquqi vəziyyətini, işə girmək şərtlərini və qaydalarını müəyyənləşdirən, vəzifə məsuliyyətini əks etdirən hüquqi normaların məcmusudur. Hər bir ölkədə bu sahəni müəyyən qanunvericilik aktları və ixtisaslaşmış qurumlar həyata keçirir. Bu baxımdan dövlət qulluğu özünü dövlətin hüquqi institutu kimi biruzə verir. (2, s.259)

Dövlət qulluqçularının, xüsusilə də dövlət aparatında işləyən məmurların hüquqi vəziyyəti bir qayda olaraq inzibati hüquq normaları ilə tənzimlənir. Ona görə də dövlət qulluğu anlayışının seçimində üstünlük onun daha çox dövlətin hüquqi institutu kimi tanınmasına verilir. Bu fikri təsdiqləyən ən təsirli amil odur ki, hər hansı bir dövlətin bütün strukturlarının və orqanlarının fəaliyyəti qanunlar üzərində qurulur. Təbii ki, dövlət qulluğu institutu yalnız müvafiq hüquqi baza üzərində fəaliyyət göstərə bilər və bu institutun cəmiyyət üçün səmərəli olması mükəmməl qanunvericiliyin yaradılması ilə bilavasitə bağlıdır. (3, s.459-471)

Bir çox qərb ölkələrində "dövlət qulluğu" anlayışı yerinə "ictimai qulluq" (public service) yaxud "mülki qulluq" (civil service) anlayışları işlədilir.

İctimai elmdə dövlət qulluğu anlayışından geniş və dar mənada istifadə edilir.Geniş mənada dövlət qulluğu özündə bütün dövlət və bələdiyyə orqanlarında çalışan işçiləri birləşdirir. Belə yanaşmada aydın olur ki, ölkə ərazisində yerləşən, özəl sektora daxil olmayan zavod, fabrik, məktəb, poçt, polis və s. müəssisə və idarələrin işçiləri, bir sözlə, dövlət büdcəsindən maliyyələşən bütün işçilər dövlət qulluqçularıdırlar. Lakin bu yanaşmanın əksinə olaraq, dar mənada dövlət qulluğuna mərkəzi və yerli hakimiyyət səviyyələrində çalışan dövlət orqanlarının işçiləri – dövlət aparatının əməkdaşları daxildir. Dövlət aparatının özü isə dövlətin hakimiyyət funksiyalarını həyata keçirən icraçı (inzibati) orqanların və dövlətin icra, sərəncamverici fəaliyyətini həyata keçirən, dövlət müəssisələrində (orqanlarında) işləyən insanların (məmurların) məcmusudur. (2, s.260)

Yuxarıda göstərilənləri nəzərə alaraq, ümumiləşdirilmiş şəkildə "dövlət qulluğu" anlayışının tərifini bu cür ifadə etmək olar: ölkə Konstitusiyasına və müvafiq qanunvericiliyə uyğun olaraq dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi dövlət

qulluğudur.

Dövlət qulluğu müasir dövrün ifadəsi deyildir və tarixi inkişaf nəticəsində kapitalist dünyada 18-ci əsrin əvvəllərindən etibarən dövlətdə işləyənlərin fəaliyyəti ilə bağlı prinsiplərin formalaşması prosesi yaşanmışdır. Bu prosesdə məlum nəzəri əsaslar və ayrı-ayrı ölkələrin təcrübələri (Pendelton qanunu, Qanuni Suleyman, Tabel cədvəli, Hüseyn Naxçıvanininin "Düsturi əl-katibi" əsəri və s.) formalaşmasında mühüm rol oynamışdır. Hal-hazırda müasir dövlət qulluğu sistemi olan ölkələrində aşağıdakı dövlət qulluğu prinsiplərinini görmək mümkündür:

1) Yetərlilik
2) Karyera
3) Təsnifatlandırma
4) Bərabərlilik
5) Təminat
6) Tərəfsizlik
7) Hüquqi tanınma
8) Yetərli məvacib.(8)

Yetərlilik prinsipi dövlət qulluğuna qəbulda və qulluqda fəaliyyətə davam etməkdə əqli və fiziki yetərlilik kimi başa düşülür. Yəni dövlət qulluğuna qəbul rasional əsaslarla, obyektiv imtahanlarla həyata keçirilir. Dövlət ona lazım olan qulluqçununun tələblərini əvvəlcədəm müəyyən edir, elan edir və seçir. Həmçinin iş prosesində, qulluqda xidmət prosesində həmin şəxsin peşəkar inkişafı üçün lazımı dəstəyi verir. Əgər iş prosesində hər-hansı bir səbəbdən qulluqçu əmək qabiliyyətini itirirsə (qəza, fiziki-əqli pozulma və s.) dövlət qulluqçusuna sosial təminatlar verir.

Karyera prinsipi. Karyera qulluqda sabitliyin əsasıdır. Dövlət qulluğunda karyera olmazsa, qulluqçunun sabahına inamı və işinin keyfiyyəti olmaz. Bu səbəbdə dövlətin qulluqçularına karyera qurmaq imanını yaratması əsas şərtdir. Optimal müddətdə bir vətəndaş təxminan 21 yaşında yetərliliyini sübut edərək dövlət qulluğuna qəbul olunar. Təxminən xarici ölkələrdə 60-65 yaşlarına qədər dövlət qulluğunda xidmət edirlə və irəliləyirlər (vəzifədə və qulluq dərəcəsində).

Karyera prinsipi bir vətəndaşın ömrü boyu dövlət qulluğunda işləməsi deyil. Karyera bir vətəndaşın dövlət qulluğunda peşəkar xidmət göstərərək müntəzəm irəliləmək imkanına malik olmasıdır.

Təsnifatlandırma prinsipi. Təsnifatlandırma dövlət qulluqçularını bir neçə xüsusiyyətlərinə görə qruplara bölməkdir. Bu ona görə vacibdir ki, dövlətin müxtəlif təhlükə və risk dərəcələrinə malik olan xidmətləri vardır və bu xidmətləri həyata keçirən müxtəlif təcrübəyə və bacarığa malik şəxslər tərəfindən həyata keçirilir. Belə bir qulluq şəraiti təsnifatlandırmanı məcburi edir.Dünya ölkələrində dövlət qulluqçuların təsnifatlandırılması, onların işə qəbulu, məvacibi və yüksəlməsi, şəxsi işi və təhsilinə görə qruplaşdırılır. Ümumiyyətlə dünyada 2 cür əsas təsnifatlandırma mövcüddur:

1. Kadr təsnifatlandırılması
2. Heyət təsnifatlandırılması

Bu iki təsnifatın əsasını heyətin və ya işin təsnifatlandırılması təşkil edir. Yəni dolayısı ilə kadr təsnifatlandırılmasında ştatların təsnifatlandırılmasından, personalda isə mövcud olan heyətin yuxarıda qeyd etdiyimiz səbəblərdən qruplara bölünməsi təşkil edir. (2. s.263)

Bərabərlik prinsipi dövlət qulluğunda hər cür ayrıseçkiliyi imtina edən prinsipdir. Bəzi ölkələr bu prinsipi təmin etməkdə çətinlik çəkirlər. Bu prinsip adətən aşağıdakı hallarda pozulur:

- partiya mənsubiyyətinə görə,
- etnik tərkibinə görə,
- dini mənsubiyyətinə görə,
- cinsinə görə,
- regional mənsubiyyətinə görə,
- maddi durumuna görə,
- qrup mənsubiyyətinə görə (ailə statusu).(8)

Bərabərliyi dövlət qulluğuna qəbulda və dövlət qulluğunda irəliləmədə təmin edilməsi əsas şərtdir. Əks təqdirdə dövlət qulluğunda psixoloji apatiya və demotivasiya hökm sürəcəkdir.

Təminat prinsipi. Dövlət qulluqçusuna prestij mənbəyi kimi baxacaq təminatlar verməlidir. Əks halda dövlət keyfiyyətli qulluqçuları cəlb etməkdə şirkətlərə uduzacaqdır və dövlət qulluqçuları heyyəti 2-ci və 3-cü sort şəxslərdən formalaşacaqdır. Dövlət qulluqçusuna özünü və ailəsini təmin edəcək miqdarda məvacib verilməlidir.(2, s.263) Həmçinin dövlət qulluqçusuna qulluqdan sonrakı həyatına normal və inandırıcı pensiya təminatı təklif etməlidir. Bunlar olmadıqda dövlət qulluqçu birinci halda qulluğa çörək ağacı kimi baxacaq (süründürməçiliklə, "rüşvət"). İkinci halda çörək ağacının qara gün üçün odun kimi doğrayıb topolanacağı olacaqdır. Üçüncüsü isə vəzifəni buraxmaq istəməz və bütün vasitələrlə vəzifədə qalmaq istəyər. Təminat - hər bir ölkənin dövlət qulluğunu sistemini saf və rasional saxlayan önəmli baza şərtlərindəndir.(9)

Tərəfsizlik prinsipi. Bu prinsip dövlət qulluğunda qulluqçunun heç bir partiyaya bu və ya digər şəkildə simpatiya və antipatiya göstərməməsidir. Dövlət qulluqçusu siyasi təsisatlarla münasibətdə lal, kar və kor olmalıdır. Dövlət qulluqçusu öz siyasi tərəfsizliyi ilə hamıya eyni məsafədə olduğunu və daha ali bir təchizata, dövlətə xidmət etdiyini göstərməlidir. Əgərə bu olmasa dövlət qulluğunda partizanlıq və siyasi patranaj hökm sürəcəkdir. Partizanlıq qulluqçunun siyasi konyukturaya xidmət etməsidir. Patranaj isə iqtidara gələn partiyanın son seçkidə onu dəstəkləməyən və ya rəqibini dəstəkləyən məmuru işdən azad etməsi, onu cəzadan azad etməsi, dəstəkləyənlərin mükafatlandırılmasıdır.(9)

Hüquqi tanınma prinsipi. Dövlət qulluğunda işləyənlərin vəziyyətini hüquqi çətir altında tutmasıdır. Bu onun bütün qulluq fəaliyyətinin normallaşdırılmasıdır. Bu elə bir normallaşdıma prosesidir ki, dövlət qulluqçusu qulluğa qəbul haqqında, qulluğa qəbuldan başlayaraq pensiyaya çıxmaq haqqında əmirə qədər bütün fəaliyyəti hüquqi anlayışlarla yaşanılmalıdır. Qulluqçu dövlət münasibətlərində keyfi davranış subyektiv seçim üçün imkan verməməlidir. Dövlətin qulluqçuya münasibətləri əsaslandırılmış olmalıdır.

Yetərli məvacib prinsipi. Yetərli məvacib prinsipi təminat prinsipinin tərkib hissəsidir, amma mühüm səciyyəvi xüsusiyyətləri

vardır. Yetərli məvacibin bir neçə şərti təmin olunmalıdır:

- Məvacib ölkənin iqtisadi vəziyyətinə mütənasib olmalıdır (onun miqdarı iqtisadi dəyişkənlərdən asılı olmalıdır, qiymətlər indeksləşdirilməlidir)
- Qulluğun şərtlərinə görə (Ucqarda xidmət, dəniz səviyyəsindən aşağıda və ya yuxarıda xidmət etmək səhətə təsir edə biləcək)
- Müharibə şəraiti, fövqəladə şərait, kriminogen vəziyyət (Məvacib differensiallaşdırılmalıdır). (3, s.455-458)

Azərbaycan Respublikasında dövlət qulluğunun hüquqi əsasını 21 iyul 2000-ci il tarixində qəbul edilmiş və 2001-ci ilin sentyabrın 1-dən qüvvəyə minmiş "Dövlət qulluğu haqqında" qanunu təşkil edir. Həmin qanunun 4-cü maddəsində isə ölkəmizdə dövlət qulluğunun hansı prinsiplər əsasında qurulduğu təsnifatlaşdırılır. Ümumi şəkildə ifadə etsək, onlar aşağıdakılardır:

1. Qanunçuqluq;
2. Hakimiyyət orqanlarının səlahiyyətlərinin müəyyənləşdirilməsi;
3. Hesabatlılıq;
4. İerarxiya və subordinasiya;
5. Dövlət qulluğuna girmənin şəffaflığı;
6. Müsabiqə əsasında qəbul;
7. Vətəndaşların hüquq bərabərliyi;
8. Sosial müdafiə;
9. Vəzifə məsuliyyəti.(1)

Beləliklə, aydın olur ki, dövlət idarəçiliyinin əsas tərkib elementi dövlət qulluğu anlayışıdır. Respublikamızda korrupsiya ilə mübarizədə atılmış silsilə addımlar bu sahədə müəyyən uğurların əldə olunmasına da gətirib çıxarmışdır. Belə ki, elektron hökümətin yaradılması, məmur-vətəndaş münasibətlərinin ən gözəl nümunəsi sayılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, qısaca "ASAN xidmət"in təsis edilməsi yuxarıda adı çəkilən uğurlarımızdandır və ölkəmizdə dövlət qulluğunun prinsiplərinə tam uyğunluğu ilə yanaşı, məmur-vətəndaş münasibətlərinə şəffaflığın gətirilməsi nəticəsində dövlət aparatının maksimum effektivliklə çalışması ilə sonlanmışdır.

ƏDƏBİYYAT

1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu
http://www.e-qanun.az/framework/4481 (19.04.2018)
2. "Dövlət idarəçilik nəzəriyyəsi", dərslik. Bakı, "Elm və təhsil", 2010. 552 səh.
3. Mehdiyev F., "İnzibati hüquq", dərs vəsaiti. Bakı, 2010. 539 səh.
4. Rzayev Ə.H. "Dövlət qulluğunun hüquqi əsasları". Bakı. "Elm". 2011. 480 səh.
5. Qəndilov S. "Heydər Əliyevin idarəçilik irsi dövlətin kadr hazırlığının əsas qayəsini təşkil edir"//"Azərbaycan" qəzeti. 2010, 22 aprel. Səh. 3.
http://www.anl.az/down/meqale/azerbaycan/2010/aprel/116269.htm (19.04.2018)
6. Mirzəbəyli İ. "Dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır".
http://www.xalqqazeti.com/az/news/politics/45825 (19.04.2018)
7. Бахрах Д.Н., "Государственная служба: основные понятия, ее составляющие, содержание, принципы"
https://tigp.wordpress.com/2010/11/06/государственная-служба-основные-пон/ (19.04.2018)
8. "Kamu hizmetine egemen olan ilkeler nelerdir?"
http://www.hukukitavsiyeler.com/2015/07/21/kamu-hizmetine-egemen-olan-ilkeler-nelerdir/ (19.04.2018)
9. "Kamu Hizmetlerine Egemen Olan Temel İlkeler"
http://notoku.com/kamu-hizmetlerine-egemen-olan-temel-ilkeler/ (19.04.2018)

Açar sözlər: *dövlət qulluğu, vətəndaş, məmur.*
Ключевые слова: *государственная служба, гражданин, чиновник.*
Key words: *civil service, citizen, official, public administration.*

РЕЗЮМЕ

В статье описывается государственная служба, которая рассматривается как основной компонент государственного управления, как концепция, так и термин. Хотя государственная служба считается неотъемлемой частью государственного аппарата, ее также рассматривает ее государственный служащий. Поскольку государственная служба является главной проблемой государственного управления, она имеет определенные принципы и критерии. Хотя каждый из этих критериев различен в разных литературе, он, как правило, выполняет одну и ту же цель.

SUMMARY

The article describes public service, which is considered as the main component of public administration, both as concept and term. While civil service is considered an integral part of the state apparatus, it is also regarded by its civil servant. Since civil service is a major issue in public administration, it has certain principles and criteria. While each of these criteria is different in different literatures, it generally serves the same purpose.